ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 2 (18)

BAKI – 2022

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya elmləri doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, professor*

**MƏSUL KATİBLƏR:**
**Vilayət İsmayılov,** *iqtisad elmləri doktoru*
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov – Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev – AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov – Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rəfail Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., professor Fəhrad Möhbalıyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.e.d., professor Qənimət Səfərov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Həmkarlar İttifaqları Hərəkatı və Sosial fənlər kafedrasının müdiri

i.ü.f.d., dosent Hicran Mirzəyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Nurəngiz Mikayılova – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə və Mühasibat uçotu" kafedrasının müdiri

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Magistratura şöbəsinin müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050) 631-57-90; e-mail:* ***jurnal@aesma.edu.az***
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur (protokol №5, 29.12.2022)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*
*Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının*
***fəlsəfə, sosiologiya və iqtisadiyyat*** *elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**Faiq Ələkbərli**
Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşlərində milli həmrəylik təlimi ............ **4**
**Rəcəbəli Əliyev**
Azərbaycan dövlətinin sosial siyasətində yaşlı əhali problemi ............................................ **21**
**Yeganə Qaraşova**
İngilis dilində modal feillərin Azərbaycan dilində ifadə vasitələri ...................................... **27**
**Rabil Mehtiyev**
Sosial və əmək münasibətləri konteksində təhsil fəlsəfəsinin transformasiyası .................. **34**
**Osman Hacıyev, Nailə Qasımova**
Multikulturalizm – mədəniyyət fəlsəfəsinin yeni inkişaf istiqaməti kimi ............................ **39**
**Sərraf Mirzəyev, Xanımbacı Cəfərli**
İngilis dilinin Britaniya və Amerika variantlarının bəzi fərqli xüsusiyyətləri ................... **49**
**Şəhla Abdullayeva**
Sosial-mədəni fenomen kimi modanın elmi tədqiqi ........................................................... **60**
**Tamilə Həsənova**
2022-ci il – Şuşamızın ilidir! ................................................................................................ **67**
**Mehriban Səfərova**
İngilis dilinin Amerika variantının lüğət tərkibinin xüsusiyyətləri ..................................... **74**
**Göyərçin Kərimi**
Diqqətin metafizikası ............................................................................................................ **79**
**Könül Salmanova**
İnsanın fəaliyyətində dəyərlər sisteminin rolu .................................................................... **90**

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**Vilayət İsmayılov**
Beynəlxalq turist axınının məşğulluğa təsiri aspektləri ...................................................... **97**
**Əvəz Bayramov, Vüqar Bayramov**
Etnoiqtisadiyyat: mahiyyət özəllikləri və yeniləşmə spesifikası .......................................... **109**
**Nərminə Abbasova, Səbinə Sadıqova**
Müstəqillik dövründə Azərbaycan sənayesinin inkişafı ...................................................... **124**
**Pərvin Soltanlı, Sadiq Həsənli**
Azərbaycanda əmək bazarı, tələblər və ziddiyyətlər ........................................................... **131**
**İashar Gasimovi, Əsgər Əliyev**
Quba-Xaçmaz iqtisadi rayonunda turizmin inkişaf .............................................................. **141**
**Asiman Mansırlı**
Ərzaq təhlükəsizliyi məsələləri ............................................................................................ **152**
**Əlövsət Ağayev, Yadulla Həsənli**
İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf perspektivləri ....................... **160**

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT 1(091)**

**Faiq Ələkbərli**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
fəl.f.d., dosent
*faikalekperov@mail.ru*
*http://orcid.org/0000-0002-8865-568x*

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SOSİAL-FƏLSƏFİ GÖRÜŞLƏRİNDƏ MİLLİ HƏMRƏYLİK TƏLİMİ

*Məqalədə solidarizm cərəyanının Avropada hansı səbəblərdən yaranmasından və onun Azərbaycan Türk mütəfəkkiri, dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə tərəfindən Milli həmrəylik kimi formulə edilməsindən bəhs olunmuşdur. İlk növbədə, burada Fransada liberalizmlə kommunizmə alternativ və barışdırıcı mövqedən çıxış edən solidarizmin mahiyyəti göstərilmişdir. Solidarizmin elmi-nəzəri əsaslarını cəmiyyətə bir bütöv kimi yanaşan fransız mütəfəkkiri Ouguste Kont ortaya qoysa da, ancaq elm dünyasında bu cərəyanın banisi fransız sosioloqu Emil Dürkheym hesab olunmaqdadır. Məqalədə fransız solidarizminin alman solidarizmi arasındakı fərqləri, eyni zamanda bu cərəyanın Türk-İslam dünyasında, o cümlədən Türkiyə və Azərbaycanda milli xüsusiyyətləri tədqiqata cəlb edilmişdir. Osmanlıda solidarizm Milli iqtisad və Milli təsanüdçülük anlayışları altında yayılaraq əsas baxış ondan ibarət olmuşdur ki, tüklər qədimdə nail olduqları paylaşma, yardımlaşma, dayanışma kimi iqtisadi fəlsəfəyə yenidən geri dönməlidirlər.*

*Məqalədə M.Ə.Rəsulzadənin solidarizm baxışları, onun milli həmrəylik təlimi hərtərəfli şəkildə tədiqi olunmuşdur. Onun burada solidarizmlə bağlı fransız, alman, ingilis mütəfəkkirlərini dərindən tədqiq etməsi geniş şəkildə göstərilmişdir. Rəsulzadəyə görə yeni dövrdə ingilislər arasında ortaya çıxıb fransızlarda inkişaf edən hürriyyət, müsavilik fikirləri çox keçmədən Avropada liberalizm (siyasi liberalizm, iqtisadi liberalizm və s.) cərəyanının yaranmasına səbəb olmuşdur. Xüsusilə də, Kant, Hegel, Kont, Spenser bəşəriyyətin yaxın gələcəkdə sosial bərabərlik içində xoşbəxt yaşayacağı mülahizəsinə daha nikbin yanaşmışlar. Məqalədə göstərilir ki, Rəsulzadə liberalizmin ortaya qoyduğu kommunizmi, eyni zamanda bundan sonrakı mərhələdə kommunizmlə liberalizm arasındakı ziddiyyətləri doğru görə bilmişdir. O, kommunizmlə liberalizm arasında ən doğru mövqe tutan solidarizmin yerli forması kimi milli həmrəylik təlimini irəli sürmüşdür. Milli həmrəylik təliminin əsasında isə yalnız milli dövlət deyil, eyni zamanda sosial dövlət olmaq da mühüm yer təşkil etməkdədir. Məqalədə göstərilir ki, Rəsulzadə milli dövlətlə sosial dövlətin uzlaşdırıcı tərəflərini ortaya qoymaqla, müstəqil Azərbaycan dövlətinin modelini də irəli sürmüşdür. Onun milli həmrəylik təlimi özünməxsusluğu ilə seçilib, burada nə mütləq kommunizmə, nə də mütləq liberalizmə yer olmamışdır. Eyni zamanda, Rəsulzadənin milli həmrəylik təlimi bəşəri xarakter daşıyaraq burada istənilən radikal millətçilik elementlərindən də uzaq durulmuşdur. Beləliklə, Rəsulzadə milli dava ilə sosial mübarizəni eyni müstəvidə götürməklə, Azərbaycan türklərinin qarşısında yeni bir yol açmışdır.*

***Açar sözlər:*** *Liberalizm, Kommunizm, Solidarizm, Təsanüdçülük, Milli həmrəylik, Milli sosial dövlət*

**Giriş**

Solidarizm 19-cu əsrin ikinci yarısında meydana çıxıb, onun ilk elmi-nəzəri əsaslarını fransız mütəfəkkiri Ouguste Kont ortaya qoymuşdur. Ancaq elm dünyasında bu cərəyanın banisi fransız sosioloqu Emil Dürkheym hesab olunur ki, buna səbəb də onun solidarizmi hərtərfəli əsaslandırmasıdır. Bütün bunlarla yanaşı, burada fransız solidarizmi ilə alman solidarizmi arasındakı fərqlər, eyni zamanda bu cərəyanın Türk-İslam dünyasında, o cümlədən Türkiyə və Azərbaycanda özünə hansı şəkildə yer tapması da diqqətimizi çəkməkdədir. Osmanlıda solidarizm Milli iqtisad və Milli təsanüdçülük anlayışları altında yayılaraq əsas baxış ondan ibarət olmuşdur ki, türklər qədimdə nail olduqları paylaşma, yardımlaşma, dayanışma kimi iqtisadi fəlsəfəyə yenidən geri dönməlidirlər.

Azərbaycanda solidarizm cərəyanının tanınmış siması, milli həmrəylik təliminin banisi Məhəmməd Əmin Rəsulzadənin də kommunizmə (sosializmə), liberalizmə və onlardan törəyən ifrat təlimlərə qarşı milli təsanüdçülük, ya da milli həmrəylik təlimini irəli sürməsi təsadüfi olmamışdır. Çünki solidarizm bir tərəfdən milli-dini xüsusiyyətləri tamamilə aradan qaldırmağı qarşısına məqsəd kimi qoyan kommunizmə, digər tərəfdən isə cəmiyyətdəki sosial bərabərliyi hətta, nisbi şəkildə də belə olsa təmin edə bilməyən, bunun müqabilində fərdiyyətçiliyi ön planda tutan kapitalizmə qarşı yönəlmişdi. Rəsulzadənin milli həmrəylik təliminin əsasını həm sosial bərabərliyi təmin etmək üçün mümkün yollar axtarmaq, həm də milli və dini xüsusiyyətləri qoruyub saxlamaq təşkil etmişdir. Hər halda milli və dini xüsusiyyətlərdən kənarda tamamilə kosmopolit bir cəmiyyəti ortaya qoymaq nə qədər təhlükəlidirsə, eyni zamanda sosial bərabərliyi, sosial ədaləti gözləmədən milli dövlətə sahiblənmək bir o qədər zərərlidir.

**Solidarizm təliminin mənşəyi: fransız solidarizmi**

20-ci əsrin ilk yarısında dünyada ən tanınmış cərəyanlar sosial-demokratizm, demokratizm, liberalizm idi ki, bu cərəyanların həm sinfi məsələyə, dövlətə, həm də milli-dini dəyərlərə münasibətdə ziddiyyətli, antoqonist mövqe tutması üçüncü bir nəzəriyyənin, yəni hər iki təlimə alternativ olan solidarizmin meydana çıxmasına səbəb oldu.

Solidarizmin ilk elmi-nəzəri əsaslarını irəli sürən fransız mütəfəkkiri Ouguste Kont “Pozitiv fəlsəfə kursları” və digər əsərlərində cəmiyyəti siniflərə bölmədən bir bütün olaraq tədqiq etmişdir (Meriç 2013, 478). Kontun ideyalarını davam etdirən digər fransız sosioloqu Emil Dürkheym bir tərəfdən Marksın cəmiyyətlər daxilindəki problemin səbəbini siniflərarası ziddiyyətlərdə görməsini doğru hesab etməsə də, digər tərəfdən kapitalistlərin israrla önə sürdüyü “siniflərarası rəqabət inkişafa aparır” mülahizəsi ilə də razılaşmamışdır. Onun fikrincə, hər iki tərəf cəmiyyət daxilndəki problemləri tamamilə fərqli mənalara yozmaqla milli həmrəyliyi zədələyərək müxtəlif sosial könfliktlərə yol açmış olurlar. Dürkheym sübut etməyə çalışırdı ki, cəmiyyətin strukturu əməyin bölgüsü ilə şərtlənmişdir və bu anlamda siniflərin olmasına təbii yanaşmaq lazımdır. Başqa sözlə, proletariatlar və kapitalistlər bir yerdə varlığı təbiidir və onlar ictimai istehsal sistemində həmrəyliklə işləməlidirlər (Dürkheym 2010, 63). Dürkheymə görə, Kontun insan toplumlarının irəliləyişini, “ayrı-ayrı toplumlarda” görülən və ardı ardına gələn bütün dəyişimləri fikrən əhatə edə biləcək bir bütün irəliləmə olaraq görməsinin altında yatan şey onun bu toplum növləri fikrinin varlığını görməyi bacarmamasıdır (Dürkheym 2010, 165).

Yeri gəlmişkən, Kont və Dürkheymdən öncə hələ, Jan Jak Russo “İctimai müqavilə” (“Toplum sözləşməsi”) əsərində cəmiyyətin ortaq çıxarları ilə bağlı bəzi mülahizələr irəli sürmüşdür. Onun fikrincə, dövlət naminə heç bir fərd sinfi ayrı-seçkilik salıb yaxasını kənara çəkməməlidir. Başqa sözlə, hə hansı fərdi və sinfi çıxarlar üçün dövləti təhlükədə qoymaq yolverilməzdir (Russo 2011, 126). Russo hesab edirdi ki, yalnız toplum sözləşməsi ilə

cəmiyyəti bir bütün kimi ortaya qoyub dövləti də qanunlar çərçivəsində idarə etmək mümkündür. Onun fikrincə, sinif ayrı-seçkiliyi qoymadan toplum halında birləşmək dünyanın hər bir xalqının istəyidir (Russo 2011, 141-142).

Həmin dövrdə bir tərəfdən sosializmə, digər tərəfdən kapitalizmə alternativ nəzəriyyə olan solidaizmlə bağlı 1890-cı ildə Parisdə “Sosial tərbiyə konqresi” keçirldi və 1891-ci ildə isə Sosial elmlər nəzdində “Həmrəylik fəlsəfəsi” üzrə xüsusi kurslar təşkil olunmuşdu. Yenə də fransız mütəfəkkirlərindən olan L.Burjuanın 1897-ci ildə yazdığı “Həmrəylik” əsərində isə Kontun, Dürkheymin mütləq fərdiyyətçiliyin, mütləq kommunizminin əleyhinə olan solidarist mülahizələri inkişaf etdirilmişdir.

**Alman solidarizmi və milli sosial-patriotizm**

19-cu əsrin ikinci yarısında, 20-ci əsrin əvvəllərində solidarizm təlimi Almaniyada Fridrix List, Ferdinand Lassal, Avgust Bebel, Eduard Bernşteyn, Karl Libknext və başqaları tərəfindən də geniş təbliğ olunmuşdur.

Hələ, 19-cu əsrin 40-cı illərində alman iqtisadçısı, siyasətçisi, alman burjuaziyasının görkəmli ideoloqi Frisdrix List marksizmdən fərqlənən yol tutmuşdur. Alman siyasi iqtisad tarixi məktəbinin əsasını qoyan List “Milliyyətçi iqtisad sistemi”ni irəlü sürmüşdü. Ancaq Almaniyada solidarizmin tanınmış ilk siması hesab olunan Ferdinand Lassal “Qazanılmış haqlar sistemi”, “İtaliyan savaşı və Prusiyanın vəzifələri: Demokratiyanın səsi”, “Qanuni sistemlər üzərinə” və başqa əsərlərində Marksın inqilabçılığına qarşı çıxaraq mövcud dövləti dağıdıb yenidən proletariat dövləti yaratmaqdansa, Hegel kimi dövlətçiliyə sadiq qalmağa üstünlük vermişdi. Dövləti inkar deyil, qəbul edən Lassala görə dövlət bir sinfin digər siniflər üzərindəki ağalığından ibarət deyil, cəmiyyətin idarəçiliyinə yarayan, siniflər üstü bir qurumdur.

Listlə Lassaldan sonra A.Bebel, E.Bernşteyn və K.Libknextin alman vətənpərvərliyindən, milli hisslərindən bəhs etmələri sosial-patriotizmi ortaya qoymağa başlamışdır. Onlar Marksın hər növ (milli, dini və b.) xüsusiyyətləri məhv edən internasionalizminə müqabil reformizm və sosial-patriotizmdə insanın öz vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs edirdilər. Məsələn, Avgust Bebel “Qadın və sosializm”, “Nəzəriyyədə və praktikada” əsərlərində milli sosialist kimi çıxış etmiş, alman solidarizmini, alman patriotizmini müdafiə etmişdir. O, həmin əsərində ictimai mülkiyyətlə (kommunizm) xüsusi mülkiyyəti (kapitalizm) qadın (ananın) və kişinin (atanın) timsalında dəyərləndirmişdir. Bebelə görə analıq hüququnun keçərliliyi kommunizm anlamına, hər kəsin bərabərliyini anlamına gəldiyi halda. atalıq hüququnun doğuşu özəl mülkiyyətə daha çox uyğundur(Bebel 2011, 65). Onun fikrincə, indiyə qədər qadınları öz tabeliyində saxlayan kişilər, xüsusilə də işçi kişilər proletariatın kapitalistlərlə mübarizəsində qadın əməyinə ehtiyac duyduqları üçün onlara müəyyən güzəştlərə getmək məcburiyyətindədirlər (Bebel 2011, 139).

**Osmanlı təsanüdçülüyü: Yusif Akçura, Tekin Alp və Ziya Gökalp**

19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Avropa ölkələrində, o cümlədən Osmanlıda, çar Rusiyasında və müəyyən qədər də Qacarlarda əhəmiyyətli dərəcədə genişlənən solidarizm kapitalizm və sosializm, ya da liberalizm və kommunizm arasında orta xətt tutmaqla üçüncü bir ideya xəttini təklif edirdi.

Osmanlıda solidarizm Milli iqtisad və Milli təsanüdçülük anlayışları altında yayılmış, onun buradakı tannınmış tərəfdarları Musa bey Akyiğitoğlu, Mehmet Şerif Efendi, Namık Kemal, Ahmet Midhat Efendi, Yusuf Akçura, Tekin Alp, Ziya Gökalp və başqaları olmuşdur (Sağlam 2004, 87). Məsələn, Ahmet Midhat Efendi “Ekonomi politik” əsərində Milli iqtisadla bağlı olan “himayəçilik” düşüncəsindən bəhs etmişdir. Midhat Efendinin sistemləşdirməyə

çalışdığı milli iqtisad siyasətinin əsas şüarı “daxili sənayenin mühafizəsi yolu” olan himayəçilik idi (Midhat 1879, 106-128).

Həmin dövrdə Osmanlıda yaşayan Yusif Akçura isə hesab edirdi ki, türklərin əsas çıxış yolu kimi orta sinifin, ya da Türk burjuaziyasının yaradılmasıdır. Şübhəsiz, onun orta sinif, ya da Türk burjuaziyası kimi gördüyü təbəqə daha çox milli həmrəyliyə, milli iqtisadçılığa uyğun gəlirdi (Akçura 1915,179). Osmanlı mütəfəkkirlərindən Tekin Alp isə 1916-cı ildən başlayaraq nəşr olunan “İqtisadiyyat məcmuəsi”ndə türkçülüyün iqtisadi cəbhəsi üzərində dayanmış, “Yeni Məcmuə”də isə “Təsanüdçülük” başlığı altına sislsilə məqalələrlə çıxış etmişdir. Sərdar Sağlama görə Alpın bu məqalələrində “solidarizm” cərəyanı və “milli iqtisad” prinsipləri günün iqtisadi, sosial və mədəni şərtləri içərisində müzakirə olunurdu (Sağlam 2004, 88). Alp solidarizm, yaxud təsanüdçülüyün sosializm və kapitalizmin ifratçılıqlarından sıyırılmış bir “qalxınma ideolojisi” olduğu üçün “sinif münaqişələrinə” qarşı bir tədbir olacağını düşünürdü” (Alp 1918, 335-337).

Ziya Gökalpın “Milli itqisadi” görüşlərinin isə iki qaynağı: 1) “fransız solidarizmi”, 2) Friedrich Listin “Milliyyətçi iqtisadi sistemi” var idi. Gökalpın “fransız solidarizmi”ni mənimsəməsində Emil Dürkheymin sosioloji görüşləri mühüm rol oynamışdır. O da, Dürkheym kimi hesab edirdi ki, cəmiyyət funksional açıdan biri-birinə bağlı parçalardan yaranan bir bütündür, parçalar bir-birlərilə uyumlu və təsanüd (həmrəylik) içindədirlər. Həmrəyliyin təməlində isə korporasiyalar və məslək qrupları dayanır (Sağlam 1996, 87). Təsanüdçülüyün əsas amalı sinif münaqişəsinə son vermək, hər kəsə bərabər tərbiyə və iş imkanları saxlamaqdır ki, Gökalpa görə bu hədəfə çatmaq üçün, çağdaş millətlərin bölündüyü sinifləri ortadan qaldırmalı, onların yerinə məsləki təşəkkülləri ortaya qoymaq lazımdır. Onun fikrincə, bu təşəkkülər xalq arasında həmrəyliyi saxlayacaqdır. Deməli, Gökalp milli təsanüdü gücləndirmək üçün “məslək”ləri önə çəkmişdir. Ona görə “məsləki təşkilatlar”ın faydası həm cəmiyyəti bir bütün halına gətirmək, həm də ortaq yardımlaşmanı, paylaşmanı ifadə etmək idi (Gögalp 1976, 150-151).

Gökalp “Türkçülüyün əsasları” əsərinin “İqtisadiyyatda türkçülük” bölümündə yazırdı ki, tüklər qədimdə nail olduqları paylaşma, yardımlaşma, dayanışma kimi iqtisadi fəlsəfəyə yenidən geri dönməlidirlər. O, yazırdı ki, türklər azadlığı sevdikləri üçün kommunist ola bilmədikləri kimi, ancaq bərabərçiliyi sevdiklərinə görə fərdiyyətçi kimi də qala bilməzlər. Deməli, türk kültürünə ən uyğun solidarizm, yəni həmrəyçilikdir. Gökalpa görə türklərin ictimai ülküsü (məfkurəsi) şəxsi mülkiyyəti ortadan qaldırmadan ictimai sərvətləri fərdlərə qəsb etdirməmək və bu sərvətləri ümuminin xeyrinə sərf etmək məqsədi ilə saxlamaq və artırmaqdan ibarətdir (Gökalp 1991, 130-131).

**M.Ə.Rəsulzadənin milli həmrəylik baxışlarının təşəkkülü**

1920-ci illərin ortalarından etibarən solidarizm məsələsinə əsaslı şəkildə müraciət edən Rəsulzadənin yaradıcılığında milli həmrəylik təlimi daha da önəmli ter tutmuşdur. Məsələn, o, 1926-ci ildə İstanbulda verdiyi iki konfransda inqilabi sosializmlə mütləqçi liberalizmin oxşar və fərqli cəhətlərini müqayisə etməyə çalışmışdır. Onun məruzələrinin əsasında inqilabi sosializmin nədən iflasa uğraması, eyni zamanda liberalizmdən çox demokratiyanın (daha çox da milli demokratiyanın) vacibliyi və burada da milli həmrəylik təliminin əhəmiyyətini izah etmək dayanmışdır (Resulzade 2017, 338). “İnqilabi sosializmin iflası” məruzəsində “Dünya cənnəti məfkurəsi”nə aydınlıq gətirməyə çalışan Rəsulzadə bu məsələyə öz əsərlərində müəyyən yer vermiş Russo, Kant, Hegel, Kont, Spenser, Marksın və başqa mütəfəkkirlərin düşüncələrinə yer vermişdir (Rəsulzadə 2016, 345). Rəsulzadəyə görə xüsusilə də, Kant, Hegel, Kont, Spenser bəşəriyyətin yaxın gələcəkdə sosial bərabərlik içində xoşbəxt yaşayacağı mülahizəsinə daha nikbin yanaşmışlar. O, yazırdı: “Başqa əsaslar və ifadələrlə olsa da, Kont

dəxi bəşəriyyətin istiqbalını eyni qətiyyət və nikbinliklə müdafiə eləmişdir. Müsbət fəlsəfənin müəssisi “bəşəriyyətin mümtaz qiami təbiətə ən ziyadə uyan ictimai intizam dövrünün hüsuluna yanaşmaq üzrə bulunuyor” deyə müntəzirləri təsəlli etməkdədir. Bunun üçün filosof hər şeydən əvvəl, fikir və mühakimələrin fünuni-müsbətə əsası üzərinə tövhidini tələb ediyor; fikir və mühakimələrdəki anarşiyi bərtərəf etməyə lüzum görüyordu. Konta görə bəşəriyyət Russo, Kant və Hegeldə olduğu kimi hüququn mütəkamül şəkillərni tətbiq etməklə deyil, elm və fənnin sözgötürməz həqiqətlərinə tabe olmaqla nicat bulacaqdır” (Rəsulzadə 2016, 346).

Daha sonra Marksla Engelsin elmi sosializmini, ya da kommunizm idealını təhlil edən Rəsulzadəyə görə onların birgə yazdıqları “Kommunist manifesti”ndə məzlumların zalımları devirməsi ilə dünyanın bir gün cənnətə çevriləcəyi ideyası ən qüvvətli, məntiqli səviyyədə ifadə olunmuşdur (Rəsulzadə 2016, 351). Ancaq marksizmə görə proletariatın kapitalizm üzərində qələbəsindən sonra yalnız ailə, milliyyət, din, sinfi məsələlər deyil, eyni zamanda vətən, dövlət və mülkiyyət anlayışları da aradan qalxacaq idi. Şübhəsiz, bu cür yanaşma Russonun, Hegelin baxışlarının tam tərsi idi. Rəsulzadə hesab edirdi ki, marksizmin bu cür tutumuna qarşı Russonun (“İctimai müqavilə”), Hegelin (“Dövlətin təntənəsi”) ideyalarını Almaniyada ən yaxşı davam etdirən Ferdinand Lassal olmuşdur. (Rəsulzadə 2016, 353).

Lassalın dövlətin missiyası ilə bağlı irəli sürdüyü mülahizələri qəbul edən Rəsulzadənin fikrincə, dövlətin əsas vəzifəsi bir tərəfdən insanların azadlıqlarını təmin etmək, digər tərəfdən isə fərdlərin birləşdirilməsi, onların müsbət xassələrinin aşkar edilməsidir. Ən əsası da odur ki, dövlətləri yıxmaq deyil, onları təkamül əsasında inkişaf etdirmək və sosial ədalətli cəmiyyətlər təşkil etməkdir. Rəsulzadə hesab edirdi ki, marksizmin irəli sürdüyü sosial inqilabın (marksist iniqlabçılar) baş verməsi gününü gözləmək, bunun üçün də fəhlələrin qulaq-başını doldurmaq əvəzinə, ən yaxşısı dövlətin sosial islahatlar həyata keçirməsinə (Russoya, Hegelə əsaslanan Lassalyanizm- təkamülçülər) təkan vermək idi. Rəsulzadə yazırdı: “Lassal ruhunu idealizə edən alman sosialistləri, mövcud inqilab günü uzaqlaşdıqca “Manifest”in firqə proqramında tarixə və keçmişə hörmətən sadə bir bəyannamə rolu oynadığına qane olmuş “Manifest” ilə bərabər “Kapital”ın belə ortaya qoyduğu qəti üqnumları tədqiqi və təhqiqinə lüzum görmüşlərdir. Bernşteyn tərəfindən təmsil olunan bu təqlidçiliyə Almaniya sosializm tarixində “reviziyonizm” deyilir. Reviziyonizm sinif mücadiləsinin əhəmiyyətini idrak etməklə bərabər, bunun Marksda olduğu kimi qəti və mütləq bir qiyməti haiz olmadığını iddia eləmiş, sinfi mənfəətlərini müdafiə etməklə bərabər əmələnin milli mənafe naminə dövlət daxilində digər siniflərlə təşriki-məsai edə biləcəyi ilə, sinif təsanüdünə dəxi mənfi bir nəzərlə baxmamaq lazım gəldiyini irəli sürmüş; eyni zamanda kapitalizm inkişafının Marksın iddia etdiyi vəchlə mütləqa sosializm inqilabına aid olacağı qəziyyəsini dəxi şübhə altına almışdır” (Rəsulzadə 2016, 357-358).

Beləliklə, alman sosialistlərin (Lassal, Bernşteyn, Bebel və b.) zamanla sinfi həmrəyliklə yanaşı milli solidarizmdən bəhs etmələri marksizm üçün ciddi zərbə olmuşdur. Xüsusilə də, Lassaldan sonra Bernşteyn, Bebel və Libknextin Almaniya vətənpərvərliyindən, alman milli hisslərindən bəhs etmələri sosial-patriotizmi, ya da milli solidarizmi ortaya qoymağa başlamışdır. Rəsulzadə hesab edirdi ki, onlar Marksın hər növ xüsusiyyətləri məhv edən internasionalizminə müqabil reformizm və sosial-patrotizmdə insanın öz vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs edirdilər (Rəsulzadə 2016, 359).

Alman sosioloqlarının bu fikirlərinin az sonra digər xalqlar arasında yayıldığını deyən, Rəsulzadəyə görə 1-ci Dünya müharibəsi dövründə və ondan sonrakı dövrdə də Rusiya təcrübəsi istisna olmaqla, Avropa ölkələrində inqilabçı sosializmdən daha çox sosial islahatçılıq, milli demokratiya fikirləri geniş yayılmışdı. O, yazırdı: “Bu yolun çata biləcəyi müxəyyül aqibət şəxsin mümkün olduğu qədər daha hürr, daha sərbəst, daha mütəkamil bir vücud olmasıdır. İnsandakı fərdi məziyyət və nöqsanların əksəriyyətlə mühit və cəmiyyətdən

alınan xislətlər olduğunu nəzərə alırsaq, insan cəmiyyətlərinin milliyyət və demokrasi əsaslarında hürr və müstəqil olmalarının cahan tarixindəki rolunu həqqilə anlar, milli dövlət məfkurəsinin ülviyyət və xəllaqiyyətini bütün vücudumuzla hiss və əqlimizlə dərk edəriz!” (Rəsulzadə 2016, 368).

Dahi mütəfəkkirimiz bu məqaləsində əsil bir sosioloq-mütəfəkkir kimi öz mülahizələrini ortaya qoymaqla yanaşı, milli həmrəylik təliminin mahiyyətini əsaslandırmağa çalışmışdır. “İnqilabi sosializmin iflası” məqaləsinin davamı kimi az sonra məruzə etdiyi “Demokratiyanın gələcəyi” mövzusunda isə, Rəsulzadə artıq milli həmrəylik təliminin əsil mahiyyətini aydınlaşdırmağa xeyli dərəcdə yaxınlaşmışdır. Bizcə, “Demokrasinin gələcəyi” məqaləsində o, bir tərəfdən bərabərliyi (müsaviliyi), digər tərəfdən isə solidarizmi (həmrəylik fəlsəfəsini) təsadüfən izah etməyə çalışmamışdır. Hər halda Rəsulzadənin demokratiyanın əsas təməl prinsipləri ilə bağlı yazdıqları bunun bariz örnəyidir: “Məlum olduğu üzrə demokrasiyi təşkil edən üç mühüm əsas vardır. Bunlardan birincisi hürriyyət, ikincisi müsavat, üçüncüsü də hakimiyyəti-milliyyə əsaslarıdır. Demokrasi bu üç əsasın tərkibindən hasil olma mənzumədir” (Rəsulzadə 2016, 372).

Rəsulzadə hesab edir ki, müsavat prinsipinin mütləq və mücərrəd surətdə tətbiqi də bizi əsil məqsədə çatdırmır. Belə ki, müsavatın mütləq surətdə tətbiqi hürriyyət məhfumu ilə təzad təşkil edir. Ona görə yeni dövrdə ingilislər arasında ortaya çıxıb fransızlarda inkişaf edən hürriyyət, müsavilik fikirləri çox keçmədən Avropada liberalizm (siyasi liberalizm, iqtisadi liberalizm və s.) cərəyanının yaranmasına səbəb olmuşdur.Rəsulzadə yazırdı: “Sənai inkişaf dövrünə girən Avropanın 19-cu əsrin ilk yarısında və əqllərə heyrət verəcək bir tərzdə zühur edən tərəqqiyyatında hürriyyət fikri ilə fərdiyyət məbdəinin heç şübhəsiz, çox böyük təsiri olmuşdur. Fəqət hürriyyət fikrinin iqtisadiyyata tətbiqi ilə səri surətdə inkişaf edən Avropa sənayesi kiçik sənaye dövrünü atlayaraq böyük sənaye dövrünə keçincə hürriyyət fikrinin iqtisadi və sənai fəaliyyətinin hər sahəsində faydalı olub olmayacağı düşünülməyə başlanılmış, gündən-günə şiddət kəsb edən sinif ixtilaflarının tənzimi üçün hökumətin iqtisadi fəaliyyət sahəsinə müdaxilə edərək ictimai müvazinəyi təminə məcbur olduğu qənaəti hasil olmuşdur. Daha ziyadə liberalizmin müqabili sosializm məsləki zühur eləmişdir” (Rəsulzadə 2016, 376).

Rəsulzadəyə görə sosializm meydana çıxana qədər əgər liberallar daha çox bütöv cəmiyyəti deyil ayrı-ayrı azad fərdləri müdafiə edirdilərsə də, sosialistlər isə tam əksinə azad fərdləri bir kənara qoyub sistematik cəmiyyəti, yəni kollektivçiliyi əsas kimi görüblər. Üstəlik, sosialistlər iddia ediblər ki, dünyada mövcud olab bütün ədalətsizliklərin, haqsızlıqların əsas səbəbkarı iqtisadi liberalizm və fərdiyyətçilikdir. O, yazırdı: ““Liberallar “cəmiyyətə qarşı fərd” şüarını müdafiə edərəkən bunlar münhəsirən cəmiyyəti iltizam və kollektivizmi tərvic ediyorlar. Hal-hazırda Rusiyadan başqa, kollektivizmi tətbiq təcrübəsini icra edən bir məmləkət yoxsa da, ictimai və iqtisadi münasibətləri tənzim üçün fərdi hürriyyəti təhdid edən hökumət tədbirlərinin Avropada və Amerika məmləkətlərinin çoxunda ittixaz olunduğunu irəlidə bütün təfsilatı ilə görəcəyiz. Bu gün hürriyyəti-şəxsiyyə və mülkiyyət prinsiplərinə qiymət verməklə bərabər, bilxassə iqtisadi fəaliyyətdə fərdiyyətçiliklə cəmiyyətçiliyi təlif və tərkib edən təsanüdüçülk nəzəriyyəsi xeyli dərəcədə qüvvətlənmişdir” (Rəsulzadə 2016, 376-377).

Mütəfəkkirin fikrincə, sosialist cərəyanlarla liberalist məsləklər arasında qalan demokratiyanın bundan çıxış yolu kimi yeni bir təlim ortaya qoyması lazım gəlirdi. Çünki hər iki cərəyan arasında müsbət cəhətlərlə yanaşı neqativ xüsusiyyətlər olduğu üçün, yeni bir məsləkin ortaya çıxmasına inanların görüşü də var idi. Rəsulzadə yazırdı: “Bu görüş sayəsindədir ki, müasir cəmiyyətin ahəngini təmin edən əsas bulundu. Təsanüdçülük (solidarizm) məsləki rəvac buldu. Təsanüdçülük liberalizm kimi mülkiyyət əsasına hörmət edər, yalnız ona qüdsiyyət payəsini verməz. Cəmiyyətin mənafeyi iqtiza etdiyi zamanlarda mülkiyyət həqqinin təhdidini və dövlətcə şu həqqi kullanmaq tərzinin təyinini zəruri görür. O, fərdiyyətçiliklə

cəmiyyətçiliyin arasına təlif edər. Bu gün demokrasi məslələri arasındakı hakim cərəyan da budur: təsanüdçülükdür. Demək ki, dünki liberalizm əsası üzərinə qaim olan demokrasi fikri bu gün solidarizm (təsanüdçülük) sisteminə doğru getməkdədir. Fransa inqilabı əsnasında hakim olan demokrasi fikri fərdin hökumətə qarşı hürriyyətini təmin etmək hədəfinə mütəvəcceh idi; müasir demokrasi zehniyyəti isə yalnız fərdi deyil, zümrəvi mənfəətlərin də təminini düşünmək məcburiyyətindədir” (Rəsulzadə 2016, 377-378).

Rəsulzadəyə görə, fərdi hürriyyətin mütləq şəkli ilə ictimai hakimiyyətin mütləqiyyəti arasında təsanüdüçülk-həmrəylik ən doğru yoldur, çünki solidarizmdə həm fərdin azadlıqları, həm də siniflərin istəkləri demokratiya, hüquq çərçivəsində nəzərə alınır. Bu baxımdan da, təsanüdçülük yalnız demokratik quruluşda, hüquqi dövlətdə gerçəkləşə bilər. Başqa sözlə, qeyri-demokratik, yəni avtoritar, totalitar, hərbi diktatura, teokratik kimi quruluşlarda həmrəylik-solidarizm mümkün deyildir. O, yazırdı: ““Siyasi relatizm”ə təhəmmül etməyən hər hansı sistemdə təsanüdçülüyün bu xüsüusiyyətləri (yəni fərdin azadlığını və siniflərin istəklərini bərabər şəkildə gerçəkləşdirməsi – F.Ə.) bütün qüvvətilə inkiaf etməkdən məhrumdur. İqtisadiyyat sahəsindən siyasət sahəsinə keçərsək, hüquqi hürriyyətin də yalnız bu sayədə ahəngdar bir mənzumə təşkil edəcəyini həmən hiss edərik. Şöylə ki, hər hansı cəbhədən baxarsaq, demokrasi ilə hüquq arasında sıx və çox səmimi bir əlaqə buluruz... Demokrasi ilə hüquq – çox məruf bir təriqə görə - bir sikkənin iki üzüdür. Hüququn gələcəyi olduğu kimi, demokrasinin də gələcəyi əmindir. Hüququn gələcəyi zavala məhkum olmadığı kimi, demokrasinin istiqbalı da məchul deyildir. Demokrasi məhkum zaval isə, hüquq fikrinin də inqirazını bəkləməliyiz. Bu isə süfla ünsürlərin zəfəri və hüquqi mədəniyyətin inqirazı deməkdir. İnsaniyyətin gələcəyinə və mədəniyyətin zəfərinə inananlar üçün demokrasinin də inkişafına inanmaq bir zərurətdir” (Rəsulzadə 2016, 380-381).

Rəsulzadəyə görə demokratiya ilə yanaşı hüquq da solidarizm üçün çox önəmlidir. Çünki millətə, cəmiyyətə aid hüquqla fərdin hüququ arasında uzlaşdırmanın olması təsanüdçülüyün əsas prinsiplərindən biridir. Onun fikrincə, hazırda nəinki zor gücünə qurulmuş sosialist cəmiyyətlərdə, heç liberal-demokratik toplumlarda da hüququn bu iki xüsusiyyəti arasında uzlaşdırmanı istənilən şəkildə reallaşdırmaq mümkün olmamışdı. (Rəsulzadə 2016, 383). Ona görə demokratiya hər şeydən əvvəl müəyyən bir fikri mənzuməsidir ki, burada fərdin hüquqları, azadlıqları nəzərə alınmaqla cəmiyyətin hüququ, onun milli varlığı da qorunmalıdır. Bu baxımdan demokratik dövlətlərdə yalnız fərdin hüquqları düşünülməməli, eyni zamanda ayrı-ayrı fərdlərdən təmsil olunan cəmiyyətin bütünlüyünü də nəzərə almaq lazımdır. Eyni zamanda, fərdiyyətçilik və liberalizm dövründən sonra ortaya çıxan zümrə təşəkküləri, məslək təbəqələri məsələsinə hüquqi müstəvidə yanaşmaq vacibdir. Rəsulzadənin fikrincə, əslində 20-ci əsrin əvvəllərində yalnız ifrat cəmiyyətçiliyin deyil, eyni zamanda Avropada parlamentarizmin böhrana düşməsində də, liberalizmin doğurduğu sosial təbəqələşmə mühüm rol oynamışdır (Rəsulzadə 2016, 395-396).

Beləliklə, Rəsulzadə belə bir fikrə gəlirdi ki, indivudalizm (fərdiyyətçilik) və universalizm (külliyyət) arasındakı məsələdə ən doğru yol təsanüdçülüklə, ya da həmrəyliklə bağlıdır. Çünki yalnız solidarizmdə həm fərdin, həm də ümuminin maraqlarına cavab vermək mümkün olur. Eyni zamanda, milli təsanüdüçülkdə sosial məsələ ilə milli məsələ arasında uzlaşdırma da mümkündür. Rəsulzadəyə görə məmləkəti əcnəbi düşmənin qanlı istilası altında inləyən millətin fərdi heç bir zaman inqilabi sosializmin arxasınca getməz. O, yazırdı: “Bizcə hər cür islahatı rədd edən əski qafalı mürtəcelər milli vəhdət, milli inkişaf və milli istiqlal üçün müzürr olduqları kimi, milli vəhdət və bu vəhdəti təşkil edən siniflər arasında təsanüd və müsahiləyi inkar ilə sinif mücadiləsini atəşləyən kommunistlər də eyni dərəcədə müzürrdürlər. Biz hər cür sinif diktatorluğunun əleyhindəyiz. Hədəfimiz millətin vəhdəti, istiqlalı və hürriyyətidir. Bizi

bu hədəfə doğru götürən vasitə isə gələcəyi heç də şübhə doğurmayan təsanüdçü demokrasi məfkurəsidir!” (Rəsulzadə 2016, 404).

1950-ci illərin başlarında qələmə aldığı “Milli təsanüd” məqaləsində də mütləq liberalizm və kommunizmə alternativ olaraq solidarizmə üstünlük verən M.Əmin yazırdı ki, təsanüdçülükdə əsri mədəniyyətin əsasını təşkil edən – hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları baqidir: “Fəqət, eyni zamanda dövlət, mütləq liberalizmdə olduğu kimi, fərdlər, siniflər və zümrələr arasındakı münasibət və mücadilələrə laqeyid, sırf zabitə vəzifəsiylə mükəlləf bir müəssisə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil, məşrutdur, şərt isə ümumun mənfəəti və dövlətlə millətin sələmətidir. Şəxsin olsun, zümrə və ya sinfin olsun – hürriyyəti, topluluğun yüksək mənfəətləri və hürriyyətini pozmamaq şərtləri ilə çərçivələnmişdir. Liberalizm bu hüdudu bir şəxsin hürriyyəti ilə digər şəxsin hürriyyəti arasında ancaq etibar edir; bunun üçün də dövlətin vəzifəsini sadə bir zabitə və məhkəmə dərəcəsinə endirmək istəyirdi. Solidarizmdə isə dövlət millətin müməssil və cəmiyyətdəki münasibətlərin nəzimidir. Bu surətlə, solidarizm hürriyyət və mülkiyyət müəssisələrində qoyulmuş təbii təşəbbüs və ilərləmə həmlələrini zədələmədən, kapitalizmin liberal sistemdə ümumi mənfəət zərərinə işləyən ifratlarının önünə keçmək vəzifəsini dövlətə verir” (Rəsulzadə 2009, 27). Rəsulzadə daha sonra yazırdı ki, sinifləri əsas olaraq alan kommunizm kimi, fərdləri nəzəri-etibara alan liberalizm də daha kosmopolit və internasionaldır. Ona görə, yalnız solidarizm millidir. O, yazırdı: “Çünki sadə şəxslərin və siniflərin maddi mənfəətə bağlı xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına gətirən mənəvi qüvvətlərə böyük qiymət verir. Bu mənəvi qüvvətlər isə millət və dövlətlərin gerçəkləşməsində birləşdirici amil olaraq təsir edən dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdir” (Rəsulzadə 2009, 28). Bununla da o, həmrəylikdəki bu milliliyin mənəvi dayaqlarının birləşdirici amilini “dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdə” görürdü.

Rəsulzadəyə görə, liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində, kommunizm sinfi eqoizmdə görür ki, hər ikisi ifrata varanda cəmiyyət üçün zərərli olur. Bu baxımda sinfi və fərdi eqoizmi qəbul etməyən Rəsulzadə bütün bunlardan çıxış yolu olaraq solidarizmi göstəriridi: “Liberal cəmiyyətdə başqasını düşünmək (alturizm) qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir. Kültür və tarix bağlarıyla mənəvi birlik təşkil edən bir millətin fərdləri, topluluğun ortaq mənfəətlərini qorumaq üçün öz şəxsi istək və mənfəətlərini hüdudlandırmaq məcburiyyətindədirlər. Topluluğun mənfəətlərini təmsil edən müəssisə dövlətdir. Fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qyimətlərin qaynağı milli camiə, onu təmsil edən də dövlətdir” (Rəsulzadə 2009, 28). Rəsulzadəyə görə fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qiymətlərin qaynağı milli cəmiyyət, onu təmsil edən də dövlətdir. O, yazırdı: “Fərd digər fərdlərlə ortaq olduğu bu mənəvi mənliklə özünə məxsus mənfəətlərdən ibarət maddi mənlik arasında ixtilaf çıxınca, maddiliyini mənəviliyinə fəda etmək məcburiyyətindədir. Hürr və kamil insan olmaq fəzilətinin hökmü bundan başqa ola bilməz. Dövlətlər, millətlər və cəmiyyətlər ancaq “canlarını cananlarına fəda edə bilən” bu kimi üzvlərə malik olduqları zaman uzunömürlü ola bilirlər” (Rəsulzadə 2009, 28). Rəsulzadə dünyada hakim olan iki əsas sistemdən fərqli olaraq belə bir müddəa irəli sürür: “Madam ki, millətçiyiz, diyoruz; madam ki, milli dövlət istiqlalını müdafiə ediyoruz, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə təhəmmül caiz olamaz. Bizcə müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir” (Rəsulzadə 2009, 28).

Rəsulzadə inanırdı ki, milli-dini dəyərlərlə sosial-demokrat və liberal dəyərlərin uzlaşmış nöqtəsinə çatmaq olar. Rəsulzadə bolşeviklərdən fərqli olaraq sosial məsələyə, onların milli məsələyə yanaşdıqları kimi baxmadığını ortaya qoyurdu. Rəsulzadə sosial məsələlərə milli yöndə baxmaqla, bolşeviklərin proletar “millətçilik” baxışlarını heçə endirmiş oldu. Rəsulzadə bolşeviklərin güya, millətçilik məsələsinə hörmətlə yanaşması fikrinin yanlış olduğunu isbat

etdi. O, əsl milli təsanüdün necə olmasını göstərməklə həqiqətin ortaya çıxmasına nail oldu. O, “Milli mücadilədə sosial şüarlar” məqaləsində yazırdı: “Milli dava və sosial məsələ. Bu iki anlamı bir-birindən ayırmaq qəbul olsa idi, yuxarıdakı ilk suala mənfi cavab verər, “milli hərəkat adamlarına sosial məsələlərlə məşğul olmaq caiz deyildir!” deyərdik. Halbuki, həqiqət öylə deyildir: Bir kərə “millət”in özü ictimai, yəni sosial bir anlamdır. Milli dava dəxi, əhatəli və ötkün bir baxışla, sosial bir davadır. Bir millət nə zaman müstəqil olur və bu istiqlalı nə üçün istər? Bu suallara cavab aradığımız zaman milli istiqlal davası ilə sosial məsələlər arasında ayrılıq deyil, dərin bir bağlılıq olduğunu görürüz. Bir millətin dışarıya qarşı həqiqi istiqlalı, içərideki milli hakimiyyətinin həqiqiliyi ilə mütənasibdir. Dövlətlər arasındakı “milli istiqlal” anlamının bir dövlət içindəki qarşılığı, “milli hakimiyyət” sözündəki mənadır” (Resulzade 1978, 43-44).

Onun fikrincə, hürriyyət, milliyyət və istiqlal kimi mücərrəd siyasi şüarlar, münəvvər kütləyə xitab edən və onları inqilablaşdıran anlamlardır. Çünki geniş xalq təbəqələrini ayaqlandırmaq üçün, sadə şüarlar kafi deyildir. Onlar hərəkətə keçmək üçün, daha maddi və daha sərih şüarlar istər.

**Rəsulzadənin milli həmrəylik təlimi faşizm və hitlerizmə qarşı**

Rəsulzadəyə görə, həyat və təcrübə bu baxışın getdikcə daha çox ruslaşan bolşevizmin yalnız işinə gəldiyini, yəni Rusiya çarlığı daxilindəki məhkum millətləri təkrar Moskva hakimiyyəti altına almaqdakı qızıl imperializmin hiyləsinə yaradığını göstərdisə də, bunun xaricində ümümi cahan ölçüsündə tamamilə əks bir qaziyəni isbat etdi: sosial məsələlərin milli mənfəət naminə və milli dövlət çərçivəsində həlli parlaq misallarla görünmüş oldu! Buna örnək kimi İtaliya və Almaniyanı göstərən Rəsulzadə yazırdı ki, Mussolininin internasional sosializm və sinif qovğası nəzəriyyəsi inqilabçı italyan sosialistlərinin içindən gəlmişdir. O, yazırdı: “Bunun kimi Hitlerin təsis və idarə etdiyi partiyanın rəsmi adı “Milli Sosialist Alman Fəhlə Partiyası”dır. Burjua rejiminin məhsulu saydığı milli hüdud və dövlətlər daxilində ediləcək sosial islahat təcrübələrindən radikal fayda ummayan marksizm, cahan hərbi sonunda Rusiyada partlayan kommunizm inqilabı növündən beynəlmiləl inqilablar nəticəsində “internasional sosializmin” bütün dünyaya yoluxacağını gözləmişdi. Halbuki nəticə əksinə çıxdı: sosial inqilablar bir millət və dövlət hüdudu içində vaqeə gəldilər. Hətta Rusiya inqilabçıları belə – Stalinin şəxsində – “bir dövlət içində sosializm nəzəriyyəsini dəstəkləmək” zərurətində qaldılar. Milliyyət məsələsinin ikinci deyil, ali, təbii deyil, ictimai bir məsələ olduğu – İtaliya və Almaniya kimi klassik iki misal ilə qafaya danq edər bir surətdə isbat edildi” (Resulzade 1978, 44-45). Rəsulzadəyə görə, bolşeviklərdən fərqli olaraq Mussolin İtaliyası və Hitler Almaniyasında isə sosial şüarlardan radikal anlamda milli mənfəətlər üçün istifadə edilməyə çalışılmışdır. Bu zamanda italiyan və alman nasonal-sosialistləri irqçilik nəzəriyyəsini əsas tutaraq, ancaq bir xalqın üstünlüyünə əsaslanmışlar. O, yazırdı: “İtaliyada Mussolinin, Almaniyada Hitlerin bolşevizm və marksizm demaqojisinə qapılmış fəhlə və kəndli siniflərinə xitab edən sosial proqramlar və işə gəldikdən sonra bu proqramların həmən, müəyyən bir plan və sistem daxilində tətbiqi xüsusunda göstərdikləri əzim və iradələri olmasa idi, nə ötəkisinin yeni Roma yapacaq qədər iqtidara, nə də bərikisinin Almaniyaya milli heysiyyət və istiqlalını qaytaracaq qədər müvəffəqiyyəti olurdu. Münəvvərlərin milli heysiyyət, milli qürur və vətənçilik xislətinə xitab ilə bərabər, geniş xalq kütlələrinin eyni hissiyyatla bərabər həyati mənfəət və ehtiyaclarına da cavab verə bilmirlər ki, bu iki hərəkat qeyd etdiyimiz bu parlaq nəticəni əldə etmişlər” (Resulzade 1978, 45).

Rəsulzadə yazırdı ki, bu məsələ tək zamanımızın Avropa səhnəsində cərəyan edən bu iki mühüm hadisə ilə dəlilləndirilə bilməz. Əski – yeni milli bütün hərəkatlar diqqətli tədqiq olunursa, milli davaların sosial məsələlərlə sıx surətdə əlaqədar olduqları meydana çıxar. O,

yazırdı: “Amerika istiqlalı oradakı kəndlilərin İngiltərəyə qarşı öz məhsullarını sərbəstcə sata bilmək haqqını qazanmaq üçün başlanan mücadilənin məhsuludur. Vaşinqton bir istiqlal qəhrəmanı olduğu qədər, bir kəndli üsyanının da başçısıdır. Monreonun “Amerika amerikalılar üçündür!…” – deyə meydana atdığı şüar da milliyyət davası ilə sosial şüarların bir-birinə bağlı şeylər olduğunu ifadə edir. Yaponiyanın siyasi oyanışı onu ticarət və istismar məqsədilə zora salan əcnəbilərə qarşı sosial bir reaksiya ilə başlamışdır. Milli Çin istiqlalının başçısı Sun Yat Senin bəlli proqramı çox əsaslı sosial məsələləri ehtiva etməkdədir. Hindistandakı Svarac [İstiqlal] hərəkatının liderləri ingilis hakimiyyətinə qarşı siyasi mücadilə etdikləri halda öz içərilərini gəmirən kast ayrılıqları kimi, sosial məsələlərlə də məşğuldurlar. Hindistan kimi, Misirdəki istiqlal hərəkatı da bu ehtiyacdan vaz kesmiş deyildir. Nil vadisindəki milli hakimiyyət və həqiqi istiqlalın təmini məsələsinin fəllahlara rifah gətirəcək sosial islahatlara bağlı olduğu bəhs mövzusudur” (Resulzade 1978, 46-47).

Rəsulzadə yazırdı ki, Türkiyə ilə “İran” milli hərəkatları da əcnəbi imperializminin təzyiqi altında kəskinləşən sosial məsələlərin təsirilə meydana gəlmişdir. Onun fikrincə, özəlliklə də, Atatürkün bəlli təbirilə “əfəndisi kəndli olan” yeni Türkiyənin tətbiq etdiyi iqtisadi dövlətçilik də bax bu zərurətdən doğan sosial tədbirdir. Məruz qaldığı qanlı müxalifətlərə baxmayaraq eyni Türkiyənin orta zaman feodalizminin geri müəssisələrini qaldıraraq, əsri demokratiya müəssisələrini yerləşdirməkdəki israrı da bunun üçündür. O, yazırdı: “Öz yaxınlarımıza gəlmişkən, zaman etibarı ilə bir az əski olsa da, mahiyyəti və müvəffəqiyyəti etibarı ilə şöhrəti hələ dillərdə dastan olan Qafqaz qəhrəmanı böyük Şamilin ortaqlı düşmən çarlıq Rusiyasına qarşı etmiş olduğu şanlı mücadilədə islamiyyətdə mövcud dini demokratiyadan faydalanaraq baş qaldıran aristokratiyasını milli mücadilə iradəsinə tabe qılmaq məqsədilə sosial tədbirlərə əl ataraq, böyük feodal torpaqlarını mücahid – müridlər arasında böldüyünü də xatırladırıq” (Resulzade 1978, 47).

Deməli, rus bolşevizmindən ancaq İtaliyada Mussolin, Almaniyada isə Hitler sosial şüarlardan milli mənfəətlər üçün istifadə etməmişdilər. Sadəcə, bu məsələdə çox ifrata varanlar faşizm və hitlerizm olmuşdur. Hər halda bolşeviklər sosial şüarlarını beynəlmiləl proletar sinfi uğrunda mübarizə adı ilə təqdim etdikləri halda, Mussolin və Hitler isə, bütün bunları italiyan və alman xalqlarının mənafeyi adına milli şüarlar kimi qələmə verirdilər. Bunun da nəticəsində İtaliyada nasonal-sosializm adlandırılan “faşizm” (“ittifaq”, “birlik”), Almaniyada isə hitlerizm meydana çıxmışdır. İtaliyan nasional-sosialistləri “faşizm” adı altında qədim Roma imperiyasının bərpasını hədəflədikləri halda, alman hitlerçilər də “üstün alman xalqı” irqçiliyi ilə Almaniyanı dünya imperiyasına çevirmək niyyətində idilər. İtaliyan faşistləri ilə alman hitlerçilərin öz xalqlarının geniş kütlələri arasında uğur qazanmalarında rus bolşevizminin “beynəlmiləlçiliy”i mühüm rol oynamışdır (Xəlilli 2022, 127).

Bu baxımdan Rəsulzadə hesab edirdi ki, rus bolşevizm olmasaydı, İtaliya və Almaniyada faşizm bu dərəcədə uğur qazanmazdı. Çünki marksizmə əsaslanan rus bolşevizminin ifrat “beynəlmiləlçiliy”i İtaliya və Almaniyada uyğun olaraq faşizmlə hitlerizmin ortaya çıxmasına gətirib çıxarmışdır. Rəsulzadə rus bolşevizmi kimi, sosial şüarları milli şüarlar adı altında dəyişdirən faşizmlə hitlerizmi də qəbul etmirdi. Ona görə millətçilik və milli istiqlal incə bir məsələdir ki, faşizmlə hitlerizmin ona başqa yerə sürükləməsi qəbul edilməzdir. Rəsulzadə yazırdı: “Milli istiqlal-bu bir zərfdir, məzruf isə – milli hakimiyyətdir. Kəndini təşkil edən təbəqələr arasında nisbi olsun ictimai müvazinət və yenə nisbi olsun iqtisadi rifah təmin edəmiyən bir cəmiyyətdə isə, milli hakimiyyət təsisi qeyri mümkündür. Tək siyasi deyil, həyatın bütün sahələrini əhatə edərək həyatın sosial məsələlərini də məşğuliyyət və icraatı daxilində görən əsri milliyyətçiliyin hərəkət fəlsəfəsi də budur” (Resulzade 1978, 47).

**Rəsulzadənin milli həmrəylik təlimində milli sosial dövlət anlayışı**

M.Ə.Rəsulzadənin milli həmrəylik təliminin əsasında milli sosial dövlət anlayışı dayanmışdır. O, “Müsavat” partiyasının 1938-ci ildə keçirilən qurultayında irəli sürülən “Yeni Proqram əsasları”nda Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, milli həmrəylik təlimi əsasında onun necə bir milli sosial dövlət olacağının başlıca prinsipləri açıqlanmışdı. Xüsusilə, “Yeni Proqram əsasları”na görə, milli sosial dövlətdə milliyyət məsələsi öz qüvvəsində qalmaqla yanaşı, orada sosial bərabərliyin, sosial ədalətin öz əksini tapması vacib hesab edilirdi. Şübhəsiz, “Yeni Proqram əsasları”nın əsas müəllifi M.Ə.Rəsulzadə olduğu üçün, orada öz əksini tapan milli sosial dövlət anlayışını da o, irəli sürmüşdü. Rəsulzadənin “Yeni Proqram əsasları”nda milli həmrəyliyə əsaslanan milli sosial dövlət prinsini irəli sürməsi, daha dəqiqi desək milli məsələylə sosial məsələni bu şəkildə bərabər götürməsi heç də bütün mühacir milli aydınlar arasında birmənalı qarşılanmamışdır. Millətçilik məsələsində radikal mövqe tutan milli ziyalılar hesab edirdilər ki, “Müsavat”ın “Yeni Proqram əsasları”nda milli məsələdən uzaqlaşılaraq sosial məsələyə doğru yön alınmışdır. Bu cür düşünənlərə görə, Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizə dövründə milli məsələ ilə yanaşı, sosial məsələlərə bu qədər önəm verməк, onu radikal formada ifadə etmək milli istiqlal davasına zərər verməkdədir. Onların fikrincə, milli istiqlal uğrinda mübarizə aparıldığı bir dövrdə sosial məsələnin bu cür qoyuluşu milli qüvvələr arasında ikitirəlik yaradır və bu da, qəbuledilməzdir.

Rəsulzadə “Yeni Proqram əsasları”nda yer alan milli sosial dövlət prinsipinə, ümumiyyətlə orada öz əksini tapan milli həmrəylik mülahizələrinə qarşı çıxan radikal millət-çilərə tutarlı cavablar vermişdi. O, yazırdı ki, birincisi, hazırda milli həmrəyliyə əsaslanan “Yeni proqram əsasları”nı radikal sayan bəzi mühacir demaqoqlar “Müsavat” Firqəsinin Rusiya Məclisi-Müəssisan seçkilərində və 1917-ci ildə Bakıda yerli sovetlərə seçkilər əsnasında qəti müvəffəqiyyətinin sirrini unudublar. Filosof-mütəfəkkirmizə görə, o zamankı “Müsavat” proqramı da, indiki əsaslar kimi, milli davanı ön sırada tutmaqla bərabər, sosial məsələni də unutmamış, fəhlə və kəndli məsələlərinə son dərəcə əhəmiyyət vermiş və onları sosialist internasionalistlərin ayaqlarını havada başayaq tutacaq qədər radikal bir şəkildə həll etmişdir. O, yazırdı: “Bu sosial məsələləri unutmayan milliyyətçi proqramı ilə idi ki, “Müsavat” Bakı kimi inqilab yuvası “internasional bir fəhlə şəhərində” türk fəhləsinin tək bir səsini türk sosialistlərinə belə qapdırmamış və Qızıl ordunun siyasi hiylə və üstün qüvvə ilə edilən istilasına qədər bolşevik olan müsəlman fəhlə və qeyri fəhləsi sayının bütün Azərbaycanda üç yüzü (300) keçməməsinə səbəb olmuşdu” (Rəsulzadə 2009, 64).

Rəsulzadəyə görə ikincisi, “Əsasları”ı milli məsələdən çox sosial məsələlərə üstünlük verməkdə ittiham edənlərin görüş xətası vardır. Belə ki, Azərbaycanın istila altında olması, heç də onun milli və siyasi istiqlal gələcəyi ilə yanaşı, sosial bərabərliyə aid gələcəyini də düşünməyə əngəl ola bilməz. Başqa sözlə, burada dar düşüncədən deyil, daha geniş və bütünləşdirici dünyagörüşdən çıxış etmək lazımdır. O, yazırdı: “Məmləkət istila altındadır – deyirlər: hamımız vətəndən ayrı və mühacirətdəyik. Bizi burada ancaq bir qayə, bir ideal birləşdirir – təkrar vətənə dönmək və istiqlalımızı geri almaq. Toplayıcı bu milli və siyasi şüar yanına hansı sosial maddəni əlavə edərsiniz, istiqlalçılar cəbhəsinə ikilik gətirərsiniz ki, bu da milli qurtuluş hərəkatını işğal edər. Bu şəkildə düşünənlərin – düşüncələrində səmimi isələr – başlıca bir xətaları vardır: bir görüş xətası. Milli qurtuluş hərəkatını təkcə vətən ayrısı mühacirlərə aid etmək və milli istiqlal mücadiləsinin taktika və strategiyalarını ancaq bu mühitdəki münasibət və əlaqələrlə ölçmək – böyük davanın geniş dairəsini çox kiçiltmək deməkdir” (Rəsulzadə 2009, 64).

Filosof-mütəfəkkir çox doğru qeyd edirdi ki, sadəcə mühacirət orada başlanan bir davanın buradakı təmsilçiləridir. Əsas odur ki, bu dava Azərbaycanda başlamış, orada davam

edir və orada da həll olunacaqdır. O, yazırdı: “Təmsilçilik rolunu həqiqi surətdə edə bilmək üçün siyasi mühacirət [istilaha diqqət edilsin: siyasi mühacirət deyirik və bunu sıradan mühacirətdən ayırırıq] orada cərəyan edən hadisələri, dəyişən reallıqları və doğan yeni münasibət və şərtləri daim təqib və tədqiq etməli və buna görə nəbzini əlində tutmaq vəzifəsində olduğu potensial milli hərəkatın həqiqi ehtiyaclarına görə mücadilə taktika və proqramlarını tənzim etməlidir. Bu mühacirət, özəlliklə bu mühacirətin ön sırasında gedən milli Azərbaycan davasının tarixi rəhbərliyini içəridən aldığı bir borc kimi üzərində daşıyan “Müsavat mühacirəti” bütün dünyadakı hərb sonu ruhu ilə bu zamandakı şərtlər arasındakı fərqi və o zamankı real şəraitlə bu zamandakı şərtlər arasındakı başqalığı öz vəzifəsinə sadiq və missiyasına layiq qaldıqca nəzərə almaya bilməz! O zaman dünya çətin bir hərb yaşamış, millətlər öz aralarındakı qanlı döyüşlərdən bizar olaraq çıxmışdılar, bir az nəfəs almaq üçün özlərini Vilsonun ağzı ilə xülasə edilən 14 maddəyə, sonra da Rusiyada partlayan kommunist inqilabının aldadıcı şüarlarına qapdırmışdılar. O zamankı “Müsavat” proqramı əsasda milliyyətçi, istiqlalçı bir proqram olmaqla bərabər sosial məsələlərdə bəzən hətta firqənin əsil qayəsini təşkil edən milli prinsiplərlə təzad təşkil edən ifratlara belə qapılmışdır. Zamanın ruhuna bac verilmişdir. Milləti siniflərdən ibarət olaraq almaq, ordunu deyil, əsas olaraq milis təşkilatını idealizə etmək, zəruri ehtiyacların ucuzlanması üçün gömrüklərin ən yüksək dərəcəyə endirilməsini istəmək, milli sənayenin təşkilində əngəllər törədəcək mütərəqqi gəlir vergisini qəbul etmək kimi maddələrin o zamankı proqramda yer alması bax bu ruhiyyət durumunun və o dövrün havasını dolduran ideyaların məhsuludur” (Rəsulzadə 2009, 65-66).

Rəsulzadə sosial məsələlərdən cümhuriyyət dövründə yetərli səviyyədə istifadə olunmadığını özü də etiraf edirdi. O qeyd edirdi ki, sosial məsələlərdən o zaman lazımi şəkildə istifadə olunmamağın isə bir sıra səbəbləri olub: “O zaman bir tərəfdən liberalizm, digər tərəfdən də internasyonal sosializm cərəyanlarının zamana hakim təsirlərinə rəğmən, milliyyətçi qalmağı bacaran “Müsavat” üçün indiki ümumi ruhdan mülhəm olaraq, daha milli bir siyasət də daha təsanüdçü sosial bir sistem təsbit etmək qeyri-mümkün idi!” (Rəsulzadə 2009, 66).

Bununla da yeni dövrdə “Müsavat”ın proqramına sosial məsələlərdə bir sıra dəyişikliklərin edildiyini önə çəkən Rəsulzadə yazırdı ki, bu da milli həmrəylik anlayışıdır. Ona görə yalnız milli təsanüdçülük (solidarizm) demokratik dövlətin əsas ideologiyası ola bilər. Bu zaman nə liberalizmə, nə də bolşevizmə ehtiyac qalacaq. Bu, sosial məsələlərlə milli məsələnin uzlaşdığı ən mühüm nöqtə idi. Rəsulzadənin ortaya atdığı bu ideya sosial-fəlsəfi və siyasi baxımdan yeni idi. Burada əsas məsələ milli çərçivə daxilində sosial məsələləri həll etmək cəhdidir. Şübhəsiz ki, bu zaman kommunizmin doğurduğu bolşevizm kimi bəlaları özündən uzaq tutmaqla yanaşı, milli təsanüdçülük kapitalizmin də mənfi tərəflərini rədd edirdi. (Rəsulzadə 2009, 66-67).

Rəsulzadə hesab edirdi ki, yalnız sosial məsələni milli məsələnin bir hissəsinə çevirməklə bolşevikləri sıradan çıxarmaq mümkün olar. Bu baxımdan onun əsas məqsədi o idi ki, sosial məsələnin millətçiliyə zidd olmadığını ortaya qoysun: “Doğrudur- milliyyət şüarı toplar. Fəqət, sosial şüarların da toplayıcıları yox deyildir. Ayırıcı sosial şüarlar sinif mücadiləsini tərvic edən kosmopolit, internasyonal marksist sistemindən doğan şüarlardır. Yoxsa, sinifləri vuruşdurmağa deyil, barışdırmağa baxan təsanüdçü (solidarist) sosial sistemindən gələn şüarlar ayırmaz, toplar və bu surətlə də milli istiqlal anlamı ilə təzad deyil, tam bir ahəng təşkil edərlər!… Düşmənimiz bolşevizm üçün milliyyət, keçici bir taktika məsələsi isə, bizim üçün sosial islahat heç də öylə deyildir. Bu, öz başına təsanüdlü və məsud bir varlıq təsəvvür etdiyimiz ahəngdar milli cəmiyyətin həm davamı, həm də istiqlalının təmini üçün zəruri və daimi bir qayədir!…” (Rəsulzadə 2009, 67).

Rəsulzadənin milli həmrəylik (solidarizm) təlimini müdafiə edən M.B.Məmmədzadə də

yazırdı ki, “Müsavat”ın “Yeni proqram əsasları”na görə, müstəqil türk dövlətində nə ifrat liberalizmə, nə də kommunizmə yer olmayacaqdı (Məmmədzadə 1992, 211). “Yeni proqram əsasları”na görə, Türk mədəniyyətinin inkişafı və təkamülü, Azərbaycan türkünün səadəti və rifahı belə bir milli həmərylik sistemi daxilində mümkündür. Artıq burada fərdi azadlıq və fərdi mülkiyyət ilə yanaşı, ümüminin mənfəəti də vardır (Məmmədzadə 1992, 212).

**Milli sosial dövlət fəlsəfəsinin “Azərbaycan şairi Nizami” əsərində əksi**

Bizcə, Rəsulzadə 2-ci Dünya müharibəsi illərində yazdığı “Azərbaycan şairi Nizami” adlı əsərində də milli təsanüd ideyasını inkişaf etdirmişdir. Belə ki, Türk mütəfəkkiri Nizami Gəncəlini təkrarolunmaz bir şəkildə tədqiq etməklə yanaşı, Rəsulzadə millilik və dünyəvilik, millilik və dinilik məsələlərinə də aydınlıq gətirməyə çalışmışdır. Başqa sözlə, o, bir tərəfdən Nizaminin Türk mənsubiyyətinə, Türk dini-fəlsəfi düşüncəsinə, türk ruhuna, türk fəlsəfəsinə bağlılığını elmi-fəlsəfi şəkildə ortaya qoymuş (Rəsulzadə 2008, 40, 164, 173), digər tərəfdən dövrünün ictimai-fəlsəfi, sosial-siyasi problemləri kontekstində milli ideya ilə, dünyəvi ideyaları uzlaşdırmağa çalışmışdır.

Beləliklə, bu əsərində türkün dövlətçilik anlayışının geniş şərhini verən M.Ə.Rəsulzadə böyük mütəfəkkir N.Gəncəvinin də bir türk mütəfəkkiri olaraq uyğun baxışlarına müraciət etmişdir. O yazırdı: “Nizamiyə görə, dövlət başçısı “sürüyə cavabdeh bir çobandır”. Hətta bundan da məsuliyyətli bir mövqedədir. Başdakı beyin bədənin bütün üzvlərini idarə etməkdə hansı mövqedədirsə, dövlət başçısı da onun kimidir. “Əl ayağın fəaliyyətindən razı deyilsə, cavabdeh başdır”. Fərd dövlətə münasibətdə müəyyən vəzifələri icra etməyə borcludur. Amma fərd hər hansı dövlətdə yalnız vəzifə daşımağa borclu deyil, həm də bir sıra hüquqlara malikdir” (Rəsulzadə 1991/1, 213). Məsələn,“Qarı ilə Sultan Səncərin hekayəti”ndə Nizami Gəncəvi türk hökmdarını ədalətli və vicandlı olmağa çağırır. Nizamiyə görə, türk hökmdarları heç bir zaman zalım və ədalətsiz olmamışlar, Sultan Səncərin buna uyğun olmayan davranışı isə türk adına şərəf gətirmir (Gəncəvi 2004/1, 111).

Fikrimizcə, burada N.Gəncəvi bir tərəfdən Sultan Səncərin timsalında türk hökmdarlarını türk düşüncəsinə, türk adət-ənənələrinə əməl etməyə çağırmaqla yanaşı, onları pis əməllərdən çəkindirməyə çalışmış və başqa tərəfdən Azərbaycanda bir Türk dövlətinin hakim olduğuna işarə etmişdir.

Rəsulzadə dövlətdə fərdin rolunu xüsusilə dəyərləndirməklə yanaşı, onun vəzifələrini də göstərir. Dövlət başçısı dövləti idarə edən bir şəxs kimi fərdə nisbətən daha məsuliyyətli olmalıdır. Ancaq bu o demək deyil ki, fərd məsuliyyəti dövlət başçısının, və yaxud vəzifə sahiblərinin üstünə ataraq tamamilə geri çəkilməlidir. Ona görə də, Rəsulzadə Nizami kimi, dövlətin idarə olunmasında məsləhətləşmələri önəmli sayır: “Nizamiyə görə, iqtidar ilə təmkin bir-birini tamamlayan şeylərdir: “Güclü ol, amma təmkinini əldən vermə”. Dövlətin idarə olunmasında şair məsləhətləşmə tərəfdarıdır” (Rəsulzadə 1991/1,215). Ona görə, dövlət başçılarından başqa ölkə üçün dost və düşmən təsəvvür etmək olmaz. Millət əgər öz vəzifəsini yerinə yetirsə, düşmənlər də dost olacaqlar. Əgər öz vəzifəsini yerinə yetirə bilməzsə, dostlar da düşmən olarlar.

Nizaminin baxışlarına uyğun dövlət idarəsini reallaşdıran hökmdar İskəndərdir və Rəsulzadənin də Nizaminin İskəndərinə, onun işlərinə xüsusi yer verməsi təsadüfi deyil. O, Nizaminin “İskəndərnamə”də yaratdığı ideal cəmiyyəti özü də görürdü: “İskəndərin şəxsində Nizami biliyə, hikmətə və sənətə bağlı olan ziyalı bir hökmdar görür. Filosoflar, alimlər və ədiblər tərəfindən əhatə olunmuş bu hökmdarın özü də xarakter (səciyyə), cəsarət və qəhrəmanlığı ilə bərabər, alim, filosof və tədbirli bir insan kimi tanınır. Ona müavinlik edən vəzir Yunanıstanın ən məşhur filosofu Ərəstundur (Aristotel). Sarayında Yunanıstanın bütün tanınmış filosof və alimlərindən təşkil olunmuş Dövlət Şurası tipli yüksək bir məclis vardır” (Rəsulzadə 1991/1, 216).

Fikrimizcə, N.Gəncəvinin «İskəndərnamə»ni yazmaqda məqsədi yalnız Makedoniyalı İskəndərin timsalında adil hökmdarı, ədalətli cəmiyyəti təsvir etmək deyil, eyni zamanda türk millətinin qədimliyini, türk inanclarını, adət-ənənələrini dünyaya tanıtdırmaq olmuşdu. Bu baxımdan N.Gəncəvinin Makedoniyalı İskəndəri türk dünyasının bir hissəsi olan Azərbaycana, daha sonra Qıpçaq elinə aparması təsadüfi ola bilməzdi. N.Gəncəvinin burada başlıca məqsədi Azərbaycanda, Qafqazda, Orta Asiyada və başqa yerlərdə yaşayan türklərin adət-ənənələrini, mədəniyyətini, düşüncələrini açıqlamaq olmuşdu. Məsələn, İskəndəri Qıpçaq ellərinə aparan N.Gəncəvi yazırdı ki, Qıpçaq türklərinin adət-ənənələri böyük fatehi mat qoymuşdur. Xüsusilə qadınların üzlərini örtməməsi və kişilərdən qaçmaması İskəndəri təəccübləndirir. İskəndər qıpçaqların ağsaqqallarını başına yığaraq bu adətlərindən əl çəkməyə çağırır: “Örtülü dedi çöl qıpçaqlarına: “Üzünü gizləmək xoşdur qadına”” (Gəncəvi 2004/2, 314). Qıpçaq türkləri isə İskəndəri başa salırlar ki, onlar adətlərini dəyişməyəcəklər, makdeoniyalı fateh isə hiylə işlətməklə istəyinə çatır.

Rəsulzadəyə görə, ideal cəmiyyətdə zor heç nəyi həll etməməlidir. Demokratik cəmiyyət Rəsulzadənin dövlət siyasətinin tərkib hissəsi idi. Bu onun düşüncələrinə hakim kəsilib və sosial-fəlsəfi dünyagörüşünə mühüm təsir edib. O, Nizaminin də axtarıb tapdığı bu ideal dövlət fəlsəfəsini fikirlərində inkişaf etdirirdi (Rəsulzadə 1991/1, 29-30). M.Ə.Rəsulzadə Nizaminin yaratdığı ideal cəmiyyətin Sovet dövründə kommunizm quruluşuna oxşadılmasına etiraz edirdi. O, Nizaminin ideal cəmiyyəti ilə bolşeviklərin kommunizm ideologiyası arasında heç bir oxşarlığın olmadığını ortaya qoyurdu: “Nizaminin “Cənnət şəhər”i dindardır, sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanıyır, o birisi isə rədd edir. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük təbliğat silahıdır. Birincidə sevgi əsas ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə təhlükəsiz yaşadığı halda, ikincidə insanlar daim ölüm qorxusu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır. Birinci oğurluq nədir bilmir, ikincidə isə oğurluq ən qanlı polis rejimidir. Birinci casusluq bilməz, ikincidə hamı casusdur. Birinci silahsız və dindar, ikinci, təpədən-dırnağa qədər silahlıdır. Birinci, fitnə nədir bilməz, ikinci, bütün dünyanı bürüyəcək bir fitnə yuvasıdır. Sözün qısası: dini əxlaqa və ictimai anlayışa əsaslanan “Nizami sosializmi” ilə dini rədd edən və siniflər qovğasını əsas tutan qanlı “rus sosializmin” bir-birinə bənzər heç bir tərəfi yoxdur!.. Fəqət, bizim fikrimizcə, sevgi ilə nifrət, rəhmət ilə lənət nə qədər bir araya sığa bilərsə, Nizami ilə bolşeviklər də o qədər birgə ola bilərlər!” (Rəsulzadə 1991/1, 211-212). Bolşeviklərin öz aləmlərində Nizaminin ideal cəmiyyətinə bənzətdiyi kommunizmin əsassız olduğunu yazan milli ideoloqa görə, onun ideal cəmiyyəti yalnız Azərbaycan Cümhuriyyəti ilə bərabər tutula bilər.

Bu baxımdan M.Ə.Rəsulzadənin tarix qarşısında ən faydalı xidmətlərindən biri də demokratik respublika ideyası idi. Özünün dediyi kimi, “misli Avropda olmayan” Azərbaycan Cümhuriyyəti, demokratik əsaslara söykənən sosial sistemli bir dövlət idi. Yeni milli dövlət xalqı bu acınacaqlı vəziyyətdən qurtarmalı, xalqın öz dövləti olmalı idi. Bolşevizm bunu, Rusiyadakı bütün xalqlara vəd eləsə də, M.Ə.Rəsulzadə onlara bel bağlamır, onun «yaxıcı və yıxıcı» təbiətini hiss edirdi. O deyirdi ki, rus kommunizminin yıxıcı və yaxıcı tətbiqatı yanında türk demokratizminin yapıcı və yaradıcı icratı vardır. Yıxıcılıq keçər, yapıcılıq qalar. Azərbaycan Cümhuriyyəti məhz belə bir “yapıcı” dövlət sistemi olmalı idi.

Bu baxımdan Rəsulzadənin “sosial məsələ-islam, türkçülük-islam” və sonda “türkçülük-sosial məsələ-islam” düsturunu başa düşmək çətin deyil: “Əski nəslə mənsub milli mühacirətin şüurlu qismi tərəfindən təmsil olunan siyasi proqramın milli həmrəylik, ictimai ədalət və siyasi istiqlaldan bəhs edən üç əsası yeni nəslin ictimai və siyasi şüurunu müəyyən edir. Yeni mühacirətin siyasi düşüncəli qismi siyasi etiqadımızın yuxarıdakı «üçlü» ümdəsini böyük bir sevinc və vicdan rahatlığı ilə xəbər alırdı. Onlar qırmızıların siyasətinin milli mühacirətin ictimai irtica ilə siyasi təhqir nümunəsi kimi tanıtdığını, yalan və böhtanlardan ibarət olduğunu

görürdülər. Milli Azərbaycan Respublikasının yaşadığı istiqlal dövrü Azərbaycan tarixinin ən parlaq bir dövrüdür. Əski və yeni mühacirətin ilham qaynağı, 1918-ci ildə elan olunan istiqlal bəyannaməsindəki demokratik əsaslardır. Əldə edilmiş milli istiqlalı yenidən qazanmaq əvvəlki kimi yeni nəslin də idealıdır: lakin bir şərtlə: yenidən qurulacaq Azərbaycanda əski ictimai uyğunsuzluğa, siyasi haqsızlıqlara meydan verilməyəcək, sosial həmrəylik və ədalətin təmininə xüsusi əhəmiyyət veriləcəkdir” (Rəsulzadə 1991/2, 110).

**Nəticə**

Uzun müddətli siyasi-ideoloji, sosial-fəlsəfi axtarışlardan sonra Rəsulzadə milli dava ilə sosial davanı bir yerdə, tam şəkildə götürürdü. Onun milli təsanüdçülük təlimi milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu təlimi irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağa deyil, yəni onların həmrəyliyinə yönəldilməlidir. Ona görə də, Rəsulzadə sosial məsələlərdən sui-istifadə edən bolşevikləri və milli məsələdən eyni şəkildə yararlanan kapitalistləri, ya da faşistləri bir-birindən fərqləndirmirdi. Onun əsas qayəsi onların iç üzünü açıb göstərmək və əsil milli həmrəyliyə nail olmaq idi. Bu baxımdan Rəsulzadənin milli təsanüd sistemini gündəmə gətirməsi uzun elmi-fəlsəfi, siyasi-ideoloji axtarışların nəticəsi idi.

Ümumiyyətlə, milli həmrəylik təlimini, solidarizm sistemini ortaya qoymaqla Rəsulzadə mili sosial dövlət anlayışı baxımından mükəmməl bir nəticəyə gəlmişdir. Bu, artıq milli məsələ ilə sosial məsələnin bir-birilə uzlaşması demək idi. Bu, M.Ə.Rəsulzadənin mühacirət dövründə düşüncələrində yaratdığı milli sosial dövlətçiliyin yeni və son forması idi. Buna milli həmrəylik (milli təsanüdçülük) adı verən Rəsulzadə hesab edirdi ki, belə bir dövlətdə həm milli-dini dəyərləri, həm də sosial-demokrat, çağdaşlıq prinsiplərini tətbiq etmək olar. Başqa sözlə, Rəsulzadənin ortaya qoyduğu elə bir milli sosial sistemidir ki, onun da mahiyyətində məhz milli sosial dövlət bütünlüyünü özündə əks etdirən milli həmrəylik təlimi dayanır. O, bir milli ideoloq, filosof-mütəfəkkir kimi Azərbaycan Cümhuriyyətinin yalnız siyasi-hüquqi deyil, sosial-fəlsəfi anlamda da memarıdır. O, elə bir memardır ki, Rəsulzadə ideyaları əldə əsas tutularsa, milli dövlətimiz əbədiyyən yaşamaq gücünə malikdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

Akçura Yusuf (1915). İktisadi Siyaset Hakkında. Türk Yurdu, Cilt 12, sayı 12

Bebel Agustes (2011). Kadın ve Sosyalizm. İstanbul, İnter yayınları

Dürkheym Emil (2010). Sosyolojik Yöntemin Kuralları. İstanbul, Bordo-Siyah

Ələkbərli Faiq (2020). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, “Elm və təhsil”

Gökalp Ziya (1991). Türkçülüyün əsasları. Bakı, “Maarif”

Gökalp Ziya (1976). Makaleler I. Ankara, TC Kültür Bakanlığı Yayınları (Hazırlayan Ş.Beysanoğlu).

Gəncəvi Nizami (2004/1). Sirlər xəzinəsi. Bakı: «Lider nəşriyyatı»

Gəncəvi Nizami (2004/2). İskəndərnamə. Bakı: «Lider nəşriyyatı»

Meriç Cemil (2013). Kültürden irfana. İstanbul, İletişim

Məhəmmədzadə Mirzə Bala (1955). Məhəmməd Əmin Rəsulzadə. “Azərbaycan” dərgisi, Ankara, sayı 12 (36)

Məmmədzadə Mirzə Bala (1992). Milli Azərbaycan hərəkatı. Bakı, “Nicat”

Midhat Ahmet (1879). Ekomomi Politik. İstanbul

Resulzade Mehmet Emin (2017). Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, Türk tarih kurumu yayınları

Rəsulzadə Məhəmməd Əmin (2016). Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, “OL” npkt

Resulzade M.E (1978). Milli tesanüd. Ankara: Kardeş matbaası
Rəsulzadə M.Ə (2009). Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı
Resulzade M.E (1933). Demokrasi ve sovetler. «İstiklal» gaz., Berlin, 1933, 20 mart
Rəsulzadə M.Ə (1991/1). Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr
Rəsulzadə M.Ə (1991/2). Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik
Rəsulzadə M.Ə (2008). Azərbaycan şairi Nizami. Bakı, «Çıraq»
Russo Jan Jak (2011). Toplum Sözleşmesi. Ankara, Nilufer yayıncılık
Sağlam Serdar (2004). Ziya Gökalpta “Solidarizm” ve “Milli İktisat”. Türkiyat Araştırmaları Dergisi. Payız, sayı 1.Ankara
Sağlam Serdar (1996).“Ziya Gökalpın İktisadi Düşünceleri.Türk Yurdu,Cilt 16, № 103
Xəlilli Xəlyəddin (2022). Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş. Bakı, Xan nəşriyyatı
Tekin Alp (1918). Tesanütçülük-Tesanütçülüyün Gayesi. Yeni Mecmua, (9 mayıs 1918), 2, №43
Yaqublu Nəsiman (1991). Məmməd Əmin əsulzadə. Bakı, Gənclik

**Фаиг Алекперли**

## ОБУЧЕНИЕ НАЦИОНАЛЬНОЙ СОЛИДАРНОСТИ НА СОЦИАЛЬНО-ФИЛОСОФСКИХ ВСТРЕЧАХ МУХАММАДА АМИНА РАСУЛЗАДЕ

### *РЕЗЮМЕ*

В статье рассматриваются причины возникновения солидаризма в Европе и его формулировка как национальной солидарности азербайджано-турецким мыслителем, государственным деятелем Мухаммедом Амином Расулзаде. Прежде всего, это показывает сущность солидарности во Франции, занимающей альтернативную и примирительную позицию по отношению к либерализму и коммунизму. Хотя солитаризм возник во второй половине XIX века и его научно-теоретические основы были заложены французским мыслителем Огюстом Контом, который подходил к обществу в целом, основоположником этого направления в мир науки. В статье рассматриваются отличия французского солидаризма от немецкого солидаризма, а также национальные особенности этого течения в тюрко-исламском мире, в том числе в Турции и Азербайджане. Солидарность в Османской империи распространялась в рамках концепций национальной экономики и национального искусства, основной взгляд заключался в том, что перья должны вернуться к экономической философии, которой они достигли в прошлом, такой как разделение, помощь и солидарность.

В статье всесторонне рассматриваются взгляды М.А.Расулзаде на солидарность и его учение о национальной солидарности. Здесь широко представлены его обширные исследования французских, немецких и английских мыслителей о солидаризме. По мнению Расулзаде, свобода, возникшая у англичан и получившая развитие у французов в новую эпоху, и идеи иудаизма вскоре привели к возникновению либерализма (политического либерализма, экономического либерализма и т. д.) в Европе. В частности, Кант, Гегель, Конте и Спенсер более оптимистично относились к идее о том, что в ближайшем будущем человечество будет жить счастливо в социальном равенстве. В статье показано, что Расулзаде смог правильно увидеть коммунизм либерализма, а также противоречия между коммунизмом и либерализмом на более позднем этапе. Он продвигал доктрину национальной солидарности как местной формы солидарности, которая занимала правильную позицию между коммунизмом и либерализмом. Исходя из доктрины национальной солидарности, важно быть не только национальным государством, но и государством социальным. Согласно статье, Расулзаде выдвинул модель азербайджанского государства, которое в будущем будет независимым, выделив компромиссные аспекты национального

государства и социального государства. Его доктрина национальной солидарности была уникальна тем, что в ней не было места ни абсолютному коммунизму, ни абсолютному либерализму. В то же время доктрина национальной солидарности Расулзаде гуманна и не содержит элементов радикального национализма. Таким образом, поставив социальную борьбу на один уровень с национальной борьбой, Расулзаде открыл новый путь для азербайджанских тюрков.

***Ключевые слова:*** *либерализм, коммунизм, солидарность, творчество, национальная солидарность, национальное социальное государство*

**Faig Alakbarli**

## NATIONAL SOLIDARITY TRAINING IN THE SOCIO-PHILOSOPHICAL MEETINGS OF MOHAMMAD AMIN RASULZADE

### *ABSTRACT*

The article discusses the reasons for the emergence of solidarism in Europe and its formulation as a national solidarity by the Azerbaijani-Turkish thinker, statesman Mohammad Amin Rasulzade. First of all, it shows the essence of solidarity in France, which has an alternative and conciliatory position to liberalism and communism. Although solitaryism emerged in the second half of the 19th century and its scientific and theoretical foundations were established by the French thinker Auguste Comte, who approached society as a whole, only the French sociologist Emile Durkheim is considered to be the founder of this trend in the world of science. The article examines the differences between French solidarism and German solidarism, as well as the national features of this trend in the Turkic-Islamic world, including Turkey and Azerbaijan. Solidarity in the Ottoman Empire spread under the concepts of National Economy and National Art, the main on solidarity was that the feathers should return to the economic philosophy they had achieved in the past, such as sharing, assistance, and solidarity.

The article comprehensively examines M.A.Rasulzade's views on solidarity and his doctrine of national solidarity. His extensive study of French, German, and English thinkers on solidarism is widely shown here. According to Rasulzade, the freedom that emerged among the British and developed in the French in the new era, and the ideas of Judaism soon led to the emergence of liberalism (political liberalism, economic liberalism, etc.) in Europe. In particular, Kant, Hegel, Conte, and Spencer were more optimistic about the idea that humanity would live happily in social equality in the near future. The article shows that Rasulzade was able to correctly see the communism of liberalism, as well as the contradictions between communism and liberalism at a later stage. He promoted the doctrine of national solidarity as a local form of solidarity that took the right position between communism and liberalism. On the basis of the doctrine of national solidarity, it is important to be not only a national state, but also a social state. According to the article, Rasulzade put forward the model of the Azerbaijani state, which will be independent in the future, highlighting the compromising aspects of the national state and the social state. His doctrine of national solidarity was unique in that there was no place for absolute communism or absolute liberalism. At the same time, Rasulzadeh's doctrine of national solidarity is humane and has stayed away from any elements of radical nationalism. Thus, by taking the social struggle on the same level as the national struggle, Rasulzade opened a new path for the Azerbaijani Turks.

***Keywords:*** *Liberalism, Communism, Solidarity, Creativity, National Solidarity, National Social State*

**UOT 316**

**Rəcəbəli Əliyev**
fəlsəfə üzrə fəlsəfə doktoru
sosioloji tədqiqatlar laboratoriyası,
Bakı Dövlət Universiteti, baş elmi işçi

# AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL SİYASƏTİNDƏ YAŞLI ƏHALİ PROBLEMİ

*Məqalədə Azərbaycanda sosial siyasət çərçivəsində yaşlı əhalinin problemlərindən bəhs edilir. Hökumətin həyata keçirdiyi müasir sosial siyasət qiymətlərin, yaşayış səviyyəsinin və yaşayış üçün zəruri olan yaşayış minimumunun indeksləşdirilməsinin nəzərə alınmasına əsaslanır. Hər il pensiya və sosial müavinətlər tənzimlənir, ahıl əhalinin həyat şəraiti yaxşılaşdırılır. Məqalədə bu prosesin qanunvericilik əsasları nəzərdən keçirilir, lazımi statistik məlumatlar verilir.*

***Açar sözlər***: *cəmiyyət, sosial siyasət, yaşlı əhali, sosial xidmət*

Müasir dövrdə əhalinin yaşlanması məsələsi qlobal problemlər sırasına daxil olan və həyəcan təbilinin çalınmasını tələb edən bir problemdir. Belə ki, 65 yaşından yuxarı əhalinin sayı əhalinin ümumi sayına nisbətən ilbəil artır, öz növbəsində isə yaşlı əhali arasında yaşı 80-dan yuxarı olan əhali sayı da sürətlə artır. "Yaşlı əhalinin ən sürətlə artan hissəsi ahılların – yəni 80 və yuxarı yaşda olan şəxslər daxil olduğu yaş qrupudur. 2000-ci ildə bu qrup 70 milyon insanı əhatə etmişdir və proqnozlara görə növbəti 50 il ərzində onların sayının beş dəfədən çox artacağı gözlənilir" [13, səh.9]. 65-80 yaşlı əhalinin əksəriyyəti müəyyən qədər əməkqabiliyyətli olaraq cəmiyyətin həyatında fəal iştirak etmək səviyyəsində olur. Amma təəssüf ki, 80 yaşından sonra ahıl insanların əksəriyyətinin özəl baxıma ehtiyacı olur. Xüsusilə də yataq xəstəsi olan, parkinson və alsheymer kimi bir çox xəstəliklərə tutulan ahıllara baxım çox çətindir və baha başa gəlir, məsələn, ABŞ-da alsheymer xəstələrinə özəl baxım üçün hər il 100 milyard dollar xərclənir [Alsheymer xəstəliyi vikipediya]. Onu da qeyd edək ki, statistikaya görə əhalinin qocalması prosesində inkişaf etmiş ölkələr liderlik edirlər. Azərbaycan Dövlət Statistika Komitəsinin 2021-ci əvvəlinə olan məlumatına görə Azərbaycanda yaşı 65-dən yuxarı olan əhalinin sayı 756,4 min nəfərdir. Yaşı 65-80 arasında olanların sayı 593,6 min nəfərdir.Yaşlı əhali arasında yaşı 80-dan yuxarı olanların sayı isə 162,8 min nəfərdir [11, s.5].

Əhalinin sürətlə yaşlanması öz növbəsində cəmiyyətin demək olar ki, bütün sahələrinə (səhiyyə, sosial xidmətlər, ailə, əmək və maliyyə bazarı, mənzil, nəqliyyat və s.) öz təsirini göstərmiş olacaqdır, çünki bütün sahələrin yaşlılara uyğunlaşdırılması lazım gələcəkdir. "Bəzi inkişaf etmiş ölkələrdə və iqtisadiyyatı keçid dövründə olan ölkələrdə yaşlı insanların sayı artıq uşaqların sayından çoxdur, doğum səviyyəsi isə əhalinin sadə təkrar istehsalı üçün lazım olan səviyyədən aşağı düşmüşdür. 2050-ci ilə qədər bəzi inkişaf etmiş ölkələrdə yaşlı insanların sayı uşaqların sayından iki dəfə çox olacaqdır" [13, səh. 8-9].

Əhalinin yaşlanmasının səbəbi kimi əsasən iki amili göstərmək olar – orta ömür uzunluğunun artması və əhalinin təbii artımının getdikcə azalması. Bu iki səbəbin isə öz növbəsində bir çox səbəbləri vardır. Dünyada yeni texnologiyaların yaranması, tibbin inkişafı, həyat səviyyəsinin yüksəlməsi orta ömür yaşının artmasına səbəb olmuşdur. Elə göstərilən bu səbəblər üzündən əhalinin təbii artımı ilbəil azalmaqdadır. Biz orta ömür uzun-

luğunun artmasına əlbəttə ki, çox şadıq – xalqımızın mentalitetində ağsaqqal və ağbirçəklər hər bir ailənin baş tacıdır. Bizim əsas vəzifəmiz əhalinin təbii artımının azalması ilə mübarizə aparmaqdır. Bu bizim dövlətimizin ailə siyasətinin əsas istiqamətlərindən biridir. Çünki gələcəkdə ahılların rifahı indiki zamanda körpələrin doğulmasından asılıdır.

XX əsrin sonlarından başlayaraq əhalinin yaşlanması problemi BMT-nin diqqət mərkəzindədir. BMT-nin Baş Assambleyası dünya əhalisinin getdikcə artan bir hissəsinin üzləşdiyi ciddi problemləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün 14 dekabr 1978-ci il tarixli 33/52 saylı qətnaməsinə əsaslanaraq Yaşlanma üzrə Ümumdünya Məclisinin çağırılmasını qərara almışdır.

Yaşlanma üzrə I Ümumdünya Məclisi 26 iyul – 6 avqust 1982-ci ildə Vyanada keçirilmiş və qocalma problemlərinə yanaşmaları müəyyən edəcək 20 illik Fəaliyyət Planı qəbul edilmişdir. Yaşlanma problemləri üzrə 62 bənddən ibarət Vyana beynəlxalq Fəaliyyət Planı sağlamlıq və qidalanma, yaşlıların mühafizəsi, mənzil tikintisi və ətraf mühit, ailə, sosial təminat, gəlir və məşğulluq təminatı, təhsil, eləcə də, tədqiqatların toplanması və təhlili kimi məsələlərdə konkret tədbirlər görmək üçün fəaliyyətə çağırırdı [14].

1991-ci ildə Baş Assambleya yaşlı insanların müstəqilliyi, inklüzivliyi, onlara xidmət, onların özünü realizə etməsi və ləyaqətinə dair 18 bənddən ibarət Birləşmiş Millətlər Təşkilatının Yaşlılar üçün Prinsiplərini qəbul etdi. 1992-ci ildə Fəaliyyət Planını həyata keçirilməsinin növbəti tədbirlərinə həsr olunmuş yaşlanma problemləri üzrə Beynəlxalq Konfransda Yaşlanma haqqında Bəyannamə qəbul olundu. Konfransın tövsiyəsi ilə BMT Baş Assambleyası 1999-cu ili Beynəlxalq Ahıllar İli elan etdi. Beynəlxalq Ahıllar Günü hər il oktyabrın 1-də qeyd olunur. 1999-cu ildə Ahıllar ili "Bütün yaşlardan olan insanlar üçün cəmiyyət" şüarı altında keçirildi. Mövzunun konsepsiyası dörd aspekdən ibarət olmuşdur:

- bütün ömür boyu fərdi inkişaf;
- nəsillər arasında münasibətlər;
- əhalinin yaşlanması və inkişafı arasında qarşılıqlı əlaqə;
- yaşlı insanların vəziyyəti.

Beynəlxalq Ahıllar İlinin qeyd olunması bütün ölkələrdə bu mövzuda maariflənmə, elmi tədqiqatların aparılması və siyasətin hazırlanması, bütün sektorlarda yaşlanmanın nəzərə alınması və insanların həyatının bütün mərhələlərində daha effekli istifadə edilməsi məsələlərinin həllinə yardım etdi.

2002-ci ilin aprel ayında İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin rəhbərliyi altında ahıllar üzrə II Ümumdünya Məclisinin keçirilməsi əhalinin qocalması probleminin həlli üçün böyük əhəmiyyət kəsb etmişdir. Bu tədbirin keçirilməsində məqsəd dünya ictimaiyyətinin diqqətini bu məsələnin ciddiliyinə cəlb etmək, dünya əhalisinin yaşlanması ilə əlaqədar bütün dünya ölkələrinin gec-tez qarşılaşacağı fəsadların qarşısını almaq olmuşdur. Məclisdə Siyasi Bəyannamə və yaşlı insanların problemlərinə dair beynəlxalq Fəaliyyət Planı qəbul olunmuşdur.

Bəyannamənin 2-ci maddəsində qeyd olunur: "Biz dünyanın bir çox regionlarında orta ömür yaşının artmasını bəşəriyyətin ən böyük nailiyyətlərindən biri kimi sevinclə qeyd edirik. Biz başa düşürük ki, dünyanın demoqrafik strukturunda misli görünməmiş dəyişiklik baş verir və 2050-ci ilə qədər 60 yaşdan yuxarı insanların sayı 600 milyondan təqribən 2 milyard nəfərə yüksələcək, əhali arasında 60 yaşdan yuxarı insanların xüsusi çəkisinin isə 10 faizdən 21 faizə qədər qalxaraq iki dəfə artacağı gözlənilir. Bu artım inkişaf etməkdə olan ölkələrdə daha böyük və sürətli olacaq, bu ölkələrdə yaxın 50 il ərzində yaşlı insanların sayının dörd dəfə artacağı gözlənilir. Demoqrafik strukturda baş verən bu dəyişiklik bütün cəmiyyətlərimizin qarşısına insanların, xüsusən də yaşlı insan-

ların öz potensiallarını həyatın bütün aspektlərində realizə etməsi üçün imkanları genişləndirməyə yardım etmək vəzifəsini qoyur” [13, səh.2].

2002-ci ilin yaşlanma problemləri üzrə beynəlxalq Fəaliyyət Planı XXI əsrdə qocalmanın böyük potensialından istifadə etmək üçün bu işə yanaşmaları, siyasəti və təcrübələri bütün səviyyələrdə, bütün sektorlarda nəzərdən keçirilməsini tələb edir. Beynəlxalq Fəaliyyət Planının məqsədi bütün dünya ölkələrində yaşlı əhalinin təhlükəsiz və ləyaqətli şəraitdə yaşamaq və tamhüquqlu vətəndaşlar kimi cəmiyyətin həyatında iştirak etmək imkanını təmin etməkdir. Fəaliyyət Planında milli və beynəlxalq səviyyələr də daxil olmaqla bütün səviyyələrdə üç prioritet sahədə tədbirlər görmək nəzərdə tutulmuşdur :

- yaşlı insanlarin inkişaf prosesində iştirakının təmin edilməsi;
- yaşlılarda sağlamlığın yaxşılaşdırılması və rifahın yüksəldilməsinin təmin edilməsi
- bütün yaş qruplarından olan insanlar üçün geniş imkanlar və əlverişli şərait yaradan şərtlərin təmin edilməsi.

*Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.* Azərbaycan BMT-nin bir çox idarə və orqanları ilə fəal əməkdaşlıq edir və əhalinin yaşlanması probleminə ciddi diqqət yetirilir. Dövlətimiz yaşlı əhali qrupunun qayğısına qalmaq, yüksək rifahını təmin etmək üçün çox geniş qanunvericilik bazasını yaratmışdır. Bu bazaya Azərbaycan Respublikası Konstitusiyası, Ailə Məcəlləsi, Əmək Məcəlləsi, "Sosial xidmət haqqında" Qanun, "Əmək pensiyaları haqqında" Qanun və "Sosial müavinətlər haqqında" Qanun və bir çox başqaları daxildir.

Madriddə qəbul edilmiş Beynəlxalq Fəaliyyət Planının dövlətimiz tərəfindən ratifikasiyası və dəstəklənməsi nəticəsində Azərbaycanda “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı” hazırlanmış və 2006-cı il 17 aprel tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 1413 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Sənəddə qeyd edilmişdir: “Dövlət Proqramının əsas məqsədi ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə nail olmaqdır” [2].

Dövlət Proqramının əsas vəzifələri kimi aşağıdakılar göstərilmişdir:

– “...ahıl vətəndaşların sosial təminat sahəsində hüquqlarının artırılması və onların həyata keçirilməsi;

– ahıl vətəndaşların cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında iştirakının təmin edilməsi;

– ahıl vətəndaşların sosial-mədəni tələblərinin ödənilməsi sahəsində tədbirlərin həyata keçirilməsi

– ahıl vətəndaşların sağlamlığının qorunması;

– qocalma probleminin həll olunması istiqamətində dövlət, vətəndaş cəmiyyəti və özəl sektorun sıx əməkdaşlığının təmin edilməsi;

– ahıl vətəndaşların sosial müdafiəsinin təminatının elmi əsaslarının möhkəmləndirilməsi” [2].

Dövlət Proqramı ölkənin mövcud iqtisadi, sosial və demoqrafik proseslərinin inkişaf xüsusiyyətlərini nəzərə alaraq, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş tədbirləri müəyyən edir. Dövlət Proqramı üzrə aşağıdakı istiqamətlər üzrə tədbirləri həyata keçirmək nəzərdə tutulmuşdur:

1. Ahıl vətəndaşların sosial müdafiə sahəsində hüquqlarının təmin edilməsi;
2. Yaşlı nəslin sağlamlığının qorunması;
3. Ahıl vətəndaşların ictimaiyyətə inteqrasiyasının inkişafı sahəsində tədbirlər;
4. Ahıl vətəndaşların sosial müdafiəsinin elmi əsaslarının möhkəmləndirilməsi;

Bu dörd istiqamətdə aşağıdakı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur:

“Ahıl vətəndaşların sosial müdafiəsi sahəsində milli normativ hüquqi bazanın, möv-

cud vəziyyətin təhlili, beynəlxalq təcrübəyə əsaslanaraq onun təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması.

Əmək pensiyalarının baza hissəsinin məbləğinin yaşayış minimumu səviyyəsinə yüksəldilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi.

Ərazilər üzrə tənha və başqasının köməyinə ehtiyacı olan ahılların siyahısının hazırlanması və bu sahəyə aid informasiya bazasının yaradılması.

Ahıl vətəndaşların ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatında fəal iştirakını, onların təhsil və məşğulluq imkanlarını təmin etmək məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi.

Ahıl vətəndaşlar arasında özfəaliyyət bədii yaradıcılıq üzrə respublika festivalının keçirilməsinin təşkil edilməsi və onların beynəlxalq bədii yaradıcılıq festivallarında iştirak etmələrinə şərait yaradılması.

Ahılların asudə vaxtlarını səmərəli keçirmələri üçün müvafiq tədbirlərin hazırlanması və həyata keçirilməsi.

Dövlət Proqramının yerinə yetirilməsi vəziyyəti və görülən tədbirlər barədə əhalinin müntəzəm məlumatlandırılması, dəyirmi masa, müsahibə və dialoq formasında verilişlərin təşkil edilməsi.

Respublikanın mədəniyyət ocaqlarında ahıllar üçün dərnək, bədii özfəaliyyət kollektivləri və maraqlar üzrə klubların yaradılması.

İşləmək arzusunda olan ahıl vətəndaşların yeni peşələrə yiyələnməsi üçün hazırlıq və yenidən hazırlıq tədris kurslarının təşkil edilməsi.

Yaşlı nəslin ailədə, uşaq və yeniyetmələr arasında tərbiyəvi rolunun təbliği.

Ahıl yaşlarında xəstəliklərin və əlilliyin yaranmasına səbəb olan sosial-iqtisadi, ekoloji və fizioloji amillərin öyrənilməsinə dair tədqiqatların aparılması” [2].

Dövlət proqramının icrası Nazirlər Kabineti, İqtisadiyyat və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil nazirliyi, Xarici İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, yerli icra hakimiyyəti orqanlarına və digər aidiyyətli dövlət qurumlarına tapşırılmışdır.

Xüsusi kateqoriyalardan olan əlilliyi olan şəxslərin mənzillə, avtomobillə də təminatı həyata keçirilir. Tənha ahıl və əlilliyi olan şəxslər evlərində sosial xidmətlə təmin edilir. Dövlət başçısının tapşırıqlarına əsasən, əhalinin rifah halının yaxşılaşdırılmasına, həssas qruplara dövlət qayğısının artırılmasına xidmət edən sosial islahatlar ardıcıl və geniş miqyas alıb. Sosial ödənişlərdə orta hesabla 12-15 dəfə artımlar baş verib. Respublikamızda çoxsaylı reabilitasiya və sosial xidmət müəssisələri yaradılmaqla, bu müəssisələrin şəbəkəsi xeyli genişlənib [1].

Böyük yunan filosofu Aristotel “Ritorika” əsərində insanların xoşbəxtliyi haqqında yazarkən qeyd etmişdir onun tərkib hissəsinə hökmən aşağıdakılar daxil olmalıdır: “... alicənab mənşə, çoxlu dost, yaxşı insanlarla dostluq, var-dövlət, yaxşı və çoxsaylı nəsil, xoşbəxt qocalıq” [12, s.24].

Aradan təqribən 2400 il keçməsinə baxmayaraq insanların xoşbəxtlik haqqında baxışları demək olar ki, çox az dəyişmişdir. Bəs xoşbəxt qocalıq nədir? Bu sualın cavabları çoxdur: sağlamlıq, maddi rifah, övladlardan və nəvə -nəticədən sevgi və qayğı görmək, onların nailiyyətləri ilə fəxr eləmək, cəmiyyətin həyatında fəal iştirak, cəmiyyətdən sayğı görmək, sevimli işlə məşğul olmaq imkanı və sair. Bu gün iş başında olan gənc qanunşünasların, siyasətçilərin, alimlərin, idarəçilərin, vətəndaşların yaşlı əhalinin xoşbəxt qocalıq yaşamasına yardım edən , böyük və kiçikliyindən asılı olmayaraq görülən hər bir iş 40-50 il sonra həmin şəxslərin xoşbəxt qocalıq yaşamasına səbəb olacaqdır. Yaxşılıq bumeranq kimidir gec tez qayıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin “Xalq qəzeti”nə müsahibəsi // https://xalqqazeti.com/
2. Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı
3. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli № 55-IIIQ nömrəli Qanunu
4. “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 20-12-2021
5. 29 dekabr 2020-ci il tarixli 241-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti, 6 yanvar 2021-ci il, № 1)
6. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 30 dekabr 2011-ci il tarixli№ 275-IVQ nömrəli Qanunu
7. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il №54-IIIQ nömrəli Qanunu
8. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu/ http://www.e-qanun.az/fra-mework/41080
9. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu/ http://e-qanun.az/fra-mework/43114
10. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi/ Əhalinin yaş qrupları üzrə çəkisi/ https://www.stat.gov.az/source/demoqraphy.
11. Azərbaycan. Faktlar və rəqəmlər 2021. https://www.stat.gov.az/menu/6/buklet/azerbaycan_faktlar_ve_reqemler_2021
12. Aristotel. Ritorika. Bakı: 2008
13. Организация Объединенных Наций. Доклад второй Всемирной ассамблеи по проблемам старения Мадрид, 8-12 апреля 2002 года // https://www.un.org›
14. Первая Всемирная ассамблея по проблемам старения. 1982
15. https://www.un.org/ru/conferences/ageing/vienna 1982

**Раджабали Алиев**

## ПРОБЛЕМЫ ПОЖИЛОЕ НАСЕЛЕНИЕ В СОЦИАЛЬНОЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

### *РЕЗЮМЕ*

В статье рассматриваются проблемы пожилого населения в Азербайджане в рамках социальной политики. Современная социальная политика, проводимая правительством, основана на учёте индексации цен, уровня жизни и жизненного минимума, необходимого для проживания. Ежегодно корректируются пенсии и социальные пособия, улучшаются жизненные условия пожилого населения. В статье рассмотрены законодательные основы этого процесса, приводятся необходимые статистические данные.

***Ключевые слова***: *общество, социальная политика, пожилое население, социальная служба*

**Rajabali Aliyev**

## THE PROBLEMS OLDER POPULATION IN THE SOCIAL POLICY OF THE STATE OF AZERBAIJAN

***SUMMARY***

The article deals with the problems of the elderly population in Azerbaijan within the framework of social policy. The modern social policy pursued by the government is based on taking into account the indexation of prices, the standard of living and the living minimum necessary for living. Pensions and social benefits are adjusted annually, and the living conditions of the elderly population are improved. The article considers the legislative foundations of this process, provides the necessary statistical data.

***Keywords**: society, social policy, elderly population, social service*

**UOT 811.111**

**Yeganə Qaraşova**
Bakı Dövlət Universiteti, fil. f. d.
*yegana_grsh1287@mail.ru*

# İNGİLİS DİLİNDƏ MODAL FEİLLƏRİN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ VASİTƏLƏRİ

*Modal feillər ingilis dilində ən vacib qrammatik mövzulardan biridir. İngilis dilindəki modal feillər digər feillərdən müstəqil işlənməməsi və konkret hərəkəti, vəziyyəti bildirməməsi, onun modallığını, yəni danışanın ona münasibətini əks etdirməsi ilə fərqlənir. Modal feilləri öyrənmək çox vacibdir, çünki onlar ingilis dilində çox yayılmışdır və cümləni düzgün başa düşmək üçün olduqca önəmlidir.*

*Məqalədə ingilis dilində modal feillərdən istifadə edərkən nəzərə alınmalı olan vacib aspektlərdən bəhs edilir. Həmçinin modal feillərin cümlənin mənasına təsiri və modal feillərin özünəməxsus xüsusiyyətləri nümunələr əsasında izah edilir. Məqalədə ingilis dilində modal feillərin əsas xüsusiyyətləri, bu feillərin Azərbaycan dilində ifadə vasitələri barədə məlumat verilmişdir.*

***Məqsəd:*** İngilis dilində modal feillərin leksik və qrammatik çalarlarının üzə çıxarılması, tələbələrin ingilis dilinin mənimsənilməsində ortaya çıxan çətinliklərini müəyyənləşdirmək və bu sahədə mövcud problemləri ortadan qaldırmaqdır.

***Metodologiya:*** Məqalədə təsvir, struktur, modelləşdirmə, analiz, induksiya, deduksiya, introspektiv kimi linqvistik tədqiqat metodlarından, həmçinin dilçilik elminin inkişafı prosesində formalaşan standart tədqiqat vasitələrindən istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi:*** Məqalədə ingilis dilində modal feillərin əsas və fərdi xüsusiyyətləri, ingilis dilində modal feillərin Azərbaycan dilində ifadə vasitələri barədə məlumat verilmişdir.

***Açar sözlər:*** *modal feillər, qrammatik quruluş, ingilis modal feilləri, köməkçi feillər, feilin zamanları*

## Giriş

Modal feillərin ümumi xarakteristikası onların mənaca modal, funksiyaya görə köməkçi, formaca qeyri-kafi olması, feil sistemində isə semantik və köməkçi feillər arasında aralıq mövqe tutmasıdır. Azərbaycan və ingilis dillərində modallığı ifadə etməyin əsas yollarından biri subyektlə hərəkət arasındakı əlaqəni, yəni bildirilənin reallıqla əlaqəsini ifadə edən modal feillərdir. İngilis dilində modal feillər **köməkçi feillərdir**, çünki onlar tək işlənə bilmirlər, lakin həmişə əsas feil ilə müşayiət olunmalıdırlar. Modal feillərin müəyyən zamanları əvəzedici feillərdən istifadə etməklə düzəlir.

## Modal feillərin ümumi xüsusiyyətləri

Modal feillər ingilis dilində ən vacib qrammatik mövzulardan biridir. İngilis dilindəki modal feillər digər feillərdən müstəqil işlənməməsi və konkret hərəkəti, vəziyyəti bildirməməsi, onun modallığını, yəni danışanın ona münasibətini əks etdirməsi ilə fərqlənir. “Modal feillər hərəkəti və ya vəziyyəti deyil, danışanın hərəkətə münasibətini ifadə edən feillərdir: hərəkətin yerinə yetirilməsinin qabiliyyəti, imkanı, ehtimalı, zəruriliyi və ya arzuolunmasıdır.” [3]. Modal feil və əsas feilin məsdəri birlikdə mürəkkəb modal predikatı

(*compound modal predicate*) əmələ gətirir. Modal feillər dəyişmir - onlar üçün sonluqları əvəz etmək lazım deyil. Onlardan sonra bizə **to** hissəciyi lazım deyil, amma mütləq başqa “adi” feilə ehtiyacımız var.

Modal feillərin aşağıdakı xüsusiyyətləri var:

- Onlardan birbaşa feil əsası (**to** olmadan modal + məsdər) (ought istisna olmaqla, birbaşa **to** ilə məsdər) və ya feildən sonra zərf gəlir. Qısa cavablarda feil bazası (**to** olmadan məsdər) nəzərdə tutulur.
- Bir feil qrupunda yalnız bir modal ola bilər (ABŞ-ın cənub ştatlarından başqa).
- Onlar sual və inkar cümlələri yaratmaq üçün istifadə olunur. Onlar do köməkçisi ilə uyğun gəlmir .
- Onlardan bəziləri zaman (indiki və ya keçmiş) işarəsini daşıyır: **can (could)** və **will (would ).**
- Onların nə məsdər, nə **en**- ing forması, nə də **en**-s forması var, ona görə də onlara ənənəvi olaraq “qüsurlu feillər” də deyilir.

Modal feillərin zaman funksiyasının praqmatika baxımından öyrənilməsi də maraqlıdır. Be, do, have köməkçi feillərindən fərqli olaraq, onlar heç vaxt tək işlədilə bilməzlər, ancaq əsas feillə əlaqədə olurlar. “Modalların cəm halında uyğunlaşdırılmasına ehtiyac yoxdur, ona görə də modala bitən “-s” və ya “-es” əlavə etməyə ehtiyac yoxdur. Modallara tez-tez gələcək ehtimalı proqnozlaşdıran, qabiliyyəti təsvir edən, məsləhət verən, sorğu verən və ya icazə istəyən cümlələrdə rast gəlinir” [8, s. 1].

**İngilis dilində modal feillər**

**İngilis dilində modal feillər** xüsusi feil qrupuna aiddir. İngilis dilində modal feillərin əsas xüsusiyyəti onların konkret hərəkət və ya vəziyyəti bildirməməsidir. Modal feillərlə ifadə olunan zərurət və imkan həmişə zaman oxunda sərbəst yerləşdirilmir. İngilis dilində modal feillər nisbətən azdır və onların hər birinin öz mənası var.

Modal feillərə aşağıdakılar daxildir:

- Modal feillər: **can, could, should, must, will, would, may, might, shall**;
- Yarım modal feillər: **dare, need, ought to**;
- Modal mənalı feillər (modal feillərin ekvivalentləri): **have to, to be to**.

Modal feillər istənilən sayda və cinsdə eyni formada istifadə olunur. İstisnalar yenə have to və be to feilləri olacaqdır. **Can**, **May** və **Must** feilləri ən çox istifadə olunan modal feillərdir. Bu feillər ən ümumi mənaya malikdir və bəzən digər modal feilləri əvəz edə bilir. **Müasir ingilis dilində will** modal feili nadir hallarda istifadə olunur. Gələcək zamanı bildirmək üçün işlənən məşhur feil - **will** də modaldır və müxtəlif situasiyalarda işlənə bilir. **Will** ingilis dilində ən çox istifadə olunan modallardan biridir. Xüsusilə ingilis dilində **will** daha çox gələcəkdə baş verməsi planlaşdırılan hadisələrdən danışarkən istifadə olunur. Bundan əlavə, istək və şərt cümlələrində də rast gəlinir. ***Can*** və ***may*** feillərində indiki zamanda, keçmişdə *isə* ***could, might*** işlədilir. **Must,** ***ought*** və ***need*** feilləri yalnız indiki zamandadırlar.

İngilis dilində modal feillər bütün şəxslər və saylar üçün eyni formaya malikdir. Sorğu forması köməkçi feillərsiz düzəlir. İnkar forma hissəciksiz əmələ gəlir.

*May I use your phone? - Telefonunuzdan istifadə edə bilərəmmi?*

**İngilis dilindəki modalların Azərbaycan dilində istifadəsi**

İngilis və Azərbaycan dilləri təkcə fərqli qrammatik quruluşa deyil, həm də bu dillərin hər birinə xas olan özünəməxsus xüsusiyyətlərə malikdir: ingilis dili flektiv dildir, Azərbaycan dili (bütün türk dilləri kimi) isə aqqlütinativ dildir. İngilis modalları

qrammatik cəhətdən dilimizdə köməkçi feillər kimi təsnif edilir. Gündəlik həyatla bağlı ifadələrin ötürülməsində ingilis dilində geniş istifadə olunan modallar ingiliscə cümlə quruluşuna uyğun olaraq formalaşır. Məlum olduğu kimi, ingilis dilində cümlələrin qurulması subyekt, predikat və obyekt kimi qaydalardan asılıdır və modalların istifadəsi bu şəkildə ortaya çıxır. İngilis dili öyrənmə prosesini asanlaşdırmaq üçün mümkün qədər vizual materiallardan istifadə etmək və cümlələrin quruluşunu öyrənmək son dərəcə vacibdir. İngilis dilində ən çox seçilən mövzulardan biri olan modal feilləri incələyərək birdən-birə bütün modal feilləri görə bilərsiniz. “Müasir ingilis dilində gələcək zaman formalarında obyektiv gələcək mövcud olmur. Bu səbəbdən o, ingilis dili üçün feilin indiki və keçmiş zamanlarından ibarət zamanlar sistemi təklif edir” [2]. Müvafiq mövzu ilə bağlı tədqiqat aparan A.İ.Smirnitski isə bu fikri inkar edirdi: “İngilis dilində bir çox hallarda gələcək zaman formaları obyektiv zaman bildirir və modal məna çaları ilə bağlı olmur” [6].

İngilis dilində “bacarmaq” mənasını verən “**Can**” insanın nəyisə etmək qabiliyyətindən danışarkən istifadə olunur. Digər modal növlərdə olduğu kimi, mövzudan sonra “**Can**” əlavə olunur və feilin nominativ formasından istifadə olunur. İngilis dilində modallar arasında tez-tez istifadə olunan **must** bir şey etmək məcbur olanda geniş şəkildə ifadə edilməlidir. İngilis dilində bir şeyin zərurətini ifadə etmək üçün ətraflı şəkildə bilinməlidir. Azərbacan dilində *-malı/-məli* mənasını verən **Must z**ərur0 vəziyyətlərdə istifadə edilir və bəzi hallarda qarşı tərəfin nə istədiyini də ifadə edir. **Must** köməkçi feili nəyinsə lazımlı və ya lazımsız olduğu zaman istifadə olunur. Məsələn:

*They must study harder. (Daha çox oxumalıdırlar.)*

**Should** ətrafımızdakı insanlara müsbət məsləhət vermək istədiyimiz demək olar ki, hər vəziyyətdə istifadə olunur. Təsdiq cümlələrində "*olmalıdır*" mənasını verən Should, bir şeyin edilməsinə dair tövsiyələri ehtiva edir.

Zamana görə ingilis dilindəki modal feilləri Azərbaycan dilində aşağıdakı kimi istifadə edilə bilər:

İndiki zaman – *I must study.*

Keçmiş zaman – *I had to study*

Gələcək zaman –*I will have to study.*

Have to bir şeyin edilməli olduğunu, zəruri və ya məcburi olduğunu təsvir etmək üçün istifadə olunur. Ümumiyyətlə, have to şəxsi olmayan öhdəlikləri təsvir etmək üçün istifadə olunur.

*Students have to pass an exam to enter a university.*

*(Universitetə daxil olmaq üçün tələbələr imtahan verməlidirlər.)*

İngilis dilində modal feillər nitqə emosionallıq verir, incə məna çalarlarını və danışanın söhbət mövzusuna münasibətini çatdırır, nəticədə ingilis dilində modal feillərin dəyəri böyükdür. İngilis dilindəki modal feillərdən istifadə edərkən hansı modal feilin nə vaxt istifadə olunacağını bilmək vacibdir. “Digər modal feillərdən fərqli olaraq, shall feili spesifik xüsusiyyətə malikdir; o heç vaxt sırf modallıq (danışanın icra edilən hərəkətə münasibətini) bildirmir” [1, s. 200].

Modal feillərin şəxs və saylara görə dəyişməməsi modal feillərin işlənməsini xeyli asanlaşdırır. Modal feillər özbaşına işlənmir. Onlarla qoşalaşdıqda həmişə ilkin formada semantik feil olur. İstisna hal kimi **to-**nu göstərə bilərik, to üçüncü tək şəxsdə **has to** formasını alır.

*She has to read four books. - O, dörd kitab oxumalıdır.*

Cümlə gələcəklə bağlı olsa belə, modal feillər həmişə indiki zamanda olur. Yadda saxlamaq lazımdır ki, onlardan bəziləri keçmiş zaman formasını ala bilir, məsələn, **can - could, may - might.** İnkar və sual cümlələrinə gəlincə, modal feillər onlarda köməkçi feil

tələb etmir. Yeganə “have to” istisnadır.

Modal feillərlə təsdiq cümlələrinin necə qurulduğunu nəzərdən keçirək. Onlarda əvvəl subyekt, sonra modal feil, nəhayət ilkin formada semantik feil gəlir. Eyni zamanda, **have to və ought to** istisna olmaqla, feilləri bağlamaq üçün to hissəciyi tələb olunmur. Maraqlıdır ki, inkar cümlələrində hər iki modal feilin mənası dəyişir. Kateqorik qadağadan danışmamalı və hər hansı bir hərəkətin yerinə yetirilməsinin istəyə bağlı olması lazım deyil. Sorğu cümləsi qurmaq üçün ilk növbədə modal feili, bundan sonra semantik feili işlətmək lazımdır. Artıq qeyd edildiyi kimi, **have to** singular suallar yaratmaq üçün do, did və ya will köməkçi feili tələb edir. Modal feilin ekvivalentləri **to have to** və **to be obligated to** ilə eyni mənaya malik olmalıdır. Onlar modal feildən istifadə edilə bilməyəndə istifadə olunur. “İngilis dilində as must, have to, have got to, can't və couldn't modal feilləri deduksiya və mübahisəni ifadə etmək üçün istifadə olunur. Bu modal feillər danışanın bir şey haqqında nə dərəcədə əmin olduğunu bildirir” [7].

**Woud** – iradə feilinin keçmiş zaman forması mürəkkəb cümlənin birinci cümləsindəki feil keçmiş zamanda, II və III – şəxs tək və cəmdə olduqda tabeli cümlədə işlənir. Tezliklə gələcəyini dedi. Would tək və cəm halda modal mənada işlənir. Və bir məqsəd, arzu və ya razılaşmanı təmsil edir.

Modal feilli cümlələrdə aspekt kateqoriyası yalnız onların məsdər tamamlamalarının aspektual xüsusiyyətlərində təqdim olunur. İngilis dilində **may, might** və **could** modal feillərindən indiki və gələcək zamanlarda imkanı ifadə etmək üçün istifadə edirik. Amma bəzi hallarda yuxarıdakı modal feilləri “bəlkə” və ya “ehtimal” kimi zərflərlə əvəz edə bilərik. Misal üçün:

*They could be there by now.- Onlar indiyə qədər orada ola bilərdilər.*

Normalda adi feillər kimi birləşən bu iki feil də modallar kimi birləşir, ancaq sorğu və inkar formalarında işlədilir. Modal feillərin keçmiş formaları yoxdur, ona görə də bu zamanlar üçün əvəzedici formalardan istifadə olunur. Beləliklə, "can" üçün "could" və "may" üçün "might" istifadə edilə bilər. İnkar hallarında modal feildən sonra “not” gəlir. Qısa forma həmişəki kimi "n't" ilə formalaşır.

Modal feillərlə cümlə qurarkən, mütləq üç xüsusiyyətə riayət etmək lazımdır:

1) Onlar dəyişməzdirlər. Cümlənin zamanı, cümlənin mövzusu, modalları həmişə eyni şəkildə yazılır. Onu indiki zamanda üçüncü şəxsin təkində **s** qəbul edən “normal” feillərlə qarışdırmaq olmaz (məsələn: *She plays*).

2) İkinci xüsusiyyət: onlardan sonra məsdər işlədiliir .

3) Üçüncü özəllik: inkar və sual cümlələrində özlərini köməkçi kimi çıxış edirlər. Buna görə də **do** və **be** kimi köməkçilərə ehtiyac yoxdur.

**Modal feillərim tərcüməsi**

Hər modal fərqli bir fikri və eyni modal kontekstdən asılı olaraq fərqli mənalar ifadə edə bilir. Bu, tez-tez əvvəlcə çaşqınlıq yaradır, lakin mümkün mənalar və kontekst əldə etdikdən sonra kifayət qədər tez həll olunur. “Tərcüməçi modal mənalara və onların çalarlarına məhəl qoymursa, bununla da tərcüməni zəiflədir, onu emosional koloritdən məhrum edir, ən pis halda isə sadəcə mənasını təhrif edir” [5].

İngilis dilində modalları mənimsəmək modallığın eyni feil üçün dəyişə biləcəyini müşahidə etməkdən ibarətdir. “Dildə modallıq çox mühüm rol oynayır. Modallıq danışanın, ifadənin məzmununa və ifadənin özünün reallığa münasibətini əks etdirən qrammatik kateqoriyadır” [4].

Tərcümə prosesində - bir dildə ifadə olunan fikrin başqa bir dil vasitəsi ilə ötürülməsi zamanı tərcüməçi müxtəlif növ çətinliklərlə qarşılaşır. Bu çətinliklərdən biri də ictimai

nitqi ingilis dilindən rus dilinə tərcümə edərkən modal feillərin mənalarının çatdırılması yoludur. Modal feillər qrupuna məna, işlənmə və qrammatik formalarına görə bir sıra xarakterik xüsusiyyətlərə malik bütün feillər arasında seçilən az sayda feillər daxildir. Bu feillərin heç bir uyğun şifahi qrammatik kateqoriyası (səsin növü, temporal istinadı) yoxdur; onlar ancaq predikatın göstəriciləri olan əhval-ruhiyyə və zaman formalarına malik ola bilirlər. Cümlədəki roluna görə modal feillər köməkçidir.

Onlar hərəkəti deyil, yalnız modal münasibəti ifadə etdikləri üçün heç vaxt cümlənin ayrıca üzvü kimi işlənmirlər. Kütləvi nitqin tərcüməsi həm də müəyyən janr və üslub şərtlərinə riayət etməklə yanaşı, müəllifin yaradıcı şəxsiyyəti ilə bağlı fərdi orijinallığın bərpasını da nəzərdə tutur. Bu orijinallıq müəyyən janr müxtəlifliyinə xas üslub formalarında təzahür edir və tərcümədə tərcümənin aparıldığı dildə eyni janra xas olan uyğun formalarla birləşməni tələb edir. Kütləvi nitqdə modal feillərin tərcüməsi zamanı analitik mərhələyə ehtiyac xüsusi əhəmiyyət kəsb edir, çünki tərcüməçinin əsas vəzifəsi təkcə deyilənləri deyil, həm də necə deyildiyini çatdırmaqdan ibarətdir.

**Nəticə**

Modal feillər hərəkətin özünü birbaşa ifadə etmir, passiv formada əsas feilin verdiyi hərəkətin mümkünlüyünü və zəruriliyini ifadə edir. Onlar hərəkətin özünü deyil, ona münasibəti bildirir. Modallığı izah etməyin ən sadə yolu onun müvafiq situasiyaya münasibəti ilə bağlı olduğunu söyləməkdir. Modal köməkçilər (modal köməkçi feillər) cümlənin mənasını dəyişir. Bir şeyin edilə biləcəyini və edilməli olduğunu bildirirlər.

Modal feillər həmişə yalnız məsdərlə birləşərək onunla birləşmələr əmələ gətirir ki, bu da cümlədə mürəkkəb modal predikatdır. Cümlədə modal feillər həmişə məsdər (mükəmməl və qeyri-kamil) ilə birləşərək onunla bir birləşmə əmələ gətirir ki, bu da mürəkkəb modal predikat adlanır. Aydındır ki, ənənəvi baxışlar tədqiqat problemi kimi modal feillərin hamısını əhatə etmir. Ona görə də təkcə formal qrammatik, struktur və semantik xüsusiyyətlərinə diqqət yetirməklə yanaşı, modal feillərin işlənmə tezliyini, üslub və funksional xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Modal feillər bizim üçün xüsusi maraq doğurur, çünki onlar danışanın öz ifadəsinin mövzusuna şəxsi münasibətini ifadə etmək üçün nəzərdə tutulmuşdur, bu, ictimai nitq üçün səciyyəvidir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Allahverdiyeva F. Müasir ingilis dilində sadə cümlələrin invariant modelleri və variativliyi. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2021.

*Rus dilində*

2. Есперсен, О. Философия грамматики / О. Есперсен. – М.: Изд-во иностр. Лит., – 1958, – с.301
3. Каушанская В.Л. Грамматика английского языка: пособие для студентов педагогических институтов. - Л., 1963.
4. Косачева, Т.А. Особенности перевода модальных глаголов и фразовых единиц с английского языка на русский / Т.А.Косачева. — Текст : непосредственный // Актуальные проблемы филологии : материалы III Междунар. науч. конф. (г. Казань, май 2018 г.). — Казань: Молодой ученый, 2018. — С. 33-36.
5. Романова С. П., Коралова А.А. Пособие по переводу с английского на русский, Москва, издательство книжный дом «Университет», 2004–171 с.
6. Смирницкий, А.И. Морфология английского языка / А.И.Смирницкий. – М.: Изд. лит. на ин. языках, – 1959. – с. 332–333
7. Oxford Practice Grammar (Advanced), George Yule, Oxford University Press

ISBN 9780194327541 Page:40
8. Wong M. Modal Verbs, Fall 2021. San Jose State University Writing Center. www.sjsu.edu/writingcenter.

**Егане Гарашова**

## ГЛАГОЛЫ АНГЛИЙСКИХ МОДАЛЬНЫХ ГЛАГОЛОВ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

### *РЕЗЮМЕ*

Модальные глаголы — одна из самых важных грамматических тем в английском языке. Модальные глаголы в английском языке отличаются от других глаголов тем, что они не употребляются самостоятельно и не указывают на конкретное действие или ситуацию, отражая его модальность, то есть отношение к нему говорящего. Очень важно знать модальные глаголы, потому что они очень распространены в английском языке и очень важны для правильного понимания предложения. В этой статье обсуждаются важные аспекты, которые следует учитывать при использовании модальных глаголов в английском языке. Также на примерах объясняется влияние модальных глаголов на смысл предложения и специфические характеристики модальных глаголов. В статье представлена информация об основных характеристиках модальных глаголов английского языка, средствах выражения модальных глаголов английского языка в азербайджанском языке.

***Цель:*** выявить лексико-грамматические нюансы модальных глаголов в английском языке, выявить трудности, возникающие при овладении учащимися английским языком, и устранить существующие проблемы в этой области.

***Методология:*** В статье использованы такие лингвистические методы исследования, как описание, структура, моделирование, анализ, индукция, дедукция, интроспектива, а также стандартный исследовательский инструментарий, сформированный в процессе развития лингвистической науки.

***Результат исследования:*** В статье представлена информация об основных и индии-видуальных характеристиках модальных глаголов английского языка, средствах выражения модальных глаголов английского языка в азербайджанском языке.

***Ключевые слова:*** *модальные глаголы, грамматическая конструкция, английские модальные глаголы, вспомогательные глаголы, времена глаголов*

**Yeganeh Garashova**

## VERBS OF ENGLISH MODAL VERBS IN AZERBAIJAN LANGUAGE

### *SUMMARY*

Modal verbs are one of the most important grammar topics in English. Modal verbs in English differ from other verbs in that they are not used independently and do not indicate a specific action or situation, reflecting its modality, that is, the speaker's attitude towards it. It is very important to know modal verbs because they are very common in English and are very important to understand the sentence correctly. This article discusses important aspects to consider when using modal verbs in English. Also, the effect of modal verbs on the meaning of the sentence and the specific characteristics of modal verbs are explained on the basis of examples. The article provides information on the main characteristics of modal verbs in English, the means of expression of modal verbs in English in Azerbaijani.

***Purpose:*** To reveal the lexical and grammatical nuances of modal verbs in English, to identify the difficulties that arise in students' mastery of the English language, and to eliminate existing problems in this field.

***Methodology:*** Linguistic research methods such as description, structure, modeling, analysis, induction, deduction, introspective, as well as standard research tools formed in the process of linguistic science development were used in the article.

***The result of the research:*** The article provides information on the main and individual characteristics of modal verbs in English, the means of expression of modal verbs in English in Azerbaijani.

***Keywords:*** *modal verbs, grammatical structure, English modals, auxiliary verbs, verb tenses*

**UOT 1.157.17**

**Rabil Mehtiyev**
Bakı Mühəndislik Universiteti, dosent
*e-mail:rabilmehtiyev@mail.ru*

# SOSİAL VƏ ƏMƏK MÜNASİBƏTLƏRİ KONTEKSİNDƏ TƏHSİL FƏLSƏFƏSİNİN TRANSFORMASİYASI

*Məqalədə təhsilin fəlsəfi problemləri təhlil obyekti olaraq götürülməklə müasir şəraitdə bu istiqamətdəki yeniliklər və təzyiqlər nəzərdən keçirilir. Qeyd olunur ki, təhsil qədər ictimai marağa və qınağa məruz qalan ikinci bir sahə tapmaq mümkün deyildir ki, bu da cəmiyyətin daha çox üzvlərinin bu sferaya olan maraqlarının daim yüksəlməsi ilə xarakterizə olunur. Belə dinamikada olan prosesin fəlsəfi dəyərləndirmilməsi üçün ölkə həyatının digər sahələrindəki trendlər də təhlil müstəvisinə cəlb edilməklə təhsil paradiqmasını transformasiyası tədqiqat obyekti kimi götürülmüşdür.*

***Məqsəd*** – təhsilin fəlsəfi dəyərləndirilməsiniə yeni yanaşmaların zəruriliyni postsənaye dövrünün tendensiyaları konteksində araşdırılması

***Metodologiya*** – İnduksiya və deduksiya metodları vasitəsilə təhsilin məzmun və strukturunda transformasiya cəmiyyətin ümumi inkişaf meyllərinin təzahürü kimi tədqiq olunur

***Tədqiqatın nəticələri*** – təhsilin fəlsəfəsinə real tendensiyalar konteksində yanaşmaqla bu sahədəki müasir proseslər ilə şərtlənən neqativ halların təhlil müstəvisinə gətirilməsidir.

***Açar sözlər:*** *təhsilin fəlsəfəsi, təhsildə yeni tendensiyalar, peşə ixtisasları, təhsil proqramları*

## Giriş

Təhsilin fəlsəfəsi bir sıra amillərin vəhdətindən formalaşır ki, bunları belə səciyyələndirmək olar: bilik kimi; rəqabət kimi; dünyagörüşü kimi; sərmayə kimi; mənəvi-psixoloji amil kimi; nəhayət tale, aqibət kimi.

Bu amillərdən hansıların daha prioritet olduğunu demək mümkün olmasa da, sonuncu, yəni tale kimi dəyərləndirmə xüsusi haldır. Nə üçün? Təhsil həmişəmi üstünlük, təminat, bir sözlə rahatlıq yaradırmı? Kifayət qədər diplomlu şəxslərin təhsil tələb etməyən sahələrə üz tutması, təhsilə sərf etdikləri zamana təəssüflənməsi halları danılmazdır. Belə olan təqdirdə, təhsilin hansı səviyyələri konkret şəxslər üçün daha adekvatdır məsələsi aktuallaşır.

Təhsilin paradiqmaları sürətlə dəyişir. Bu fikrin təsdiqi rusiyalı alimlər tərəfindən belə verilir: Ənənəvi humanizmin mövqeyi müasir reallığa uyğun gəlmir. Dünya dəyişib və təhsil də dəyişməyə bilməz  (3, s.151).

Təlimin məqsədi insanda fərdi dəyərlər sistemini əhatə edir ki, onun meydana gəlməsi insanın sosial-mədəni inkişafın yeni mərhələsinə keçidi deməkdir (5,s.127).

## 1. Təhsil paradiqması yeni xüsusiyyətlərlə xarakterizə olunan sosial trend kimi

Təhsilin təkmilləşdirilməsi təhsilin məzmununun, texnologiyaların və modellərin gələcəyin çağırışlarına uyğunlaşdırılmasını tələb edir. Əvvəllər təhsilin məqsədi hazır bilikləri çatdırmaq idisə, informasiya cəmiyyətinin müasir mühitində və açıq informasiya şəbəkələrinin mövcudluğunda belə yanaşma aktuallığını itirir (1).

Bu da öz növbəsində təhsilin subyektlərinin davranışının, həyat ritmlərinin transformasiyasına səbəb olur. Belə meyllər əlbəttə ki, birmənalı olaraq müsbət xarakterizə oluna

bilməz. İnsanlar həyatın virtual trendlərinə aludə olmaqla ilkin mahiyyətlərindən uzaqlaşmağa başlayıblar. Rəqabət pik həddə çatıb ki, bu da cəmiyyətin aqressivləşməsinə, insanların səbrsiz və digərlərinə qarşı tolerantlığının azalmasına gətirib çıxarır. Rəqabətin inkişafın tələbi olduğunu qəbul etmək olar. Amma rəqabətin meyarları nədir?

Kim kiminlə yarışır? Bu yarışa zərurət varmı? İnsan fiziki və mənəvi olaraq nə qədər rəqabətə davamlı varlıqdır? Bu kimi suallar indi daha aktualdır. Çünki, az məlumatlı şəxslər hansısa bir xarici dilin, ya bir iş proqramının mənimsənilməsini asan sayaraq, övladlarını bu sahədə tezliklə nailiyyət qazanmağa təhrik edirlər. Gənclərin böyük sosial təzyiq altına düşmələri onların psixologiyasına, gündəlik davranışına və ünsiyyətinə mənfi təsir göstərr. Qəbul etmək lazımdır ki, təhsil özlüyündə məqsəd deyil, vasitədir. Yəni, biliklərə yiyələnməklə daha üstün sosial status qazanmaq və mənəvi baxımdan tamamlanmış şəxsiyyət olmaq.

Daha problematik olan budur ki, bu öyrənmənin sonu yoxdur, həyat boyu davam etməlidir. Bu məqamda həyat boyu təhsil konsepsiyasının bəzi cəhətlərinə diqqət yetirək. Konsepsiyanın ilk növbədə brend xarakterli olduğunu qeyd edək. Yəni, insanların sosial iyerarxiyada daim stabil və avanqard mövqe tutmaq üçün təhsilin həyat boyu davam etməsi qabardılır. Burada obyektiv olan budur ki, post-sənaye dövrünün xüsusiyyətləri demək olar ki, alternativ saxlamır.

Əmək bazarı bilikli və bacarıqlı olanları axtarır. Nə etməli, daim əmək bazarı üçün aktual olan bacarıqları necə əldə etmək mümkündür? Bu sualın cavabı yoxdur desək yanılmış sayıla bilmərik. Çünki həyat ritmləri olduqca sürətləndirilib. Bunun arxasında transmili korporasiyalar, iri şirkətlər dayanır. Çünki gəlirin artması fonunda insan istismarı görünməz olmuşdur. Diqqət edək, əvvəlki dövrdə ingilis dilini yalnız ingilis dili müəllimləri, ya da tərcüməçilər bilərdilər. İndi hamıdan həm hansısa bir peşəyə , deyək ki, elektrik mühəndisi olmaqdan asılı olmayaraq eyni zamanda ingilis dilini sərbəst bilmək tələb olunur.

Bu bütün dünyada, habelə ölkəmizdə belədir. Süal olunur ki, bir tərcüməçi, ya xarici dil müəllimi hazırlamaq ayrıca təhsil proqramı, yəni bir ixtisasa yiyələnmək müddəti tələb etdiyi halda başqa ixtisasda təhsil alanlardan bu eyni qaydada necə tələb oluna bilər? Buna görə də, insanlar əlavə dil kurslarının cazibəsinə düşürlər ki, bu da əlavə vaxt və pul itkisi deməkdir. Nəticə isə həmişə nisbi olur. Yəni, müvəffəqiyyət tam olaraq əldə edilmir.

### 2. Sosial münasibətlər və əmək bazarı konteksində təhsilə yeni paradiqma zərurəti

Cəmiyyətin sosial strukturunun transformasiyası öz növbəsində təhsilin modifikasiyasını zəruri etmişdir. Nəyi nəzərdə tuturuq? Müasir cəmiyyətdə peşələrin mütəmadi olaraq yeni versiyaları peyda olur. Bu gün inkişaf etmiş ölkələrdə təhsil sistemi ümummilli inkişafın başlıca amili kimi xarakterizə olunur (2, s. 43).

Məsələn, Azərbaycanın sosial həyatına yeni daxil olan menecer və mühəndislik ixtisaslarının öz növbəsində daxili diferensasiyasına nəzər yetirək. Ölkəmiz üçün ənənəvi olan neft-qaz sahəsi üzrə ixtisasların qəbul üzrə keçid balları son illər sürətlə aşağı düşür.

Bura neft-qaz mühəndisliyi, kimya mühəndisliyi və sair peşələri aid etmək olar. Səbəb? İnformasiya-kommunikasiya üzrə ixtisasların gənclər arasında populyarlıq qazanması və buna görə də yuksək bal toplayan abituriyentlərin bu ixtisasları seçməsidir. Bu seçimin fəlsəfəsi yalnız yüksək qazancamı əsaslanır? Birmənalı müsbət cavab vermək olmaz.

Belə ki, informasiya-kommunikasiya texnologiyaları ilə məşğul olmaq istəyənlər daha çox sərbəst iş qrafikinə, yəni evdən işləmə imkanı, eləcə də rahat şəraitə də meyl edirlər. Belə olan halda daha potensiallı gənclər ölkə iqtisadiyyatında birtərəfli təmsil olu-

nurlar. Bu isə sahələrarası balansı pozmaqla digər aktual sahələrin reqresiyasına şərait yaradır. Bu xüsusda, yəni texniki vasitələrin insanı robotlaşdırması, sırf icraçıya çevirməsi ilə bağlı bir fikir belədir:

Təhsil prosesinin texnokratizasiyası. Onun nəticəsi insan mahiyyətinin maşınlaşması, insanın belə demək mümkünsə, maşın davranışını mənimsəməsi, yəni, insanın maşına çevrilməsi. Bu tendensiyanın bir neçə cəhəti var – sözün birbaşa mənasında texniki, texnoloji və texnokratik. Ancaq bütün hallarda texnokratik bir məqam var-insan mahiyyətinin maşınlaşması. Məsələn, pedaqoji prosesin texniki vasitələrlə həddindən artıq yüklənməsi, əksər hallarda adekvat metodoloji dəstək olmayanda insan sanki bir alətə çevrilir (6, s. 21).

Çıxış yolu nədir? Bunun üçün abituriyentlərin bilavasitə istehsal sahələrinə - zavod, fabrik və digər dövriyyəsi böyük olan müəssisələrə turlarının təşkil olunmalıdır. Belə turlar onlarda əmək prosesinin avtomatlaşması, iş şəraitinin onların təsəvvür etdiklərindən daha rahat olması barədə əyani təsəvvür yaradar. Bununla da ixtisas seçimində potensiallı gənclər ilk baxışda onlar üçün cəlbedici olmayan ixtisaslara maraq göstərə bilərlər. Beləliklə, ilkin təsəvvürlər real yanaşmalar ilə əvəz olunar, bu da respublika üçün gərəkli sahələrə daha savadlı gənclərin axınına zəmin yaradar.

Natamam məlumat, yaxud da ümumiyyətlə məlumatsızlıq, bir çox hallarda diletantlıq gənclərdə səhv təsəvvür yaradır. Məsələn, bir çox iş elanlarında vakansiyaya çıxarılan vəzifələr barədə tələblərdə tam ali təhsil- magistratura tələbi yazılır.

Digər hallarda isə bakalavr təhsilinin qarşısında natamama ali təhsil yazılır. Ümumiyyətlə, Azərbaycan Respublikasında natamam ali təhsil anlayışı  mövcud deyill. Orta ixtisas təhsilli şəxslərə də natamam ali təhsilli şəxslər kimi yanaşmaq olmaz. Bu qəbildən olan şəxslər subbakalavr təhsil pilləsini başa vurmuş sayılırlar. Bakalavr pilləsi isə tam ali təhsildir. Bunları ona görə bir daha xatırladırıq ki, bir çox hallarda diletant yanaşmalar gənclərin karyera seçiminə, beləliklə də onların aqibətinə təsir göstərmiş olur.

Təhsil dünyagörüşü kimi bir çox parametrlər üzrə müxtəlif funksiya daşıyır. Bunlardan ən başlıcası güzəran parametridir. Çünki, güzəran yalnız adi həyat tərzi deyil, bütövlükdə fərdin sosial xərclənməsidir. İnsan sosiallaşma kanallarından sadəcə ömrün pillələrinə, yəni uşaqlıq, gənclik, qocalıq olaraq keçmir, həm də bir varlıq olaraq inkişaf edərək, həm də tükənir.

Bilik kapitaldır tezisi daim aktualdır. Biliyin məzmunu isə daim sosial-iqtisadi şəraitin mövcud vəziyyətindən asılı olur. Postsənaye dövrünün sürətli ritmləri müəyyən mənada xaos doğurur. Təhsildə xaos dedikdə ixtisasların nomenklaturasının yenilənməsini, proqramların məzmunun dəyişməsini, bir sıra ixtisasların tədrisi üçün zəruri kadrların olmaması və sair qeyd edilə bilər.

Artıq təhsilin məqsədlərində və eləcədə onun effektivliyi meyarlarında ciddi bir dəyişiklik baş verir. Bu kimi biliklərin keyfiyyəti və xüsusən də əldə edilmiş bilik və bacarıqların həcmi deyil, şəxsiyyətin inkişafı, insanın unikal imkanlarının reallaşdırılması, həyatın çətinliklərinə hazırlıq təhsilin aparıcı hədəfinə çevrilir ki, bu da məktəb və universitet çərçivəsində məhdudlaşmır,  onların hüdudlarından da kənara çıxır (4, s.339).

Bu kimi amillərdən irəli gələrək təhsil insanlara mənəvi-psixoloji proses olaraq olduqca fərqli təsir edir. Belə ki, bir çox hallarda insanlar hər bir vəziyyətdə-istər ailə qurmaqda, istər layiqli iş tapmaqda özlərini gecikmiş sayırlar. Bir çoxları təhsilin üstünlüklərini qeyd edərək bunu zəruri saysa da, bir qism insan da vaxt itkisi kimi dəyərləndirir. Son dövrlərdə bayağı qazanc formalarının artması, asan gəlir əldə etmək həvəsi bəzi gəncləri təhsildən uzaqlaşmağa sövq edir.

**Nəticə**

Qeyd olunanların yekunu olaraq bildirək ki, təhsil prosesinin dinamizminin artdığı müasir mərhələdə onun fəlsəfi dəyərləndirməsi bir biril əlaqədar olan kompleks məsələrin təhlilini zəruri edir. Bura mənəvi-psixoloji, sosial-iqtisadi amillər daxildir ki, onların da məzmunu diferensiallaşmış formada təzahür edir. Yaxşı olardı ki, təhsil standartları təkmilləşdirilərkən coğrafi xüsusiyyətlər, ölkə əhalisnin demoqrafik vəziyyəti, say tərkibi, milli xüsusiyyətlər kimi amillər nəzərə alınsın. Yəni, məsələn Almaniya, İtaliya kimi ölkələrin adambaşına düşən təhsil elementləri ilə daha az əhaliyə malik olan Azərbaycanın təhsil seqmentləri müqayisə edilməməlidir. Bu kimi fərqlər nəzərə alındıqda təhsil paradiqmaları daha optimal fəlsəfi məzmuna, hədəf xəttinə malik olacaqdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Алиева Н. З., Ивушкина Е. Б., Лантратов О. И. Становление информационного общества и философия образования. «Академия Естествознания», 2008. https://monographies.ru/ru/book/section?id=641

2. Брызгалина Е.В., Курбанов А.Р., Сунгатулина Е.К. Институционализация философии оброзования в пространстве философский мысли XXI века. Вестн.Моск.Ун-та. Сер.7 Философия.2012. № 1. стр.41-60.

3.Философия гуманизма и гуманизация оброзования. https://core.ac.uk/download/pdf/53066601.pdf

4. Философия образования: учебное пособие для обучающихся в магистратуре / Б. Р. Мандель. – М.; Берлин: Директ-Медиа, 2017. – 501 с.

5.Худякова, Н.Л. Философия и развитие образования: учеб. Пособие / Челябинск: изд-во ЧГПУ, 2009. – 239 с

6. Чапаев Н.К. Введение в курс ’’Философия и история образования" Учебное пособие. Екатеринбург. 1998. 249 стр.

**Рабиль Мехтиев**

**ТРАНСФОРМАЦИЯ ФИЛОСОФИИ ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ СОЦИАЛЬНО-ТРУДОВЫХ ОТНОШЕНИЙ**

***РЕЗЮМЕ***

В статье, принимая в качестве объекта анализа, философские проблемы образования рассматриваются как новшества и давление в современных условиях. Стоит отметить, что невозможно найти вторую область, которая так же подвергалась бы общественному интересу и критике, как образование, для которого характерно постоянное повышение интереса большего числа членов общества к этой сфере.

Для философской оценки процесса в такой динамике в качестве объекта исследования была взята трансформация образовательной парадигмы путем вовлечения в уровень анализа тенденций в других сферах жизни страны. Было бы хорошо, если бы при совершенствовании образовательных стандартов учитывались такие факторы, как географические особенности, демографическое состояние населения страны, состав населения, национальные особенности.

То есть с элементами образования на душу населения таких стран, как, например, Германия, Италия, не следует сравнивать сегменты образования Азербайджана с меньшим населением. При учете таких различий образовательные парадигмы будут иметь более оптимальное философское содержание, целевую линию.

***Цель*** – исследование необходимости новых подходов к философской оценке образования в контексте тенденций постиндустриального периода

***Методология*** – трансформация содержания и структуры образования с помощью методов индукции и дедукции которая исследуется как проявление общих тенденций развития общества.

***Результат*** – Результаты исследования-вывод на уровень анализа негативных ситуаций, обусловленных современными процессами в этой области, путем подхода к философии образования в контексте реальных тенденций.

***Ключевые слова****: философия образования, новые тенденции в образовании, профессиональные специальности, образовательные программы*

**Rabil Mehtiyev**

**TRANSFORMATION OF THE PHILOSOPHY OF EDUCATION IN THE CONTEXT OF SOCIAL AND LABOR RELATIONS**

***SUMMARY***

Taking as its object of analysis, the article considers the philosophical problems of education as innovations and pressures in contemporary conditions. It is worth noting that it is impossible to find a second field that has been as exposed to public interest and criticism as education, which is characterized by a constant increase in the interest of more members of society in this sphere. For a philosophical assessment of the process in such dynamics, the transformation of the educational paradigm was taken as the object of research by involving the level of analysis of trends in other spheres of national life.

It would be good if when improving the educational standards, such factors as geographical features, the demographic state of the country's population, the composition of the population, and national characteristics would be taken into account. That is, with the elements of education per capita of such countries as, for example, Germany, Italy, should not be compared with the segments of education in Azerbaijan with a smaller population. When such differences are taken into account, the educational paradigms will have a more optimal philosophical content, target line.

***Purpose*** **–** The goal is to investigate the need for new approaches to philosophical assessment of education in the context of post-industrial trends

***Methodology*** – Transformation of the content and structure of education by means of induction and deduction methods which is studied as a manifestation of general tendencies of society development

***Findings*** – The results of the study-exposure to the level of analysis of the negative situations caused by the modern processes in the field, by approaching the philosophy of education in the context of real trends.

***Keywords****: philosophy of education, new trends in education, professional specialties, educational programs*

**UOT 130.2**

**Osman Hacıyev**
f.f.d.,dosent, Sumqayıt Dövlət Universiteti
*osmanhaciyev@mail.ru*
**Nailə Qasımova**
Sumqayıt Dövlət Universiteti, müəllim
*kulturoloq1@gmail.com*

# MULTİKULTURALİZM – MƏDƏNİYYƏT FƏLSƏFƏSİNİN YENİ İNKİŞAF İSTİQAMƏTİ KİMİ

*Müasir beynəlxalq aləmdə bir çox dünya ölkələri qloballaşma proseslərinin təsiri altında özündə yeni cəmiyyətlər formalaşdırır. Bu qlobal prosesin təsirində yaranan transformasiyalar hazırkı zamanda dövrümüzün ən vacib çağırışlarından hesab edilir. Bu baxımdan universal dəyərlər, multikultural mühitin formalaşması, dünyadakı fərqliliklərə tolerant və dözümlü yanaşma qlobal müstəvidə öz əksini tapmaya bilməz. Əlbəttə ki, dünyada yeni fəlsəfi düşüncənin mənimsənilməsi və formalaşması, xalqların milli-mədəni dəyərlərə mənsub olması, onların böyük bir mədəniyyətə sahib olmasının göstəricisidir. Bu səbəbdən, mədəniyyət fəlsəfəsi tarixən cəmiyyətlərin və insanların inkişafının müəyyən səviyyəsini özündə birləşdirmişdir. Hazırda bir çox dünya ölkələri öz çoxmədəniyyətlilik, fəlsəfi düşüncə ənənələrini qoruyaraq inkişaf etməkdədir. Müxtəlif sivilizasiyaların qovuşduğu Azərbaycan öz tarixi multikultural mühiti ilə yanaşı, hazırkı dövrdə yeni multikulturalizm siyasəti ilə dünyanın bir çox inkişaf etmiş ölkələrindən üstün hesab olunur. Məhz bu baxımdan məqalədə məsələyə fərqli yanaşmanın mahiyyətini açıqlamağa çalışacağıq.*

***Məqsəd:*** Mövzuda əsas məqsəd dünyada, eləcə də Azərbaycan cəmiyyətində formalaşmış mədəniyyət fəlsəfəsinin rolunun kulturoloji təhlilini tədqiq etməkdir. Eyni zamanda tarixi dövrü araşdırmaq və bu araşdırmanı təhlilə çəkməkdə bir məqsəd də mövzunun müasir dövrdə aktual-laşmasına, eləcə də ona xüsusi diqqətin yönəldilməsinə nail olmaqdan ibarətdir. Ən əsası insanların təfəkküründə multikulturalizm anlayışında mədəniyyət fəlsəfəsinin problem dairəsi və cəmiyyətdə rolu açıqlanmışdır.

***Metodologiya:*** Məqalə üzərində çalışarkən öncə tarixilik və ümumbəşəri mədəniyyət prinsiplərinə istinadlar edilmişdir. Bununla yanaşı mövzunun metodoloji əsası, tarixi və müasir müqayisəli təhlili, həmçinin kulturoloji-fəlsəfi analizi araşdırılmışdır. Xüsusən məqalədə Azərbaycanın multikultural həyat tərzi və onun fəlsəfi mədəniyyəti problemlərinə dair konseptual açıq fikirlər işıqlandırılmışdır. Mövzunun tədqiqində Azərbaycanda bu sahədə yetərincə elmi araşdırmalar aparmış tədqiqatçıların əsərlərindən də istifadə edilmişdir.

***Elmi yenilik:*** Mövzunun əsas elmi yeniliyi multikultural cəmiyyətdə fəlsəfi-mədəni düşüncənin kompleks şəkildə tədqiq edilməsindən ibarətdir. Elmi baxımdan mövzunun kulturoloji konteksdə araşdırılmasına nail olunmuşdur. Tədqiq olunan mövzu müasir dövrün aktuallığını özündə cəmləmişdir.

***Açar sözlər:*** *Qlobalizm, multikulturalizm, mədəniyyətlərarası fəlsəfə, transformasiya, linqvokulturologiya, cəmiyyət, müstəqillik, mədəniyyət siyasəti, milli özünüdərk, etnos, dini fəlsəfə, ünsiyyət mədəniyyəti*

**Giriş**

Bəşəriyyətin mövcudluq tarixi onu göstərir ki, müxtəlif zamanlarda hər cəmiyyətin üzləşdiyi çətin vəziyyətlərdən, sınaqlardan çıxması və gələcək məqsədlərə doğru getməsi düşüncəli, qətiyyətli sərkərdəsinin yüksək idarəçilik xüsusiyyətləri sayəsində mümkün olur. Hər bir tarixi dövrün böyük şəxsiyyətləri məhz belə taleyüklü vaxtlarda qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmək üçün cəmiyyətdə insanları milli məqsədlər ətrafında birlik nümayiş etdirməyi mühüm amil hesab edirlər. Artıq müasir dünyada XXI əsrin qlobal məkanın yeni çağırışları formalaşmaqdadır. Şübhəsiz ki, bu çağırışlar ümumdünya idarəetmə sistemində yeni nizamın yaradılmasına səbəb olur. Müasir cəmiyyətlərin idarə edilməsi, modellərin mahiyyət dəyişikliklərinə uğraması, XXI əsrin inkişaf templərinin və fəaliyyət tiplərinin dinamik surətdə yeniləşməsi ilə bağlılıqda bu sahədə mövcud olan baxışlara yenidən nəzər salınmasını qaçılmaz edir. Bəşər tarixində sivilizasiyaların formalaşması bir çox mədəniyyətlərin birləşməsini özündə əks etdirmişdir. Bizə məlumdur ki, hələ ən qədim dövrlərdə şərq və qərb sivilizasiyası daima diqqət çəkmiş və bütün dövrlərdə geniş təhlil edilmişdir. Sözsüz ki, Şərq dünyası mədəniyyətin, incəsənətin, elmin bir sözlə bəşəri dəyərlərin beşiyi olmuş və qədim sivilizasiya zaman-zaman şərq sivilizasiyasından bəhrələnmişdir. Hazırda dünyamızda baş verən iqtisadi, siyasi, mədəni hadisə və proseslər dinamik şəkildə inkişaf etməkdədir. Ən əsası dünyanın fəlsəfi dünyagörüşü insanların ümumi dünyagörüşündən gerçəkliyə yanaşma üsulu ilə, intellektual problematikası ilə fərqlənir. Belə yanaşsaq, dünyanın fəlsəfi dünyagörüşü idealist və materialist meyilli olmasından asılı olmayaraq həmişə insana, onun dünyaya münasibətinə əsaslanır. Bu yanaşmaya əsasən deyə bilərik ki, artıq müsair dünyanın formalaşmasında yeni mədəniyyət siyasəti yaranmışdır. Bu baxımdan multikulturalizm mədəniyyət siyasətinin ən optimal göstəricisidir.

**Müasir qloballaşma prosesində multikultural mühitin əhəmiyyəti**

Dünyada multikultural cəmiyyətlərin formalaşması insanlığın mahiyyətini dərk etməyə, insan və mənəviyyat, insan və ədalət, xeyirxahlıq, dözümlülük, insan və azadlıq, insan və bəşəri dəyərlər, ictimai tərəqqi, gözəllik və s. əsaslanır [1, 87].

Müasir beynəlxalq aləmdə mədəniyyət siyasətinin yeni prosesləri genişlənməkdədir. Hazırkı dövrdə mədəni siyasətin modernləşməsi prinsipləri sosio-mədəni həyatın da yenilikləri zəminində aktuallaşmışdır. Bu siyasətin əsas vacib faktoru, qloballaşan dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sisteminin sabitliyinin təmin olunması, insanların rifah halının yüksəldilməsinə nail olmaqdan ibarətdir. Qloballaşan dünyada dövlətlərin rəqabətə davamlılıq qabilliyəti onun mədəniyyət siyasətindən, həmçinin beynəlxalq arenada yaratdığı imicindən çox asılıdır. Birmənalı olaraq mədəniyyətin başlıca vəzifəsi dövlətin, cəmiyyətin və ümumilikdə bəşəriyyətin ilkin əsası olan insanın kamilləşməsinə yardım etməkdir. Demək mədəniyyətin bu qədər önəmli olması hazırkı dövrdə dünya ölkələrinin də əsas strategiyasıdır. Çünki, müasir insan cəmiyyətinin böyük nailiyyətləri müxtəlif mədəniyyətlərin kökləri üzərində əldə edilmişdir. Məlumdur ki, müasir dünyamızda iki mədəniyyət mövcuddur: Qərb mədəniyyəti və Şərq mədəniyyəti. Tarixi proseslərdən də göründüyü kimi, bu mədəniyyətlər həmişə əsaslı formada bir-birindən fərqlənmişlər. Xüsusən, İslam mədəniyyəti üzərində mühüm yer alan yeniliklər bəşər tarixində öz unikallığı ilə seçilmişdir. Hər bir mədəni sistemin öz dünyagörüşü formalaşmışdır. Hər hansı bir millətin mədəni dünyagörüşünün formalaşmasını təmin edən amil yeni düşünmə üsuludur. Mədəni İslam dünyagörüşünün formalaşması fəlsəfi nöqteyi-nəzərdən onun mahiyyətini, istinad bazasını və ali məqsədlərini özündə əks etdirir. Təbii ki, islamın dəyər və anlayışları, müsəlman metodologiyası Quran dünyagörüşünə əsaslanır.

Məhz Quran dünyagörüşü islami dəyərlərin özüdür. Dünyada böyük mədəniyyətin yaradılışında İslam mədəniyyətinin rolu böyükdür. Sözsüz ki, bu mədəniyyət incəsənətin, fəlsəfənin və təbiət elmlərinin inkişafına güclü şərait yaratmışdır. Tarixən böyük imperiyaların xəlifələri, sərkərdə və başçıları elm və mədəniyyətin, fəlsəfənin, incəsənətin xüsusilə poeziyanın himayəçiləri olmuşlar. Şərq və Qərb dünyası arasında körpü olan İslam-müsəlman mədəniyyəti əlaqələndirici bir vəsilə olmuşdur. Bu mədəniyyətin içərisində öz unikallığı ilə seçilən və tarix səhnəsində böyük nüfuza malik olan Azərbaycan mədəniyyəti də xüsusi olaraq seçilmişdir. Məlumdur ki, Azərbaycan VII əsrin əvvəllərində ərəblər tərəfindən işğal olunandan sonra, burada islam aparıcı din olmuş, yeni ənənələr və mədəniyyət formalaşmışdır. Əsasən VII-XII əsr Azərbaycanda islam mədəniyyətinin tarixi daha qabarıq şəkildə formalaşmışdır. Bu tarixi dövrdə Azərbaycana İslamla bərabər yeni bir mədəniyyətin gəlməsi, daha doğrusu, yerli mədəniyyətin rənginə yeni çalarlar qatılması ilə yaranan islam mədəniyyəti kontekstində Azərbaycanın öyrənilməsi böyük məsuliyyət, yüzlərlə mənbə və faktların araşdırılmasnı tələb etmişdir. Xüsusən qeyd etmək istərdik ki, IX-XIV əsrlərdə ərəb-müsəlman mədəniyyəti çox yüksək bir səviyyəyə çataraq o dövrün Avropa mədəniyyətini çox geridə qoymuşdu. Böyük bir tarixi zaman atlatmış Azərbaycan müasir dövrümüzdə də özünə məxsub qədim və milli, eyni zamanda dünyəvi mədəniyyətini qoruyub saxlamış və inkişaf etdirmişdir. Bu gün də Azərbaycanda İslam dini dəyərlərinin mühüm əhəmiyyəti və yeri vardır. Məlumdur ki, xalqımızın mədəniyyətini, onun mənəviyyatını və həyat tərzini İslam dini - mənəvi dəyərləri olmadan təsəvvür etmək çox çətindir. Bu gün Azərbaycan cəmiyyətində iki əsas ideya formalaşmışdır. Əsasən dünyəvi milli-azərbaycançılıq ideyası ilə dini - islamçılıq ideyası. Hər ikisi ictimai həyatda üstünlük təşkil edir [2, 102].

Tarix boyu Azərbaycan müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu bir məkan olaraq, ayrı-ayrı xalqların, millətlərin, konfensiyaların sülh, qarşılıqlı anlaşma şəraitində yaşadığı məmləkət kimi tanınmışdır. Həmçinin Azərbaycan xalqının dərin mədəni irsi, multikultural keçmişi yalnız xalqımızın indiki tolerant yaşam tərzi ilə deyil, eyni zamanda əsrlər boyu yaratdığı elmi-fəlsəfi, siyasi-hüquqi, ədəbi-bədii qaynaqlarda yaşamışdır. Bu səbəbdən ölkəmizdə multikultural və tolerant mühit tarixin bütün səhnələrindən yüksək səviyyədə olmuşdur. Dözümlülük konsepsiyası, birgəyaşayış hər zaman Azərbaycanda həyat tərzinə çevrilmişdir. Misal olaraq qeyd etmək olar ki, Maurise Kranston Fəlsəfə Ensiklopediyasında göstərir ki, "Dözümlülük xoşlanılmayan və bəyənilməyən hər hansı bir şeyin mövcudluğunda təmkinlik göstərmək siyasətidir". Tolerantlığı başa düşməkdən ötrü tərəddüd edən digər tərəfin konsepsiyasını anlamaq vacibdir. Hindistanlı məşhur siyasətçi Mahatma Qandi qeyd edirdi ki, "Günümüzün ehtiyacı yalnız bir din deyil, müxtəlif dinlərin tərəfdarlarına qarşılıqlı hörmət və dözümlülükdür". Bu fikrə əsaslanaraq demək olar ki, dinlər arasında dioloqun yaradılması, ona qarşılıqlı hörmət göstərilməsi müasir cəmiyyətlərdə demokratik stabilliyin yaradılması, üçün çox vacibdir [3, 97].

**Multikultural cəmiyyət və onun əsas istiqaməti**

Müasir dünyada multikultural cəmiyyətin perspektivləri fəlsəfi-etik məsələlərin də ortaya çıxmasına səbəb oldu. Bu müstəvidə fərqli dəyərlərin, əxlaqi anlayışların birgə yaşaması üçün universal dəyərlər sisteminin olması qaçılmazdır. Multikulturalizmin fəlsəfi-etik dəyəri bu fenomenin vacib prinsiplərindən birini təşkil edir. Qeyd etmək olar ki, ictimai şüurun və cəmiyyət daxilində multikultural mühitin formalaşması üçün qarşılıqlı anlaşma çox vacibdir. XXI əsr dünya mədəniyyətlərinin bir-birinə sürətlə qarşılıqlı təsirini göstərməkdədir. Bu gün Azərbaycan mədəniyyətinin inkişaf konsepsiyası xalqımızın əsrlər boyu çətin, həmçinin təmkin və səbrlə əldə etdiyi mədəni-mənəvi sərvətlərin, milli dəyərlərin təsdiq və təmin edilməsini, habelə, milli ənənələrin, folklor və incəsənətin

qorunması və təbliğini beynəlxalq aləmdə qarşılıqlı münasibətini qurur. Bu baxımdan deyə bilərik ki, Azərbaycan dünya mədəniyyətlərini bir-birinə yaxın edən və bu mədəniyyətləri qovuşduran bir məkandır. Tarixi prosesin müasir mərhələsində siyasi-mədəni, sosial-iqtisadi baxımdan mədəniyyətlərarası münasibətlərin öyrənilməsi çox vacibdir. Müasir qloballaşma şəraitində bəşəriyyət öz mövcudluğunu dərk etməklə yanaşı, cəmiyyətdə insan fəaliyyətinin müxtəlif sahələrində irəliləmək, ən əsası qarşılıqlı hörmət şəraitində yaşamanın mümkünlüyünü dərk edir. Belə bir prosesdə mədəniyyətlərarası dioloq ən vacib və uğurlu bir vasitədir. Dəfələrlə Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası forumların, dialoqların təşkili və uğurla həyata keçirilməsi həm beynəlxalq, həm də milli səviyyədə ölkəmizin nüfuzunu artırmaqla yanaşı, xalqımızın birliyini, həmrəyliyini daha da güclü edir. Eyni zamanda ölkəmizi beynəlxalq aləmə dünya mədəniyyətlərini bir arada qovuşduran məkan kimi tanıtdırır. Tarixən ölkəmiz coğrafi və geosiyasi baxımdan hər zaman bütün dünyaya açıq olmuş, eyni zamanda ən müxtəlif mədəniyyətlər arasında sintez-qovşaq missiyasını daşımışdır. Belə ki, Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətinə keçid alması üçün bir körpü rolunu oynayıb. Çoxmillətli, çoxdilli və çox dinli olan Azərbaycan üçün bu ideologiyanı tarixi reallığımız özü irəli sürüb. Ən müxtəlif milli-etnik qrupların yaşadığı Azərbaycan unikal, tolerant bir məkandır [4, 32].

Müasir cəmiyyətlər birgə yaşamaq zərurətində olan müxtəlif milli, dini və s. qrupların toplumudur. Bu qruplar arasında mədəniyyət həm ümumi olan, həm də xüsusi olanı üzə çıxara bilir. Belə bir fikir var ki, “Mədəniyyət insanları həm birləşdirir, həm də onları ayırır”. Bir zamanlar T.Hobbsun ifadə etdiyi “hamının hamıya qarşı müharibəsi” fikri mədəniyyətlər və identikliklər çoxluğu olan müasir qloballaşma dövründə milli-dini və digər məsələlərdə özünü bəzən amansızlığı ilə göstərir. Həmçinin bunun da şahidi oluruq ki, A.A.de Bonuanın fikrinə əsasən “cəmiyyət öz mədəni potensialına görə nə qədər mürəkkəb olarsa, mədəniyyət o dərəcədə böyük ölçüdə orada tərbiyə və təhsil rolunu oynayır” [5, 12]. Qeyd etmək lazımdır ki, sosial elmlərdə mədəniyyət, bir qədər də dərindən yanaşsaq görərik ki, mədəniyyət fəlsəfəsi cəmiyyətin irsən ötürülən etiqad, fikir, məntiqi təfəkkür, formal qaydalar və qeyri-formal normalar sistemi kimi nəzərdən keçirilir. Vahid bir mədəniyyət məkanında multikulturalizm müxtəlif növlü eyni hüquqlu qrupların birgə mövcudluğunu əsaslandıran bir tədqiqat anlayışı kimi humanitar elmlər sistemində, xüsusən mədəniyyət fəlsəfəsində xalqlar, millətlər və fərqli mədəniyyətlər arasında yaranmış yeni baxışlara reaksiya olaraq son onilliklərdə daha qabarıq tədqiq olunmağa başlamışdır. Mədəniyyətlərin biri-birinə qarışması tarixən hər zaman müşahidə olunmuşdur. Müxtəlif dinlərin, dillərin bir-birinə yaxınlığı mədəniyyətlər arasında yeni münasibətlər yaratmışdır. Lakin qeyd etmək lazımdır ki, hazırkı dövrdə multikulturalizm öz mahiyyəti ilə daha geniş fərqlənir. Dünyanın qloballaşması fərqli mədəniyyətlərin biri-birinə qarışmasına təsir gücünü göstərmişdir. Ümumiyyətlə isə belə bir nəticəyə gəlmək olur ki, mədəniyyət XXI əsrin prioriteti sayılan davamlı inkişaf, insan potensialı inkişafının mühüm amilinə çevrilə bilir. Bu gün dünyada baş verən real hadisələr insan həyatının müxtəlif sahələrinə təsirsiz ötmür. Buraya xüsusən cəmiyyətlərin mühitini, insanların yeni baxış formasını qeyd etmək istərdik [6, 104].

**Tolerantlığın Azərbaycan modeli: kulturoloji-fəlsəfi yanaşma**

Müasir dünyada dini və mədəni fərqliliklərin olduğu ölkələr artıq kulturoloji dəyərlərə daha çox yer ayırırlar. Bu baxımdan, Azərbaycanda mövcud olan multikultural mühit mütərəqqi bir formada yüksək qiymətləndirilir. Azərbaycanda müxtəlif milli və dini mənsubiyyətə malik olan çoxlu xalqlar, millətlər yaşayırlar. Yuxarıda da qeyd etdiyimiz kimi onların burada məskunlaşması çox əsrlik bir tarixə malikdir. Onların fəlsəfi baxışları,

dünyagörüşləri tarixən yerli xalqla birgə yaşayışı müəyyənləşdirmişdir. Bu gün də Azərbaycanda multikulturalizm mühiti bütün dünyaya bir nümunə modeli olaraq göstərilir. Dinlərarası, svilizasiyalararası münasibətlərin dərin tarixi köklərə malik olmasının nəticəsidir ki, dövlətimiz multikulturalizm siyasətini dəstəkləyir və onu həyat tərzinə çevirərək bu prosesə xüsusi dəyər verir. Burada ən vacib məsələni qeyd etmək istərdik ki, multikulturalizm Azərbaycanın öz müstəqilliyini əldə etməsindən sonra dövlət siyasətinin ən aparıcı istiqamətinə çevrildi [ 7, 208].

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda bütün mədəniyyətlərin, dinlərin və xalqların nümayəndələrinin birgəyaşayışı tam təmin olundu. Eyni zamanda 12 noyabr 1995-ci il tarixində qəbul edilən Azərbaycan Konstitusiyasında bütün azsaylı xalqların, millətlərin və dinlərin nümayəndələrinin hüquqları da təsbit edildi. Bu, ölkəmizdə yaşayan etnosların müqəddəratına və onların birgəyaşayışına zəmin yaradaraq böyük əhəmiyyət kəsb etdi. Ümummilli lider Heydər Əliyev dəfələrlə öz nitqində vurğulayaraq demişdir ki, “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir”. Dövlətimiz bu fikri prioritet tutaraq multikulturalizm siyasətini daha güclü dəstəkləyərək, öz ideologiyasının tərkib hissəsinə çevirdi. Eyni zamanda dövlət dəstəyinin gücləndirilməsi bundan sonra da davam etdirildi. Qeyd etmək istərdik ki, ölkəmizdə ilk dəfə olaraq 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin Mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısında, İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Mədəniyyət nazirləri, 2009-cu ildə İƏT-ə üzv olan ölkələrin Mədəniyyət nazirləri toplantısında isə Avropa Şurasından Mədəniyyət nazirləri iştirak etmişdilər. Əsasən “Bakı prosesi” adlanan bu möhtəşəm təşəbbüs Bakıda Dünya dini liderlərinin Zirvə görüşünün, mədəniyyətlərarası dioloq və Bakı beynəlxalq hümanitar forumlarının keçirilməsinə də böyük təkan verdi. Sonrakı illərdə də ölkəmizdə mədəniyyətlərarası dialoqlar, svilizasiyalar arası, dinlərarası münasibətləri özündə əks etdirən ənənəvi, beynəlxalq səviyyəli tədbirlər davam etdirildi. 2015-ci ildə Avropanın ən nüfuzlu ölkələrindən hesab olunan Fransanın paytaxtı Parisdə təşkil olunan “Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti” mövzusundakı konfransında çıxış edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyeva ölkəmizdə din mədəniyyətinin önəmliliyini vurğulayaraq, məscidlərin sinaqoqlarla və kilsələrlə birgə fəaliyyətini diqqətə çatdırmışdı. Eyni zamanda Azərbaycanda bütün dinlərin azadlığını vurğulayaraq, onların yaşam tərzlərinin də sabit təmin edildiyini qeyd etmişdir [8, 119]. Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda “Multikuturalizm ili” elan etməsini bu qəbildən olan ən vacib dövlət siyasətinin addımı kimi görürük. Ölkəmizdə bu sahədə mühüm təşəbbüslər irəli sürülür ki, bu da svilizasiyalararası dialoqların aparılmasında əhəmiyyətli rol oynayır. 2019-cu ildə Dünya Dini Liderlərinin II Bakı Sammiti geniş formada keçirilmişdi. Bu beynəlxalq tipli tədbirlərin Azərbaycanda yüksək səviyyədə keçirilməsi ölkəmizin multukulturalizm ənənələrinin inkişafında və təbliğində olduqca əhəmiyyətlidir. Fəxarətlə demək olar ki, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın xidmətləri danılmazdır. O, ölkəmizin tolerantlıq ənənələrinin dünya səviyyəsində tanınması və təbliğinə böyük önəm vermişdir. Hazırkı dövrdə Azərbaycanda mövcud olan multikultural mühit həm daxili, həm xarici siyasətdə yeni baxış bucağında bir dünyagörüşü formalaşdıraraq daha da intensivləşir. Demək olar ki, Azərbaycan multukulturalizmi mədəni, siyasi, elmi-fəlsəfi baxımdan müxtəlif nəsilləri, milli icmaları, konfensiyaları özündə birləşdirir. Çoxmədəniyyətlilik istənilən bir cəmiyyətin inkişafının əsas təməlidir. Bu səbəbdən, multikulturalizm həmçinin bir siyasi fəlsəfə mövzusu olub və fərqli dərəcədə yenilənərək inkişaf edən ideologiyaları, siyasətləri

əhatə edir, cəmiyyətin inkişafına bir mənalı olaraq təsir göstərir. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların zəruri göstəricisidir [ 9, 85].

Bu gün Azərbaycançılıq ideologiyasından çıxış edərək deyə bilərik ki, multikulturalizm siyasəti və mədəniyyətlərarası dialoq bizim fəlsəfəmizdir. Bu fəlsəfə Ulu öndər Heydər Əliyevin siyasi idarəçilik prinsiplərinin əyani göstəricisidir. Müasir qloballaşan dünyanın siyasi məkanında yeni mühit, yeni dünyagörüşü formalaşmağa meyillidir. Azərbaycan da bu məkanda öz siyasi, mədəni, iqtisadi gücünü tənzimləmiş qüdrətli bir dövlətdir. Avropa, Amerika, Asiya və bir çox Şərq ölkələri yenidən multikultural cəmiyyətləri yaratmaq, yeniləmək kimi siyasəti dəstəkləmişlər. Bu baxımdan Azərbaycan artıq öz tarixi-kulturoloji dəyərlərinə köklənərək modern dövlət kimi yeni dünya düzümündə özünəməxsus yer alıb və dünyada qlobal geosiyasi proseslərə təsir gücü olan dövlətlərdəndir. Artıq Azərbaycan beynəlxalq arenada özünün etno-mədəni, multikultural dəyərlər sistemi modelini formalaşdırmışdır. Ölkəmizdə yüzilliklər boyu yaşayan etnik xalqlar birgə yaşayışı təmin etmişlər. Azərbaycanda yaşayan avarlar, udinlər, aşurlar, gürcülər, ruslar, ləzgilər, rutullar, ingiloylar, haputlar, tatlar, buduqlar, saxurlar, kürdlər, lahıclar, yəhudilər, malakanlar, talışlar, almanlar və digər xalqlar öz dinlərini, adət-ənənələrini, icəsənətlərini və mədəniyyətlərini yaşatmaqla yerli xalqa qaynayıb, qarışmışlar. Tarixən onlar ölkəmizdə müxtəlif dinə etiqad edərək, davamlı həyat sürmüşlər. Dini-fəlsəfi cərəyanların yayıldığı ölkəmizdə bütün tarixi dövrlərdə etnik və icmalar arasında möhkəm tolerant münasibət, dözümlülük əlaqələri formalaşmışdır. Əlaqələrin dərin formalaşması qohumluq əlaqələrinin qurulması ilə də nəticələnmişdir. Bu, Azərbaycanda milli və dini ideyanın üstünlük təşkil etməsini göstərir. Ölkəmizdə məscid, sinaqoq və kilsələrin bir arada olması, heç bir ayrı-seçkiliyin olmamasından xəbər verir. Etnik müxtəliflik bu gün Azərbaycan cəmiyyətində özünü qoruyub saxlamış sistemli münasibət modeli formalaşdırmışdır. Təbii ki, bəşəri dəyərlərin, dözümlülük, mərhəmət, dəyərvermə kimi ali hisslərin cəmiyyətimizdə yayılması xüsusi məna kəsb edir. Hüquqi, demokratik dövlət quruculuğu yolu tutan Azərbaycanda din dövlətdən ayrı olsa da, dini-mənəvi dəyərlər burda yaşayan xalqların mənəviyyatı, dünyagörüşü, həyat tərzi və onların ideologiyasının ayrılmaz hissəsidir [10, 116].

Multikulturalizm insanların fəlsəfi dünyagörüşündə yeni ideyalara yol açaraq formalaşmışdır. Bu fəlsəfi ideyalar insanların həyatında öz mahiyyəti etibarilə həm mədəniyyətin bütün sahələri ilə birləşmiş, həm də onun tərəqqisinin meyarlarını özündə cəmləşdirmişdir. Müasir dünyada müxtəlif mədəniyyətlərə tolerant yanaşma vahid siyasi-inzibati coğrafiyanı təmsil edən tərəflərin hamısı üçün faydalıdır. Dünya mədəniyyəti sisteminə daxil olan Azərbaycan mədəniyyəti özündə ümumbəşəri dəyərlərə nail olaraq müxtəlif dini, sosial-mədəni dəyərlərə tolerant münasibət göstərir. Hazırkı dünyada, eləcə də Azərbaycanda tolerantlıq, mədəniyyətlərarası dialoq və multikulturalizm ideyası əsas yer tutur. Millilik və bəşəri ideyaların qarşılıqlı münasibətlərini dərindən öyrənmək, bəşəri əlaqələrin dərk edilməsi zəruriliyi fəlsəfi ədəbiyyatlarda daha geniş yer alır. Millətsiz bəşəriyyət yoxdur və o bəşər tarixində ən bahalı, zəngin xəzinədir. Bu xəzinənin içində təbii ki, Azərbaycan xalqı ilə eyni torpaqda yaşayan digər xalqların nümayəndələri də özündə fərdi-milli xüsusiyyətləri və ümumbəşəri keyfiyyətləri ehtiva edir. Düşünürəm ki, multikulturalizm siyasəti bu və ya digər şəkildə bu gün dünyanın üzləşdiyi terrorun, müharibələrin qarşısının alınmasında böyük əhəmiyyət kəsb edir. Düzgün siyasət yürüdən hər bir dövlət bunu dərk edir və sülh şəraitində yaşamaq istəyir. Məhz Azərbaycan dövləti belə dövlətlər siyahısındadır. Ölkəmizdəki tolerant və multikultural dəyərlər etnik münasibətlərdən asılı olmayaraq bütün insanların birləşməsinə səbəb oldu. Ölkəmiz artıq dünyada nümunəvi multikulturalizm modelinin mərkəzinə çevrilmişdir. Dünyada Azər-

baycanın multikultural bir ölkə kimi tanınmasında yuxarıda göstərdiyimiz amillərlə yanaşı, Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği ilə bağlı gördüyü mühüm məsələləri də qeyd edə bilərik. Məhz Azərbaycanda mədəniyyəti və multikultural dəyərləri dövlət səviyyəsinə yüksəldən şəxsiyyət cənab Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, həyata keçirilən multikulturalizm siyasətinin alternativi yoxdur. Bu mənada Azərbaycanda multikulturalizmin həyat tərzi olamasına günümüzdə Avropanın imtina etdiyi dəyərlər prizmasından baxdıqda mənzərə daha aydın görünür [11, 72].

Bu gün inteqrasiya prosesinin geniş vüsət aldığı bir dövrdə multikulturalizmin rolu cəmiyyətlər üçün cox vacibdir. Yaşadığımız XXI əsrin xarakterik xüsusiyyəti bütün dövlətlərin istər siyasi, istər iqtisadi, istərsə də sosial həyatına qloballaşma prosesinin təsirlərini gətirməsidir. Müasir dövrümüzdə yeni yaşam fəlsəfəsi formalaşmaqdadır. Çünki bu fəlsəfənin obyekti düşüncədir. Cəmiyyətin inkişafı onun geniş dünyagörüşünə sahib olması məsələsidir. Təbii ki, bu gün dünyadakı yeni düşüncə tərzinin formalaşması və ona doğru getmək, dərk etmək o qədər də asan deyil. Artıq dünyada etno-mədəni, multikultural dəyərlər sistemi formalaşmaqdadır. Azərbaycanda reallaşan dövlət siyasəti nəticəsində burada yaşayan çoxsaylı xalqların azad yaşamasına və müxtəlif dinlərin, mədəniyyətlərin bərabər mövcud olması üçün bütün zəruri şərait yaradılmışdır. Çünki dünyada baş verən hadisələr öz məcrasından çox böyükdür. Bu da reallıqdır ki, müasir dövrümüzdə dünya birliyi yeni çağırışlar və təhdidlər qarşısındadır. Dünya qloballaşma prosesinin təsiri altındadır. Bu təsir gücü altında dünyanın ən ucqar nöqtələrində belə baş verən hadisələr planetar prizmadan mühüm əhəmiyyətə malikdir. Belə ki, qlobal müstəvidən mühüm çağırışlardan biri kimi fərqliliklərin – fərqli mədəniyyətlərin, dinlərin, hətta xalqların birgəyaşayış fəlsəfəsi ilə bağlı baş verən dəyişikliklər və miqrasiya proseslərinin təsirini ayırd etmək mümkündür. Bu baxımdan dünyanın siyasi xadimləri, elm adamları, din xadimləri bir araya gələrək, cəmiyyət üçün sivil, dünyəvi bir çözüm aranmasının yollarını axtarırlar [12, 58]. Qlobal mədəni məkanda mədəni ünsiyyətin multikultural, polikultur və transkultur yanaşmaları formalşmışdır. Qeyd etdiyimiz yanaşmalarda səciyyəvi olan əsas xüsusiyyət mədəniyyətlərin bir-birinə qarışmasının mövcudluğudur. Dünyada mədəniyyətlərarası ünsiyyətin inkişafı durmadan inkişaf etməkdədir. Tanınmış azərbaycanlı kulturoloq alim Fuad Məmmədov qeyd edərək bildirmişdir ki, “Cəmiyyət mədəniyyəti müdafiə edərsə, o zaman mədəniyyət cəmiyyəti xilas edəcək”. Bu fikrə istinadən deyə bilərik ki, dünyada multikultural dəyərlər olmasaydı, böyük bəşəri mədəniyyətlər də olmazdı.

**Nəticə**

Mövzunun araşdırılmasında belə nəticəyə gəlirik ki, bu gün multikulturalizm bir ölkənin siyasi, mədəni-fəlsəfi zənginliyinin vacib göstəricilərindən biridir. Ümumiyyətlə cəmiyyətlərin öyrənilməsində və insanların dünyagörüşündə formalaşmış mədəni həyat tərzi, demək olar ki, insanla həyat arasında mürəkkəb qarşılıqlı bir münasibətdir. Müasir dünyada cəmiyyətlərdə fəlsəfi düşüncə məsələsi multikultural münasibətləri formalaşdırmada və cəmiyyətləri tarazlaşdırmada mühüm rol oynaya bilər. Belə ki, bu proses cəmiyyətlərin daxilində yaşayan müxtəlif xalqların qarşılıqlı münasibətlərinin formalaşdırılması üçün də çox əhəmiyyətlidir. Eyni zamanda multikulturalizmin fəlsəfi-mədəni analizi bu mövzunun əsas prinsiplərindən birini göstərir. Demək olar ki, cəmiyyətdə ictimai şüurun və multikultural mühitin formalaşması üçün önəmli olan qeyd etdiyimiz fəlsəfi-mədəni düşüncə tərzi müxtəlif dəyərlər yaradır. Sözsüz ki, bu dəyərlər müxtəlif kimliklər də formalaşdırır. Bir mənalı olaraq cəmiyyətin öyrənilməsində və idarə olunma

sistemində xüsusi əhəmiyyət kəsb edən müasir baxış bucağı fəlsəfi-kulturoloji nəticələrə gəlməyə imkan verir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayev K.M. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı-2017, 152 s.
2. Abbasov N.Ə. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. . Bakı, Təknur MMC, 2008, 240 s.
3. Əhədova S.A. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı, Elm, 2014, 348 s.
4. Əliyeva N.A. Azərbaycanda islam mədəniyyəti (vıı-xııı əsrin əvvəlləri). Bakı, Elm və təhsil, Bakı, 2017, 488 s.
5. Əbilov A. X. Kulturoloji Azərbaycan. Elmi kulturoloji məqalələr toplusu. Bakı, Maarif, 2022, 64 s.
6. Quliyeva S.Ə. Azərbaycanda yaşayan azsaylı xalqların milli dəyərləri. AMEA-İctimai elmlər bölməsi, Bakı, 2015, 218 s.
7. Məmmədov F.T. Kulturologiya, Mədəniyyət, Sivilizasiya. OL MMC, Bakı-2016, 260 s.
8. Məmmədov F.T. Kulturologiya və insan inkişafı. Bakı, OL NPTK, 2019, 344 s.
9. Məmmədzadə İ, Hüseynov S, Əlizadə A, Əsədov A, Qəşəmoğlu Ə, İlyasov R, Səmədov E, Şirinov A, Fərhadov Ə. Bakı Beynəlxalq multikulturalizm mərkəzi. Azərbaycan multikul-turalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları. I-cild. Bakı, 2021. 248 s.
10. Rəhimzadə V.G. Milli - mədəni dəyərlərin qorunmasında Heydər Əliyevin rolu. Təknur MMC, Bakı, 2017, 235 s.
11. Nəsibov E.M. Dövlət və siyasət fəlsəfəsi. III cild, birinci bölüm, Bakı, Elm və təhsil, 2015, 108 s.
12. Nəsibov E.M. Cəmiyyət, mədəniyyət və siyasət fəlsəfəsi. Siyasət-III cild, ikinci bölüm, Bakı, Elm və təhsil, 2015, 96 s.



**Осман Гаджиев**
**Наиле Касумова**


## МУЛЬТИКУЛЬТУРАЛИЗМ – КАК НОВОЕ НАПРАВЛЕНИЕ РАЗВИТИЯ ФИЛОСОФИИ КУЛЬТУРЫ


***РЕЗЮМЕ***

В современном интернациональном мире многие страны мира формируют новые общества под влиянием процессов глобализации. Трансформации, вызванные этим глобальным процессом, в настоящее время считаются одним из важнейших вызовов современности. В связи с этим общечеловеческие ценности, формирование поликультурной среды, толерантный подход к различиям в мире не могут не найти отражения на глобальном уровне. Безусловно, усвоение и формирование в мире новой философской мысли, принадлежность народов к национальным и культурным ценностям является показателем их высокой культуры. По этой причине философия культуры исторически выбрала в себя определенный уровень развития обществ и людей. В настоящее время многие страны мира развиваются, сохраняя свои традиции мультикультурализма и философского мышления. Азербайджан, где встречаются разные цивилизации, считается выше многих развитых стран мира своей мультикультурной средой и новой политикой мультикультурализма. С этой точки зрения в статье мы попытаемся объяснить суть разного подхода к вопросу.

***Цель:*** Основной целью предмета является изучение культурологического анализа роли культур философии, сформировавшейся в мире, а также в обществе Азербайджана. При этом одной из целей исследования исторического периода и анализа данного исследования является придание актуальности теме в современную эпоху, а также

достижение к ней особого внимания. Самое главное, что в концепции мультикультурализма в мышлении людей разъяснены масштабы проблемы философии культуры и ее роль в обществе.

***Методология:*** При работе над статьей впервые были сделаны ссылки на принципы историчности и общечеловеческой культуры. Наряду с этим были исследованы методологическая основа темы, исторический и современный сравнительный анализ, а также культурно-философский анализ. В статье особо выделяются концептуальные открытые представления о проблемах поликультурного образа жизни Азербайджана и его философской культуры. При изучении темы также использовались труды исследователей, которые провели достаточное количество научных исследований в этой области в Азербайджане.

***Научная новизна:*** Основная научная инновация предмета – комплексное изучение философско-культурологического мышления в поликультурном обществе. С научной точки зрения тема исследована в культурологическом контексте. Исследуемая тема имеет актуальность современной эпохи.

***Ключевые слова:*** *Глобализм, мультикультурализм, кросс-культурная философия, трансформация, лингвокультурология, общество, независимость, культурная политика, национальное самосознание, этнос, религиозная философия, культура общения*

**Osman Hajiyev**
**Naile Gasimova**

## MULTICULTURALISM- AS A NEW DEVELOPMENT DIRECTION OF CULTURAL PHILOSOPHY

### *SUMMARY*

In the modern international world, many countries of the world are forming new societies under the influence of qlobalization processes. The transformations caused by this global process are currently considered one of the most important challenges of our time. In this regard, universal values, the formation of a multicultural environment and tolerant approach to differences in the world can not fail to be reflected at the global level. Of course, the assimilation and formation of new philosophical thoughts in the world, the fact that peoples belong to national and cultural values, is an indicator of their having a great culture. For this reason, cultural philosophy has historically included a certain level of development of societies and people. Currently, many countries of the world are developing by preserving their traditions of multiculturalism and philosophical thinking. Along with its historical multicultural environment, Azerbaijan, where different civilizations meet, is considered superior to many developed countries of the world with its new multiculturalism policy. From this point of view, in the article, we will try to explain the essence of a different approach to the issue.

***Purpose:*** The main goal of the subject is to study the cultural analysis of the role of cultural philosophy formed in the world, as well as in the society of Azerbaijan. At the same time, one of the goals of researching the historical period and analyzing this research is to make the topic relevant in the modern era, as well as to achieve special attention to it. Most importantly, in the concept of multiculturalism in people’s thinking, the scope of the problem of cultural philosophy and its role in society have been explained.

***Methodology:*** While working on the article, references were first made to the principles of historicity and universal culture. Along with this, the methodological basis of the topic, historical and modern comparative analysis, as well as cultural-philosophical analysis were investigated. Particularly the conceptual open ideas about the problems of the multicultural lifestyle of Azerbaijan and its philosophical culture are highlighted in the article. The works of researchers who have conducted sufficient scientific research in this field in Azerbaijan were also used in the study of the topic.

***Scientific novelty.*** The main scientific innovation of the subject is the complex study of philosophical and cultural thinking in a multicultural society. From a scientific point of view, the topic has been investigated in a cultural context. The researched topic has the relevance of the modern era.

***Keywords:*** *Globalism, multiculturalism, intercultural philosophy, transformation, linguistics culture, society, independence, cultural policy, national self-awareness, ethnos, religious philosophy, communication culture*

**UOT 811.111**

**Sərraf Mirzəyev**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim
*mirzayevsarraf@gmail.com*
**Xanımbacı Cəfərli**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim
*jafarlixanim@gmail.com*

# İNGİLİS DİLİNİN BRİTANİYA VƏ AMERİKA VARİANTLARININ BƏZİ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə ingilis dilinin müasir dövrdə rolundan, dünyanın aparıcı dili olmasından, bir sıra ölkələrin rəsmi dövlət dili kimi işlənməsindən, dünya əhalisi arasında geniş yayılmasından, dünyanın bir çox mötəbər təşkilatlarının dilinə çevrilməsindən bəhs edilir. Bununla yanaşı, ingilis dilinin bir çox ölkələrdə, xüsusən Amerika Birləşmiş Ştatlarında işlədilməsində Amerika ingiliscəsi ilə Britaniya ingiliscəsi arasında bir çox orfoqrafik, fonetik, leksik, qrammatik fərqlərin olmasından da məqalədə müqayisəli şəkildə izah edilir. Amerika ingiliscəsi ilə Britaniya ingiliscəsi arasında orfoqrafik, fonetik, leksik, qrammatik fərqlərin olması ilə bərabər, həm də frazeoloji feillərdə də, frazeoloji birləşmələrdə də nəzərə çarpacaq fərqlər mövcuddur.*

*Maraqlı burasındadır ki, bu fərqlərin istər canlı danışıqda, istərsə də dilçiliyin hər hansı bir bölməsində olmasına baxmayaraq britaniyalılar və amerikalılar bir birlərini çox gözəl başa düşürlər, çünki həmin fərqlər eyni dilin variantlarıdır.*

***Tədqiqatın məqsədi*** - Tədqiqatın əsas məqsədi birinci növbədə ingilis dilinin Amerikan variantı haqqında məlumat əldə etməkdən ibarətdir. İstər ingilis dilinin tədrisi prosesində, istərsədə canlı danışıqda Amerikan variantına aid orfoqrafik, fonetik, leksik, qrammatik fərqləri olan ifadələrlə, cümlələrlə, frazeoloji birləşmələrlə rastlaşdıqda bilavasitə anlamalısan ki, həmin o ifadələr fərqli yazılsa da, fərqli səslənsə də onlar Britaniya ingiliscəsi ilə eyni mənanı daşıyır.

***Metodologiya*** - Tədqiqat işində İngilis dilinin Britaniya ingiliscəsi ilə Amerika ingiliscəsi arasında ən çox işlənən ifadələrin orfoqrafik, fonetik, leksik, qrammatik təhlil metodlarından müqayisəli şəkildə istifadə olunmuşdur.

***Tədqiqatın nəticəsi*** - Müasir dövrdə ingilis dilinin inkişaf sürəti hər sahədə özünü göstərir. Lakin hal hazırda Amerika ingiliscəsi dünyada daha geniş şəkildə işlədilir və hətta bir çox sahələrdə işlədilməsinə görə Britaniya ingiliscəsini qabaqlayır. Ona gorə də Amerika ingiliscəsində işlədilən və yazılan sözlərlə, ifadələrlə tanış olmaq və onları öyrənmək və öz nitqində istifadə etmək tövsiyyə edilir.

***Açar sözlər:*** *Britaniya ingiliscəsi, Amerika ingiliscəsi, kütləvi informasiya dili, fərqli xüsusiyyətlər, fərqlər, eyni dilin variantları*

## Giriş

Müasir beynəlxalq dillər arasında ən geniş yayılmış dil ingilis dilidir. Bu dil Böyük Britaniya, ABŞ, Yeni Zelandiya, Avstraliya, Puerto Riko və bir çox ölkələrin rəsmi dili olduğu halda, Hindistan, Pakistan, CAR və sairə ölkələrin öz dilləri ilə yanaşı ikinci dili hesab edilir.

İngilis dili Hind-Avropa dillərinin “german” dillərinə aiddir. Doğma dil kimi 410 milyon insan bu dilin daşıyıcısıdır. İkinci dil kimi bir milyarddan çox insan ingilis dilində

danışır. BMT-nin altı rəsmi işçi dillərindən biridir. Bu dil faktiki olaraq Böyük Britaniyanın, ABŞ-ın (31 ştatının) rəsmi dili, İrlandiyanın, Maltanın, Kanadanın iki rəsmi dilindən biridir. Dünya əhalisinin təxminən 15% ingilis dilində danışır. Ümumiyyətlə ingiliscə danışanların ümumi sayı 1,1 milyard nəfərdən çoxdur. İngilis dilinin fəal şəkildə istifadə olunduğu Avropa ölkələrində ilk top beşliyə aşagıdakı ölkələr daxildir:

1) İsveç- 52%
2) Danimarka- 52%
3) Finlandiya- 44%
4) Kipr- 42%
5) Avstriya-40%

İngilis dilində danışan ölkələr: Beliz Bu (Meksika ilə həmsərhəd olan gözəl bir Karib ölkəsidir), Sinqapur, İsrail, İsveç, Baham adaları, Danimarka, Trinidad və Tobaqo (Venesuela sahilinə yaxın Karib dənizinin cənub hissəsində ada dövləti)

İngilis dili 67 müxtəlif ölkədə və 27 qeyri-suveren qurumda rəsmi dil hesab olunur. Bundan əlavə o, işgüzar ünsiyyətin əsas dillərindən biri olmaqla yanaşı BMT, NATO, Avropa İttifaqı da daxil olmaqla dünyanın bir sıra ən mühüm təşkilatlarının rəsmi dilidir. Bu dil hazırda dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi texniki və kütləvi informasiya dili kimi də məşhurdur. Zəmanəmizdə nəşr olunan ədəbiyyatın və kütləvi mətbuatın əksəriyyəti ingilis dilində dərc olunur. Bütün bu parametrlərə görə ingilis dilinin öyrənilməsi hər kəs üçün zərurət kimi qarşıda durur.

ABŞ-da istifadə olunan dil ingilis dilidir. Lakin o ingilis dilinin amerikan variantı adlanır. ABŞ-da istifadə edilən bu dil son dövrlərdə Böyük Britaniyada istifadə olunan dildən bəzi cəhətlərinə görə fərqlənir.

İngilis dilinin Amerikan varinatı Britaniya ingilis dilinin regional variantı olduğundan ingilis dilinin amerikan dialekti adlanır. Amerikada istifadə olunan ingilis dilinin standart amerika varinatı adlanan ədəbi forması vardır. Amma Amerikan variantının ayrıca bir dil olmamasına səbəb İngilis dilindən fərqli olaraq, onun ayrıca qrammatikasının və lüğətinin olmamasıdır.

Britaniya ingiliscəsini Amerika ingiliscəsi ilə müqayisə etdikdə hər iki variantda onun leksikasında, fonetikasında, qrammatikasında, orfoqrafiyasında olan fərqli nüanslar özünü aydın şəkildə büruzə verir. Doğrudur, dil oxşarlığı cəhətdən çox yaxındır, amma Britaniya ingiliscəsi Amerika ingiliscəsinə nə qədər yaxın olsa da, bu iki varinat arasında bir çox orfoqrafik, leksik, fonetik, qrammatik müxtəlifliklər vardır.

İndi isə Britaniya ingiliscəsi ilə Amerika ingiliscəsi arasındakı fonetik, leksik, qrammatik, orfoqrafik və bir sıra başqa fərqlərə nəzər yetirək.

**Fonetik fərqlər**

İlk öncə Britaniya ingiliscəsi ilə Amerika ingiliscəsi arasındakı tələffüz fərqlərində ən çox nəzərə çarpan fərqləri qeyd edək:

Məsələn*: **“R”, “r”[a:]*** hərfinin tələffüzünün, işlənməsinin hər iki variantda necə olduğuna diqqət yetirək. Aydındır ki, ***“R” [a:]*** hərfi ***[r]*** səsi kimi tələffüz edilir. Sözlərin sonunda ingilislər ***“r” [a:]*** hərfini yalnız saitdən əvvəl işlətdikdə ***[r]*** səsini tələffüz edirlər. Digər hallarda xüsusən sözlərin sonunda tələffüz etmirlər. *Məsələn: flower* sözündə ingilislər sözün sonundakı ***“r” [a:]*** hərfini tələffüz etmirlər, onu *[flauə]* kimi oxuyurlar. Amerikanlar isə həmin sözü *[flauər]* kimi tələffüz edir.

**Qeyd:** Britaniya ingiliscəsində sözün sonunda ***“r” [a:]*** hərfi ilə bitirsə və ondan sonra saitlə başlanan ifadə gələrsə bu halda ***“r”[a:]*** hərfi ***[r]*** səsi kimi tələffüz oluna bilər. Məsələn:

1) *My sister and my brother - [mai sistə(r) ənd mai **brʌðə]***
2) *The flower is red - [**ðə flauə(r) iz red] və s.***

**Amerikan ingilis dilinin Britaniya ingilis dilindən fərqli xüsusiyyətlərindən biridə *“T”[* ti:*]* hərfinin və ya iki *“tt”* hərflərinin *“d”* kimi oxunmasıdır.Məsələn: Britaniya ingiliscəsində *“bitter”(acı) [bitə]* sözündə *“tt”* hərfləri *[t]* kimi oxunur, lakin Amerika ingiliscəsində həmin söz *“bitter” [bidə]* kimi tələffüz edilir.”Bitter” sözünün Amerikan ingiliscəsində *“bidder”*- təklif verən, iddiaçı sözü ilə eyni şəkildə oxunur.**

**Qeyd:Amerikalılar rəsmi olaraq danışsalar və ya mümkün qədər dəqiq danışmağa çalışsalar *[t] [*ti:*]* ləri açıq şəkildə tələffüz edə bilərlər.**

**Britaniya və Amerika ingiliscəsində digər bir fonetik fərq ondadır ki, Amerikan ingiliscəsində vurğulu saitlər uzun tələffüz olunur. Məsələn:*”shop”* sözündəki *“o” [ou]* hərfi Britaniya variantında qısa *[ɔ]* kimi oxunur: *[ʃɔp]*, amma Amerikan ingiliscəsində uzun tələffüz olunur: *[ʃɔ:p]***

**Ümumiyyətlə, Amerikalılar danışarkən hərflərə daha çox vurğu qoyur və sanki, sözlərin “haqqını” verərək tələffüz edirlər. İngilislər isə daha çox hərfləri “udmağa” meyillidirlər [1].**

***Britaniya ingiliscəsi - “lock” [lɔk]*** ***Amerika ingiliscəsi - “lock” [lɔ:k]***
***Britaniya ingiliscəsi - “lunch” [lʌntʃ]*** ***Amerika ingiliscəsi - “lunch” [lʌ:ntʃ]***
***Britaniya ingiliscəsi - “hot” [hɔt]*** ***Amerika ingiliscəsi - “hot” [hɔ:t]***

**Qrammatik fərqlər**

Britaniya ingiliscəsində qrammatik qaydalardan çox geniş istifadə olunur. Amerikan variantında isə bu belə deyil. Belə ki, Britaniya ingiliscəsində standart dildə bəzi feillər keçmiş qeyri-müəyyən zamanda qaydasız feil kimi kökündən dəyişir, yəni *“ed”* sonluğu qəbul etmir [2]. Məsələn:

*to spell - spelt-hərflərlə tələffüz etmək* *to spoil - spoilt-zay etmək,korlamaq*
*to wake - woke – oyanmaq, oyatmaq* *to burn - burnt - yandırmaq, yandı, alovlanmaq*
*to learn - learnt-oyrənmək,təhsil almaq* *to kneel- knelt-diz çökmək*
*to leap - leapt-atılmaq,tullanmaq,hoppanmaq;* *to smell-smelt-iyləmək,iy gəlmək,iy vermək*

Amma Amerika ingiliscəsində bu feillər keçmiş qeyri-müəyyən zamanda sonda ***“ed”*** şəkilçisi ilə işlənir. Məsələn:

*spell- spelled* *smell- smelled*
*burn- burned* *wake- waked*
*learn- learned* *spoil- spoilled*
*leap- leaped* *kneel- knelled*

**Qeyd:** *to dive- dove- suya tullanmaq* (istisnadir)
Yəni, Amerika ingiliscəsində bu feillər qaydalı feillər kimi işlədilir.
**Qeyd:** Belə demək olar ki, Amerika ingiliscəsində ***“ed”***, Britaniya ingiliscəsində isə ***“t”*** ilə bitənlərə üstünlük verilir.

Standart dildə yəni Britaniya ingiliscəsində bəzi feillərin keçmiş zamanını düzəldərkən qaydasız feillərin kök saiti dəyişir: çox vaxt uzun **[i:]** səsi **[e]** –səsinə keçir. Amerikan variantında isə bu hal baş vermir. Məsələn: *“to dream” feili [dri:m]* Britaniya ingiliscəsində keçmiş zamanda *“dreamt” [dremt]* kimi işləndiyi halda Amerikan ingiliscəsində *dreamed [dri:md]* kimi işlədilir.

Bu iki variant arasındakı fərqlərdən biri də gələcək qeyri-müəyyən zamanda *“shall”, “will”* köməkçi feillərin işlədilməsindədir. Belə ki, Britaniya ingiliscəsində həm *“shall”,*

həm də *“will”* şəxslərə görə istifadə olunduğu halda, Amerikan ingiliscəsində *“shall”* variantına çox da rast gəlinmir, *“shall”*yalnız sənədlərdə formal olaraq işlədilir.

Amerikanlar *“shall”*-ın əvəzinə köməkçi feil kimi bütün şəxslərdə *“will”* işlədilir. *Məsələn:* Britaniya İngiliscəsi - *I shall go;* Amerikan İngiliscəsi - *I will go.*

Britaniya ingiliscəsində *“shall we go now?”*. Amerikan ingiliscəsində *“should we go now?”; to get”* feilinin keçmiş zamanı Britaniya ingiliscəsində *“got”,* Amerikan ingiliscəsində isə *“gotten”* olaraq istifadə olunur. Məsələn:

***Britaniya ingiliscəsi** - I got a letter* ***Amerika ingiliscəsi** - I gotton a letter*

*“to be”* feili indiki qeyri-müəyyən zamanda Britaniya variantında şəxslər üzrə *“am”,“is”,“are”* kimi dəyişdiyi halda amerikan varinatında dəyişilməyə də bilər. Məsələn: ***Britaniya ingiliscəsi** - I am here, She is here;* ***Amerikan ingiliscəsi** - I be here, She be here this morning.*

Standart ingilis dilində danışanlar heç vaxt bir cümlədə, bir fikirdə iki inkardan istifadə etmirlər. Lakin Amerika ingiliscəsində danışanlar bir cümlədə bir neçə inkarlıqdan, həm də inkarlıqla bərabər *“hardly”* sözündən də istifadə edirlər. Məsələn: ***Amerika ingiliscəsi:** He doesn’t hardly feel better.* Bu cümlədə iki inkarlıq vasitəsindən istifadə olunmuşdur: *“doesn’t”,“hardly”.*

***Britaniya ingiliscəsində*** həmin cümlə belə işlədilir: *She doesn’t feel better*. “Hardly” sözü standart qaydaya görə işlədilməməlidir. Eyni zamanda onu da qeyd edək ki, amerikan danışığında standart ingilis dilində olan köməkçi feillər *“have”,“has”,“would”, “am”,“is”,“are”* istifadə olunmaya bilər. Məsələn:

***Britaniya ingiliscəsi** - He has done it* ***Amerika ingiliscəsi** - He done this work*

Britaniya və Amerikan ingiliscəsində *“to have” (malik olmaq)* feilinin işlənməsində də bir sıra fərqlər müşahidə olunur. Əsasən də sual və inkar cümlələrində. Məsələn:

| ***Britaniya ingiliscəsi*** | ***Amerika ingiliscəsi*** |
|---|---|
| *I have a book = I have got a book* | *I have a book.* |
| *Have I got a book?* | *Do you have a book?* |
| *I have not got a book* | *I don’t have a book.* |

İndi isə modal feillərin Britaniya və Amerika ingilis dili variantları arasında olan fərqlərdən və yaxud onların hər iki variantda necə işlənməsinə fikir söyləyək. Britaniya ingiliscəsində *(gərək, malı[2])* kimi tərcümə olunan “ought to” modal feili sual və inkar cümlələrində *“ought to”*-dan istifadə olunur. Məsələn:

***Britaniya ingiliscəsi** – You ought to go there-<u>təsdiqdə</u>*
*You oughtn’t to go there- <u>inkarda</u>*
*Ought you to go there?- <u>sualda</u>*

Amerikan ingiliscəsində isə sual və inkar cümlələrində *“ought to”*-dan demək olar ki istifadə edilmir. “Ought to”- nun əvəzinə Amerikan ingiliscəsində “should” feili daha çox işlənir. Məsələn:

***Amerika ingiliscəsi** – We ought to go now - <u>təsdiqdə</u>*
*They shouldn’t tell the police- <u>inkarda</u>*
*Should we go now?- <u>sualda</u>*

“Need” modal feili də Britaniya və Amerika ingiliscəsində fərqli olaraq işlənir. Britaniyalııar “need” feilini həm əsas feil, həm də modal feil kimi, Amerikanlar isə “need” feilini “to need” formasında əsas feil kimi işlədirlər.Məsələn:

***Britaniya ingiliscəsi*** – You needn’t come to work today. – Bu gün işə gəlməyinə ehtiyac yoxdur.

(“Need” burada modal feil kimi işlədilmişdir, çünki əsas feil kimi heç vaxt “not” qəbul etmir)

***Amerika ingiliscəsi*** - You do not need to come to work today.- Buğün işə gəlməyinə ehtiyac yoxdur.

**Orfoqrafik fərqlər**

İndi isə Britaniya və Amerikan ingiliscəsində olan orfoqrafik fərqlərə diqqət yetirək. Bu iki variant arasında bir sıra orfoqrafik fərqlər, müxtəlifliklər mövcuddur. Britaniya ingiliscəsində ***“re”*** sonluğu ilə bitən sözlər amerikan ingiliscəsində ***“er”*** şəklində yazılır. Məsələn:

**Orfoqrafik fərq cədvəli**

| ***Britaniya ingiliscəsi*** | | ***Amerika ingiliscəsi*** |
|---|---|---|
| *centre- mərkəz* | → | *center* |
| *metre- metr* | → | *meter* |
| *litre- litr* | → | *liter* |
| *fibre- lif* | → | *fiber* |

| ***Britaniya ingiliscəsi*** | ***Amerika ingiliscəsi*** |
|---|---|
| *1) –oe, -ae. Məs: anaemia, encyclopaedia* | *-e Məs: anemia, encyclopedia* |
| *2) –t Məs: burnet, dreamt, leapt (atılmaq)* | *-d Məs: dreamed, leaped* |
| *3) –ence. Məs: defence, offence, licence* | *-ense Məs: defense, license, offense (cinayət)* |
| *4)- ell. Məs: cancelled, jeweller (zərgər)* | *-el Məs: canceled, jeweler, marvelous* |
| *5)–l Məs: fulfil, skilful, enrol* | *-ll Məs: enroll, fulfill, skilfull* |
| *6)–ise Məs: appetiser, organise* | *-ize Məs: appetizer, familiarize, organize* |
| *7)–ogue Məs: analogue, monologue* | *-og Məs: analog, monolog, catalog* |
| *8)–ou Məs: behaviour, mould (kif)* | *-o Məs: behavior, mold, color* |
| *9)–re Məs: metre, fibre, centre* | *- er Məs: meter,filter, center* |
| *10) -y Məs: tyre (şin, təkər, bandaj)* | *- i Məs: tire* |

Bundan əlavə Bitaniya ingiliscəsində “our” sonluğu ilə bitən sözlər, Amerikan ingiliscəsində “or” sonluğu ilə əvəz olunur. *Məsələn:*

| ***Britaniya ingiliscəsi:*** | | ***Amerikan ingiliscəsi:*** |
|---|---|---|
| *flavour (ləzzət)* | → | *flavor* |
| *neighbour* (qonşu) | → | *neighbor* |
| *colour (rəng)* | → | *color* |
| *honour (şərəf)* | → | *honor* |
| *labour (əmək)* | → | *labor* |
| *favourite* | → | *favorite* |

**Qeyd: :** Hər iki variantda tələffuz eynidir

Britaniya ingilscəsində yunancadan *“ph”* şəklində keçən sözlər olduğu kimi qalır. Məsələn:

*Sulphur (kükürd),* amma Amerika ingiliscəsində *“ph”* hərf birləşməsi *“f”* ilə əvəzlənir: *sulfur*

Britaniya ingilscəsində tərkibində *“s”+“ation”* olan sözlər Ameikan ingiliscəsində *“s”* hərfi *“z”* hərfi ilə əvəzlənir və z + ation sonluğu kimi olur. Məsələn:

| ***Britaniya ingiliscəsi:*** | | ***Amerikan ingiliscəsi:*** |
|---|---|---|
| *“s”+ation: colonisation* | ⟶ | *“z”+ation: colonization* |
| *realisation* | ⟶ | *realization* |
| *organisation* | ⟶ | *organization* |

**Leksik fərqlər**

Britaniya və Amerika ingiliscəsində yüzlərlə hərf fərqinə rast gəlmək olar. Amerika öz azadlığını əldə etdikdən sonra öz danışıq dilinin azadlığını da unutmadı. Leksikoqraf Noah Webster Amerika ingiliscəsində dəyişikliklər edərək sözlərin daha da yazıldıqları kimi oxunulmasına cəhd göstərmişdir.

Amerika və Britaniya ingiliscəsi arasındakı fərqlərə sayların işlədilməsində də rast gəlmək olar. Britaniya ingiliscəsində yüzdən çox olan saylarda *“yüz”* sözündən sonra *“and”* işlədilmir. Məsələn: 117 *(one hundred and seventeen),* Amerikan ingiliscəsində isə *“and”* işlədilmir. Məsələn: 126 *(one hundred twenty six).*

***Britaniya ingiliscəsi:*** *17March= March 17; the seventeenth of March= March the seventeenth*

***Amerika ingiliscəsi:*** *March 17; March seventeenth (“the”artiklı işlətmirlər)*

**Frazeoloji feli birləşmələr:**

Frazeoloji feillər feilin sözönü ilə birləşərək yeni məna verməsidir.Frazeoloji feillər ümumi ingilis danışıq dilində çox yayılmışlar,lakin onların mənaları çox zaman aydın olmur. Əlavə olaraq Amerikan və Britaniya ingilis dili danışanlar eyni məna verən tamamilə fərqli frazeoloji feillər işlədirlər.Əgər sən bu fərqi bilmirsənsə bu çaşqınlığa səbəb ola bilər. Yanlış ünsiyyətə yol verməmək üçün Amerika və Britaniya frazeoloji feillərini öyrənmək məsləhətdir.

1.”To fill in” ***( Britaniya ingiliscəsi***) və yaxud “ To fill out” ***(Amerika ingiliscəsi)***
Please, fill in the form . ***( Britaniya ingiliscəsi***)
Zəhmət olmasa formanı doldurun.
Please fill out the paperwork. ***(Amerika ingiliscəsi)***
Zəhmət olmasa sənədləri doldurun.
2. “To chase up” ***(Britaniya ingiliscəsi)*** və yaxud “To track dow” , “ To scare up” ***(Amerika ingiliscəsi)***
If we want to make biscuits, we should chase up some butter and sugar. ***(Britaniya ingiliscəsi)***
Peçenye bişirmək istəyiriksə, bir az yağ və şəkər tapmalıyıq.
Since her birthday tomorrow, we should track down a cake. ***(Amerika ingiliscəsi)***
Sabah onun ad gününə qədər, biz tort tapmalıyıq.
Let me track down Jason, I think he knows the answer to that question. ***(Amerika ingiliscəsi)***
İcazə ver gedim Ceysonu tapım, məncə bu sualın cavabını o bilir.

We don’t have much in the kitchen, but I can probably scare up something for dinner.***(Amerika ingiliscəsi)***
Mətbəxdə yeməyə çox şey yoxdur amma nahar üçün bir şey taparam.
3.”To get on” ***(Britaniya ingiliscəsi)*** və yaxud “To get along” ***(Amerika ingiliscəsi)***
–I have been working with Laura for a week, and we already get on really well. ***(Britaniya ingiliscəsi)***
Bir həftədir Laura ilə ilə işləyirəm, biz artıq yaxşı yola gedirik.
I really like my English tutor, we definitely get along .***(Amerika ingiliscəsi)***
Mən ingilis dili müəllimimi xoşlayıram, biz yola gedirik.
4.”To be rained off ” ***(Britaniya ingiliscəsi)*** və yaxud “To be rained out” ***(Amerika ingiliscəsi)***
Bu frazeoloji feil – yağış səbəbindən hər hansı açıq hava tədbirinin təxirə salınması mənasını verir.Fərq yalnız “off” və “out” sözönləridir. Britaniya ingiliscəsində to “be rained off” kimi, Amerika ingiliscəsində isə “to be rained out” ifadəsi işlənir.Məsələn:
The picnic was rained off, so we’ll try to have it next weekend instead. ***(Britaniya ingiliscəsi)***
Piknik yağışa görə gələn həftə sonuna təxirə salındı.
Today’s game was rained off and will be played tomorrow instead. ***(Britaniya ingiliscəsi)***
Bugünkü oyun yağışa görə təxirə salındı,əvəzinə sabah oynanılacaq.
The concert venue was outdoors, so it got rained out last night. ***(Amerika ingiliscəsi)***
Dünən axşam konsert bayırda idi, yağış səbəbindən təxirə salındı.
5.” To shoot off” ***(Britaniya ingiliscəsi)*** və yaxud “ To bail out” və yaxud ***(Amerika ingiliscəsi)***
Bu iki frazeoloji feillərin mənası “ bir yeri daha erkən, nəzərdə tutulduğundan tez tərk etməkdir.Məsələn:
Sorry, I had to shoot off last night. My cat got sick suddenly. ***(Britaniya ingiliscəsi)***
Üzr istəyirəm dünən getməli oldum, pişiyim xəstələnmişdi.
Amerika ingiliscəsində “bail out” qısaca olaraq “bail” kimi də işlənir.
If you aren’t having fun at the party,why don’t you just bail and go home? ***(Amerika ingiliscəsi)***
Əgər qonaqlıqda əylənə bilmirsənsə, niyə oranı tez tərk edib evə getmirsən?
Əvvəlki nümunələrdən fərqli olaraq aşağıdakı frazeoloji feillər demək olar ki, eynidirlər.Lakin mənaları tamamilə fərqlidir.Məsələn:
6.“To ask round/around (someone) - kimisə harayasa dəvət etmək - ***(Britaniya ingiliscəsi)***
Are you available Mr.Jason this weekend? We would love to ask you round for tea.
Cənab Ceyson bu həftə müsaitsiniz? Sizi çaya dəvət etmək istərdik.
“ To ask around ( about something) - bir şey haqqında soruşmaq, soraqlamaq. ***(Amerika ingiliscəsi)***
If the job available I can ask around and find some canidates who would apply. ***(Amerika ingiliscəsi)***
Əgər vakansiya varsa, mən soraqlayıb müraciət edəcək namizəd tapa bilərdim.
Saylarla işlədilən frazeoloji birləşmələr müasir ingilis dilində tez-tez işlənir. Bu cür ifadələr Amerika ingiliscəsində daha çox rast gəlmək olar. Məsələn:

***1)*** *“like sixty”- çox güclü*
*- What hurts you?*
*- My eyes. They are hurting me like sixty*

***2)*** *to go fifty- fifty və ya “fifty-fifty”- yarıya bölmək, yarıbayarı*

Sözönlərin işlənməsində də bu iki variant arasında bəzi fərqlər özünü göstərir. Məsələn: Britaniya ingiliscəsində *“stay at home”* işləndiyi halda amerikan varinatında

*"stay home"* şəklində deyilir, yəni sözönü işlədilmir. Digər bir fərqə nəzər yetirək: Britaniya ingiliscəsində həftəsonu sözü ilə *"at"* sözönü işlənir. Məsələn: *Let's meet at the weekend*

Amerikan ingiliscəsində *"at"* sözönüsünün əvəzinə daha çox *"on"* sözönü işlədilir. Məsələn*:*

*Let's meet on the weekend.*

| ***Britaniya ingiliscəsi:*** | | ***Amerikan ingiliscəsi:*** |
|---|---|---|
| *different from* | → | *f different to (fərqli)* |
| *to wait in a line* | → | *to wait on a line (növbədə gözləmək)* |

Artiklın işlənməsində də fərqlilik mövcuddur. Britaniya ingiliscəsində musiqi alətləri ilə "the" artiklı işlədilirsə, Amerikan ingiliscəsində "the" artiklı işlədilməyə də bilər. Məsələn:

| ***Britaniya ingiliscəsi:*** | | ***Amerikan ingiliscəsi:*** |
|---|---|---|
| *to play the piano* | → | *to play piano* |
| *to play the guitar* | → | *to play guitar* |
| *to play the violin* | → | *to play violin* |
| *I play the guitar* | → | *I play guitar* |

Bir çox sözlər də vardır ki, onlar Britaniya ingiliscəsindən fərqli olaraq, eyni məna kəsb etməsindən asılı olmayaraq, Amerikan ingiliscəsində başqa cür yazılır və səslənir.

| ***Britaniya ingiliscəsi:*** | | ***Amerikan ingiliscəsi:*** |
|---|---|---|
| *Trousers* | → | *Pants (şalvar)* |
| *Flat* | → | *Appartment (mənzil)* |
| *Bonnet (the front of the car)* | → | *Hood (kapot)* |
| *Boot (the back of the car)* | → | *Trunk ( yük yeri, baqaj)* |
| *Lorry* | → | *Track (yük maşını)* |
| *University* | → | *College (universitet)* |
| *Holiday* | → | *Vacation ( tətil)* |
| *Jumper* | → | *Sweater (sviter)* |
| *Crisps* | → | *Chips (xırçıldayan qəlyanlatı)* |
| *Chips* | → | *French fries (kartof qızartması)* |
| *Firry drink* | → | *Soda (qazlı içki)* |
| *Post box* | → | *Mail box (poçt qutusu)* |
| *Trainers* | → | *Sneakers (idman ayyaqqabısı)* |
| *Biscuit* | → | *Cookie (peçenye)* |
| *Chemist's* | → | *Drugstore (aptek)* |
| *Shop* | → | *Store (mağaza)* |
| *Football* | → | *Soccer (futbol)* |
| *Lift* | → | *Elevator (lift)* |
| *Underground* | → | *Subway (metro)* |
| *Town center* | → | *Down town (şəhər mərkəzi)* |
| *Towerblock* | → | *Skyscraper (hündür mərtəbəli bina)* |
| *Autumn* | → | *Fall (payız)* |
| *Rubbish* | → | *Garbage (zibil)* |
| *Car* | → | *Automobile (maşın)* |
| *Post* | → | *Mail (poçt)* |
| *White coffee* | → | *Coffee with cream (açıq qəhvə)* |
| *Petrol* | → | *Gas (benzin)* |
| *Bill* | → | *Check (hesab)* |
| *Ground floor* | → | *First floor (1-ci mərtəbə)* |

| | | |
|---|---|---|
| *Taxi* | → | *Cab (taksi)* |
| *Postcode* | → | *Sip code (poçt indeksi)* |
| *Motorway* | → | *Freeway ( magistral yol)* |
| *Nappies* | → | *Diapers ( uşaq bezləri)* |
| *Gueue (v)* | → | *To stand in a line (növbə,növbədə durmaq)* |
| *Single ticket* | → | *One way ticket (birtərəfli bilet)* |
| *Return ticket* | → | *Round trip ticket (ikitərəfli bilet)* |
| *Pavement* | → | *Sidewalk (səki)* |
| *Bonnet* | → | *Hat (papaq)* |
| *Car park* | → | *Parking lot ( avtomobil dayanacağı)* |
| *Pedestrian crossing* | → | *Crosswalk (piyada keçidi)* |
| *Chemist’s* | → | *Pharmacy (aptek)* |
| *Film* | → | *Movie (film)* |
| *Mad* | → | *Crazy (dəli)* |
| *Flyover* | → | *Overpass (üst keçid)* |
| *Maize* | → | *Corn (qarğıdalı)* |
| *Maths* | → | *Math (riyaziyyat)* |
| *Coffin* | → | *Casket (tabut)* |
| *Clothing peg* | → | *Clothespin (paltar sancağı)* |
| *Crossroads* | → | *İntersection ( dördyol, kəsişmə)* |
| *Timetable* | → | *Schedule (cədvəl, proqram)* |
| *Aeroplane* | → | *Airplane ( təyyarə)* |
| *Mobile phone* | → | *Cell phone (mobil telefon)* |
| *To ring* | → | *To call (zəng etmək)* |
| *Wardrobe* | → | *Closet (şkaf (paltar))* |
| *Tap* | → | *Faucet (kran)* |
| *Driving licence* | → | *Driver’s licence (sürücülük vəsiqəsi)* |
| *Barrister* | → | *Attorney (vəkil)* |

**Nəticə**

Bütün bu izahlardan sonra belə bir nəticəyə gələ bilərik ki,Amerikada işlədilən ingilis dili ilə Britaniyada işlədilən ingilis dili arasında fərqlər olsa da, həmin ölkələrin vətəndaşları istər yazılı, istərsədə danışıq zamanı bir birlərini asanlıqla başa düşürlər.Çünki həmin fərqlər eyni dilin variantlarıdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1.Crystal David: “English as a Global language “ Cambridge University Press 1997.
ISBN 0521. 53032-6
2. English for cross – cultural communication. 1981. New York St. Martin’s Press
3. Peters Pam 2004 The Cambridge Guide to English Usage Cambridge. Cambridge University Press. ISBN-0-521- 62181-X
4. Clive Oxenden, Christina Latham-Koeing, Paul Seligson:”New English File “Pre- Intermediate Student’s Book. Oxford University Press ISBN-978-0-19-438433-9
5. I.F.Jdanova, N.S.Popova, I.F.Zhdanova,O.E.Kudryavtseva, N.S.Papova, M.V.Skvertsova, S.A.Sheveleva “English for Businessmen” in two volumes Moscow 2010
6. https://”british edu.az”
7. https:// www azadlig.org.
8. https: //upper.edu.az
9. https://az.m.vikipedia.org
10. https://az.enlizz.com
11.https://www. academia.edu

12. intrepidenglish.co.uk/handy-phrasal verbsin the US or UK “Handy Phrasal verbs in the US or UK
13.diane@teacherdiane.com “American and British English” –Teacher Diane

**Сарраф Мирзоев**
**Ханымбаджи Жафарли**

## НЕКОТОРЫЕ ОТЛИЧИТЕЛЬНЫЕ ЧЕРТЫ БРИТАНСКОГО И АМЕРИКАНСКОГО ВАРИАНТОВ АНГЛИЙСКОГО ЯЗЫКА

***РЕЗЮМЕ***

В статье говорится о роли английского языка в новейшее время, его статусе ведущего языка мира, использованным его в качестве официального государственного языка ряда стран, его широком распространении среди населения мира и переводе на язык самые престижные организации мира.

Кроме того, в статье отмечается множество орфографических, фонетических, лексических и грамматических различий между американским английским и британским английским языком в использовании английского языка во многих странах особенно в США, и даются сравнительные пояснения.

Между американским английским и британским английским существуют не только фонетические, лексические, грамматические, орфографические различия, но также заметны различия во фразеологических глаголах и фразеологических сочетаниях. Интересно отметить что несмотря на эти различия будь то в разговорном языке или в какой-либо части лингвистике, а сколько их существует, британцы и американцы очень хорошо понимают друг-друга.

***Цель исследования:*** Основная цель исследования – получение информации об американском варианте английского языка в первую очередь. В ходе исследования было показано что когда вы сталкиваетесь с выражениями с орфографическими, фонетическими, лексическими, грамматическими отличиями относящийся к американскому варианту как в процессе обучения английскому языку так и в живой беседе, вы должны сразу понимать что эти выражения имеют одинаковое значение как британский английский даже если они пишутся по-разному и звучат по-разному.

***Методология:*** в исследовательском работе использовались грамматические, лексические и фонетические методы анализов наиболее распространенных и наиболее употребленных и наиболее употребляемых выражений английского языка между британским английским и американским английским языком в сравнительном порядке.

***Результаты исследования:*** В современное время скорость развития английского языка увеличивается во всех областях но в настоящее время американский английский используется более широка и даже превосходит британский английский благодаря использовалось во многих областях. Рекомендуется ознакомиться со словами и выражениями употребляемыми и нарисованными в американском английском выучить их и использовать в своей речи.

***Ключевые слова:*** *британский английский, американский английский, язык массовой информации, различные характеристики, различия, варианты одного и того же языка*

**Serraf Mirzayev**
**Xanimbaci Cafarli**

**SOME DISTINCTIVE FEATURES OF THE BRITISH AND AMERICAN VARIANTS OF THE ENGLISH LANGUAGE**

***SUMMARY***

The article talks about the role of the English language in modern times,its being the world’s leading language, its use as the official state language of many countries,its wide distribution among the world’s population and its transformation into the language of the world’s most prestigious organization.In addition, the article also explains that there are many orthographic, phonetic, lexical, and grammatical differences between American English and British English in the use of English in many countries, especially in the United States of America.

In the article, it is also shown that between American English and British English there are not only grammatical, lexical, phoneticdifferences, but also there are even noticeable differences in phrasal verbs and phraseological units. It is interesting to note that regadless of theabove mentioned differences whether in live conversation or in any field of linguistics and no matter how much the British and Americans understand each other very well.

***The purpose of the study:*** One of the main issues of the research is to obtain information about the American version of the English language.When you come across expressions with the orthographic, phonetic, lexical, grammatical differences related to the American version of the English language, whether in the process of teaching English or in live conversation,you should immediately understand that those expressions have the same meaning as British English, even though they are written and sound differently.

***Methodology:*** In the research, orthographic, phonetic, lexical and grammatical analysis methods of the most used expressionsof the English language between British English and American English were explained in a comparative manner.

***The results of the study:*** In modern times the speed of the development of the English language is increasing in every field. But nowadays American English is more widely used than British English and even overtakes British English due to the usage.That’s why (therefore) it is recommended to familiarize youself with in American English, learn them and use them in your speech.

***Keywords:*** *British English, American English, Mass Information language, different characteristics,differences,variants of the same language*

**UOT 316**

**Şəhla Abdullayeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı

# SOSİAL-MƏDƏNİ FENOMEN KİMİ MODANIN ELMİ TƏDQİQİ

*Modanın sosial-mədəni hadisələrlə bilavasitə əlaqəsi, modanın hadisələrin forma və məzmununa yayılması sosial-mədəni yanaşmanı həyata keçirmişdir. Mədəni sferada moda cəmiyyətdə hökm sürən münasibətlərin və baxışların xüsusiyyətləri, mədəni-mənəvi dəyərlər, müəyyən bir dövrün idealları ilə müəyyən edilir, lakin moda xarici şəraitdə dəyişikliklərə məruz qalır. Sosioloji nöqteyi-nəzərindən dəb müəyyən bir sosial qrupun və ya bütövlükdə cəmiyyətin həyat tərzi, fərdin tipologiyası, onun istəklərinin, meyllərinin, ehtiyaclarının təbiəti, davranış stereotipləri və həyat tərzi ilə əlaqələndirilir. Məqalədə bu fenomeni dərk etmək üçün əsas yanaşmalar (estetik, mədəni-tarixi, sosioloji, sosial-psixoloji, sosial-mədəni) təhlil edilir; modanın funksiyaları və onun mahiyyəti işıqlandırılır. Dəb həyatda yeni cəmiyyətin qurulması əsasında fəaliyyət göstərən sosial həyatın daim yenilənməsinin universal mexanizmi kimi mövqe tutur. Məqalədə nəzərdən keçirilən fikirlər belə qənaətə gəlməyə kömək edir ki, dəb mədəniyyətdəki müəyyən dəyişikliklərdən və onlarla əlaqəli sosial formalardan kənarda təsəvvür edilə bilməz.*

*Məqalənin metodologiyası modanın insan həyatının sosial-mədəni fenomeni olaraq, onun həm bir elm, həm də insanın günlük həyatının ayrılmaz hissəsi kimi nəzərdən keçirilməsindən, hazırki dövrdə sosial tənzimləyici kimi çıxış edən modaya müxtəlif zamanlarda olan yanaşmalardan ibarətdir. Həmçinin, məqalədə modanın müasir cəmiyyətdə artan rolundan, onun cəmiyyət səviyyəsində dəyişən funksiyalarından, moda üslublarından, dəbin sosial vəziyyətindən də bəhs edilir.*

***Açar sözlər:*** *moda, elm, mədəniyyət, trend, moda standartları*

## Giriş

Moda müasir mədəniyyətin ən mürəkkəb və dəyişkən hadisələrindən biridir. Müasir moda elə bir sistemdir ki, onun haqqında hər hansı bir mövqedən çıxış edərək birmənalı danışmaq mümkün deyil. Bu fenomen bu gün demək olar ki, bütün humanitar elmləri maraqlandırır və hər biri ona öz nöqteyi-nəzərindən yanaşır. Sosioloqlar modanı müəyyən edilmiş xüsusiyyətlərə və funksiyalara malik mürəkkəb sosial fenomen, psixoloqlar üçün bu, bir növ kütləvi davranış, habelə insana müəyyən təsir üsuludur, filosoflar modanı “fikirləri ifadə etmək üçün estetik vasitə, cəmiyyətdə dolaşan istək və inanclar” adlandırırlar. Müasir moda vaxt keçdikcə daha mürəkkəbləşdi, onun yayılma mexanizmləri də dəyişir. Klassik nəzəriyyələr bu gün artıq müasir dövrdə dəbdə baş verən dəyişiklikləri tam təsvir edə bilmir, bununla belə onların tamamilə tükəndiyini də söyləmək olmaz.

Moda təkcə elmi marağa deyil, həm də adi insanların diqqətinə səbəb olan gündəlik həyatın ən məşhur hadisələrindən biridir. Bir tərəfdən dəb müasir dünya mədəniyyətinin tərkib hissəsidir, həm öz sistemindəki obyektlərlə, həm də xarici mühitlə daimi kommunikativ qarşılıqlı əlaqədə olan şaxələnmiş çoxsemantik quruluşa malik mürəkkəb sosial-mədəni və estetik hadisədir. Digər tərəfdən moda fərdlərin və sosial qrupların davranışlarının sosial tənzimləyicisi kimi çıxış edir, incəsənəti, tarixi, siyasəti, iqtisadiyyatı, sosial-mədəni prosesləri və elmi-texniki nailiyyətləri əhatə edən mürəkkəb mühitdir, bununla da, kütləvilik statusu alır. Bu gün həyatımızın ayrılmaz bir hissəsinə çevrilmiş

sosial media mədəni dəyişikliklərin dinamikasını, o cümlədən moda dünyasında baş verənləri əks etdirir. Üstəlik, sosial mediaya xas olan sürət yeni obrazı bir neçə saat ərzində onlayn dəbdə saxlamağa, onu imitasiya, müzakirə və ya tənqid mövzusuna çevirməyə imkan verir. Geniş kütlədən konkret obyektlərin müvəqqəti seçilməsi ilə səciyyələnən, müəyyən parametr və xüsusiyyətlərə malik sosial həyat hadisəsi moda adlanır.

Moda, şübhəsiz, cəmiyyətin inkişafında elmi maraq doğuran ən vacib sosial hadisələrdən biri kimi qəbul olunur. Həmişə bu fenomenin mürəkkəbliyinə dəlalət edən sosial-fəlsəfi, etik, kulturoloji, sosioloji təhlil obyekti olmuşdur. Moda zamanla dəyişir, tarixi, dinamik, dövrə adekvatdır. Tarixi kontekstin məzmun-ma-hiyyətini təcəssüm etdirir, bir növ müasirliyin kvintessensiyasıdır. İnformasiya və texnoloji "irəliləyişlər" modanın təbiətini dəyişdirir, yeniləşdirir, əlavələr edir, irəli aparır, onu daha əlçatan edir və müxtəlif sosial icmalar tərəfindən moda üçün etik dəyərlərin gözlənilməsini əsaslandırılan tələblər qoyulur.

XX əsrin sonlarında sosial-mədəni sferada baş verən dəyişikliklər cəmiyyətin müxtəlif sahələrinin yenidən qurulmasına təkan verən və moda sahəsində əsl inqilabın başlanğıcını qeyd edən postmodernizm ideyalarının inkişafına təsir göstərmişdir. Postmodern dövrün inkişafı incəsənətin bütün formalarında, o cümlədən dəbdə çoxlu sayda üslub və cərəyanların meydana çıxması ilə təsdiqlənir.

J.Bodriyar haqlı olaraq qeyd edirdi ki, “ Moda sosial mexanizmlərin ən səthi və ən dərini kimi başa düşülə bilər” [1, s. 170]. Çünki moda hadisəsinin ikili təbiəti ilə əlaqədar olaraq, bu hadisənin təkcə daxili mahiyyətini və onun cəmiyyətdə fəaliyyət mexanizmlərini deyil, həm də bu hadisəni şərtləndirən xarici amilləri müəyyən etmək çətinləşir.

Bir çox sosioloji məktəb və cərəyanların tərəfdarı, əsas ideyası cəmiyyəti bədənlə müqayisə etmək olan başqa bir sosioloq Q.Spenser də moda fenomenini tədqiq etmişdir. Q.Spenser modanı nəzakət kateqoriyasına daxil edir, onları obyektə münasibətdə adətlərlə müqayisə edir: birincilər özümüzə münasibətdə hərəkətləri, yəni davranışımızın şəxsi tərəfini, ikincisi isə başqa insanlara münasibətdə müəyyən edir. Əslində, adət və ədəb eyni mənbədən - cəmiyyətdə həyatı tənzimləmək və nəzarət etmək zərurətindən irəli gəlir [ 2, s. 3]. B. Elkina modanın sosial rolu məsələsinə dair işində qeyd edir ki, bu, kifayət qədər tez yayılan və yox olan nisbi yenilik əlaməti olan standart və ya normadır. Əgər seçim azadlığı varsa, belə bir standart adətən şüursuz şəkildə insanlar tərəfindən qəbul edilir.

Son iki əsrdə moda cəmiyyətin yuxarı təbəqələrinin formalaşdırdığı elit modadan, cəmiyyətin müxtəlif sosial qrupları və təbəqələri tərəfindən formalaşan və kütləvi sənaye istehsalı ilə təşviq edilən kütləvi modaya çevrildi.

Hal-hazırda bu, dəbli obyektlərin, standartların, mənəvi və maddi xüsusiyyətlərin fərqləndiyi, onların həyata keçirildiyi mürəkkəb bir quruluşdur. Moda “dövrün güzgüsünə çevrilərək , insanların əhval-ruhiyyəsini, siyasi vəziyyəti və istehsalın inkişaf dərəcəsini əks etdirir” [ 3 , s. 42].

Müasir cəmiyyətdə modanın artan əhəmiyyəti fərdi və bütövlükdə cəmiyyət səviyyəsində yerinə yetirilən funksiyaların müxtəlifliyi ilə izah olunur :

- Yenilikçi funksiya modanın əsas və ən bariz funksiyalarından biridir. Moda yüksək innovasiyanın mənbəyi, nəticəsi və göstəricisi hesab olunur.
- Kommunikativ funksiya. Cəmiyyətdə fəaliyyət göstərən bütün işarə sistemləri insanlar arasında ünsiyyət vasitəsi kimi xidmət edir, moda belə sistemlərdən biridir.
- Sosiallaşma funksiyası. Moda fərdin sosial və mədəni təcrübə ilə tanışlıq vasitələrindən biridir, yəni sosiallaşma funksiyasını yerinə yetirir.
- Prestijli xüsusiyyət. Moda müəyyən hadisələrin, dəyərlərin, mədəni nümunələrin

və s. nüfuzunu artıran və ya azaldan amillərdən biridir. Beləliklə, o, prestijli funksiyanı yerinə yetirir.
- Psixofizioloji rahatlama funksiyası. Müasir şəraitdə bir çox istehsal proseslərinin monotonluğu, şəhər mühitinin monotonluğu, sənaye məhsullarının standart xarakteri və s. kimi amillərin fərdlərə mənfi təsirini nəzərə alsaq, modanın bu funksiyası xüsusilə vacibdir.
- Tənzimləyici - moda həyat tərzinə yeni davranış formaları və yeni mədəni nümunələr təqdim edir, müxtəlif mədəniyyət modelləri arasından bir müddət normaya çevrilən birini seçir, insanın seçim etməsini asanlaşdırır və bununla da dəyişən şəraitə uyğunlaşmağa kömək edir.
- Sosial-mədəni funksiyalar. Adət və ənənələr uzun müddət modanın sosial-mədəni funksiyalarını yerinə yetirmişdir..

Moda ayrıca sosial və mədəni fenomen kimi kifayət qədər uzun müddət qorunub saxlanıla və sonradan yenidən canlana bilər.

Moda uzun müddətdir ki, müxtəlif ictimai və humanitar elmlərin nümayəndələrini maraqlandırır, o, tarixin, mədəniyyətşünaslığın, sosial antropologiyanın, psixologiyanın, iqtisadiyyatın və əlbəttə ki, sosiologiyanın öyrənilməsi mövzusudur. Bu elmlərin hər biri dəb hadisəsini öz mövqeyindən, öz metodoloji aparatından istifadə edərək öyrənir və öz nəzəri konsepsiyalarında yalnız hər bir fənnin predmet sahəsinə aid olan tədqiqat suallarını ortaya qoyur. Həmçinin, müxtəlif elmlər dəbə müxtəlif təriflər verir, tədqiqat obyektini və predmetini özünəməxsus şəkildə formalaşdırır.

Moda sosial tənzimləyicidir, bir tərəfdən cəmiyyətdə sosial bərabərsizliyi nümayiş etdirir, sosial qruplar arasında fərqləri ifadə edir (müxtəlif sosial qruplar dəbli davranışda iştirak etmək üçün müxtəlif imkanlara və stimullara malikdir) . Digər tərəfdən, moda müasir cəmiyyətin demokratikləşməsi amili olmaqla sosial qruplar arasındakı fərqləri hamarlayır. Moda təkcə sosial status nümayiş etdirmək vasitəsi deyil, həm də insanlar arasında ünsiyyət vasitəsi, kütləvi ünsiyyət formasıdır. Moda ünsiyyətin əsas sosial-psixoloji mexanizmləri ilə əlaqələndirilir: təklif, inandırma, imitasiya. Hələ XIX əsrdə modanın təqlid kimi şərhləri var idi. (Q.Spenser: “Moda mahiyyətcə imitasiyadır”) .

Dəbə əməl etmək insanın cəmiyyətə, ətraf aləmə, özünə münasibətini ortaya qoyur. İnsan bir tərəfdən fərdiliyini qoruyub saxlamaq istəyir, digər tərəfdən də özünü cəmiyyətin digər üzvləri ilə eyniləşdirməyə çalışır. Moda insana hazır variantları, düşünmədən əməl edilə bilən standart davranış nümunələri təklif edir və eyni zamanda fərdi inkişaf illüziyasını saxlayır. Bu, modanın qoruyucu, kompensasiya funksiyasıdır. Amerikalı sosioloq J.K.Galbraith qeyd edib ki, dəbli standartlara və naxışlara sahib olmaq müəyyən psixi reaksiya ilə bağlıdır. Bu üstünlüklər istehlakçıda şəxsi uğur, digər insanlarla bərabərlik hissi oyadır, onu düşünmək ehtiyacından azad edir, cinsi istəkləri oyadır, ona cəmiyyətdə nüfuz vəd edir, fiziki rifahını yaxşılaşdırır, ümumi qaydalara uyğun olaraq cəlbedicilik verir. Əks halda, fərd özünü normadan kənara çıxmış hiss edərdi.

Moda nəzəriyyəsi moda elmidir və o, ümumiyyətlə kostyumun və ya geyimin tarixini öyrənmir. Moda nəzəriyyəsi modanı bir fenomen kimi moda yaradan institutlar sistemi kimi öyrənir. Moda, kostyum və kateqoriyasına düşməzdən əvvəl paltar transformasiya prosesindən keçməlidir - bu, dizaynerin yaradıcılığı prosesidir. Geyim moda üçün orijinal vasitədir, cəmiyyətdə özünü ifadə etmək və tanımaq üsuludur. Dəbin iyerarxik quruluşu modelyerlərə öz rəsmi statusunu verir. Belə bir sistem çərçivəsində yaradıcı xarakter daşıyan istənilən fəaliyyət yalnız müəyyən sosial-mədəni amillərin mövcudluğu nəticəsində bədii fəaliyyət kimi tanınır. Moda yaradıcılığı demək olar ki, həmişə mədəni dəyişikliyə əsaslanır.

İnsanın müəyyən sosial və ya yaş qrupuna mənsub olması onun modaya münasibətini seçmək imkanını müəyyən edir. Moda təqibi sosial eyniləşdirmənin xüsusi halı olan uyğunluqla sıx bağlıdır. Uyğunluq fərd və qrup arasında müəyyən ziddiyyət, onların baxışlarının, istəklərinin, maraqlarının fərqliliyini nəzərdə tutur. Yaxud da , fərd ya öz inanclarından imtina edərək, ya da qrupun qəbul etdiyi standartlar kimi maskalanaraq qrupun dəyərlərinə uyğunlaşmağa məcbur olur. Moda uyğunluğa tabe olma ilə fərdiləşdirmə ehtiyacı arasındakı ziddiyyəti yumşaldır, eyni zamanda hər ikisini təmin edir.

Moda həm də psixoloji hadisə kimi tədqiq edilib, onun yaranma səbəblərini və dəyişmələrini fərdi psixologiya nöqteyi-nəzərindən öyrənilirdi. Moda sosial uyğunluq və fərdi azadlıq arasındakı ziddiyyəti həll etmək mexanizmi kimi mühüm insan ehtiyaclarını ödəyir. G.Simmel modanın həyatın sosial bərabərləşməyə meyli ilə fərdin öz fərdiliyini təzahür etdirməyə meyli arasında güzəştə getməyə çalışdığı müəyyən bir xüsusi forması olduğunu qeyd edir. Psixoloji yanaşma moda dəyişikliyinin psixoloji səbəblərini müəyyən etməyə imkan verir. Psixoanalitiklər (Z.Freyd, E.Fromm, J.Flügel və s.) modanı şüursuz proseslərlə əlaqələndirən psixoloji hadisə kimi şərh edirdilər. Z.Freyd dəbin mənşəyini azadlıq, gözəllik və əhəmiyyətə çağırışlar kimi şərh etmişdir. Psixoanalitiklər modaya riayət etməyi insanın sosial mövqeyindən narazılıq nəticəsində yaranan “aşağılıq” hissini aradan qaldırmağın bir yolu kimi şərh edirdilər. Moda bağlılığı prestij çatışmazlığını kompensasiya edir. Geyim dəyişikliyi bir növ insana şəxsiyyət dəyişikliyi illüziyasını verir, önlükdəki evdar qadın özünü qulluqçu kimi hiss edir gecə geyimində isə özünü artıq xanım kimi hiss edir. Moda həm də insanın yeni hisslərə olan ehtiyacını ödəyir.

Müasir kütləvi istehlak cəmiyyətində dəb fenomeni insanların şüurunu özünə tabe edir və kütlə içərisində fərdin mövcudluğunun davranış modellərini fəal şəkildə formalaşdırmağa başlayır. Moda dünyagörüşünün mahiyyətini ən yaxşı şəkildə ifadə edir: yenilik hissi, cəmiyyətin maddi və mənəvi dəyərlərinin dəyişdirilməsi üçün bir növ mexanizm kimi çıxış edir. Vəziyyətin tələb etdiyi "libas", lazımi ifadələr , jestlər ətraf mühitdə tez yön tapmağa etmək və düzgün davranış strategiyasını müəyyən etmək imkanı verir. Buna görə də, modanı sosial uyğunlaşma üçün bir növ vasitə kimi də qəbul etmək olar, çünki, insana situasiyaya uyğun müəyyən obrazlar yaratmağa kömək edir. İstifadə olunan geyim ilk növbədə insanın rahatlığını təmin etməlidir. Ənənəvi mədəni dəyərlərin məhv edilməsi və insanın özünüdərkinin və özünütəşkilinin yeni müasir formalarının formalaşması şəxsiyyətin sosial təzahürü, normaların formalaşması üçün müəyyən çətinliklər yaradır, çünki insan təbiəti eyni vaxtda bir araya sığmayan xüsusiyyətlərin olması ilə xarakterizə olunur.

İctimai kütləvi moda, mövcud dəyərlərə təsir edən sosial-mədəni proses kimi özünü göstərir. Moda fərdlərin dəyər dünyasını gücləndirir və sabitləşdirir. Hazırda moda tendensiyalarında bir sürətlənmə müşahidə olunur. Müxtəlif mədəniyyətlərin qarşılıqlı nüfuzu prosesi gedir, getdikcə daha yeni fikirlər, ideyalar yaranır. Dəb elə bir sosial-mədəni və simvolik reallığı formalaşdırır ki, onun sayəsində insan yaratdığı “dünya”nı dərk edir. Ümumi mənada moda həyatın hər hansı bir sahəsində müəyyən bir üslubun müvəqqəti hökmranlığı kimi başa düşülür. Moda fenomeninə maraq onun insan həyatının və fəaliyyətinin sosial, iqtisadi, mədəni sferalarına çox müxtəlif təsir göstərməsi, öz növbəsində bu dəyişikliklərin əlaməti olması ilə əlaqədardır. Eyni zamanda dəb “insan və ictimai reallığın ayrı-ayrı elmlər tərəfindən parça-parça kəsilmiş hər bir fraqmentinin əhatə dairəsindən kənara çıxır. Bu fenomen bütöv və universaldır”. [4, s. 20]. Dəbin fundamental mahiyyəti - onun innovativ təbiəti bütün nəzəri yanaşmalarda qeyd olunur; moda hərəkatının istiqaməti ictimai inkişafın dinamikasını əks etdirir.

T.Veblenin modanın bir neçə əsas xüsusiyyətlərini vurğulayır:

1) moda zənginlik nümayiş etdirmək üçün bir seçimdir. Geyimə xərcləmə istehlakın

bariz göstəricisidir. Geyim iqtisadi canlılığın real əksidir və dərhal nəzərə çarpan maliyyə rifahının göstəricisidir;

2) dəbli standartlara sahib olmaq fərdin fiziki əməklə məşğul olmadığını göstərir. İnsanın zərif və səliqəli görünüşü onun boş həyat tərzini əks etdirir. Bir insanın daha az rahat paltarı varsa, onun elitanın bir üzvü kimi çəkisi də bir o qədər çox olur;

3) anına görə dəb, müasirlik. Dəbli olmaq zamanın bu anına uyğun gəlmək deməkdir.

Veblen belə bir mövqe tutur ki, "dəbdə" olmaq üçün istifadə olunan moda standartlarına çatmaq çətin olmalıdır. Bu gün cəmiyyətin yüksək maddi rifah səviyyəsinə malik sosial təbəqələrinin nümayəndələri dəyərli və çətin əldə olunan geyimlərdən istifadə etməklə bir növ öz rifahlarını nümayiş etdirirlər.

Müasir sosiologiyanın nümayəndələrindən olan R.Keniqin dəb anlayışında əsas ideya ondan ibarətdir ki, təqlid lap əvvəldən kütlənin oxşar hərəkətinə aparan cərəyanların yaranmasına təkan verir. R.Keniq dəbi yalnız obyekt və subyekt arasında qurulmuş sosial münasibətlər əsasında meydana çıxan imitasiya kimi başa düşür və bu əlaqələr könüllüdür. G.Bloomer, isə moda anlayışında moda istehlakçılarına əsas əhəmiyyət verir. O, hesab edir ki, zövqü müəyyən edən dəb istehlakçılarıdır və modelyerlər isə, bu zövqləri dəbə çevirirlər. Alim bu anlayışa əsaslanaraq “dəbin yuxarıya sızması” nəzəriyyəsini irəli sürür. Dəb fenomeninin, başqa sözlə desək, “dəb halı”nın dövrün sosial dəyişiklikləri ilə transformasiyaya uğraması faktdır. Ona görə də “dəb” haqqında formalaşan fikirlərə dövrlərin sosial dinamikası öz təsirini göstərir.

Moda cəmiyyətin müxtəlifliyini əhatə edən ən vacib sosiomədəni və etik fenomen kimi istehlakçı cəmiyyətin universallıq və fərdiyyətin xüsusiyyətlərindən məlumat verir. Bunlar belə qənaətə gəlməyə əsas verir ki, müasir mərhələdə modanın tədqiqində onun mədəniyyətlərarası kommunikativ vasitə olması məqamı da ciddi etik-fəlsəfi, sosial və kulturoloji əhəmiyyət kəsb edir. Bu baxımdan R.Bartın [50], L.V.Petrovun, Y.M.Lotmanın və bir çox Qərb filosof, kulturoloq və sosioloqlarının yanaşmalarına müraciət etmişik. Bu yanaşmalarda moda kommunikativ hadisə olaraq iki kontekstdə - moda fərdlərarası dialoq forması kimi və moda mədəni yeniləşmənin sinxron təşkil edilmiş dinamik prosesi kimi nəzərdən keçirilir. Bizi bu iki aspektin vəhdətində modanın qeyri-xətti mürəkkəb sistem kimi substantiv və kommunikativ aspektlərinin qarşılıqlı əlaqəsinin dinamikası, mənəvi dəyərlər bağlılığında maraqlandırır. Konkret ifadə etsək, modanın mürəkkəb struktur-funksional özəlliyi onu tələb edir ki, müasir mərhələdə onun fəlsəfi-elmi refleksiyasına fənlərarası müstəvidə yanaşılsın.

Moda üslublardan birinin və ya bir neçəsinin sosial vurğusu kimi böyüyür. Bu cür vurğunun bir çox səbəbi var: iqtisadi, sosial, kommersiya, psixoloji, estetik, hətta texnoloji. Moda, insanın “özünü eyniləşdirməsi” “sosial elementin özünü yaşaması”nın yeridir. Modanı keçmiş, indi və gələcək arasında müəyyən semantik əlaqə olmadan təsəvvür etmək olmaz. Bu prosesdə iştirak edən şəxsin rolu bu xətti saxlamaqdır. Bu, dəbli paltarların yeniliyini qiymətləndirmək, modanın müddətini, yeni modanın ortaya çıxma vaxtını proqnozlaşdırmaq üçün lazımdır. Dəb, bir növ sosial vaxt kimi fərdin müvəqqəti və ya həyat perspektivi ilə üst-üstə düşə bilər, düşməyə də bilər. Dəb kontekstində insanın zehni olaraq gələcəyi görmə qabiliyyəti, özünü gələcəkdə təsəvvür etməsi (psixoloji perspektiv) yaşından, peşəsindən, ehtiyaclarından, dəyər oriyentasiyalarından, həyatın üstünlük verdiyi sahələrdən asılı olaraq müxtəlif təsirlərə səbəb ola bilər.

Estetik zövqlərin inkişaf forması olan moda bu aspektdə bədii praktikanı da müəyyən etmişdir. Dəbli naxışların ətraf mühitə praktiki şəkildə tətbiqi bu gün modaya xas olan yeni, lakin qlobal üslub xüsusiyyətlərinin ardıcıl inkişafına gətirib çıxarır. Ancaq, bu vəziyyətdə də moda bütün bədii texnika və ifadə vasitələrini müəyyən edən bir növ

"mikrostil" kimi çıxış edir. Əvvəllər olduğu kimi bu gün də dəb çox mobildir: bir sahədə birinci görünən moda, üstünlük təşkil edən zövq kimi bütün digər sahələrə yayılmağa meyllidir və bu, hər yerdə, bütün ölkələrdə olur. Dəbli paltarlar müəyyən bir tarixi dövrün müəyyən edilmiş ideallarına nail olmaq üçün bir növ yol hesab edilə bilər. Geyimin təsirinin öyrənilməsi insanın modaya qeyri-müəyyən münasibətini anlamağa imkan verir. Bir tərəfdən fərd buna qarşı çıxır, fərdiliyini qorumağa çalışır, digər tərəfdən də sosial mühitdən təcrid olmamaq üçün dəbə əməl etməyə çalışır. Modaya istiqamətlənmə subyektin fərdi keyfiyyətlərinin əksidir, şəxsi məna daşıyır, müxtəlif dəbli obyektlər və cərəyanlar vasitəsilə öz ehtiyaclarına və maraqlarına uyğun olanı seçməyə imkan verir. Dəbin sosial vəziyyəti insanın daxili dünyasından ayrılmazdır. Moda bu dünyanı ifadə edir və onu qurur. Bunu indiki dövrdə çoxdan formalaşmış və intensiv şəkildə işlənmiş psixoloji yanaşmalar təsdiqləyir. Bu gün hər kəs öz rol modelini seçməkdə və ya üslubları, formaları və siluetləri qarışdıraraq özünəməxsus, obrazını yaratmaqda sərbəstdir. Müasir moda mürəkkəbləşir, dəyişir və bu dəyişikliklər əks olunmağı, günün reallığından irəli gələn yeni yanaşmalar tələb edir. Əgər əvvəllər aristokratların geyimlərinin estetikası onların eksklüzivliyini və əlçatmazlığını vurğulayırdısa, bu gün hamımız dəbdə geyinə bilərik.

Mədəniyyət sistemində dəb mədəniyyət məhsullarına müasir tələbləri göstərən fenomendir, ona görə də onun milli variantının hazırlanması eyni zamanda modernləşmə və eyniliyin qorunması üçün vacib şərtdir. Moda mədəniyyətin ideologiya, siyasət, dövrün şüuru (stereotiplər, ideyalar, obrazlar, mentalitet) kimi mədəniyyət elementləri ilə əlaqələndirilir. Moda dövridir, fərdi motivlər və elementlər, vaxtaşırı geri qayıdır.

Məqalə modanın cəmiyyətin bütün sahələrinə nüfuz etmiş bir mədəniyyət hadisəsi kimi baxılmasına həsr edilmişdir. Moda fenomeninin sosioloji təhlili bu fenomenin öyrənilməsini xüsusi sosial institut kimi fərqləndirir, onun yaranması sosial inkişafın müəyyən meylləri, davranış nümunələri, iqtisadi strukturu və istehlak səviyyəsi ilə müasir cəmiyyətin formalaşması ilə bağlıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Бодрийяр Ж. Мода, или Феерия кода. Бодрийяр Ж. Символический обмен и смерть . С.И.Зенкина. М., 2000. С. 170.
2. Brake M. The Sociology of Youth Cultures and Youth Subcultures. Abingdon, 2013. 214 p.
3. Пахомова М.Г. Мода как социально-культурный феномен // Всероссийский журнал научных публикаций. 2011. № 3. С. 64.
4. Гофман А.Б. Мода и люди. Новая теория моды и модного поведения. Наука. 2013. С. 228.
5. Ермилова В.В., Ермилова Д.Ю. Моделирование и художественное оформление одежды. М.: Мастерство; Академия; Высшая школа, 2000. С. 180.
6. Хаустова А.А. Мода как социальный феномен и объект социологического анализа. Власть. 2013. С. 104.
7. Гофман А.Б. Мода и люди. Новая теория моды и модного поведения., Наука. 1994. С. 160.
8. Уилсон Э. Облаченные в мечты:мода и современность.,Москва: Новое литературное обозрение. 2012. С. 288.
9. Алексеенко Л.В. Социология моды: классический социологический дискурс о моде,
10. Актуальные проблемы гуманитарных и естественных наук. 2012. С. 106.
11. Килошенко М.И. Психологическое основание интегральной теории моды. Издательство «Питер». 2014. С. 189.

**Шахла Абдуллаева**

## НАУЧНОЕ ИЗУЧЕНИЕ МОДЫ КАК СОЦИАЛЬНО-КУЛЬТУРНОГО ФЕНОМЕНА

***РЕЗЮМЕ***

Непосредственная связь моды с социокультурными событиями, распространение моды на форму и содержание событий реализовало социокультурный подход. В сфере культуры мода определяется особенностями господствующих в обществе установок и взглядов, культурными и нравственными ценностями, идеалами времени, но мода подвержена изменениям внешних условий. С социологической точки зрения мода связана с образом жизни определенной социальной группы или общества в целом, типологией личности, характером ее желаний, склонностей, потребностей, поведенческих стереотипов и образа жизни. В статье анализируются основные подходы к пониманию этого феномена (эстетический, культурно-исторический, социологический, социально-психологический, социокультурный); освещаются функции моды и ее сущность.

Мода выступает универсальным механизмом постоянного обновления общественного развития в деятельности нового социального строительства в жизни. Выводы, полученные в статье, помогают таким образом, который не может быть использован вне изменений в модной культуре и связанных с ней социальных формах.

***Ключевые слова:*** *мода, наука, культура, тренд, модные стандарты*

**Shahla Abdullayeva**

## SCIENTIFIC STUDY OF FASHION AS A SOCIAL-CULTURAL PHENOMENON

***SUMMARY***

The direct connection of fashion with socio-cultural events, the spread of fashion to the form and content of events has implemented the socio-cultural approach. In the cultural sphere, fashion is determined by the characteristics of attitudes and views prevailing in society, cultural and moral values, ideals of a certain period, but fashion is subject to changes in external conditions. From a sociological point of view, fashion is associated with the lifestyle of a certain social group or society as a whole, the typology of an individual, the nature of his desires, tendencies, needs, behavioral stereotypes and lifestyle. The article analyzes the main approaches to understanding this phenomenon (aesthetic, cultural-historical, sociological, socio-psychological, socio-cultural); the functions of fashion and its essence are illuminated. Fashion takes a position in life as a universal mechanism of constant renewal of social life, which operates on the basis of building a new society.

The ideas reviewed in the article help to conclude that fashion cannot be imagined outside of certain changes in culture and the social forms associated with them.

***Keywords:*** *fashion, science, culture, trend, fashion standards*

**UOT 008:316.34/.35**

**Tamilə Həsənova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
müəllim, BDU, Pedaqogika kafedrasının dissertantı
*toma.hasan@mail.ru*
https://orcid.org/0000-0002-3829-920X

# 2022-ci İL – ŞUŞAMIZIN İLİDİR!

*Əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli tərəfindən qoyulmuş Şuşa təkcə şuşalılar üçün deyil, həm də bütün azərbaycanlılar üçün mühüm şəhərlər biridir. Çünki Şuşa xüsusi tarixi əhəmiyyət daşıyan abidələrə ev sahibliyi etmiş, Azərbaycan elm və mədəniyyətinin inkişafında böyük rol oynamış görkəmli elm xadimləri və ziyalıları yetişdirən şəhər olmuşdur. Sahib olduğu tarixi-mədəni sərvətlərinə, təbii gözəlliklərinə görə Qarabağı simvolizə edən şəhər kimi qələmə verilir, Şuşa həm də bir çox görkəmli bəstəkar və musiqiçilərin ana vətəni olduğuna görə “Azərbaycan musiqisinin beşiyi” hesab olunur. Şuşanın 28 il işğal altında olması onun Qarabağın tacı və incisi olması faktını dəyişmədi. Bu faktı Prezident İlham Əliyev 2021-ci ildə yeni ilə dəqiqələr qalmış xalqa müraciətində dünya Azərbaycanlılarını Həmrəylik Günü münasibətilə təbrik edərkən yeni ilin “Şuşa ili” elan edildiyini səsləndirməsi ilə bir daha təsdiq etmiş oldu.*

***Məqsəd*** – Şuşa ili ilə əlaqədar keçirilən tədbirlərin əhəmiyyətini müəyyənləşdirmək.

***Metodologiya*** – Məqalədə əks olunan məlumatların düzgünlüyü və dəqiqliyi yoxlanılmışdır. Araşdırma nəticəsində əldə olunmuş məlumatlar ümumiləşdirmə yolu ilə nəql edilmişdir.

***Tədqiqatın nəticələri*** – Məqalə tərtib olunarkən mövzuya dair mənbələr müəyyən edilmiş, bu mənbələr əsasında tədqiqat aparılmışdır. Nəticədə hansı tədbirlərin keçirilməsi gündəmə gətirilmişdir.

***Açar sözlər:*** *Şuşa ili, Qarabağın incisi, Azərbaycanın mədəniyyət paytaxtı, mədəniyyətin beşiyi, musiqi festivalı, elan, hədəflər*

## Giriş

Təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün mühüm əhəmiyyət kəsb edən Şuşa şəhəri xeyli sayda tarixi abidənin məskəni, bir çox görkəmli elm və mədəniyyət xadimlərinin isə ana yurdu olmuşdur. Mərhum prezident Heydər Əliyev də bu fikri öz sözləri ilə - “Şuşa Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı möhtəşəm abidədir, Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün müqəddəs şəhərdir, müqəddəs qaladır, müqəddəs abidədir..." təsdiq etmişdir [4, s.3].

Həmçinin, tarixi-mədəni sərvətlərinə, təbii gözəlliklərinə görə də Qarabağın rəmzi şəhəri sayılır. Şəhər həm də məşhur bəstəkarlar və musiqiçilər yetişdirdiyinə görə “Azərbaycan musiqisinin beşiyi” kimi xarakterizə olunur.

Dəniz səviyyəsindən 1300-1600 metr yüksəklikdə yerləşən Şuşa həm də təbii gözəllikləri ilə seçilir.Meşələrlə əhatə olunmuş və çox sayda istirahət zonalarına malik şəhərin cənub hissəsində yerləşən Cıdır düzü illərlə azərbaycanlıların at yarışlarına, festivallarına və idman tədbirlərinə ev sahibliyi etmişdir.

Sovet İttifaqının dağıldığı dövrdə Azərbaycan üçün planlaşdırdıqları torpaq iddialarını həyata keçirmək məqsədiylə hücuma keçən ermənilərin əsas hədəflərindən biri də Şuşa idi. Sovet dövründə ən çox turistə ev sahibliyi edən şəhərlərdən biri olan,

müalicəvi bulaqları ilə məşhur olan Şuşa üç tərəfi qayalı olduğuna görə təbii qalaya bənzəyir.

**Şuşanın tarixinə nəzər**

Ermənistanın bu torpaqları işğalından 28 il sonra azad edilən Şuşa azərbaycanlılar üçün bir şəhərdən daha çox şey ifadə edir. Şuşa Azərbaycanın tarixi və mədəniyyətinin rəmzlərindən biri olmaqla yanaşı, həm də Dağlıq Qarabağın ən böyük şəhəri olan Xankəndiyə gedən yolun üzərində yerləşməsi, eləcə də regionda hakim coğrafi mövqeyinə görə strateji əhəmiyyətə malikdir. Azərbaycan ordusunun işğal altında olan torpaqları azad etmək məqsədiylə başlatdığı hərbi əməliyyatda Şuşa şəhərinin nəzarətə götürülməsi nəticəsində 28 il əvvəl o şəhəri tərk etmək məcburiyyətində qalan şuşalıların və azərbaycanlıların böyük həsrətinə nəhayət son qoyuldu [5, s.4].

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabr ayının 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi: “Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir” deyən ölkə başçısı qeyd etmişdir [6, s.24]:

“Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir!
Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” [6, s.24]

7 may 2021-ci il tarixində Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alındı [6, s.9]:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin [6, s.9].

Şuşa rayonundan çoxlu musiqiçilər yetişmişdir və onların əksəriyyəti Şuşalı ləqəblini almışdır. Böyük rus şairi Yeseninin dediyi kimi, “Şairdirsə, Şirazlı olsun, xalq xanəndəsidirsə, Şuşalı olsun”. Şuşa dünyaya çoxlu istedadlı xanəndələr, bəstəkarlar, musiqi ustadları bəxş etmişdir ki, onların hər biri ifaçılıq mövzusunda ensiklopediya yazmağa yetərlidir. Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Bülbül, Seyit Şuşinski, Xan Şuşinksi, Üzeyir Hacıbəyov, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Xurşudbanu Natəvan, Qasım bəy Zakir, Süleyman Sani Axundov və sair kimi məşhur Azərbaycan ziyalı xadimlərinin vətənidir bizim Şuşa.

**Şuşa – Azərbaycanın mədəniyyət paytaxtıdır**

Şuşa həmişə şərqin musiqi konservatoriyası olub. Ya musiqi həvəskarları bu əraziyə gələrdi, ya da musiqi öyrənməyə gələrdi. Lakin bu bölgə təkcə musiqiçiləri ilə məşhur deyildi. Buradakı nadir təbii amillər bir çox tanınmış insanların adı ilə qeyd edilməli idi ki, Şuşa haqqında layiqli əks-səda yaransın.

Şuşanın təmiz, büllur təmiz təbii bulaqları o qədər məşhurlaşıb ki, buradakı ən məşhur bulaqlardan biri olan İsa Bulak bulağı Şuşanın simvolu kimi qəbul edilib. Buradakı dağların ucu guya səma ilə qovuşmuşdu, ətrafda füsunkar mənzərə var idi və görünməyən akustik harmoniya sanki səmanın altında açıq musiqi zalı yaradırdı. Burada dağlarla əhatələnmiş

“Cıdır düzü” adlanan çöl kim bilir nə qədər istedadlı müğənnilərə qulaq asıb, görüb. Muğam musiqisini yeni anlamağa başlayan uşaqların sədaları hər gün dağlardakı müxtəlif təpələrə çatır, yenidən əks-səda verib dağlara çırpılır, bütün əks-sədalar bir-birinə qarışırdı. Dəfələrlə təkrarlanan və güclü əks-səda verən belə misli görünməmiş polifonik səs, bulaqların şırıltısı, ağacların xışıltısı, quşların cingiltisi ilə xor şəklində çıxan təbii səsi ancaq uşaq fantaziyasında yaratmaq olardı. 1987-ci ildə rayonda beynəlxalq “Xarıbülbül muğam festivalı” keçirilmişdir. Festivalın adı bu bölgənin dağlarında bitən gözəl xarıbülbül gülündən götürülmüşdür.

Bu festivalda bir çox gənc səslər şöhrət qazandı. 1992-ci ildə Şuşa şəhəri erməni basqınları tərəfindən işğal ediləndə oradan çıxan bütün məşhur səslər qaçqın-köçkün vəziyyətinə düşüb. Festivalın qalibləri, xüsusən də bu gün qaçqın düşərgələrində yaşayanlar o qaranlıq günlərdən sonra mahnı oxumağı dayandırdıqlarını kədərlə bildirirlər. “Biz dağlılar nə mahnı oxuya bilirik, nə də düz yerdə yaşaya bilirik. Qəlbimiz orda, Şuşada qaldı. Dağ bulaqları, çayları, dağın saf havası, Cıdır düzünün çöllərində quşların hıçqırtıları olmadan necə oxuyaq? deyirlər. Bu uşaqların zəifliyindən, qəlblərindəki dərin acizliyi dərk etməsindən sarsılmamaq mümkün deyil.

Üç dəfə keçirilən festival işğal səbəbindən sonlanmış, işğaldan sonra bu ənənə yenidən bərpa edildi və 2021-ci ildə dördüncü dəfə keçirildi. Məhz, bu baxımdan işğaldan azad olan Şuşa şəhərində Xarıbülbül festivalının yenidən keçirilməsi ilə Qarabağın əsl sahibinin kim olduğunu beynəlxalq səviyyədə təsdiqləndi.

Ermənistanın işğalı altında olan Qarabağ torpaqlarını işğaldan azad edən Azərbaycan ordusunun Şuşa cəbhəsindəki qələbəsinə həsr olunan sənədli film diqqət çəkərək bu regiona olan marağı daha da artırdı. Bakı Media Mərkəzi və “Salnaməfilm”in birgə əməkdaşlığı ilə hazırlanmış “Şuşa sən azadsan!” Sənədli film (Şuşa Sen Özgürsün) Youtube platformunda yayımlandı. Azərbaycanın erməni işğalı altında olan torpaqlarını epik bir mübarizə ilə azad etdiyi Qarabağ müharibəsindən bəhs edən film müharibənin birinci ildönümündə yayımlanan ən mənalı film oldu [3, s.21].

Əsl döyüş görüntülərinin də yer aldığı çəkilişdə Azərbaycan komandolarının Qarabağın ən kritik bölgəsi olan Şuşanın düşməndən necə alındığını təsvir edir. Ermənistanın Xankəndi yolundan istifadə edərək Şuşaya mütəmadi olaraq əlavə qüvvələr göndərdiyini və ilk məqsədlərinin bu yolu bağlamaq olduğunu bildirən əsgərlər “Nəyin bahasına olursa olsun o yolu bağlamalı olduq və bacardıq” replikasını səsləndirərək bir daha müharibənin şiddətini dünyaya çatdırdı. Bu filmin yayımlanması ilə regionun əhəmiyyəti və uğrunda aparılan mübarizənin beynəlxalq aləmdə təbliği hədəfinin həyata keçməsinə şərait yaratdı.

Azərbaycan Respublikasının ölkə başçısı 2021-ci il 31 Dekabr tarxində Dünya Azərbaycanlılarının Həmrəylilik Günü münasibətiylə xalqı təbrik edərkən 2022-ci ili “Şuşa İli” elan etmişdir. İ.Əliyev çıxışında ölkəsinin 2021-ci ildə əldə etdiyi uğurlardan danışmış və qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırdıqlarını bildirmişdir. Gələcək illər üçün də işğaldan azad olunmuş torpaqlarda sosial həyatın bərpası və mədəniyyətin inkişafı üçün tədbirlərin görülməsinə davam ediləcəyini vurğulamış, bu məqsədlə də 2022-ci ilin “Şuşa İli” elan olunmasının ən doğru qərar olduğuna işarə etmişdir.

Bununla bağlı sərəncamı isə, 5 yanvar 2022-ci il tarixində imzalandı. Sərəncamda qeyd olunmuşdur:

“Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram [6, s. 7]:

1. 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Şuşa İli” ilə bağlı tədbirlər planı

hazırlayıb həyata keçirsin [6, s. 7].”

Sərəncamda Şuşa xalq üçün müqəddəs məkan olduğu vurğulanaraq Qarabağın tacı adlandırılmışdır. Çünki Şuşa artıq 270 ildir ki, Qafqazın ictimai-siyasi həyatında xüsusi rol oynamağa davam edir. Bu cür sərəncamın imzalanması bir daha göstərdi ki, ölkə başçısının uzaqgörənliyi və siyasi müdrikliyi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində xüsusi rol oynamışdır. “Şuşa ilinin” elan olunması təkcə Azərbaycanın qədim tarixi keçmişinin günümüzdə yaşadılması məqsədi daşımır, eyni zamanda xalqın mədəni irsinin izlərini daşıyan Şuşa şəhərinin və Qarabağ regionun ümumilikdə beynəlxalq aləmdə tanıdılmasına da xidmət edir.

“Şuşa İli” ərzində Şuşanın təməlini qoyulmasının 270-ci illiyi münasibətiylə təntənəli şəkildə qeyd olunması nəzərdə tutulmuşdur. Qarabağ ərazisinin Ermənistanın hərbi təcavüzü nəticəsində məruz qaldığı vandallığa dünya miqyasında diqqətin cəlb edilməsi üçün məlumatlandırıcı konfransların təşkil edilməsi də hədəflər arasındadır. Bununla bağlı bir sıra maarifləndirici kitabların dərc olunması, 44 günlük müharibə dövründə Azərbaycan ordusunun əməliyyatları nəticəsində hərbi üstünlüyün necə qazanılmasını əks etdirən sənədli filmlərin çəkilməsi planlaşdırılmışdır.

Həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdən biri də Şuşanın mədəniyyətinə, onun zəngin və şanlı tarixinə həsr olunmuş elektron məlumat bazasının hazırlanmasıdır. Müntəzəm olaraq yenilənən məlumat bazası Qarabağın gözü olan Şuşanın minilliklərə söykənən tarixi ilə maraqlanan geniş oxucu kütləsinə bu resurslardan rahat istifadə etməkdə yaxından köməklik etməsi hədəflənmişdir. Milli Kitabxananın “Biz səni dirçəldəcəyik Əziz Şuşa!”, “Qarabağın incisi Şuşa” adlı elektron məlumat bazaları yaradılmışdır [6, s. 26].

Eləcə də, bir sıra kitabxanalarda ənənəvi və virtual kitab sərgilərinin, maarifləndirici tədbirlərin, yeni kitabların onlayn təqdimatının, onlayn icmal, virtual elmi-praktik konfransların keçirilməsi, elektron resursların, elektron məlumat bazalarının hazırlanması, silsilə məqalələrin dövri nəşrlərdə dərc edilməsi, internet saytlarında və digər sosial şəbəkələrdə yerləşdirilməsi, faktların, sənədlərin video görüntülər vasitəsilə nümayiş etdirilməsi, virtual ekskursiyaların təşkili, məlumatlandırma və təbliğat xarakterli çap məhsullarının (buklet, vərəqə, flayer, təqvim və s.) nəşri, daycestlərin hazırlanması və digər tədbirlərin təşkili hədəflər arasındadır [6, s. 26].

İl ərzində qarşıya qoyulan digər hədəf isə, Qarabağa qayıdış proqramının sürətləndirilməsi üçün bir sıra quruculuq işlərinin aparılmasıdır. Yenidən qurculuq işlərinə diqqətin və resursların cəlb olunması mədəniyyətin beşiyi Şuşanın bərpasına şərait yaratması sayəsində əhalinin əraziyə qayıtmasını və normal həyatın yenidən başlanmasını sürətləndirəcəkdir. Buna görə də, 2022-ci ili Qarabağa qayıdışın birinci mərhələsi kimi hesab etmək yanlış olmaz.

“Şuşa İli” adı altında qarşıya qoyulan digər bir hədəf isə, Qarabağın təhlükəsizliyinin möhkəmləndirilməsidir. Belə ki, Şuşa ətrafı meşə ilə əhatə olunmuş, qayalıqlar üzərində qurulması və hündür mövqeyi ilə Qarabağ ərazisini quş baxışından qorumağın açarıdır. Bu fakt göstərir ki, Şuşada nəzarət hansı ölkədədirsə, Qarabağın nəzarəti də ondadır [4, s.3].

Qarabağın təhlükəsiziliyinin və infrastrukturunun qısa müddətdə yenidən bərpa olunması olduqca önəmli məsələlər sırasında dayanır. Çünki hərbi müstəvidə nümayiş etdirilən güc müharibədən sonrakı dövrdə siyasi, iqtisadi və sosial çərçivədə də özünü doğrultmalıdır. Şuşanın ən qısa müddətdə dirçəldilməsini təmin etmək ölkənin qüdrətinin digər göstəricisinə çevriləçəkdir.

Şuşa şəhərinin siyasi baxımından əhəmiyyətinin artması keçən əsrin 70-ci illərindən etibarən sürətli inkişafı ilə bağlıdır. Bu isə, Ümummilli lider Heydər Əliyevin göstərdiyi təşəbbüsləri nəticəsində həyata keçirilmişdir. İndi isə, təşəbbüsləri Cənab İlham Əliyev

göstərməyə davam etdirərək doğru ölkə və yenicə işğaldan azad olunmuş torpaqlar üçün doğru siyasi hədəfləri müəyyənləşdirir.

Şuşada quruculuq işlərinin və böyük qayıdışın sürətləndirilməsi təkcə Qarabağın təhlükəsizliyinin təmin edilməsi məqsədi daşımır. Xüsusilə bir addımlıqda olan Xankəndinə hərtərəfli təsir göstərməyə başlayacaq, ətraf kəndlərdə yaşayan ermənilərin Şuşada normal həyatın bərpa olunması ilə başqa seçimlərinin qalmadığının fərqinə varıb, öz ölkələrinin Konstitusiyasına əməl etməkdən boyun qaçıraraq Azərbaycanın qanunlarına hörmət edib reinteqrasiya prosesinə qoşulacaqlarına ön görülmüşdür [3, s.21].

Hədəflənən planların həyata keçirilməsi sayəsində Şuşada həyatın öz axarına düşməsi 2021-ci ilin iyununda Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları «Şuşa Bəyannaməsi»ndə əks olunan bir sıra müddəaların, əsasən də Şuşada Türkiyənin Baş Konsulluğunun açılmasını sürətləndirməyə kömək edə bilər. Bu isə öz növbəsində, Qarabağ regionunun təhlükəsizliyinə əlavə dividendlər gətirməsinə imkan verəcəkdir [3, s.21].

Azərbaycanın Suşa şəhərində Türkiyənin iştirakı ilə I Beynəlxalq Qastronomiya Festivalı təşkil olundu. Heydər Əliyev Fondunun və Dövlət Turizm Agentliyinin dəstəyi ilə 5-8 may 2022-ci il tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada müxtəlif ölkələrdən ekspert aşpazlar və dünyanın hər yerindən kulinariya mütəxəssisləri bir araya gəldi. Festival şəhərin əzəmətini və gözəlliyini, eləcə də Azərbaycan xalqının qonaqpərvərliyini bir daha nümayiş etdirdi.

Beynəlxalq Mətbəx Festivalında Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, Qvatemala, Cənubi Koreya, İndoneziya, İran, İsrail, İtaliya, Kanada, Malaziya, Peru, Türkiyə və Yaponiyadan olan mütəxəssis aşpazlar öz ölkələrinin yeməklərini qonaqlara təqdim ediblər. Peşəkar aşpazların ustad dərslərinə qatılaraq qonaqlar yeməklərin hazırlanma üsullarını öyrənmək şansı əldə etmişdilər.

Qarabağ bölgəsində çoxsaylı yerli və xarici qonaqların iştirakı ilə keçirilən Kulinariya festivalı işğaldan azad edilmiş şəhər və rayonların 30 ildən sonra yenidən dirçəlməsi ilə güzəran, bolluq və əmin-amanlığın rəmzi ifadəsinə çevrildi.

Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev 19-20 may 2022-ci il tarixlərində Azərbaycanın Şuşa şəhərində keçirilən "Münaqişədən sonrakı humanitar gündəliyin irəlilədilməsi: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" adlı beynəlxalq konfransda iştirak etmişdir. TÜRKSOY-un Mədəniyyət Nazirləri Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın Şuşa şəhəri 2023-cü il Türk Dünyasının Mədəniyyət Paytaxtı seçilib. [8, s.241].

Forumda çıxış edən Baş katib Şuşanın həmişə Türk dünyasının mühüm tarixi mərkəzlərindən biri olduğunu vurğulayıb və konfransın mövzusunun əhəmiyyətini bildirib. O, Şuşanın mədəni irsi nəzərə alınaraq "Türk dünyasının 2023-cü il mədəniyyət paytaxtı" elan edilməsinə diqqət çəkib. Türk dünyasında bu cür əhəmiyyətli bir qərarın qəbul edilməsi təsadüfi deyildir. Bu qərar, Şuşa şəhərinin işğaldan azad olunmasının əhəmiyyətini bir daha vurğulayır. Şuşanın işğaldan azad edilməsindən sonra təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün Şuşanın mədəni-tarixi keçmişinin qorunması, gələcəkdə mədəni irsin yaşadılması və bərpası, turizm, biomüxtəliflik və yaradıcı sənaye kimi sahələrlə bağlı inkişaf proqramlarının stratejik baxımından düzgün planlaşdırılması olduqca vacib məsələyə çevrilmişdir.

**Nəticə**

Azərbaycan Prezidenti İlham Əliyev 31 Dekabr tarixində xalqa müraciəti zamanı 2022-ci ilin "Şuşa İli" elan edildiyini açıqlamışdır. Qarabağın Şuşa şəhərinin erməni işğalından azad edilməsi şərəfinə 2022-ci ilin Şuşa ili adlandırılması çərçivəsində bir sıra hədəflərin

həyata keçirilməsi nəzərdə tutulmuşdur. Qarşıya qoyulan hədəflərdən məlum olur ki, dövlət başçısı həm Şuşanın mədəni inkişafını bərpa etmək, həm də 30 illik haqlı mübarizəmizi beynəlxalq səviyyədə sübut etmək üçün "Şuşa İli" adı altında məğrur şəkildə məqsədəuyğun tədbirlərin həyata keçirilməsini planlaşdırmışdır. Bu planlar artıq həyata keçirilir. Bunun üçün bütün var qüvvəmizi səfərbəy etmişik. Şuşa yenidən öz ğözəlliyinə qovuşaçaq, həmişə olduğu kimi, qonaqların ğözünü oxşayacaq. Bu istiqamətdə artıq planlı addımlar atılıb və qısa zaman ərzində öz tövhəsini verəcəkdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı//Azərbaycan.-2022.- 6 yanvar.- S.1
2. Əliyev İ.H. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı, «Elm» nəşriyyatı, 1989, 120 s.
3. Əliyeva, Y. "Şuşa İli" milli kimliyimizin, qürurumuzun təqdimatıdır/ Yeganə Əliyeva//İki sahil.- 2022.- 22 yanvar.- S.21.
4. Qələndərli, N. Zəfər təqviminin "Şuşa ili" /Nurlan Qələndərli//Yeni Azərbaycan.-2022.- 6 yanvar.- S.3.
5. Quliyev, V. Şuşa ili-Zəfərimizin dəlili! /Vilayət Quliyev//Yeni Azərbaycan.-2022.- 7 yanvar.- S.4.
6. L.Əhmədova; elmi red. K.Tahirov; red. Aygün Məmmədova Zəfərimizin təntənəsi - 2022-ci il Şuşa ilidir: metodik vəsait/ tərt. ed..- Bakı, 2022.- 42 s.
7. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan.-2021.- 8 may.- S. 1
8. Şuşa - Azərbaycanın mədəniyyət paytaxtı = Шуша - Культурная столица Азербайджана: biblioqrafiya: Şuşanın erməni işğalından azad edilməsinə həsr olunur /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. X.Abbasova; elmi red. K.Tahirov; red. E.Nəciyev.- Bakı: Zərdabi-Nəşr, 2021.- 598, [2] s.

**Тамилла Гасанова**

**2022 ГОД – ГОД НАШЕГО ГОРОДА ШУША!**

***РЕЗЮМЕ***

Шуша, основанная в 1752 году карабахским ханом Панахали, является важным городом не только для шушинцев, но и для всех азербайджанцев. Потому что Шуша была домом для памятников, имеющих особое историческое значение, и это был город, воспитавший выдающихся ученых и интеллектуалов, сыгравших большую роль в развитии науки и культуры Азербайджана. Благодаря своему историко-культурному богатству и природной красоте Шуша считается городом-символом Карабаха, Шуша также считается «колыбелью азербайджанской музыки», потому что это родина многих выдающихся композиторов и музыкантов. То, что Шуша 28 лет находилась под оккупацией, не изменило того факта, что это венец и жемчужина Карабаха. Этот факт еще раз подтвердил Президент Ильхам Алиев в своем обращении к народу за несколько минут до наступления нового 2021 года, когда он поздравил азербайджанцев мира с Днем солидарности, объявив, что новый год объявлен «Годом города Шуша».

***Цель*** - определить значение мероприятий, проведенных в связи с годом города Шуша.

***Методология*** - Правильность и достоверность информации, изложенной в статье, проверена. Информация, полученная в результате исследования, передавалась посредством обобщения.

***Результаты исследования*** - Были определены источники по теме, на основании этих источников проведено исследование. В результате, выявлены какие мероприятия были поставлены на повестку дня.

***Ключевые слова:*** *Год Шуша, Жемчужина Карабаха, культурная столица Азербайджана, колыбель культуры, музыкальный фестиваль, объявление, цели.*

**Tamila Hasanova**

## THE 2022th YEAR – THE YEAR OF OUR SHUSHA!

### *SUMMARY*

Shusha, founded in 1752 by Karabakh Khan Panahali, is an important city not only for the people of Shusha, but also for all Azerbaijanis. Because Shusha was home to monuments of special historical importance, and it was a city that trained prominent scientists and intellectuals who played a major role in the development of science and culture of Azerbaijan. Due to its historical and cultural wealth and natural beauty, Shusha is considered as the symbolizing city of Karabakh, Shusha is also considered the "cradle of Azerbaijani music" because it is the motherland of many prominent composers and musicians. The fact that Shusha was under occupation for 28 years did not change the fact that it is the crown and the pearl of Karabakh. This fact was once again confirmed by President Ilham Aliyev in his address to the nation minutes before the new year in 2021, when he congratulated the Azerbaijanis of the world on the occasion of Solidarity Day, announcing that the new year was declared the "Year of Shusha".

***The purpose*** - is to determine the significance of the events held in connection with the year of the city of Shusha.

***Methodology*** - The correctness and reliability of the information presented in the article has been verified. The information obtained as a result of the study was transmitted through generalization.

***The results of the study*** - Sources on the topic were identified, based on these sources, a study was conducted. As a result, what activities were put on the agenda were identified.

***Keywords:*** *The year of Shusha, The pearl of Karabakh, the cultural capital of Azerbaijan, cradle of culture, music festival, announcement, targets*

**UOT 811.111**

**Mehriban Səfərova**
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi,
*safarova.mehriban@bk.ru*

# İNGİLİS DİLİNİN AMERİKA VARİANTININ LÜĞƏT TƏRKİBİNİN XÜSUSİYYƏTLƏRİ

*Amerika ingilis dilinin variant və ya ayrıca dil olması müxtəlif tədqiqatların mövzusu olmuşdur. Amerika variantı regional variantdır, lakin heç bir halda dialekt sayıla bilməz . Bu, onunla izah olunur ki, Amerika variantı ədəbi dilə malikdir. Məqalə ingilis dilinin Amerika variantında mövcud olan və spesifik xüsusiyyətlərlə xarakterizə edilən söz və söz birləşmələrinin yaranma yollarını nəzərdən keçirir.*

**Məqsəd**: Britaniya ingilis dili üzərində təşəkkül tapmış Amerika variantının lüğət tərkibinə təsir göstərən amilləri və sözdüzəltmə yollarını aşkara çıxarmaqdır.

**Metodologiya**: Məqalədə ingilis dilinin Amerika variantında mövcud olan sözlərin struktur analiz və müqayisə metodu vasitəsilə təhlili aparılmışdır.

**Tədqiqatın nəticəsi**: Amerika variantının özünəməxsus lüğət tərkibi həm linqvistik, həm də ekstra linqvistik faktorların təsiri ilə formalaşmışdır.

***Açar sözlər:*** *variant, dialekt, tarixi amerikanizmlər, xüsusi amerikanizmlər, sözdüzəltmə, lüğət tərkibi*

## Giriş

Amerikada ingilis dilinin inkişafı 620-ci ildə “Mayflower” gəmisində ingilis müstəmləkəçilərinin ölkəyə gəlməsi ilə başlanır. Burada danışılan ingilis dili, əhali tərəfindən İngiltərənin müxtəlif hissələrindən gətirildiyi üçün fərqlənirdi. İngilis dilinin Amerika variantının inkişafı onun Britaniya variantından tamamilə fərqli şərtlər altında baş vermişdir. Belə hesab olunur ki, Amerika variantı Britaniya variantının cənub norması (dialekti) əsasında inkişaf etmişdir. Öz istiqlaliyyətini qazandıqdan sonra da Amerika ingilisdilli ölkə olaraq qaldı, lakin onu Britaniyada danışılan ingilis dilindən özünəməxsus xüsusiyyətlər fərqləndirirdi. Bu fərqliliyə Amerikada yaşayan yerli əhalinin dilinin də az-çox təsiri olmuşdur .

XX əsrdə Henri Luis Menken Amerika dili adlı nəzəriyyə irəli sürərək, bu dilin istər digər xalqların dillərindən, istərsə də ingilis dilindən fərqli xüsusiyyətlərə malik olduğunu iddia edirdi (4, s. 189)

Bəzi dilçilər daha da irəli gedərək sübut etməyə çalışırlar ki, ingilis dili anlayışı tezliklə öz yerini amerika dili anlayışına verəcək. Bu, dünyada amerika yaşam tərzini yaratmaq, bununla da ABŞ-ın imperialist siyasətinə bəraət qazandırmaqla müşayət olunur. ABŞ-ın istər mədəniyyəyət, istər siyasət, istərsə də hərb və iqtisadiyyat sahələrində dünyadakı açıq-aşkar üstünlüyünü nəzərə alsaq, Amerika ingiliscəsinin dominantlığını da qeyd etməliyik. Birləşmiş Ştatların ingilis dili amerika xalqının milli ədəbi dili hesab olunur. Hal-hazırda ABŞ-da ingilis dlinin üç variantı mövcuddur Şərqi Amerika (Eastern American English), Cənubi Amerika (Southern American English), Ədəbi Amerika ingilis dili (General American).

Bu bir faktdır ki, Amerika ingilis dilində danışan əhali fərqli lüğət tərkibindən

istifadə edir.Bu lüğət tərkibinə aid olan sözlər yalnız Amerika variantında istifadə olunur . Bu cür sözlərə amerikanizmlər deyilir. Bu termin ilk dəfə Viterspun tərəfindən XVIII əsrin sonunda artıq mövcud olan “Scotticism” in analoqu kimi yaradılmışdır.O, bu ifadəni Amerikanın savadlı təbəqəsi tərəfindən ingilis dilinin qrammatikasında etdiyi səhvlər və yalnışlıqları bildirmək üçün məqsədyönlü şəkildə işlədirdi. Amerikanizmlər öz növbəsində iki qrupa bölünür. Bura daxil olan sözlərin ilk qrupu tarixi amerikanizmlər adlanır. Məsələn, bu qrupa əvvəllər *payız* mənasında işlənmiş *fall, düşünmək* mənasında işlənmiş *to guess, xəstə* mənasında işlənmiş *sick* sözləri aiddir. Amerika variantında bu sözlər əvvəlki mənalarını saxlasalar da , Britaniya variantında onların mənaları dəyişmişdir.

İkinci qrup sözlər yalnız Amerika variantı üçün xarakterikdir və Britaniya variantında rast gəlinmir. Bunlar xüsusi amerikanizmlər adlanır. Bu tip sözlər buraya köçən ilk əhalinin yeni mühitdə rastlaşdığı iqlim, landşaft, heyvan və bitki aləminə yeni adlar vermə ehtiyacından əmələ gəlmişdir. Məsələn,*backwoods* (məskunlaşılmamış), redbud (Amerikada bitən, çəhrayı gülləri olan ağac), *sun-fish* (qızılı rəngli balıq), *cat-bird* (səsi pişik miyoltusuna oxşayan quş), *blue–jack* (Amerikda yetişən şam ağacı). Onu da qeyd etməliyiki ki, bu sözlər Amerika variantının ingilis dilinə ilk töhfəsidir .

Yuxarıda təqdim etdiyimiz mürəkkəb sözləri struktur baxımından təhlil etsək, onların Britaniya ingilis dilində mövcud olmadığını, lakin ingilis dilinə aid olan sözlərdən düzəldiyini, açıq-aşkar müşahidə edərik.

İngilis dilinin Amerika və Britaniya variantlarında mövcud olan fərqlərə danışıq dilində daha tez-tez rast gəlinir, ədəbi dildə isə bu fərqlər nəzərə çarpmır.

**Fərqlənmənin üç əsas faktoru**

Bu faktları nəzərə alaraq belə bir nəticəyə gələ bilərik ki, ingilis dilinin Amerika və Britaniya variantlarının leksikasında mövcud olan fərqlərin əmələ gəlməsinə üç əsas faktor təsir göstərmişdir .

I. Birinci faktor Britaniya ingilis dilinə təsir edən dillərin Amerika ingilis dilinə təsir edən dillərdən fərqli dillər olması faktıdır.

II. İkinci faktor” koloniya gerilənməsi” adlanır . Britaniyada işləkliyini itirmiş bəzi sözlər Amerika variantında ümumiişlək söz kimi istifadə olunur .

III. Üçüncü faktor isə Amerikanın siyasi müstəqillik qazanması ilə ölkənin həyatında baş verən yeniliklərlə bağlıdır(3, s. 241)Amerika variantına təsir edən dilləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür .

Amerika variantının lüğət fondunun artımı yerli əhali olan hindulardan alınan sözlər hesabına da baş vermişdir. Bu sözlər:

a. Amerikada ştat, çay, dağ, adları kimi coğrafi adlar. Məsələn, *Ohio*(gözəl çay), *Oklahoma* (qırmızıdərili), *Arkansas* (hindu tayfasının adı), *Mississippi* (böyük çay), *Minnesota* (bulanıq su), *Michigan* (böyük göl) və s. (5, s. 38).
b. Heyvan və bitki adları. Məsələn, *raccoon* (yenot), *moose* (Amerika sığını), *caribou* (Amerika şimal maralı), *chipmunk* (Şimali Amerika dələsi), *persimmon* (xurma)
c. Məişət əşyaları. Məsələn, *moccasins* (hinduların ayyaqqabısı), *canoe* (kanoe, qayıq), *toboggan* (kirşə), *tomahawk* (silah növü), *wigwam* (koma).
d. Yemək adları. Məsələn, *pemiccan* (qurudulmuş maral və bizon ətindən hazırlanmış yemək), cotash (qarğıdalı dənələrindən və donuz ətindən hazırlanmış yemək), *mash* (qarğıdalı sıyığı).
e. Hindu dilindən kalka yolu ilə tərcümə edilmiş bəzi alınma sözlər həm Britaniya, həm də Amerika variantında metaforik işlənməyə malikdir. Məsələn, *pale –face* (ağ dərili insanlar hinduları belə adlandırır), *to be on the war path* (düşmənçilik niyyətində olmaq).

f. Hindu dillərindən alınmış bəzi sözlər olduğu kimi deyil, bəzi qısaltmalarla müşayiət olunmuşdur. Məsələ, *squah* (kabak) (hindu askutasquash), *raccoon* ( yenot) (hindu raughroughcums).

g. Hindu dillərindən alınmış bəzi sözlər zaman keçdikcə yeni məna çalarlıqları əldə etməyə başladı. Məsələn, *pow –wow* (siyasi konfrans).

h. Amerika variantına Hindu dillərindən keçən bəzi sözlər neologizmlərin yaranmasına səbəb oldu. Məsələn , *to tomahawk* (sərt tənqid etmək ), *to* caucus ( demokratik liderlərin qapalı iclasını keçirmək).

XIX əsrin sonlarında Avropa qitəsində kapitalizmin inkişafı böyük bir işsizlər ordusunun yaranması ilə nəticələndi. Bu isə öz növbəsində Avropa xalqlarının nümayəndələrinin Amerikaya axın etməsinə səbəb oldu. Bununla da Amerika variantı başqa bir qrup alınma sözlərin təsirinə məruz qaldı.

1. Alman dilindən alınma sözlər sırasına aiddir: *delicatessen* (qastronomiya), *pumpernickel* (qara çörək), *smearcase* (pendir növü), *sauerkraut* (duzlu kələm), *sundae* (meyvəli, qaymaqlı dondurma).

a. Bəzi ingilis sözlərinin mənalarının alman dilinin təsiri nəticəsində dəyişməsi halı ilə də rastlaşırıq. Məsələn, *dumb* (təkcə lal deyil, eyni zamanda səfeh) (alm. dumme), *loafer*(təkcə işsiz-gücsüz deyil, həm də avara) (alm.Laufen –qaçmaq).

b. *Beer garden* (içki xidməti göstərən yer), *back country* (məskunlaşılmamış ərazilər) *,rainworm* (yağış qurdu) kimi söz birləşmələri alman dilində mövcud olan biergarten, hinterland, regenwurm kimi birləşmələrdən kalka yolu ilə tərcümə olunmuşdur .

2. Fransız dilindən alınma sözlər Kanadada məskunlaşmış fransızlarla əlaqə nəticəsində, formalşmışdır. Məsələn, *prairie* (preri), *carry –all* (fr. cariole araba), *bureau* (yazı stolu), *depot* (anbar), *pumpkin* (balqabaq).

a. Bəzi ştat adları fransız dilindən keçmişdir. Məsələn, *Louisiana, Detroit* .

b. –ville sonluğu ilə bitən coğrafi adlar. Məsələn, *Briggsvilles, Higginsvilles*.

3. İspan dilindən sözlər amerikalıların qərbdə və cənub – qərbdə meksikalılarla bilavasitə əlaqəsi nəticəsində Amerika variantına keçmişdir. Məsələn, *bronco* (balaca yabanı at), *cafeteria* (kafe), *ranch* (ranço), *plaza* (meydan), *bonanza* (çiçəklənmə) , *cockroach* (tarakan), *sombrero* (həsir şlyapa).

a. İspan dilində keçən ştat adlarına aiddir: *Colorado* (qırmızı), *San Fransisco, San Diego*.

b. *King's River* və *Feather River* kimi çay adları ispan dilindən kalka yolu ilə tərcümə olunmuşdur.

4. İrland dilindən *quit* (tərk etmək), *handy* (rahat) kimi sözlər;

5. Holland dilindən isə *boss* (sahib), *bum* (avara), *dollar* (dollar), *cookie* (peçenye), *snook* (balıq növü) kimi sözlər alınmışdır.

6. İtalyan dilindən alınma sözlər. Məsələn, *pizza, spaghetti*

Bütün bu alınma sözlər amerikalıların Yeni dünyada digər xalqlarla tarixi əlaqələrini əks etdirir.

Alınma sözlərlə yanaşı, ölkənin iqtisadi, siyasi, mədəni həyatında baş verən yeniliklərlə əlaqədar yaranmış yeni anlayışları adlandırmaq üçün dil sistemində də dəyişikliklər baş verirdi. Bu dəyişikliklər aşağıdakı sahələri əhatə edirdi:

1. Bitki və heyvan adlarını bildirən yeni sözlər. Məsələn, *toad* əvəzinə, *bull–frog* (qurbağa), *lime* əvəzinə *basswood* (cökə), *planetree* əvəzinə *button wood* (çinar).

2. a. Amerikanın Britaniya müstəmləkəsindən azad olunması və yeni siyasi sistemin yaradılması ilə əlaqədar olan yeni sözlər. Məsələn, *The United States of America* (Amerika Birləşmiş Ştatları), *congress* (konqres), *assembly* (şura), *Senate* (senat),

*president* (prezident), *congressman* (parlament üzvü), *floater* (bir neçə yerdə səs verən seçici), *hobo* (evsiz, avara, *jim-crowism* (zəncilərə qarşı irqçilik). (4, s. 194)
b. Bunlardan əlavə, ədəbi dilin hüdudlarından kənarda mövcud sözlərin modelləri əsasında asanlıqla yeni siyasi terminlər formalaşırdı. Məsələn, *absentee voting* (poçt vasitəsilə səsvermə), *dark – horse* (gözlənilmədən seçilmiş namizəd) *favorite son* (seçilmə şansı daha çox olan namizəd), *give –away policies* (siyasi güzəşt), *split ticket* (müxtəlif partiya namizədlərinə səs verən seçici) (5, s. 40).

3. Sənaye, nəqliyyat, kənd təsərrüfatı,ticarət kimi iqtisadi terminləri ifadə edən yeni sözlər. Məsələn, cable (sualtı kabel), conductor of a train (qatar bələdçisi), subway (metro), railroad (dəmir yol), corn (qarğıdalı).
4. Amerikanizmlərin bir qismi qısaltmalar hesabına əmələ gəlmişdir. Məsələn, mo (moment –an), b.f (boy-friend – oğlan dost), g.m (grandmother – nənə), circs (circumstances – şərait) (2, s. 204).
5. Bike (bicycle – velosiped), diner (dining–car – vaqon-restoran), ad (advertisement – elan).

a. Bu qısaltmaların bəziləri yalnız Amerika variantı üçün xarakterikdir. Məsələn, *FOB – Friends of Bill, Clintonomics* (Amerika Prezidenti Bill Klintonun iqtisadi siyasəti).

5. Amerika variantında mövcud olan, mədəni dəyişiklikləri əks etdirən yeni sözlər. Məsələn, *to veg* (heç bir şey etməmək, passiv istirahət), *spam* (elektron ünvana lazımsız məktublar göndərmək), *soccer mom* (məktəb yaşlı uşaqları olan tipik qadın), *homeschool* (evdə təhsil almaq) (1 , s.158 ).

6. Məişət xarakterli sözlər. Məsələn, *shirt–waist* (köynək), *rubbers* (rezin qaloşlar), *movies* (kino), *bathrobe* (hamam xalatı).

7.Havanı səciyyələndirən yeni sözlər. Məsələn , *blizz* (çovğun), *cold map* (hava haqqında xəritə), *hot wave* (istilik dalğası), *cyclone* (siklon).

8. İçki adları bildirən yeni sözlər. Məsələn, *Coca-Cola, Pepsi-Cola*, *calf’s tail*, *corn juice*.

Amerika variantında məlum olan bütün sözdüzəltmə vasitələrindən istifadə etməklə yeni sözlər əldə edilmişdir. Son dövrlərdə isə Britaniya variantında məlum olmayan yenidən düzəlmiş sözlər meydana çıxmışdır. Bunlar aşağıdakılardır:

1. Suffikslər vasitəsilə düzələn sözlər. Məsələn, *to questionize* (sorğu–sual etmək), *to legislate* (qanun qəbul etmək), *to winterize* (qış fəslinin şəraitinə uyğunlaşdırmaq ), *to cartoon* (karikatura çəkmək), *to chair* (iclasın və ya görüşün sədri kimi davranmaq), *to table* (təxirə salmaq), *to okey* (təsdiqləmək), *to author* (müəllifi olmaq). Onu da qeyd etməliyik ki , bu üsul kifayət qədər məhsuldar üsul sayılır .
2. Qısaltmalar və konversiya vasitəsilə düzələn sözlər. Məsəslən, talkies (səsli film), to tip-toe (barmaq ucunda gəzmək), to room (otaq kirayələmək).
3. Mürəkkəbləşmə vasitəsilə yaranan sözlər. Məsələn, try-out (sınaq), hello-girl (telefonçu qız), has been (əvvəlki ).
4. Bir neçə sözün birləşməsindən əmələ gələn yeni sözlər. Məsələn, smog (smoke və fog sözlərindən – tüstü ilə qarışmış duman).
5. Amerika variantında işlənən bəzi sözlərin öz mənalarını genişləndirməsi hesabına yaranan yeni sözlər. Məsələn, to board (gəmiyə minməklə yanaşı, qatara minmək anlamında da işlənir).

İngilis dilinin Amerika variantına xas olan sözlərin olması və bu sözlərin bəzi fərqləndirici xarakterlərə malik olması faktı Amerika variantının ayrıca bir lüğət tərkibinə malik olmasını iddia etməyə əsas vermir. Bu, birinci növbədə onunla əlaqədardır ki, yeni yaranan sözlər mövcud sözlər bazasında formalaşmışdır. Mövcud olan iki variantın yalnız bir lüğət tərkibi vardır, yalnız bəzi istisnalardan danışmaq olar.

Bununla yanaşı, amerikanizmlər daha çox lüğət tərkibinin stabil olmayan və dəyişməyə meylli olan hissəsinə-danışıq dilinə xasdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Бабич Г.Н. Лексикология английского языка. Учебное пособие. Флинта Наука. Москва, 2010.
2. Antrushina Y.V., Afanesyeva O.V., Morozova N.N. English Lexicology Moskva 1985.
3. Veliyeva N. Communicative – Pragmatic paradigm of English Lexicology. A Linguistic Approach. Baku -2014
4. Гальперин И.Р. Лексикология английского языка. М-1981.
5. Беляева Т.М., Потапова И.А. Английский язык за пределами Англии. Ленинград, 1961.


**Мехрибан Сафарова**

**ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ЛЕКСИКИ АМЕРИКАНСКОГО АНГЛИЙСКОГО ЯЗЫКА**

***РЕЗЮМЕ***

Принимая во внимание тот факт, что американский и британский варианты английского языка являются лишь вариантами английского языка, мы можем утверждать, что существует единственная лексика. Но надо признать что не только английский вариант способствует американскому, но и американский обогащает его. Все приведенные выше данные доказывают, что мы имеем дело с одной и той же лексикой, имеющей свои отличительные черты. С другой стороны, новообразованные слова были сформулированы на основе лексики британского варианта английского языка. В статье затрагивается лексика американского варианта, который в основном считается разговорным. Таким образом, нет никаких систематических оснований утверждать о существовании отдельного языка или лексики.

***Ключевые слова:*** *вариант, диалект, исторические американизмы, специфические американизмы, словообразование, словарный состав*

**Mehriban Seferova**

**THE CHARACTERISTIC FEATURES OF THE AMERICAN ENGLISH VOCABULARY**

***SUMMARY***

Taking into consideration the fact that American and British English are only the variants of the English language, we can claim that there is the only vocabulary. Yet, we have to confess that, not only English variant contributes to American, but also American variant enriches it. All the data given above prove that we deal with the same vocabulary that has its own distinctive features for both variants. On the other hand, newly coined words have been formulated on the basis of vocabulary of British English. The article touches upon the vocabulary of American variant that is mostly considered to be colloquial. Thus, there are no systematic grounds to assert of the existence of the separate language or vocabulary.

***Keywords:*** *variant, dialect, historical americanisms, proper americanisms,word formation, vocabulary*

**UOT 159**

**Göyərçin Kərimi**
yazıçı-şair, AYB-nin üzvü
*kgyarchinsh@gmail.com*

# DİQQƏTİN METAFİZİKASI

*Məqaləni yazmaqda məqsəd diqqətin növ və funksiyalarından bəhs etmək deyil. Bu işin öhdəsindən psixoloqlar çox ustalıqla gəliblər. Niyyətimiz onların, yəni psixoloqların haqqında danışdıqları bir mövzuya münasibət bildirməkdir. Bu, diqqətin psixologiyada ixtiyaridən sonrakı, yəni postixtiyari, yaxud qeyri-ixtiyari diqqətin təkrarı kimi öz təsdiqini tapan üçüncü növü –* ***postdiqqət*** *[termin müəllifə məxsusdur] haqqındadır.*

***Məqsəd:*** Diqqətin psixologiyada ixtiyaridən sonrakı, yəni *postixtiyari*, yaxud *qeyri-ixtiyari diqqətin təkrarı* kimi öz təsdiqini tapan üçüncü növü – ***postdiqqət*** [termin müəllifə məxsusdur] haqqında araşdırma aparmaqdır.

***Metodologiya:*** Diqqət mövzusu iki istiqamətdən təhlil edilmişdir: anlayışa diqqət, qavrayışa diqqət.

***Elmi yenilik:*** Diqqət mövzusu Azərbaycanda ilk dəfə olaraq anlayış və qavrayış nöqteyi-nəzərindən təhlil olunmuş; diqqətin metafizikası ixtiyari, qeyri-ixtiyari, postixtiyari diqqətin nüfuz edə bilmədiyi sahələri işıqlandıran hadisə kimi izah olunmuşdur.

***Açar sözlər:*** *ixtiyari diqqət, qeyri-ixtiyari diqqət, anlayış, qavrayış, mücərrəd, intellektual, məqsədyönlü, postdiqqət*

## Giriş

Bu mövzunu araşdırmaq fikrinə düşməyimin səbəbini “Diqqətə diqqət” sərlövhəli yazımda izah etməyə çalışmışam. [1] “Diqqətə diqqət” məndə “Diqqətin metafizikası”na cığır açdı ki, mövzu haqqında ilk dəfə yazırammış kimi, təbii, araşdırmalardan əvvəl, az qala Arximed sayağı “evrika, evrika” deyə çağırmaq da istədim.

Googldə axtarışı, əsasən, üç dildə apara bilirəm: azərbaycan, türk, rus. Məlum oldu ki, psixologiyanın predmeti kimi geniş işıqlandırılan bu mövzu heç də düşündüyüm kimi “evrika” deyilmiş, amma “yarımevrika” hüququmun yəqinliyində israrlıyam.

Xatırladım ki, ixtisasca müəllim olduğum üçün ali məktəbdə Ə. Əlizadə kimi görkəmli psixoloqdan dərs almışam.

**Diqqətin funksiya və növləri** haqqında düşünəndə o qədər nəhayətsiz fikir başlanğıcları aşkar etdim ki, özümü onların arasında dəryada üzən yağış damcısı kimi hiss etməyə başladım. Insan omrünün məhdudluğu, yaşın yorğunluğu, üstəgəl müxtəlif xəstəliklərin, naqis mühitin təsiri olmasaydı, dəryanı mövcud şəraitdə bütünlüklə yağış damcısının ixtiyarına təslim etmək olardı. Lakin oxucuya maraqlı olsun deyə diqqətin psixoloji xüsusiyyətləri, növləri haqqında bir qədər bəhsdən sonra əsas mətləbə keçmək fikrindəyəm.

Beləliklə, **diqqət** bütün duyğu və dərketmə qabiliyyətinin bir mövzunu işıqlandırma səfərbərliyinə deyilir.

Mətləbə keçməzdən əvvəl oxucuların nəzərinə çatdırım ki, mən bu mövzuya iki

istiqamətdən yanaşıram: **anlayışa diqqət, qavrayışa diqqət**. Bunlardan hər birinin ayrı-ayrı sahəsi var.

**Anlayış** deyəndə bir neçə, yaxud saysız-hesabsız qavrayışların mücərrəd cəmi, yəni *dünya hadisələrində bilavasitə iştirak etməyən* obyektlərə diqqət nəzərdə tutulur.

Qavrayışa – obyektə diqqət, qeyd etdiyimiz kimi, özünün xarakterik xüsusiyyətləri baxımından daha çox psixologiyanın mövzusudur və təbii, böyük alimlər tərəfindən yetərincə işıqlandırılıb. Mənim araşdırdığım müəlliflərə gəlincə, onlar *anlayışa* deyil, qavrayışa diqqəti öyrənməyə cəhd göstəriblər. Fikrimcə, **diqqətin metafizikası** mövzu baxımından məhz **anlayış** çərçivəsində öz təşəkkülünü tapmalıdır. Postdiqqət termini altında izah olunanlar zahirən diqqətin metafizikasına oxşar olsa da, gerçək dünyanın hadisələrinə tətbiq olunduğu üçün onunla üst-üstə düşmür.

**Qavrayışa – obyektə diqqət**

Müvafiq duyğu orqanlarının müəyyən hadisə, yaxud predmet üzərində cəmlənməsinə diqqət deyilir. İnsanın idrakı yuxuda da fəaliyyətdədir, lakin diqqət həmişə bu fəaliyyətə qoşulmur. O da məlumdur ki, biz diqqətli olaq, olmayaq, daima eşidir, baxır, fikrə gedir, hansısa işlə məşğul ola bilirik. Amma hadisələr və obyektlər məhz diqqətin köməyilə müəyyənləşdirilib “istifadəyə yararlı” vəziyyətə gətirilir. Bu məsələdə insanın şəxsi tələbatı ilə obyektin səciyyəvi xüsusiyyətləri arasındakı uyğunluq, vəziyyətin dəyərlilik dərəcəsi, davamlılıq müddəti mühüm rol oynayır. Məsələn, insanların 99,9 faizi Neptunda baş verən hadisələrlə maraqlanmır. Qalan 0, 09 faizi ilə Neptunun səciyyəvi xüsusiyyətləri arasında, nəinki uyğunluq, heç əlaqə vasitəsi də mövcud deyil. Bu onu deməyə əsas verir ki, ümumi ola, ya xüsusi, fərqi yoxdur, öz töhfəsini, əsasən, arzu və istəklərin həyata keçirilməsinə yönəldən diqqət, maraqdan çox obyektə tələbatdan, ehtiyacın ödənilmə mümkünlüyündən asılıdır. Qısası, diqqətli olmaq üçün mövzu dairəsi, ehtiyac, istiqamət, məqsədyönlü arzuetmə, şəxsin səciyyəvi xüsusiyyətləri vacib amildir. Diqqət olmasa, nə göz obyekti olduğu kimi görər, nə qulaq lazım olanı eşidər, nə burun qoxu duyar, nə ağız dadın necəliyini fərq edər, nə lamisə əşyanın sərtliyini, mülayimliyini yoxlayar. Hətta heyvan da tələbatını *diqqətin sayəsində* ödəyir. Orqan çatışmazlığına uyğun olaraq karlar və korlarda diqqət hərtərəfli, daha yüksək formada inkişaf edir.

Diqqətlilik insanlara, hadisələrə, cisimlərə münasibət baxımından baş versə də, insanın tərbiyəsi, öz üzərində işləməsi, təkamül sürəti, tənəzzül dərəcəsi, sərvət meyilliliyi, əqidə prinsipiallığı, dünyagörüşü də bu məsələdə həlledici xüsusiyyətə malikdir. Diqqətli olmaq üçün ən vacib göstərici, əlbəttə, insanilik faktorudur.

İdraki proses sayılan diqqət o biri idraki proseslərin də fəaliyyətini tənzimləyərək psixoloji hadisələrin müvəffəqiyyətlə əks etdirilməsinə şərait yaradır. Fəaliyyət növünün çətinliyindən, mürəkkəbliyindən asılı olaraq diqqətin saxlanma müddəti çoxala da bilər, azalar da. Digər tərəfdən, diqqətin müşahidə müstəvisinə daxil olan **obyekt** canlı da ola bilər, cansız da; təbiət hadisəsi də ola bilər, qeyri-təbiət hadisəsi də.

Diqqətin əksi olan diqqətsizlik şəxsiyyətin xarakterik xüsusiyyətləri və müəyyən xəstəliklərin inkişafı səbəbindən baş verir.

**Diqqətin funksiyaları**

Diqqət fəaliyyətin tərkibindən asılı olaraq məlumatın qəbul edilməsi – obyektin tanınması baxımından ikiyə ayrılır. Birincisi, o*byektə xaricdən diqqətdir ki*, adından da göründüyü kimi, ancaq zahiri görünüşün təsviri üçün mühümdür: ağacın portreti. İkincisi, qavrayışdaxili, yəni *intellektual diqqət* növüdür ki, obyektin daxili xüsusiyyətlərini öyrənməyə yönəlir: ağacın təsnifatı. Intellektual diqqət düşündürücüdür, lakin, bəzi istisnalar

xaric, onu *anlayışa diqqətlə* eyniləşdirmək olmaz.

Davamlı, yaxud situativ olmasından asılı olmayaraq diqqət məlum predmetin insan fəaliyyətindəki roluna və prosesin tələb etdiyi müddətə görə təyin edilir. Başqa sözlə, diqqət bir nöqtə, fikir, hadisə üzərində o vaxta qədər təsirini saxlayır ki, proses yekunlaşır. Əlbəttə, bütün obyekt və hadisələr dəyişikliyə məruz qaldığı üçün tam yekunlaşma deyə bir sərhəddən söhbət gedə bilməz.

Diqqətin əsasını, yuxarıda qeyd etdiyimiz kimi, **məqsədyönlü arzuetmə** və məlum predmet üzərində **mərkəzləşmə** təşkil edir ki, bu zaman şüurumuz lazım olan obyekt və fəaliyyətə doğru yön alır. Lakin şüurlu, şüursuz, diqqət elə prosesdir ki, məlumatların arasından ehtiyacına uyğun olanı seçir. Hətta qeştalt psixologiyada da diqqətin iki əsas növündən biri məlumatın seçilməsi, yəni diqqətin seçilmiş obyekt üzərində mərkəzləşməsi prinsipidir. Diqqətin obyekt üzərində konsentrasiyası, əsasən, obyektə olan dərin maraq və fəaliyyət növündən başlayıb dünya haqqındakı təsəvvürlərlə dəqiqləşir.

Diqqətin obyekti nə qədər əhatə etməsi, davamlılıq müddəti, həcmi, bir obyektdən digərinə keçidi, məlumat dəyişikliyi hadisələrin xüsusiyyətlərilə həmahəngdir. Yuxarıda söylənilənlərə istinadən belə bir fikrə gəlmək olar ki, diqqətin funksiyalarından biri, daha doğrusu, birincisi, *obyektin, yəni məlumatın müəyyən olunmasıdır.* Diqqətin növlərinə uyğun olaraq məlumatın əldə edilmə prosesi də müxtəlif istiqamətlidir: **təsadüfi, məqsədyönlü, mücərrəd**. Yəni diqqət dünyəvi hadisələrin, cisimlərin, varlıqların öyrənilməsinə vasitə olduğu qədər də mücərrəd obyektlərin dərk olunmasında idraki təminatçıdır: **anlayışa diqqət.**

Yuxarıda qeyd etdyimiz kimi, işin növündən, icra səviyyəsindən asılı olaraq d*iqqətin obyekt üzərində saxlanılması* az vaxt da tələb edər, uzunmüddətli də ola bilər. Məsələn, bitkinin boyatma prosesini əyani izləməkdən ötrü diqqət uzun zaman tələb edir, lakin gülü budağından qoparmaq üçün bir neçə saniyə kifayətdir. Birinci misalda, həm diqqətin obyekt üzərində *mərkəzləşməsi*, həm də saxlanılması – *nəzarət funksiyası* işə düşür. Mürəkkəb psixoloji fəaliyyət olaraq bu funksiyalar diqqətin bütün hadisələrə nüfuz etməsinə, iradi baş tutan əməliyyatların mahiyyətcə izah olunmasına, eləcə də, müvafiq proseslərin məqsədəuyğun şəkildə təşkilinə rəvac verir.

Diqqətin cəmləşdirilməsi fərdin hiss etmə, intellektual fəallığının səviyyəsini yüksəldir ki, bu da öz növbəsində predmet və hadisələrə seçici yanaşmaq fürsəti yaradır. Diqqətin ən böyük funksiyası olan **seçicilik** hər hansı məsələdə, həm obyektləri necəliyinə görə bir-birindən ayırır, həm də fəaliyyətin səmərəliliyini təmin etmək üçün optimal variant seçir. Seçici diqqət hər hansı audial, vizual, kinestetik duyğuya verilən reaksiyadır ki, digər qəbul edilən məlumatların arasından yalnız birinə doğru yönəlmiş olur. Bu ona bənzəyir ki, hava limanında müxtəlif səs və müraciətlərin səslənməsinə baxmayaraq, ancaq öz uçuşunla bağlı məlumatları yadında saxlayırsan. Diqqətin müvafiq növü vacib olanı *seçməklə* gündəlik həyatımızda təsadüf etdiyimiz yüzlərlə lazımsız qıcıqlandırıcını dəf etməyimizə yardımçı olur və nəinki hadisələrin ayırd edilməsində, həm də hifz olunub qorunmasında insanların köməyinə çatır. İki hadisə və predmetin *oxşarlıq,* yaxud *fərqlilik* məsələsi də seçici diqqətin vasitəsilə müəyyən olunur.

Diqqət eyni zamanda bir neçə obyekt arasında **paylana** bilər. Paylanmış diqqət bütün obyektlər üzərində eyni həcmdə formalaşmır. Məsələn, beynin ayrı-ayrı hissələrini fərqli müşahidə obyektləri məşğul etməsinə baxmayaraq, diqqət onlar üzərində bərabər paylanmır. Daha doğrusu, diqqət paylanır, lakin onun həcmi üst-üstə düşmür. Müəllifin yazı prosesində telefonun mikrafonu vasitəsilə öz növbəsini izləməsi buna əyani misaldır. Avtomobil idarə edən hər kəs üçün diqqətin paylanması əsas şərtdir. Diqqətin paylanması eyni vaxtda iki və daha artıq müxtəlif işi yerinə yetirmək bacarığıdır ki, bir məqsədə tabe

olan obyektlər üzərində uzun və fasiləsiz təsirin sayəsində mümkün olur. Paylanma diqqəti seçilmiş obyektdən başqalarına keçid etsə də, keçid edilmiş obyektlər ümumi məqsədə xidmət edir. Məsələn, tapşırığı yerinə yetirərkən şagirdin diqqəti dərsliyə, qaydalara, rəqəmlərə, riyazi işarələrə yönəlsə də, misalın həll prosesi fasiləsiz davam edir. Çünki burada bütün köməkçi obyektlər ümumi məqsədə – misalın həllinə vasitəçi olurlar.

**Diqqətin həcmi** aydın dərk olunan obyektlərin ölçüsü ilə təyin edilir. Eyni vaxtda neçə müşahidə obyektini nəzarətdə saxlamaq mümkündürsə, diqqətin ümumi həcmi də həmin obyektlərin sayına bərabərdir, lakin, yuxarıda qeyd etdiyimiz kimi, həcm ayrı-ayrı obyektlər üzərində bərabər toplanmır. Həcmin böyüklüyü prosesin qloballığı ilə ekvivalentdir.

Yaşadığımız **süni intellektlər** dövründə hazır proqramların köməyilə eyni vaxtda, eyni həcmdə bir çox sahəyə diqqət ayırmaq mümkündür, çünki bu zaman beynin düşündürücü yox, icraya nəzarət funksiyası fəaliyyətə başlayır.

Paylanma funksiyası diqqətin bütün növü üçün eyni dərəcədə əhəmiyyət kəsb edir.

Diqqətin bütün növü üçün keçərli sayılan digər finksiyası məlumatın faydalılıq naminə əvəzlənməsidir. Dayanmadan inkişafda olan texniki tərəqqi məhz **məlumatın əvəzlənməsi** funksiyasına görə diqqətə borcludur. Baş verənlər, yaxud predmet və hadisələr o zaman dəyişikliyə məruz qalır ki, daha köhnə variantlar öz səmərəliliyini itirmiş olur, yaxud müəyyən proseslərin aktuallığı növbəti mərhələlərdə effektivliyin itirilməsi şübhəsini yaradır. Filosof Seyid Hüseyn Nəsri qeyd edir ki, planetdə həyat üçün təhlukəli olan və bəşəriyyətin gələcəyinin aydın olmamasını şərtləndirən bütün meyillər yalnız "*diqqət mərkəzini dəyişməklə*", Tanrı ilə daha sıx əlaqə yaradılması yolu ilə başqa səmtə yonəldilə bilər və bunsuz bəşər ailəsinin vəhdətini təsəvvur etmək mümkün deyildir. [2]

Bildiyimiz kimi, diqqət şüurlu və mütəmadi olaraq obyektdən obyektə, fəaliyyətdən digər fəaliyyətə doğru yönəlir, yəni **keçid** edir. Bu, fəaliyyət istiqamətinin dəyişməsi, yaxud köməkçi obyektlərin prosesə qoşulma vacibliyinə görə baş verir. Lakin diqqətin bir hadisədən digərinə keçid etməsi şüurlu olduğu kimi yayınma səbəbindən də ola bilər. Şüurlu keçidetmədən fərqli olaraq [2] diqqətin yayınması bütövlük, keyfiyyətlilik əmsalı ilə ölçülmür. Əksinə, **diqqətin yayınması** məqsəddənuzaq obyektlərə meyillənmədir ki, fəaliyyət üçün əyləc rolunu oynayır. Məsələn, qiraətlə məşğul olan zaman diqqətin yayınması biliyin əldə edilməsi üçün sərf olunan vaxtın boşa getməsilə nəticələnir. Elə bu səbəbdən də diqqət dağınıqlığına şərait yaradan əngəllərin aradan qaldırılması üçün səy göstərmək mühüm amilə çevrilir. Arseni Yakuninin “Diqqətin fokusu” adlı kitabında diqqət yayınması ilə mübarizə etməyin effektiv yollarından geniş bəhs edilmişdir. [3]

Fikrin şüurda aydınlaşması, daha doğrusu, cümlə şəklində ifadə olunması ağrılı olanda nəzərin bir neçə dəqiqəlik zehni olmayan fəaliyyətə yönləndirilməsinə diqqətin **iradi yayındırılması** deyilir. Öz şəxsi təcrübəmdən bilirəm ki, iradi yayınma daş daşıyan fəhlənin nəfəsini dərməsinə oxşar olaraq beyinə dinclik vermək, gücə salmamaq məqsədi daşıyır. Əlbəttə, söhbət zehni yorğunluq zamanı kompyuteri söndürüb yarım saatlıq, bir neçə saatlıq dincəlməkdən yox, düşüncələrarası, ani fikriyayındırmadan gedir. Birincidə insan beynini dincəldir, ikincidə, onu zorlanmadan, isrardan qoruyur. Bu, sınaq şüşəsinə keçid dairəsinin tutumundan artıq suyun tökülməsinə bənzəyir ki, mayenin bir hissəsi yerə tökülür. Yəni şüurda fikir qarışıq olanda onun nizama salınması üçün prosesi diqqətin iradi yayındırılması yolu ilə yavaşıtmaq lazım gəlir. Adi həyatda da belədir: insan cansıxıcı söhbəti dinləməsin deyə diqqətini iradi olaraq başqa səmtə yayındırır.

**Diqqətdə tərəddüd**, adından göründüyü kimi, iki yol ayrıcında qalmadır; həm nəzəri, həm də əyani biliklərin tədqiqi, tətbiqi zamanı meydana çıxır. Adətən, qısamüddətlidir, lakin prosesin davamlılığından asılı olaraq uzunmüddətli də ola bilər.

Diqqətdə tərəddüd hərəkətin sürətinə mənfi təsir göstərsə də, keyfiyyətin yüksəlməsi məqsədilədir, məsələn, «yüz dəfə ölç, bir dəfə biç» misalı. Hadisələrə şüurlu münasibət tərəddüdün yaranmasına, tərəddüd isə şüurun daha səmərəli çalışmasına rəvac verir.

Tərəddüd zamanı gələcək hadisələri düzgün dəyərləndirmək mümkün olmazsa, həmin anlarda pozitiv mövqenin tələbinə uyğun seçim etmək lazımdır. Məsələn, təbii qazın satışına məhdudiyyət tətbiq olunan ölkələrdə qənaət nəticəsində istifadə edilməmiş limit payı sayğaca yüklənməlidir ki, sonrakı ilə “ehtiyat fondu” yaransın. Əgər ilin sonunda tərəddüd nəticəsində “ehtiyat fondu”nun yaradılması təxirə salınarsa, mümkündür ki, növbəti il üçün qazın limitinin aşağı salınması, eyni zamanda qiymətinin artacağı nəzərə alınmasın və abonent ikitərəfli zərərə uğrasın. Deməli mövcud zaman kəsiyində gələcəyi düzgün proqnozlaşdıra bilməyənlər tərəddüd zamanı optimal variantı əsas götürməlidir.

N.N.Langeyə görə, təqribən iki, üç saniyə çəkən və prosesin davamlılığına qarşı yönələn tərəddüd yorğunluq və hiss üzvlərinin adaptasiyasından irəli gəlir.[4] Lakin o, yorğunluqdan əmələ gələn tərəddüd deyərkən dincəlmək zərurətini nəzərdə tutur, iki yoldan birini seçmək məcburiyyətini yox.

**Seyri diqqət** qeyri-ixtiyari başlanıb ixtiyari diqqətə keçid etmədir. Müşahidə obyekti ixtiyari diqqətin obyekti ilə, həm oxşar, həm ziddiyyətdə ola bilər, hətta üst-üstə də düşər. Seyri diqqət insana məxsus keyfiyyətdir. Məsələn, ilk dəfə Yerin fırlandığını Aya, ulduzlara tamaşa etməklə başa düşüblər, yəni səmaya baxmaq ünvanlı olmasa da, dərk olunan hadisə ünvanlı olub.

Diqqətin konsentrasiyasının pozulması dağınıq diqqətə, yaxud da **diqqətsizliyə** səbəb olur.

**Diqqətsizlik** və ya baxar korluq dörd müxtəlif prosesin nəticəsində baş verir. Birinci halda müəyyən səbəblər üzündən beynin funksiyalarının pozulması yaddaşsızlıq əmələ gətirərək diqqətin zəifləməsinə səbəb olur ki, istisnayi halları nəzərə almasaq, müalicə olunandır. İstisnayi hal deyərkən ağıldankəmlik, anadangəlmə, yaxud geckdirilmiş müalicənin nəticəsində diqqətin bu və ya digər ölçüdə itirilməsi nəzərdə tutulur.

İkinci hal insanın hadisəyə müvəqqəti refleksiya göstərə bilməməsi səbəbindəndir. Əgər alınan məlumat xoşniyyətlidirsə, insan xəbərə tez adaptasiya olunur, yəni özünə qayıdır, yox, üzücüdürsə, korluq bir neçə saat, bir neçə gün çəkə bilər, hətta gətirib dəliliyə də çatdırar. *Məsələ bundadır ki, korluq ani baş verir, diqqətsizlik isə tədricən inkişaf edir.*

İkinciyə – sarsıntı nəticəsində diqqətin itirilməsinə misal olaraq səbəbkarın öz dilindən eşitdiyim bir hadisəni nəql etmək istəyirəm. Azərbaycan torpaqlarının işğalı zamanı Ermənistan ordusu bir gənci öldürür. Gündə neçə dəfə bu kimi hadisələrin şahidi olmasına rəğmən gəncin qardaşı xəbərdən necə sarsılırsa, özünü xəstəxanaya çatdırmaqdan ötrü həyətindəki maşını işə salır, lakin “tələsdiyi” üçün motoru işlək vəziyyətdə buraxıb hospitala tərəf qaçmağa başlayır.

Üçüncü, diqqətsizlik korluğu, yaxud korluq diqqətsizliyi istənilən fərdin başına gələ bilər, o mənada kı, eyni zamanda ətrafda baş verən bütün hadisələrə diqqət etmək həm zehni, həm fiziki baxımdan mümkün, həm də əhəmiyyət nöqteyi-nəzərindən mühüm deyil. Bu, qızgın iş, yaxud çətin misalın həlli zamanı mərkəzində olduğumuz digər hadisələrin təsirindən eşitməyəcək, görməyəcək qədər təcrid olunmağımızdır, həm də qeyri-ixtiyari baş verir.

Dördüncü hal, əsasən, iradə zəifliyinin nəticəsi olaraq məsuliyyətsizlik, tənbəllik və s. kimi özünü büruzə verir. Bu kimi hallardan yayınmaq üçün mübarizə üsullarını təlim və tərbiyənin əsaslarına, əlbəttə, ilk uşaqlıq illərindən əlavə etmək lazımdır. Çətinlik onda deyil ki, uşaq diqqətini hansı elmə, bədii sənətə, yaxud peşəyə yönəldir, əsas odur ki, avaraçılıq meyilləri üçün münbit şərait yaranmasın.

**Diqqətsizliyə diqqət diqqətə diqqətlə** eynihəcmli məsələ olmasa da, eyni məqsəddən irəli gəlir. *Diqqətə diqqət* cəmiyyətin inkişaf etdirilmə, idarə olunma səbəbilə istəklərin öyrənilməsi, nəzərə alınması fonunda cərəyan edir; həm qanunverici orqanların iş prinsipini, həm də sosial konsepsiyaların formalaşmasını və s. tənzimləyir. Bunu əyani şəkildə belə ifadə etmək olar: “Müəyyən bir məsələnin həlli zamanı hansı sahədə boşluqların, yaxud hansı məsələnin daha zəruri olmasını sosial varlıqların uyğun sahəyə meyl etmə dərəcəsinə, versiya seçiminə görə, başqa sözlə, cəmiyyətin nəzər-nöqtəsinə diqqət yetirməklə təyin edirlər”. **Diqqətə diqqət nəzəriyyə ilə təcrübənin birləşdirilməsidir, həm kiçik, həm də ölkəmiqyaslı proseslərin həyata keçirilməsində** önəmli rol oynayır.

İnsan özünə və ətraf aləmə qarşı üçüncü tərəfin münasibətini də məhz bu funksiyanı işə salmaqla dəqiqləşdirir.

*Diqqətsizliyə diqqət* biganəliyi, yarıtmazlığı, səhlənkarlığı və onların baş vermə səbəblərini ortaya çıxarır. Əgər məktəb direktoru öz işini yerinəyetirmə qabiliyyətinin hansı müəllimdə necə inkişaf etdiyini öyrənmək istəyirsə, diqqətin adıçəkilən funksiyasına müraciət etməlidir. Bir sözlə, diqqətə diqqət idarəetmə mexanizminin güclənməsi və cəmiyyətin hərtərəfli inkişafı üçün nəzərdə tutulursa, diqqətsizliyə diqqət həmin prosesi ləngidənlərin islahı məqsədilə fəaliyyətə qoşulur.

**Diqqətin növləri:**

**a) Qeyri-ixtiyari diqqət;**

**b) İxtiyari diqqət;**

**c) Postdiqqət və diqqətin metafizikası**

**Qeyri-ixtiyari** – qabaqcadan qarşıya qoyulmuş məqsədlə, heç bir xüsusi niyyətlə bağlı olmayan, iradi səy tələb etməyən **passiv diqqət** bütün canlılara məxsus xüsusiyyətdir. Bu diqqət növü birbaşa cəlbedicinin təsirilə, yəni təsadüfən əmələ gəlir və təsir müddəti boyunca davam edir. Məsələn, ildırımın səsi və gur işığı, kəskin qoxu, ağır hava diqqəti qeyri-ixtiyari cəlb edir. Lakin bu, hər hansı hadisə və ya cəlbedici amilin qeyri-ixtayiri diqqətə səbəb olması anlamına gəlmir. Diqqət üçün cəlbedicinin müvafiq xüsusiyyətləri əsas rol oynayır: təsirin gücü və gözlənilməzliyi, hadisə və predmetin qeyri-adiliyi, obyektin hərəkəti, oxşar və fərqli predmetlərin görünüş nisbəti, ziddiyyəti, varlığın daxili vəziyyəti.

Fransız psixoloqu Teodül Ribo hesab edir ki, ixtiyari, eləcə də, qeyri-ixtiyari diqqət obyektlə əlaqəli olan emosional vəziyyətdən, fizioloji dəyişiklərdən birbaşa asılıdır və onun əsas elementini **hərəkət** təşkil edir.[5]

Ribonun fikri bizə belə söyləməyə imkan verir ki, hərəkətdə olmayan məqsədyönlü obyekti aşkar etmək bilavasitə individin üzərinə düşürsə, hərəkətdə olan varlıqlar, tam əksinə, özləri “nişangah”a təşrif gətirirlər.

Qeyri-ixtiyari diqqət, adından da göründüyü kimi, təsadüflərə dayanıqlı hadisədir. Məsələn, ayı meşədə bal pətəyinə rast gəlir, yaxud çöllükdə yüyən axtaran mehtər qızıl-ziynət əşyası tapır, halbuki əvvəlcədən nə birincinin arı yuvası tapmaq məqsədi, nə də ikincinin qızıl-ziynət əşyasına rast gəlmək ümidi vardı. Bu kimi sonu, sayı bəlli olmayan bütün hadisələr diqqətin qeyri-ixtiyari formalarına aiddir. *Özlüyündə iradəyə tabe olmayan qeyri-ixtiyari diqqət iradəyə tabe olan hadisələr zamanı da fəaliyyətə qoşula bilər.*

**İxtiyari diqqət**

Nəticəyə nail olmaqdan ötrü səbəbə doğru istiqamətlənmiş **ixtiyari diqqət** sayəsində əldə olunan nə varsa, başlanğıcını, əsasən, varlığın kor-koranə istəyindən götürür. Bu o səbəbdən kor-koranə istək hesab olunur ki, kor-koranə olmayan, yəni dərk ounmuş diqqət ixtiyari diqqətə deyil, diqqətin metafizikasına aid prosesdir.

Növlərin əsas çaları olaraq şüurlu məqsəd, iradi səy tələb edən **ixtiyari diqqət**

öyrənmək, təcrübə qazanmaq, cinayət törətmək, təzyiqli-təzyiqsiz nəsə əldə etmək, obyekti mənfəətinə uyğun işə salmaq, yararsızı yararlı vəsiyyətə gətirmək və s. və i. xüsusiyyətləri özündə birləşdirir ki, onsuz, nəinki insan, qeyd etdiyimiz kimi, heç heyvan da gündəlik tələbatını ödəyə bilməz. Bu diqqət bütün cəlbedicilərə deyil, ancaq məqsədəuyğun obyektlərə qarşı yönəlir. Ixtiyari diqqəti əmələ gətirən şərtlər də müxtəlifdir. Hər hansı hadisəyə diqqət yetirməzdən əvvəl işin səmərəli görülməsi üçün *borc və məsuliyyətin* aydın dərki, *fəaliyyət şəraitinin* yetərliliyi nəzərə alınmalıdır. Əməli prosesdə əlavə hadisə və maraqların fəaliyyətə qoşulması da mümkündür. Bütün elmi əsərlər, məqalələr, ixtiralar, yaradıcı fəaliyyətlər və s. – hamısı müəyyən mərhələləri ixtiyari diqqət vasitəsilə adlayır. Ixtiyari diqqət qeyri-ixtiyari diqqətin sonrakı hissəsi kimi də inkişaf edə bilər. Məsələn, su içmək istəyi qeyri-ixtiyari baş qaldırır, lakin suyu axtarıb tapmaq ixtiyaridir.

**Diqqətin metafizikası**

Bizim işıqlandırmaq istədiyimiz mövzu, girişdə də qeyd etdiyimiz kimi, məhz diqqətin üçüncü növüdür: **Postdiqqət və diqqətin metafizikası: anlayışa diqqət.**

Post diqqət deyərkən ixtiyaridən sonrakı, yaxud ikinci qeyri-ixtiyari diqqət nəzərdə tutulur.

Aparılan araşdırmalar belə söyləməyə imkan verir ki, postixtiyari diqqət, bundan sonra **postdiqqət**, şüurlu məqsədin daşıyıcısı olsa da, onu ixtiyari diqqətlə səhv salmaq, eləcə də, qeyri-ixtiyari diqqətlə eyniləşdirmək olmaz. P**ostdiqqətdə** proses başlayandan sonra iradi cəhdlərə ehtiyac yaranmır: ixtiyari baş verir, qeyri-ixtiyari davam edir və bəzən yenidən əvvələ qayıtmaq ehtiyacı da yaranır. Diqqətin bu növü barədə psixoloqların fikirlərinə nəzər salaq.

Akademik İ.P.Pavlov adına Sank-Peterburq Tibb Universtetinin tələbələr üçün nəzərdə tutduğu psixologiya kursu üzrə **“Ümumi və tibbi psixologiyanın əsasları”** dərs vəsaitinn II hissəsində belə deyilir: “**Postdiqqət** eynilə ixtiyari diqqət kimi məqsədyönlü xarakter daşıyır və ilk növbədə güclü səy tələb edir ki, insan bundan sonra əmələ keçir; təkcə nəticə yox, fəaliyyət prosesinin özü, tərkib hissəsi də cəlbedici və dəyərli olur. Postdiqqət qeyri-ixtiyari diqqətdən fərqli olaraq şüurlu müşaiyət və dərkolunmuş maraqla davam etdirilir. Eyni zamanda onu ixtiyari diqqətlə də səhv salmaq olmaz, çünki prosesdə hər hansı prinsipial səy tələb olunmur. [6]

Göründüyü kimi, psixoloqlar postdiqqət məsələsinin izahında tamamilə haqlıdırlar, hətta prinsipial cəhdin olmamasını qeyd edərkən metafizikaya daha çox yaxınlaşırlar, lakin **metafizika güclü iradənin yox, idrakın iradə ilə uyğunluq dərəcəsinin ən yüksək pilləsində formalaşır.**

Niko Baumanın «Diqqət fokusunun gücü, nəaliyyətin Metafiziki qanunu» kitabının girişində deyilir: **“**Hörmətli oxucu! Inanıram ki, siz öz istəklərinizə can atır və arzu edirsiniz ki, həyatınızı yaxşılaşdırasınız. Siz heç maddi fikirlər haqqında eşitmisiniz? Baxın, bu o qədər də səsləndiyi kimi deyil. Bizim diqqətimiz həmin anlarda, sadəcə, müşahidə etdiyimiz obyektə cəlb olunur. Bu kitab SİZİN mənimsəmə gücünüz, fikriniz və diqqətiniz haqqındadır. Siz kitabda effektivliyinizi dəfələrlə yüksəldəcək “ruhi düyməni” tapmağa çalışacaqsınız ki, həmin düymə *diqqət* adlanır... Məhz diqqətin özündə gizlətdiyi qeyr-iradi **Güc** hesabına insan möcüzə yarada bilər”. [7]

Baumanın diqqəti möcüzələr yaradan qeyri-iradi **Güc** hesab etməsi böyük həqiqətdir, lakin diqqət nə qədər güclü, davamlı olsa da, mahiyyətə təsir göstərə bilməz. Ancaq xeyirxahlığa meyilli adamları diqqətli olmağa səsləməklə yaxşı əməllərə sövq etmək olar, ruhən naqisləri, əsla! Bəzi istisnalar xaric, təbiətən bədxah doğulmuş varlıqların islahına cəhd göstərmək öldürmək məqsədilə ağcaqanadı tutub gözünə dərman tökmək qədər absurd və faydasızdır. Islah etmək bir başa islah olunmaq istəyilə ekvivalentdir.

Digər tərəfdən, müəllif gerçək dünyanın hadisələrinə istinad edir, nə təəssüf ki, metafizika dünya hadisələrinə cəlb olunmağı deyil, onlara biganə qalmağı öyrədir. Təsadüfi deyil ki, metafizikanın terminoloji müəllifi Aristotel prosesə fiziki hadisələrdən kənarda olan predmetlərin öyrənilməsi tərifini vermişdi. [8]

Metafiziki baxış daha çox fəlsəfənin mövzusu olsa da, bilik, ixtisas müxtəlifliyi tanımır: bir dəfə əldə olunur və heç vaxt itirilmir.

Metodoloq – “Diqqətin fokusu” kursunun müəllifi Arseni Yakunin diqqətin üç əsas növündən bəhs edərkən postixtiyari diqqət haqqında yazır: “Müəyyən obyektə sarı yönələn və iradənin daimi müşaiyətinə ehtiyac duymayan prosesə **ixtiyaridən sonrakı diqqət** deyilir. Bu zaman orqanizm optimal rejimdə işləməyə başlayır və proses təbii yorğunluq, resursların tükənməsilə başa çatır”. [3]

Dünya şöhrətli psixoloq Mixay Çiksentmixayi müəllifi olduğu “Axın: optimal hissiyatın psixologiyası” kitabında öz oxucularını belə bir nəzəriyyə ilə tanış edir ki, əgər insanlar xüsusi “axın” vəziyyətini yaşaya bilsələr, daha çox xoşbəxt olarlar. Onun nəzəriyyəsində Potok – Axın daxili motiviasiyanın optimal vəziyyəti – insanın öz işinə bütünlüklə bağlanması kimi tərif olunur. [9]

Mixay Çiksentmixayi tərəfindən irəli sürülən «Поток – Axın» psixoloji vəziyyətdir, bunu konsentrasiya və diqqətin fokusu olaraq hisslərin pik nöqtəsi də adlandırırlar. Müəllif “axın” vəziyyətini obyektə şüurlu diqqət, onun seçilməsi, ixtiyari diqqətə xas olan gərginliyin yaşanmaması, insanın əvvəlki təcrübələrindən son dərəcə fərqlənən yenilik və fəaliyyətin çoxalan aktuallığı adlandırır.

Arseninin fikrinə görə, Çiksentmixayi öz kitabında “Axın”dan geniş danışsa da, ora daxil olmağın necəliyindən az bəhs etmiş, postdiqqət haqqında cəmi bir neçə cümlə yazmışdır. [3]

Yakunin öz iradında haqlı olduğu kimi, Mixay Çiksentmixayi də baxışlarında haqlıdır. Ona görə ki, insana diqqətli olmağı, möhkəm iradə nümayiş etdirməyi öyrətmək olar, lakin “Axın”a daxil olmaq – *səmərəlilik baxımından ən əlverişli, ən optimal vəziyyəti* seçmək **fərqli və fərdi** məsələdir. O hər kəsin fəaliyyətində özünəməxsus şəkildə baş verir, lakin verməyə də bilər. Digər tərəfdən, “axın” deyərkən Çiksentmixayi “diqqətin metafizikasına” işarə edirsə, bunun ifadə olunması, ya mümkün deyil, ya da ölülərə nəsib olan son nəfəs anının izah edilməsi qədər mümkündür. Çünki metafizika təcrübəyə əsaslanmayan, heç bir şəxsi mənfəətlə əlaqəsi olmayan məqamın simvolik tərifidir.

Yakunin onu da qeyd edir ki, postdiqqət haqqında düşüncələrə dalmasına səbəb ekstremal idmançı, saatlarla orkestr lövhəsindən ayrıla bilməyən dirijor və doqquz saat əməliyyatda olmuş neyrocərrahdan eşitdikləri olmuşdur. [3] Bunu neyrocərrahın timsalında belə izah etmək olar. Əgər həkim yorulmadan 5-6, bəzən 9-10 saatlıq əməliyyat aparırsa, bu, onun öz işinə vasitəsiz bağlılıq əmsalı ilə xarakterizə olunur. Insana xidmətin mövcud şəraitdə önəmlilik dərəcəsi həmin ölçüdə enerji ehtiyatı deməkdir, yəni cərrahi əməliyyata sərf edilən vaxt və onun səmərəli nəticəsi cəzbetmənin uyğun enerjisinə bərabərdir. Bu isə o deməkdir ki, daxili bağlılığın motivləri əsasında formalaşan istənilən fəaliyyətin mükəmməl yekunu icraedicidə böyük məmnunluq hissi doğurur.

Cərrahın doqquz saat əməliyyat apara bilməsinin digər səbəbi onun yeni-yeni maraqlı təcrübələr əldə etməsidir ki, əyani qazanılan müsbət yeniliklər ruhi vəziyyətin yüksəlməsinə təkan verərək *endorfin ifrazının* səviyyəsini artırmaqla insanın yorğunluq üzərindəki qələbəsini təmin edir. Həm də prosesin necə davam etməsindən asılı olmayaraq yaxşı nəticə həmişə xoş əhval-ruhiyyə yaradır. Nəticənin bəxş etdiyi sevinc hissi isə məhz mövcud situasiya üçün keçərlidir, lakin m**etafiziki xoşbəxtlik** idrakın itirilməyən vəcdidir, o ayrı-ayrı hadisələrdən asılı ola bilməz.

Tibbdən söz düşmüşkən, onu da qeyd etmək lazımdır ki, həkimlər xəstəliyi müalicə etmək üçün, əsasən, nəticəyə – təzahürə – gözlə görünənə istinad edir və əksər hallarda xəstəliyi yaradan səbəblər haqqında düşünməyi unudurlar. Əgər həkim xəstəliyin yaranması, təbiəti haqqında araşdırmalar aparıb bu və ya digər şəkildə müəyyən nəzəriyyə əldə etmiş olsa, bax, o zaman hadisənin metafiziki proses kimi dəyərləndirilməsi məqsədəuyğundur. Bütün aşkar edilən xəstəliklər təzahürdür, onların orqanizmdən kənardakı mövcudiyyəti deyil. Eyni səbəbdən cərrah-pasiyent kontekstində də məsələ fəsadların aradan qaldırılmasıdır, xəstəliyin yaranma səbəbinin öyrənilməsi yox.

Oxşar misallar çox çəkmək olar. Məsələn, anam dəfələrlə özünü gölməçəyə atıb qışqıran qurbağanı ilanın ağzından xilas etmişdi, yaxud illərlə eyni ağacda yuva quran sarıköynəyin qanadsız balalarını pişiyin hücumundan qorumuşdu. O, bu kimi əməllərdən qeyri-adi mənunluq hissi keçirərdi. Lakin həkim də, anam da, buna bənzər müxtəlif hadisələrin qurucuları da həmin anlarda mənən xoşbəxtlik hissi yaşayırlar və eyni məzmunlu əksər proseslər mütləq mənada deyil, çox vaxt qeyri-ixtiyari baş verir. Lakin qeyri-ixtiyari, eləcə də, ixtiyari baş verən nəailiyyət sevincləri mənəviyyat məsələsidir. Bəs metafizika nədir? *Metafizika gerçək dünyanın hüdudlarından kənarda olanı – noumenal predmetləri öyrənmək üçün istifadə edilən termindir*. Onun obyekti varlıq, təbiət və dünyadır.

Yadıma düşür ki, ali məktəbdə təhsil aldığım vaxtlar şeirlərim bütün dövrü mətbuatda, o cümlədən, nüfuzlu “Azərbaycan” jurnalı, “Ədəbiyyat və incəsənət” qəzetində dərc olunurdu. Bunu görən ali məktəb müəllimlərim riyaziyyat fakultəsindən ədəbiyyata keçməyimi təklif etdilər. Razı olmadım. Onlara dedim ki, hər hansı ədəbi nəaliyyətim çətin bir məsələnin həllindən duyduğum zövqü əvəz edə bilməz. Bu, o vaxtların gənc tələbəsi üçün əsl həqiqət idi. Məhz metafizikanın bəxş etdiyi xoşbəxtlik də belədir, heç bir dünyəvi, mənəvi sevinc hissilə müqayisə gəlməz. Metafizika təcrübənin hokmünə tabe olmayan, yaradılışı, mahiyyəti təmsil edən transendent göstəricidir.

Bu məsələyə “görünənlər, görünməyənlər” adı altında Platon da eyni münasibət bildirmişdi. O, gerçək dünyanın hadisələrindən zövq almağı fəlsəfi hadisə hesab etmirdi.

Mən “Diqqətə diqqət” sərlövhəli yazımda “Diqqətin metafizikası” haqqında düşüncələrimin yaranma səbəbini işıqlandırmağa çalışarkən qeyd etmişəm ki, həkim üçün diqqət obyekti mənim əlimin ağrıması yox, ağrının təbiəti [1] idi: “Əlbəttə, özünün mahiyyətinə yönəlmiş diqqət nadir hadisədir. Ələlxüsus da, gerçək dünya ilə sıx əlaqədə olan zəka sahiblərinin misalında, yəni insan öz ömrünü bilavasitə qavrayışlararası münasibətlərə xərcləyərsə, gerçəküstü düşüncələrə vaxt ayıra bilməsi çətindir. ***Metafizika görünənlərin mücərrəd – zəkaüstü görünüşünə deyilir.*** Məlum şəraitdə bunu belə izah etmək olar. «Əlin ağrıyır?» sualının müəllifini düşündürən qarşısında əyləşənin kimiyi, əlinin ağrıması yox, ***ağrı anlayışının özü*** və onun varlığın mahiyyətində labüd proses kimi dağıdıcı xüsusiyyətə malik olması idi”.

Beləliklə, biz diqqəti şüurun müəyyən bir obyekt üzərinə yönəlib mərkəzləşməsini təmin edən psixoloji fəaliyyət kimi tanıdıq. Lakin bu, o demək deyildir ki, diqqət həmişə pozitiv hadisələr, yaxud xeyirxah əməllər üçün prosesə qoşulur, xeyir, bütün şər əməllərin həyata keçirilməsi də onunla başlayır. Bu mənada vasitəçi amil kimi diqqəti həmişə yaxşı əməllərin fonunda təsəvvür etmək yanlışdır.

Məsələnin əsas çətinliyi ondadır ki, **ixtiyari**, **qeyri-ixtiyari diqqətlə** yanaşı **posixtiyari diqqətin** də şər əməllərdə vasitəçiliyi mümkündür. Əgər tibbi məqsəd canlı insan üzərində təcrübəyə ehtiyac duyar və cərrah bu əməliyyatdan “postixtiyari zövq” alarsa, hadisəni necə *xeyirxah əməl* hesab etmək olar? Əlbəttə, tibbi inkişafın qurban tələb etdiyini unutsaq. Lakin **diqqətin metafizikası** əməl müxtəlifliyi tanımır; növə, funksiyaya

ayrılmır; bütövü, bölünməyəni, pislik və yaxşılığa qədər olanı, yəni özlüyündə var olanı – “özündə şey”i ifadə edir ki, mutasiyaya məruzqalma, yaxud tükənmə ehtimalı sıfra bərabər olur. Yəni istənilən münasibətin başlanma, davametmə, yekunlaşma prosesi **diqqətin** müşaiyətilə təmin olunursa, **diqqətin metafizikası** ixtiyari, qeyri-ixtiyari, postixtiyari diqqətin nüfuz edə bilmədiyi hadisələri işıqlandırır.

**Nəticə**

Metafiziki baxış daha çox fəlsəfənin mövzusu olsa da, bilik, ixtisas müxtəlifliyi tanımır; bir dəfə dərk olunur və heç vaxt əldən verilmir. Diqqətin metafizikasını olduğu kimi izah etmək mümkün deyil. Ona görə ki, metafizika hər kəsin şəxsi təcrübəsinə əsaslanır. Adi bir müahidəçi dünyanı necə görürsə, haqqında elə də danışır, amma metafiziki hadisələr gözlə görünənlərin fonunda gözlə görünməyənlərin dərk olunmasıdır. Həm də fiziki hadisələrdən kənarda olan predmetlərin öyrənilməsidir. Metafiziki həzzi gerçək dünyanın heç bir zövqü ilə  müqayisə etmək olmaz. Çünki metafizika hadisənin “qabığını sındırıb özəyini” dadmaqdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Kərimi G.Diqqətə diqqət; “Təfəkkür” qəzeti, 20.01.2022
2. Mehdiyev R. Fəlsəfə. Bakı-2010, s. 280
3. https://theoryandpracticqe.ru/posts/18023-chto-takoe-vnimanie-i-zachem-ego-nuzhno-razvivat
4. https://studme.org/89297/psihologiya/osnovnye_svoyctva_vnimaniya
5. https://ru.m.wikipedia.org/wiki/Теория_внимания_Т.Рибо
6. www.s-psy.ru/obucenie/kurs-psihologii/-cast-2
7. Бауман Н. Сила фокуса внимания. Метафизической закон успеха. «Издательство АКТ», 2017
8. https://www.psychologos.ru/articles/view/metafizika
9. https://ru.m.wikipedia.org/wiki/чиксентмихай_

**Гойарчин Карими**

**МЕТАФИЗИКА ВНИМАНИЯ**

***РЕЗЮМЕ***

***Цель*** написания статьи не в том, чтобы рассказать о видах и функциях внимания. Психологи справились с этой задачей. Наше намерение — прокомментировать тему, о которой говорят они, то есть психологи. Речь идет о третьем типе внимания в психологии, поствнимании [термин принадлежит автору], который находит свое подтверждение как повторение постпроизвольного или непроизвольного внимания.

Предстоит исследовать третий вид внимания в психологии, следующий за произвольным, т. е. постпроизвольным, или повторением непроизвольного внимания, — поствнимание .

***Методология:*** Тема внимания анализировалась с двух сторон: внимание к пониманию, внимание к восприятию.

***Научная новизна***: впервые в Азербайджане тема внимания была проанализирована с точки зрения понимания и восприятия; метафизика внимания освещается как феномен, в который не может проникнуть произвольное, непроизвольное, постпроизвольное внимание.

***Ключевые слова***: *произвольное внимание, непроизвольное внимание, понимание, восприятие, абстрактное, интеллектуальное, целенаправленное, поствнимание*

**Goyarchin Karimi**

**THE METAPHYSICS OF ATTENTION**

***SUMMARY***

***Purpose****:* The purpose of writing the article is not to talk about the types and functions of attention. Psychologists have mastered this task. Our intention is to comment on a topic that they, that is, psychologists, talk about. This is about the third type of attention in psychology, post-attention [the term belongs to the author], which finds its confirmation as a repetition of post-voluntary or involuntary attention.

The third type of attention in psychology that is after the voluntary, i.e. postvoluntary, or the repetition of involuntary attention, is to be researched - postattention [the term belongs to the author].

***Methodology:*** The theme of attention was analyzed from two directions: attention to understanding, attention to perception.

***Scientific novelty:*** the topic of attention was analyzed for the first time in Azerbaijan from the point of view of understanding and perception; the metaphysics of attention is illuminated as a phenomenon that arbitrary, involuntary, post-arbitrary attention cannot penetrate.

***Keywords:*** *voluntary attention, involuntary attention, understanding, perception, abstract, intellectual, purposeful, postattention*

**UOT 316**

**Könül Salmanova**
Naxçıvan Dövlət Universiteti, müəllim
*konulsalmanova1@yahoo.com*

# İNSANIN FƏALİYYƏTİNDƏ DƏYƏRLƏR SİSTEMİNİN ROLU

*Məqalədə bildirilir ki, insanın cəmiyyətdə fəaliyyəti təhlil olunarkən burada dəyərlərin roluna diqqətin yetirilməsi zəruridir. Dəyərlərin nəzərə alınması tələbatların, maraqların və mənafelərin ödənilməsi üçün lazımdır. Dəyərlər şəxsiyyətin fəaliyyətinin tənzimləyici, inteqrasiyaedici və motivləşdirici mənbəyi rolunu oynayır. İnsanın cəmiyyət üçün faydalı olan hər cür məqsədyönlü fəaliyyəti bu və ya digər dəyərlər sisteminə əsaslanır.*

***Açar sözlər:*** *insan, dəyərlər, cəmiyyət, şəxsiyyət, məqsədyönlü fəaliyyət*

## Giriş

İnsanın fəaliyyətində dəyərlər sisteminin vacib rolu hər şeydən əvvəl onunla izah edilir ki, bu prosesdə maddi dəyişdirici, idraki dərkedici və dəyərləndirici-qiymətverici tərəflər bir-birindən ayrılmazdır (1, s. 14). Fəaliyyət prosesində dəyərlərin rolu öz əksini başlıca olaraq bunda tapır ki, onun subyekti təbii və sosial gerçəkliyin müvafiq predmetlərini, hadisələri özü və fəaliyyət üçün faydalı və ya zərərli, doğru və ya yalan, ədalətli və ədalətsiz, zəruri və lazımsız olması baxımından qiymətləndirir. Buna görə də dünya onu dərk edən və yeniləşdirən şəxsiyyətin qarşısında çoxtərəfli və çoxpilləli dəyərlər dünyası kimi çıxış edir. Bu, çox mühüm metodoloji prinsipdir. Bu metodoloji prinsip dəyərin insan şüurunun müstəqil xassəsi kimi götürməyi və idrakı münasibətdən fərqləndirməyi tələb edir. Sözügedən metodoloji prinsipi əldə rəhbər tutmaqla, bir tərəfdən insan fəaliyyətinin dəyərləndirici qiymətverici növünün mahiyyətini açmaq, digər tərəfdən isə fəaliyyətin maddi dəyişdirici, idraki-dərkedici sosial-siyasi və s. növlərində dəyərlər sistemi ilə əlaqədar olan problemləri təhlil etmək olar. İnsan fəaliyyəti təkcə rasional-nəzəri idrakın deyil, həm də gerçəkliyə müəyyən münasibət işləyib hazırlayan və onu qiymətləndirən dəyər şüurunun predmetidir.

### Dəyərlər reallıq fenomeni kimi

“Dəyərlər reallıq fenomeni kimi insanların fəaliyyəti prosesində yarandığı üçün onlar sosial həyatın özünəməxsus “məna” toxumasını təşkil edir və ictimai münasibətlərdə ifadə olunur. Hər bir insan onu əhatə edən gerçəklik hadisələrinə müəyyən qiymətverici münasibət bəsləyir. Belə münasibət, yəni bizə lazım olan və qiymətləndirdiyimiz şeyləri seçib digərlərindən ayırmaq fərdin etdiyi zəruri hərəkətdir. Bunsuz müxtəlif tələbatlara, mənafelərə və məqsədlərə malik olan insanın nə fəaliyyəti, nə də həyatının özü qeyri-mümkündür” (1, s. 16-17; 21). Həqiqətən də, insanın həyat fəaliyyəti formaları istinasız olaraq müxtəlif növlü dəyərlər sistemi ilə vasitələnir və onlardan ayrılmazdır. Şəxsiyyətə sosial varlıq kimi məxsus olan yüksək insani keyfiyyətlər onun cəmiyyətdə mövcud olan və fəaliyyət göstərən mütərəqqi dəyərləri mənimsəməsi və əldə rəhbər tutmasının nəticəsidir. Məhz buna görə də humanist, ümumbəşəri həyatın mənası, azadlıq və s. kimi yüksək, ali dəyərlərin araşdırılması heç vaxt indiki qədər aktual olmamışdır. Bəşəriyyət bu gün sivilizasiyalı inkişafın yeni strategiyası, yeni fundamental dəyərlər orientasiyası axtarışı fəzasına daxil olmuşdur. Müasir dövrdə bu məsələ bütövlükdə bəşəriyyət və hər bir şəxsiyyət qarşısında ən aktual və ən ciddi problem kimi durur. Bu əyani surətdə onu göstərir ki, dəyər şüuru və dəyərlər  seçimi şəxsiyyətin strukturunda

müstəsna dərəcədə böyük rol oynayır. Dəyərlər seçimi mahiyyət etibarilə insanı dünyaya və özünün-özünə bütöv münasibəti deməkdir. Sözün əsl mənasında ictimai hadisələrin, şəxsiyyətin fəaliyyətinin öyrənilməsində aksioloji problematika, dəyərlərin aksioloji məzmunu getdikcə genişlənir və yeni vüsət alır. Bu baxımdan şəxsiyyətə onun aksioloji təşkili kimi yanaşmaq olar. Şəxsiyyətin varlığının özü sistemli dəyərlər təbiətinə malikdir. Dəyərlər şəxsiyyətin fəaliyyətinin tənzimləyici, səmtləşdirici inteqrasiyaedici və motivləşdirici mənbəyi rolunu oynayır. İnsanın cəmiyyət üçün faydalı olan hər cür məqsədyönlü fəaliyyəti bu və ya digər dəyərlər sisteminə əsaslanır. Dəyərlər insana yaxşını pisdən, gözəlliyi eybəcərlikdən, ədalətlini ədalətsizlikdən ayırd etməyə kömək edir (2, s. 106).

İnsan uşaqlıq illərindən başlayaraq yaşadığı mühitdə mövcud olan dəyərləri mənimsəməyə başlayır, yetkinlik dövründən etibarən isə dünyagörüşündə möhkəmlənmiş olan dəyərlər sistemi onun həyat yolu seçimi prosesində həlledici rol oynayır. Həyat yolunu seçmək situasiyası yaranana qədər fərd üçün heç bir dəyər yoxdur. Həyat yolunu seçmək prosesində dəyər nəinki yaranır, hətta praktiki əhəmiyyəti olan nümunə kimi reallığa çevrilir. V.İ.Plotnikov məsələnin bu tərəfinə xüsusi diqqət yetirərək yazır: “Həyat yolu seçimi xətti möhkəmləndirildikdən sonra seçilən dəyər (məsələn, hakimiyyət etalonu) ideal forma kəsb edir, şəxsiyyətin hərəkətini və davranışını tənzimləyir, predmet və hadisələrdəki müsbət və mənfi cəhətləri, kəmiyyət və keyfiyyət xassələrini müqayisə etmək qabiliyyətinə yiyələnir” (3, s. 769).

Ölkəmizdə açıq cəmiyyətə keçid dövründə baş verən radikal dəyişikliklər şəxsiyyətin bütün həyat, düşüncə tərzini dəyişir, onun dəyərlər orientasiyasında ciddi yenilikləri şərtləndirir. Ş.Əsgərov totalitar və açıq cəmiyyətin dəyərlər sistemini müqayisə edərək yazır: “Totalitar quruluşda böyümüş insanın düşüncə tərzi ilə açıq cəmiyyətdə böyümüş insanın düşüncə tərzində fərq böyükdür. Çünki bu quruluşların əsasalandırıcı dəyərlər sistemi fərqlidir” (4, s. 78). Həqiqətən də, ölkəmizi inkişaf etdirən və ya onu ləngidən səbəbləri düzgün qiymətləndirmək üçün yeni həyat, düşüncə tərzinə, yəni dünyagörüşünə ciddi ehtiyac duyulur.Bu baxımdan şəxsiyyətin fəaliyyəti prosesində dəyərlərin və dəyərlər seçiminin rolunu təhlil edərkən aşağıdakı metodoloji prinsipə xüsusi diqqət yetirmək vacibdir.

**Dəyərlərin yenidən mənalandırılması prosesi**

Şəxsiyyətin fəaliyyətində dəyərlərin və dəyərlər seçiminin rolunun aşkar olunmasında başlıca metodoloji prinsiplərdən biri dəyərlərin yenidən mənalandırılması prosesi ilə əlaqədardır. Azərbaycan cəmiyyətində və dünya miqyasında baş verən köklü transformasiya prosesləri, sivilizasiyaların dialoqu şəxsiyyətin ictimai varlığında, aksioloji təşkilində və funksiyalarında, şüuru və davranışında keyfiyyət xarakterli yeniliklər yaradır. Bu yeniliklər öz əksini hər şeydən əvvəl müasir dünyada mövcud olan dəyərlərin yenidən mənalandırılması adlı dərin və çoxtərəfli prosesdə tapır. Sözügedən prosesdə, bir tərəfdən, totalitar quruluşdan miras qalan dəyərlər köklü surətdə dəyişilir və tədricən sıradan çıxır, xalqımızın tarixi, milli-mənəvi dəyərləri, mütərəqqi adət-ənənələri dirçəldilir, özünə qaytarılır, digər tərəfdən, dünya miqyasında, o cümlədən Azərbaycan cəmiyyətində dəyərlərin xeyli hissəsi kökündən dağılır, digər hissəsi yeni məzmunla tamamlanır, nəhayət, zəmanəmizin tələblərinə, reallıqlarına cavab verən tamamilə yeni dəyərlər sistemi yaranır və getdikcə genişlənir. Biz bu məsələdə belə bir dəyərli fikir ilə razılaşırıq ki, dəyərlərin yenidən mənalandırılmasının başlıca istiqamətini ictimai həyatın bütun tərəflərində humanitar tərəflərin üstün rolunun durmadan artması təşkil edir. “Yaxın keçmişdə insanların davranışı və fəaliyyətində əsas yer tutan dəyərlər (proletar həmrəyliyi, sinfi yanaşma, sosializm və kommunizm işinə sədaqət və s.) bu gün üçün yaramır, onlar müasir reallıqlar fonunda köhnəlmişdir. Bəşəriyyətin ümumi həmrəyliyi bütün xüsusi prinsiplərdən yüksəkdə durur” (5, s. 224).

İnsan fəaliyyətində dəyərlər və dəyərlər seçimi probleminin araşdırılmasında metodoloji

baxımından Şərq və Qərbin malik olduğu dəyərlərə xüsusi diqqət yetirilməsi çox vacibdir. Müasir Azərbaycan cəmiyyəti hər iki regionun sərhədində yerləşdiyinə görə şəxsiyyətin sosiallaşması prosesində hər iki regiona xas olan dəyərləri əlaqələndirmək zəruridir. Məlumdur ki, Şərq xalqlarının mentalitetində ənənəvi olaraq kollektivçilik dəyərləri geniş yer tutur. İnsanlar arasında sosial əlaqələrin möhkəmləndirilməsində onlara söykənmək faydalıdır. Digər tərəfdən Qərb üçün səciyyəvi olan fərdiyyətin rolunun genişləndirilməsi, onun fəallığı və müstəqilliyinin artırılması ilə bağlı dəyərlərə xüsusi diqqət yetirilməlidir (6, s. 615).

Müstəqillik yolunda inamla irəliləyən və ictimai həyatın bütün sahələrində böyük uğurlar qazanan Azərbaycan cəmiyyətində insan ən yüksək dəyər, sərvət və kapital sayılır. Şəxsiyyət xalqın sərvəti, milli mənəviyyatın cövhəridir. “Əsl şəxsiyyət o insandır ki, öz yaradıcı fəaliyyəti ilə bütün həyatını xalqın maariflənməsinə həsr edir. Belə şəxsiyyətlər xalqın sərvətidir, milli mənəviyyatın cövhəridir” (7, s. 5). Həqiqətən də, millətin həqiqi var-dövləti mənəvi cəhətdən zəngin, intellektual cəhətdən yüksək inkişaf səviyyəsinə və planetar miqyaslı şüura malik olan, xoşbəxt gələcək üçün öz dəyərli töhfəsini verə bilən şəxsiyyətdir. Sivilizasiyaların, qlobal dünyanın mütərəqqi inkişafına, bəşəriyyətin gələcək taleyinə şəxsiyyətin davranışı və əməllərinin təsir dairəsi durmadan artır. Ayrıca şəxsiyyətin dəyərlər sistemindən, düzgün qərarından tarixi prosesin inkişaf taleyinin asılılığı da artır.

“İnsan kapitalını necə formalaşdırmaq olar, bu çətin, çoxtərəfli və mürəkkəb proses hansı inkişaf mərhələlərindən keçməlidir, hansı sosial-psixoloji mexanizmlərdən istifadə olunmalıdır, dəyərlər seçimini burada rolu nədən ibarətdir?” və bu qəbildən olan digər problemlər öz həllini gözləyən problemlər sırasına daxildir. Bu mühüm elmi-nəzəri və praktiki problemi tam, əhatəli şəkildə araşdırmaq fikrində deyilik, çünki sözügedən problem bizim tədqiqat predmetimiz deyil, başqa tədqiqat işlərinin mövzusudur. Bunu nəzərə alaraq biz insan kapitalının formalaşması probleminin çox mühüm bir mərhələsini və bununla ayrılmaz əlaqədə olan sosial-psixoloji mexanizmləri, yəni şəxsiyyətin fəaliyyətində dəyərlər sisteminin yerini və rolunu hərtərfli və dərindən araşdırmağı qarşımıza başlıca məqsəd kimi qoyuruq. Təbii ki, insan kapitalının formalaşması şəxsiyyət üçün normal iqtisadi təminat zəmini yaradılmasını, cəmiyyətdə siyasi stabilliyin, ədalətin, ictimai təhlükəsizliyin təmin olunmasını, demokratik, açıq cəmiyyətin təkmilləşdirilməsini, bazar münasibətlərinin dövlət tərəfindən tənzimlənməsini, insan hüquq və azadlıqlarının real qurulmasını tələb edir. Bu proses həmçinin şəxsiyyətin ətraf aləmə və mövcud ictimai münasibətlərə maraq göstərməsini, informasiya axınına cəlb olunmasını, onun fəaliyyət və dəyərlər seçimi etməsini tələb edir. İnformasiya cəmiyyətində yaşayan və fəaliyyət göstərən şəxsiyyət informasiya axınından müəyyən məlumatlar əldə edir, onları təhlil etmək üçün yaddaş koduna göndərir, təhlil nəticəsində müəyyən qərar qəbul edir və nəhayət, həmin qərarın icrasına başlayır. Bütün bu əməliyyatların reallaşmasında şəxsiyyətin fəaliyyət və dəyərlər seçimi xüsusi və əhəmiyyətli rol oynayır. Bu münasibətdə Karaçi Universitetinin professoru, insan inkişafı nəzəriyyəsinin yaradıcısı Məhbub Ül Həq çox haqlı və düzgün olaraq qeyd edir ki, “iqtisadi artım ancaq insanın seçim imkanlarını artıran vasitədir... İnsan inkişafı firavanlığın yaxşılaşması və seçim imkanı prosesinin genişlənməsidir” (8, s.26).

Təsadüfi deyildir ki, insan potensialının inkişaf indeksi (İPİİ) dəyərlərin qiymətləndirilməsinin yeni başlıca meyarı sayılır. Ş.Əsgərovun fikrincə, hər il dünya dövlətlərinin reytinqi İPİİ-yə görə müəyyən edilir. Bu indeks inkişafa çox həssas olub, insan potensialının inkişafının əsas göstəricilərini (təhlil, uzunömürlülük və ləyaqətli həyat səviyyəsi) nəzərə alan indekslərin zəmindən ibarətdir. Misal üçün, BMT tərəfindən 2010-cu ildə insan inkişafı haqqında məruzənin 143-147-ci səhifələrində göstərilən il üçün 169 dövlətin İRİİ-yə görə reytinqi göstərilmişdir. İndeksin qiyməti sıfırla vahid arasında dəyişir. Azərbaycan 2010-cu il hesabatında 2005-ci illə müqayisədə 34 pillə yüksələrək 169 ölkə arasında İPİİ-yə görə 101-ci

yerdən 67-ci yerə yüksəlmişdir (10, s. 27).

Fərəhli haldır ki, Azərbaycan müstəqillik əldə etdikdən və açıq cəmiyyət quruculuğuna qədəm qoyandan sonra onun fəlsəfi-aksioloji və psixoloji fikrində şəxsiyyətin fəaliyyətində dəyərlər və dəyərlər seçimi probleminin tədqiqinə diqqətin artması müşayət olunur. Bunu son illərdə çap olunan sanballı, dəyərli və məzmunlu əsərlər əyani surətdə sübut edir. Misal olaraq Z.Hacıyevin “Keçid dövrü və sosial dəyərlər», M.Rzayevin «Şəxsiyyət və dəyərlər”, İ.S.Qılıcovun “Fəaliyyət və dəyərlər seçimi”, Ş.Əsgərovun “Dəyərlərin qiymətləndirilməsinin yeni meyarı”, Q.V.Rəhimovanın “Azərbaycan psixoloqlarının tədqiqatlarında milli-mənəvi dəyərlər problemi və onun müasir vəziyyəti” və başqalarının əsərlərini göstərmək olar. Bu dəyərli əsərlərin çap olunması, ümummilli lider Heydər Əliyevin vaxtilə Azərbaycan filosofları və psixoloqları qarşısında qoyduğu vəzifəni layiqincə yerinə yetirilməsinə bir töhfədir. Heydər Əliyev xalqımızın keçmişi və hazırkı mənəvi-əxlaqi dəyərlərini müqayisə edərək demişdir: “Bizim xalqımız öz mənəvi dəyərlərinə əsrlər boyu sadiq qalmış və onları inkişaf etdirmişdir. Mənəvi dəyərlərimiz safdır, onlar həmişə insanlarda təmizlik, xeyirxahlıq, yüksək ideyalar tərbiyə etmişdir. Bu gün biz ona görə xoşbəxtik ki, babalarımızdan miras qalmış mənəvi dəyərlər yenidən canlanır və gələcək nəslə ötürülür” (10, s. 2).

İstər xaricdə, istərsə də Azərbaycanda dəyər probleminə həsr edilmiş çoxsaylı ədəbiyyatlar mövcuddur. Dəyər nəzəriyyəsinin kateqoriyaları sistemində dəyər kateqoriyası mərkəzi yer tutur. Elmi ədəbiyyatda məhz bu kateqoriya ətrafında saysız-hesabsız müzakirələr və qızğın mübahisələr gedir. Sosioloqların hesablamasına görə, fəlsəfi-sosioloji ədəbiyyatda XX əsrin sonuna yaxın dəyər kateqoriyasına yüzdən artıq tərif verilmişdir (11, s. 123).

Dəyər anlayışının müəyyən olunmasına həsr olunan bütün tədqiqat əsərlərində dəyər deyildikdə insan, sosial qrup, bütövlükdə cəmiyyət üçün hər hansı maddi, sosial, mənəvi predmet və ya hadisələrin, həmçinin normaların, ideialların və s. əhəmiyyəti başa düşülür. Lakin predmet və ya hadisələrin, norma və ideialların əhəmiyyəti termini tədqiqatçılar tərəfindən birmənalı qəbul edilmir, müxtəlif nöqteyi-nəzərdən mənalandırılır.

**Tədqiqatçıların dəyər anlayışına münasibəti**

Zənnimcə, müasir fəlsəfi-sosioloji və aksioloji ədəbiyyatda dəyər anlayışına münasibət tədqiqatçıları aşağıdakı kimi qruplaşdırmaq mümkündür. Haqqında söylənilən müxtəlif fikirləri, irəli sürülən ideyaları aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Bəzi fikir sahiblərinin qənaətincə, dəyər şəxsiyyət, sosial qrup və bütövlükdə cəmiyyət üçün müsbət əhəmiyyət kəsb edən, onların tələbatları və mənafelərini ödəyən, vasitələr rolunu oynayan maddi və mənəvi hadisələr, həmçinin normalar, məqsəd və ideallar qismində çıxış edən ideyalar və sövqedicilərdir. Bu, birinci qrupa V.P.Tuqarinov, Z.Hacıyev və başqa tədqiqatçılar daxildirlər.

Elmi ədəbiyyatda dəyərin yuxarıdakı anlayışı tədqiqatçıların böyük əksəriyyəti tərəfindən bütövlükdə qəbul olunur. Lakin bununla yanaşı, əhəmiyyət termininin izahında tədqiqatçılar arasında fikir ayrılığı vardır. Belə ki, tədqiqatçıların böyük bir qrupu (məsələn, O.Q.Drobnitskiy, H.V.Motroşilova, M.V.Domin, V.Brojit və başqaları) belə hesab edirlər ki, dəyər subyektin normal həyat fəaliyyəti və inkişafı üçün müsbət və ya mənfi əhəmiyyətlidir. Buna görə də dəyərləri pozitiv və neqativ dəyərlərə bölmək olar.

Tədqiqatçıların digər qrupu (məsələn, V.P.Tuqarinov, S.F.Anisimov, S.İ.Popov, Y.D.Qranin, Z.Hacıyev və başqaları), əksinə sübut edirlər ki, dəyər əlamətliliyinin yalnız bir formasını, məhz müsbət formasını ifadə edə bilər (12, s.131). Dəyər anlayışına bu mövqedən yanaşan tədqiqatçılar buradan belə nəticə çıxarırlar ki, əhəmiyyətlilik dünyası dəyərlər dünyası ilə eyniyyət təşkil etmir, öz həcminə görə birinci ikincidən daha genişdir və ictimai həyatda mənfi rol oynayan, sosial tərəqqiyə zidd olan hadisələri dəyər adlandırmaq olmaz. Hər bir hadisə bu və ya digər dərəcədə əhəmiyyətlidir, lakin onların müəyyən hissəsini, müsbət

əhəmiyyəti olanı dəyər adlandırmaq olar. Dəyərdən fərqli olaraq qiymətvermə həm müsbət, həm də mənfi ola bilər. Bəşəriyyət üçün xəstəliyin, aclığın, cinayətlərin əhəmiyyəti mümkün olsa da, onlar dəyər deyildir. Dəyər insani əhəmiyyəti olan predmet və hadisələrin əhəmiyyətliliyinin xüsusi tipidir. Biz də bu elmi mövqedə dayanır və hesab edirik ki, dəyər əhəmiyyətliliyin yalnız müsbət formasını ifadə edə bilər. Bu barədə aşağıda bir qədər geniş söhbət açacağıq.

Dəyərin tərifinin müəyyən olunmasının ikinci qrupuna daxil olan tədqiqatçıların fikrincə, dəyərlər müstəsna olaraq ictimai şüurun komponentidir, ictimai və fərdi şüurun strukturunda normalar, ideallar, ümumiləşdirilmiş təsəvvürlər kimi çıxış edirlər. Başqa sözlə deyilsə, haqqında danışılan tədqiqatçılar dəyərlər sferasını ictimai şüur sferası ilə məhdudlaşdırırlar. Dəyər özünün ən yüksək inkişafında ictimai idealdır və bu əsasda həm də şəxsi insani fəaliyyətin idealıdır. Dəyərlər xalis şəkildə mövcud deyildir, praktikada fərdlərin dəyər təsəvvürləri onların həyati tələbat və mənafelərindən ayrılır. Bu ikinci qrupa İ.M.Popovanı, İ.S.Narskini və başqalarını daxil etmək olar.

Üçüncü qrupa daxil olan tədqiqatçıların baxışlarına görə, dəyərin məzmunu təkcə olmalı olanı, əxlaqi və estetik ideyaları deyil, ayrıca bir subyekt və yaxud bütövlükdə cəmiyyət üçün az-çox dünyagörüşü və normativ əhəmiyyət kəsb edən bütün şüur fenomenləri və obyektlərini əhatə edir. Lakin hər faydalı olan hələ dəyərli olan demək deyildir. Onlar arasındakı fərq bundadır ki, sonuncu utilitar xarakter daşımır, əsas məqsəd kimi çıxış edir.

Buradan aydın görünür ki, bu qrupa daxil olan tədqiqatçılar dəyər kateqoriyasını ictimai şüur sferası ilə məhdudlaşdırmırlar. Onlar dəyərə ictimai şüur fenomenləri ilə yanaşı, ayrıca bir subyekt və yaxud bütövlükdə cəmiyyət üçün az-çox dünyagörüşü və normativ əhəmiyyət kəsb edən bütün obyektləri daxil edirlər. Bu baxışı, ümumilikdə qəbul etmək olar. Lakin həmin tədqiqatçıların dəyərin anlamını, məzmununu dünyagörüşü və normativ əhəmiyyətlilik ilə eyniləşdirmək fikri qəbuledilməzdir. Sözügedən bu qrupa S.F.Anisimovu, M.H.Rzayevi və başqalarını daxil etmək olar.

Dəyər kateqoriyasının məzmununun müəyyən olunmasında dördüncü qrupa daxil olub müstəqil mövqe tutan və başqalarını təkrar etməyən müəlliflər də vardır. Həmin müəlliflər sırasında professor E.M.Tenkovu və professor V.A.Vasilenkonu göstərmək olar. Hər iki tədqiqatçını bu məsələdə birləşdirən ümumi cəhət ondan ibarətdir ki, onlar dəyər anlayışını digər tədqiqatçılar ilə müqayisədə geniş mənada götürürlər. Ancaq dəyərin anlayışının geniş mənada izahını müxtəlif aspektlərdə verirlər.

Belə ki, E.M.Penkovun fikrincə, “geniş mənada dəyər insan üçün hər hansı maddi, sosial, mənəvi predmet və ya hadisənin əhəmiyyəti, həmin predmet və ya hadisələrə münasibət, onların həm cəmiyyət, həm də şəxsiyyət tərəfindən qiymətləndirilməsi başa düşülür” (13, s. 74). E.M.Penkovun dəyər kateqoriyasının məzmunu haqqında söylədiyi fikir ümumilikdə təqdirəlayiqdir, xüsusən onun dəyərin insan üçün hər hansı maddi, sosial, mənəvi predmet və ya hadisənin əhəmiyyəti olması haqqındakı fikri maraq doğurur. Ancaq onun dəyər anlayışına dəyər münasibəti və qiymətverici münasibəti aid etməsi fikri ən azı mübahisə doğurur. Çünki bu üç anlayış bir-birinə çox yaxın olsalar da, onlar arasında fərqli, özünəməxsus cəhətlər də vardır. Təsadüfi deyildir ki, tədqiqatçılar dəyər münasibəti və qiymətverici anlayışlarını fərqləndirirlər. M.V.Dyomin hesab edir ki, dəyər münasibəti subyektin gerçəkliyin predmet və hadisələrinə münasibətidir. Dəyər isə obyektiv hadisə kimi insan fəaliyyətinin yalnız imkanıdır və bu imkanın aktiv sövqedici gücə çevrilməsi üçün o, insan beynində əks olunmalıdır. Dəyərin belə dərk olunması qiymətvermə sayəsində mümkündür. Bu və ya digər predmet və hadisə yalnız ona məxsus olan obyektiv xassəsinə görə deyil, həm də insanın ona yaxın olan münasibətinə görə müəyyən dəyər statusu kəsb edir. Başqa sözlə deyilsə, qiymətvermə dəyərin bərqərar olması formasıdır; qiymətvermə idraki fəaliyyətdir.

Daha dəqiq desək, qiymətvermə aktında gerçəkliyin predmet və hadisələrinin subyekt üçün dəyərliliyi dərk edilir (14, s. 23).

Qiymətverici münasibət dəyər münasibətinin tərkib hissəsi kimi subyektin necə hərəkət edəcəyi barədə qərarını hazırlayır, onun şüurunun tənzimləyici funksiyasının formalaşmasına kömək edir. Dəyər - dəyər münasibətinin predmetidir. Bununla əlaqədar olaraq L.A.Suleymanovanın aşağıdakı fikri səciyyəvidir: “Dəyər münasibətində iki məqamı dəqiq fərqləndirmək lazımdır. Bir tərəfdən təbii xassələr ilə şərtlənən predmet insanın müəyyən tələbatını ödəməyə qadir olmalıdır, digər tərəfdən insan predmetin bu xassəsinin özü üçün dəyər olduğunu dərk etməlidir” (15, s. 23). Deməli, dəyər münasibəti anlayışı dəyər anlayışına nisbətən daha geniş anlayışdır. Dəyərin mahiyyəti dəyər münasibəti anlayışı vasitəsilə açılır. Dəyər münasibəti anlayışı dəyər, qiymətverici münasibət və dəyərlər orientasiyası anlayışları arasında əlaqələndirici həlqədir.

Dəyər orientasiyası insan şüurunu müəyyən dəyərlərə istiqamətləndirir və həmin dəyərlərə müvafiq olaraq subyektin davranışını tənzimləyir. Lakin yuxarıda deyilənlər heç də dəyər və dəyər orientasiyası anlayışlarını eyniləşdirməyə və yaxud dəyəri dəyər orientasiyasına müncər etməyə əsas vermir.

**Nəticə**

Dəyər kateqoriyasının mahiyyəti, məzmunu haqqında elmi ədəbiyyatda söylənilən fikirlərin, irəli sürülən ideyaların aparılan nəzəri təhlili göstərir ki, onların hamısı dəyərlərin müəyyən tərəfini, əlamətini ön plana çəkir və onu əsas kimi götürür. Lakin həmin fikirləri, nəzəri müddəaları qarşılıqlı əlaqədə və başlıca müsbət əlamətlərin məcmusu halda götürdükdə, dəyərlərin ümumi mahiyyəti, məzmunu açılır. Bu baxımdan sözü gedən baxışların hamısını müəyyən aspektdə və mənada doğru hesab etmək olar. Bundan əlavə, dəyər kateqoriyasının mahiyyəti haqqında fikir söyləyən tədqiqatçıları birləşdirən ümumi bir cəhət də vardır. Bu ümumi cəhət ondan ibarətdir ki, həmin tədqiqatçılar insan ilə münasibətə daxil olan və onun üçün müsbət əhəmiyyəti olan hər şeyi dəyər sayırlar.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Кветной М.С. Человеческая деятельность, сущность, структура, типы (социологический аспект). Изд-во Саратовского ун-та, 1974 – 223 с.
2. Келле В.Ж. Культура. «Введение в философию». М., 2007 – 623 с.
3. Шевченко В.Н. Общество. «»Введение в философию». М., 2007 - 623
4. Qılıcov İ.S. Fəaliyyət və dəyərlər seçimi. Bakı, 2005- 371 s.
5. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı, 2004 – 499 s.
6. Мурадов Ш.М., Гезалова А.К., Эфендиев. Глобализация демографическое развитие и трудовая активность населения в Азербайджане. Баку, «Элм», 2007 – 264 с.
7. Розов Н.С. Ценности в проблемном мире: философские основания и социальные приложения конструктивной аксиологии. Новосибирск, 1998 – 197 с.
8. Уайтхед А.Н. Избранные работы по философии. М.: 1990 – 718 с.
9. Ващекин Н.П., Абрамов В.Ф. Информационная деятельность и мировоззрение. Иркутск, 1990 – 296 с.
10. Rzayev M.H. Şəxsiyyət və dəyərlər. Bakı, 2005 – 77 s.
11. Личность в процессе демократизации общества». Баку, изд-во «Елм», 2001 – 68 с.
12. Франкл В. Человек в поисках смысла. М., 1990 – 454 с.
13. Пеньков Е.М. Социальные нормы: управдение, воспитание, поведение. М., «Высшая школа», 1990, 176 с.
14. Демин М.В. Природа деятельности. М., 1984, 168 с.

15. Сулейманова Л.А.. Ценностные ориентации личности и регуляция взаимоотношений в контактных группах. Баку «Элм», 1989, 106 с.

**Кенуль Салманова**

**РОЛЬ СИСТЕМЫ ЦЕННОСТЕЙ В ЧЕЛОВЕЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ**

***РЕЗЮМЕ***

В статье говорится о том, что считается необходимым обращать внимание на роль ценностей при анализе деятельности человека в обществе. Рассмотрение ценностей необходимо для удовлетворения потребностей, интересов. Ценности играют роль регулирующего, интегрирующего и мотивирующего источника деятельности личности. Вся целенаправленная деятельность человека, полезная для общества, основывается на той или иной системе ценностей.

***Ключевые слова:*** *человек, ценности, общество, личность, целенаправленная деятельность*

**Konul Salmanova**

**THE ROLE OF THE VALUE SYSTEM IN HUMAN ACTIVITY**

***SUMMARY***

The article states that it is considered necessary to pay attention to the role of values when analyzing human activity in society. Consideration of values is necessary to satisfy needs, interests and interests. Values play the role of a regulating, integrating and motivating source of personality activity. All purposeful activity of a person useful for society is based on one or another system of values.

***Keywords:*** *person, values, society, personality, purposeful activity*

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 331.5**

**Vilayət İsmayılov**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d., p.v.i.e.
*ismaylov1953@mail.ru*
*https://orcid.org/0000-0003-0892-0365*

## BEYNƏLXALQ TURİST AXININ MƏŞĞULLUĞA TƏSİRİ ASPEKTLƏRİ

*Məqalədə beynəlxalq turizm axınlarının mövsümiliyinin dünyanın regionları üzrə bölgüsünə təsiri və turizm və səyahətlər sferasının müxtəlif ölkələrin müqayisəli təhlili əsasında ölkədə məşğulluq səviyyəsinə təsir aspektlərinin müəyyənləşdirilməsi nəzərdən keçirilir. Turizmin iqtisadiyyata verdiyi birbaşa və dolayı töhfələri açıqlanmış, beynəlxalq turist axınlarını yaradan əsas turist bazarları qeyd edilmişdir. Turizm və səyahətlər sferası əhalinin məşğulluğunun təmin edilməsində çox əhəmiyyətlidir. Bu da dünyanın müxtəlif regionunda turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri və yeni turməhsulun aşkar edilməsinə, həmçinin turizmin inkişaf strategiyasının beynəlxalq standatrlar səviyyəsində tərtib edilməsinə imkan yaradır.*

***Məqsəd*** **–** beynəlxalq turizm axınlarının mövsümiliyinin dünyanın regionları üzrə bölgüsünə təsiri və turizm sferasının ölkədə məşğulluq səviyyəsinə təsir aspektlərinin müəyyənləşdirilməsidir.

***Metodologiya*** **–** müqayisəli və staistik təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – Turizmin iqtisadiyyata verdiyi birbaşa, dolayı və induksiya edilmiş töhfələri açıqlanmaqla beynəlxalq turist axınlarını yaradan əsas turist bazarları qeyd edilmişdir. Turizm və səyahətlər sferası əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətliliyi göstərilmişdir ki, bu da turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri və yeni turməhsulun aşkar edilməsinə imkan yaradır.

Tədqiqatın əhəmiyyəti ondan ibarətdir ki, əldə edilən məlumatlar və nəticələr tədqiq edilən məsələnin əhəmiyyətini və onun öyrənilməsinin zəruriliyini dərk etməyə imkan verir.

***Açar sözlər:*** *beynəlxalq turizm, regionlar, bölgü,əhali, məşğulluq, təmin edilmə*

### 1. Giriş

Turizm aparıcı sahələrdən biri olmaqla bir çox ölkələrdə dinamik inkişafa malik olan sənayeyə çevrilmişdir. Qeyd edək ki, dünya üzrə ümumi iş yerlərinin hər 7-ci iş yeri turizm biznesi ilə məşğul şirkətlərə aiddir. ÜTT-nin proqnozlarına görə, 2025-ci ilə qədər beynəlxalq turist səfərlərinin sayı təqribən 55-60% yüksələrək 1,6-1,7 milyard nəfər təşkil edəcəkdir. Həmçinin proqnozlara görə turistlərin gündəlik xərcləri (aviadaşımalar istisna olmaqla) qeyd edilən dövrdə 5 milyard dollara qədər artacaqdır [21].

Mövcud şəraitdə turizmin inkişafının təmin edilməsi bir sıra tendensiya ilə şətrləndirilir:

- xarici iqtisadi və siyasi amillərin təsirinə məruz qalma;

- turizm sferası həcmlərinin əlverişsiz şəraitdə sürətlə bərpa edilməsi qabiliyyəti [Kazıbaykızı, 2015: 265-269].

Dünyada baş verən maliyyə böhranı nəticəsində maliyyə bazarlarında yaranmış sabitlik turistlərin məzuniyyət vərdişləri, o cümlədən səyahətlərində bəzi dəyişikliklərin formalaşmasına gətirib çıxarmışdır: həmin dövr və snrakı müddətdə turistlərin elektron vasitələrlə sifariş etdikləri bronların sayında artım müşahidə edilmi, istirahət zamanı turistlərin sərfiyyat xərcləri isə azalma meylində olmuşdur. Bütün bunlar isə turizm XX əsrin sonunda mədəniyyətin dərin kök salmış hissəsinə çevrilməsini əsaslandıran mühüm və vacib element hesab edilir.

Azərbaycanda turizm inkişaf edən bir kompleksdir. Ona görə də bazarda yeni iş formaları, həmçinin turizm sənayesində qarşıya çıxan problemlərin həlli yolları araşdırılır və yeni yollların tapılmasına cəhd göstərilir. Son illərdə olan COVİD 19 virusunun yayıldığı dövr istisna olmaqla turizm sferasının sürətli inkişaf tempinin almasına baxmayaraq hazırda bu sferanın ölkə ÜDM-nin təkibində xüsusi çəkisi (5,5-6,9%) çox da yüksək kəmiyyət göstəricisinə malik olmamışdır [25].

Ümumilikdə ölkə iqtisadiyyatı məhdud resurslardan istifadə etməklə optimal səmərənin əldə edilməsi ilə şərtləndirilir. Belə ki, istənilən sahədə olduğu kimi, turizm sferasının da məhdud iqtisadi amilləri və ya resursları insanın psixoloji və fiziki ehtiyaclarını ödəmək üçün nəzərdə tutulur.

Turizmin digər sahələrdən fərqli xüsusiyyətindən biri də onun mövsumi fıəaliyyət sferasına aid edilməsidir. İqtisadi ədəbiyyatlarda mövsümüliyə müəyyən turizm məkanını ziyarət etmiş insanların sayının dəyişmə dinamikasını özündə əks etdirən çoxistiqamətli iqtisadi kateqoriya kimi baxılması qeyd edilir. Həm də mövsümülik turizm bazarının, əmək bazarının və maliyyə axınlarının marketinq siyasətinə təsir edir. Bu gün mövsümüliliyin iqtisadiyyatın bütün sahələrinə təsiri danılmazdır. Belə ki, turizm kommersiya istiqamətlidir və istənilən biznes mövsümi dəyişikliklərə məruz qalır. Turizm bazarında maksimal gəlir əldə etmək üçün öyrənilməli olan mühüm amillərdən biri də mövsümülilikdir [Konstantinova, 2019: 1-8]. Biznes terminlərinin lüğətində ilin fəslinin dəyişməsi, müəyyən işlərin yerinə yetirilməsi dövrü, həmçinin adət-ənənələr, bayramlar və s. ilə bağlı iqtisadi proseslər mövsümi hesab edilir.

Qeyd edək ki, bir sıra tədqiqatlarda turizm mövsümlüyü ildən-ilə təkrarlanan turizm fəaliyyəti kimi müəyyənləşdirilir. Bu isə tədqiq edilən ərazi (region) üçün xarakterik olmaqla rekreasiya şərtlərinin dəyişməsi ilə şərtləndirilir [Şarafanova, s.30-40].

## 2. Materiallar və metodlar

Azərbaycan Respublikasında qəbul edilmiş turizm sferasının inkişafının strateji yol xəritəsində qeyd edildiyi kimi, turizm sektorunun fəaliyyəti və inkişafı nöqteyi nəzərindən ölkəmizin mövcud resursları bu sferanın inkişafı üçün əlverişli imkanlar açmışdır. Odur ki, turizm sferası inkişaf etmiş bir sıra ölkələrdən fərqli olaraq bu sahənin tələb edilən səviyyədə inkişaf etdirilməsinə dəstək məqsədi ilə dövlətimiz xüsusi siyasət yürüdür və həmin siyasətdə turizmin inkişaf strategiyası və onun mərhələlərlə həlli əsas şərtlər kimi ön planda yer almışdır [1]. Azərbaycan Respublikasında nadir təbiət yerləri, mədəniyyət, memarlıq abidələri, o cümlədən UNESCO tərəfindən ümumdünya irs siyahısında qeydiyyata alınmış dünya əhəmiyyətli 38-ə yaxın memarlıq abidləri: Atəşgah, İçəri şəhər, Məhəmməd məscidi, Qız qalası, Şirvanşahlar sarayı, Seid Yəhya və Şirvanşahlar türbələri və s. mövcuddur [22]. Onu da qeyd edək ki, Azərbaycan dünya üzrə beynəlxalq turist axınının yalnız 0,0002-0,0003%-ni qəbul edir. Halbuki, ölkəmizdə təxmini hesablamalara görə il ərzində 10 milyon turist qəbul etmək üçün imkan vardır. Qeyd edək ki,

Azərbaycanda da turizmin inkişafına dünyada baş verən fövqəladə vəziyyət (COVİD-19 pandemiyası) mənfi təsirini göstərmiş, bu da pandemiyadan əvvəlki ildə (2019-cu il) qəbul edilmiş turistlərin sayından 3,15 dəfə çoxdur [2, s.21-25].

Turizm, COVID-19 pandemiyasının baş verməsi fonunda səhiyyə, sosial və iqtisadi vəziyyətdəki görünməmiş fövqəladə vəziyyətdən sonra 2020-ci ildə müşahidə tarixinin ən ciddi böhranını yaşadı. Bu böhran 2020-ci ildə beynəlxalq turistlərin (gecələmə ilə gələn qonaqların) sayının əvvəlki 2019-cu ilə nisbətən 74% azalması ilə nəticələndi ki, bu da beynəlxalq turistlərin səfərlərə çıxmasına mənfi təsirini göstərdi və dünya üzrə turizm sferası 1,3 trilyon ABŞ dolları məbləğində ixracdan əldə edilən gəlirlərin itirilməsi ilə qarşılaşdı. Qeyd edək ki, bu fövqəladə vəziyyət zamanı turizm sferası 2009-cu ilin qlobal iqtisadi böhranı zamanı qeydə alınmış ümumi itkilərdən 11 dəfə çoxdur.

Dünya İqtisadi Forumunun 2021-ci il üzrə turizm və səyahət sahəsində illik məruzəsinə görə Azərbaycan xarici turistlər üçün cəlbediciliyinə görə dünyada 194 ölkə işərisində ortadan bir neçə pillə yuxarıda (72-ci) yeri tutmuşdur. Turist axını dedikdə, turistlərin müəyyən bir yerdən, yaşayış yerindən (bazar-təchizatçı) hər hansı resursa və turist təklifinə (bazarı qəbul edən) malik olan digər yerlərə (cazibə nüvəsi) dəyişdirilməsi nəzərdə tutulur. Turist istiqamətlərinin dəyişdirilməsi və konyunktural dəyişməsi motivasiyalı (həddən çox yüklənmiş və səs-küylü mərkəzlərdən yorulma), iqtisadi (inflyasiya, valyutaların meyl etməsi), sosial və s. səbəblər ilə şərtləndirilə bilər.

Beynəlxalq səviyyədə turist axınlarını yaradan əsas turist bazarları aşağıdakılardır:

- Avropada: Mərkəzi Avropa və Şimali Avropa bazarları (Almaniya, Benilüks ölkələri, Böyük Britaniya, Fransa, Skandinaviya yarımadası ölkələri);
- Amerikada: Kanada və ABŞ;
- Asiyada: Yaponiya.

Turistləri qəbul edən əsas beynəlxalq bazarlara isə aşağıdakılar aiddir:

- Avropada: Aralıq dənizi ölkələri Avropa, Asiya və Afrika ölkələri; xüsusilə Avropa İttifaqı ölkələri arasında Avropadaxili mübadilə mühüm rol oynayır;
- Asiyada: Yaxın Şərq (İsrail, Misir, Türkiyə, İordaniya, Suriya); Indostan yarım adaları: Hindistan, Nepal; Cənub-Şərqi Asiya ölkələri: Tailand, Filippin, İndoneziya və s.;
- Amerikada: ABŞ, Meksika, Karib ölkələri, Peru və Braziliya;
- Afrikada: Məğrib ölkələri, Misir, Keniya, Hind okeanının adaları (Seyşel, Maldiv və Mavriki).

## 3. Nəticələr və müzakirə

### 3.1. Turizmin iqtisadiyyata verdiyi töhfələr

Ümumdünya turizm və səyahətlər təşkilatı turizm təşkilatlarının struktur xüsusiyyətlərini aşkar etmək üçün Ümumdünya Turizm Təşkilatı, Dünya Turizm və Səyahət Şurasının metodologiyası əsasında turizm sektorunun iqtisadiyyata verdiyi töhfələr: birbaşa, dolayı və fərdi təsir xarakterlərinə görə sistemləşdirilir [Kapustina, 2014: 35-43].

Turizmin iqtisadiyyata verdiyi birbaşa töhfələr birbaşa xidmət sferasında qeyd edilir ki, bu da turistlərə göstərilən xidmətin kəmiyyət və keyfiyyət göstəriciləri ilə əlaqəlidir. Turizmin ölkə iqtisadiyyatına verdiyi dolayı təsir isə bilavasitə geniş aspektli turizm və onunla əlaqəli müəssisələri əhatə edir ki, bunlar da ixtisaslaşdırılmış turizm müəssisələrinin fəaliyyətini və onlarda çalışan işçi personalı təmin edir. Qeyd edək ki, turizm sənayesi ölkənin ÜDM-da və xidmət sektorunda əlavə dəyərin yaradılmasını formalaşdırılmasına birbaşa töhfəsini verir. Əlavə müəssisələr və onunla əlaqəli müəssisələr nəzərə alındıqda isə bütün "turizm təsərrüfatı" kompleksinin dolayı və induksiya edilmiş gəlirlərini artırır.

Turizm sferasının ölkə iqtisadiyyatına verdiyi töhfəni daha geniş aydınlaşdırmaq üçün onun ümumdünya ÜDM-də xüsusi çəkisinə nəzər yetirək (şəkil 1).

İqtisadi subyektlər arasında rəqabətin mövcudluğu iri təsərrüfat fəaliyyətinə malik olan müəssisələrin getdikcə bazarda fəaliyyət göstərən kiçik müəssisələri sıxışdırmasına səbəb olur, bu müəssisələr bazarda hakim mövqe əldə edir, bu zaman bazarda yüksək yüksək xüsusi çəkiyə malik olan müəssisələr iqtisadi hakimiyyətdə hökmran müvqeyə malik olur və bazarı əllərində cəmləşdirir [Burak, 2016: 58-63]. Beləliklə, istehsal konsentrasiya ayrı-ayrı müəssisələrdə, müxtəlif sahələrdə və ölkələrdə çox qeyri-bərabər şəkildə baş verir. XIX-XX əsrlərdə böyük müəssisələrin üstünlük təşkil etdiyi maddi istehsal sahələrindən fərqli olaraq, bu proses turizmdə nisbətən yaxın müddətdə, yəni 1970-ci illərdə başlamışdır. Lakin turizmdə istehsal konsentrasiyası, turizm sənayesinin bütün sektorlarını əhatə etməklə çox sürətlə onun bütün aspektlərini əhatə etməyə başlamışdır.




**Şəkil 1.ÜDM-də turizm və səyahətlərin xüsusi çəkisi**
Mənbə:[25] əsasında müəllif tərtib etmişdir

Bir sıra tədqiqatlarda turizm və mehmanxana biznesinin mənzil, iaşə və içki müəssisələri, nəqliyyat xidmətləri, turizm agentlikləri, turizm şirkətləri, təbii və mədəni turistik kimi sektorlarda müxtəlif iş imkanları yaratdığı qənaətinə gəlimşisdir [Sintayehn and etc.: 2016, 7-9].

Belə ki, turistlərin yerləşdirilməsi (yaşaması) və ictimai iaşə (qidalanma) sahələrində müvafiq olaraq nəhəng mehmanxana və restoran zəncirlərini formalaşdırmışdır. Dünyanın aparıcı mehmanxana və restoran zəncirinə malik yerləşdirmə vasitələri və ictimai iaşə obyektlərinin tərkibində olan daşınmaz əmlakların sayı cədvəl 1-də verilmişdir.

Təhlil göstərir ki, dünyanın ən nəhəng aparıcı mehmanxana şirkətləri içərisində ilk beşlikdə Wyndham Otel və Kurortları (8941 daşınmaz əmlak obyekti), Beynəlxalq Marriott (7662 daşınmaz əmlak obyekti), Dünya Hotellər (7111 daşınmaz əmlak obyekti), Hilton (6619 daşınmaz əmlak obyekti) və İCH Otel və Kurortları (5959 daşınmaz əmlak obyekti) yer alır. Bu 15 aparıcı mehmanxana şirkətləri içərisində sonuncu beşlikdə (11-15 yerlərdə) yerləşmiş Westmont Hospitality Group - 736 daşınmaz əmlak obyekti, Red Roff

-668 daşınmaz əmlak obyekti, Extended Stey Mnenca - 653 daşınmaz əmlak obyekti, Highdate -366 daşınmaz əmlak obyekti və Apple Hospitality RPT - 232 daşınmaz əmlak obyektlərinə malikdir. Onu da qeyd edək ki, aparıcı mehmanxana şirkətləri üzrə sonda yerləşən Apple Hospitality RPT-nin daşınmaz əmlak obyektlərinin sayı Wyndham Otel və Kurortları ilə müqayisədə 38,5 dəfə və ya 8709 vahid çoxdur.

***Cədvəl 1***

**Aparıcı mehmanxana şirkətlərinin 2021-ci ilin sentyabrına olan daşınmaz əmlak obyektlərinin sayı, vahid**

| S/N | Dünyada ən nəhəng mehmanxana və restoran zəncirinə malik olan yerləşdirmə vasitələri və ictimai iaşə obyektləri | Ən nəhəng otel və kurortların tərkibində olan daşınmaz əmlakların sayı |
|---|---|---|
| 1 | Wyndham Otel və Kurortları | 8941 |
| 2 | Beynəlxalq Marriott | 7662 |
| 3 | Dünya Hotellər | 7111 |
| 4 | Hilton | 6619 |
| 5 | İCH Otel və Kurortları | 5959 |
| 6 | Best Western Otel və Kurortları | 4039 |
| 7 | Radisson Otel Group | 1615 |
| 8 | C6 Qonaqpərvərlik | 1393 |
| 9 | Aimbridge Hospitality | 1380 |
| 10 | Hayat Hotels Corporation | 1020 |
| 11 | Westmont Hospitality Group | 736 |
| 12 | Red Roff | 668 |
| 13 | Extended Stey Mnenca | 653 |
| 14 | Highdate | 366 |
| 15 | Apple Hospitality RPT | 232 |

Mənbə: [21] məlumatları əsasında müəllif tərtib etmişdir

### 3.2. Turizmdə rəqabət indeksi göstəriciləri

Dünya iqtisadi forumu hər il səyahət və turizmin rəqabət qabiliyyət indeksi üzrə 195 ölkənin reytinqini müəyyən edir. Ölkələrin reytinq sırasının müəyyənləşdirilməsində ümumi mənbələrin məlumatlar kombinasiyası, beynəlxalq informasiya təşkilatları, səyahət və turizm sferasının ekspertlərinin məlumatlarından istifadə edilir. Bu məlumatlar səyahət və turizm sektorunun təkmilləşdirilməsinə şərait yaratmağa çalışan dövlətlərin düzgün qərar qəbul etməsinə əlverişli şəraiti təmin edir. Təhlil prosesində məqalədə ən qabaqcıl ölkələrlə müqayisə (bençmarkinq) və dövlətlərarası reqressiv təhlil metodlarından istifadə edilmişdir.

Aparılmış təhlilin nəticələri göstərir ki, turizm sferasında rəqabət indeksinin orta göstəricisinə görə onluq lider ölkələr sırasında İspaniya, Fransa, Almaniya,Yaponiya, BB, ABŞ, Avstraliya, İsveçrə, İtaliya və Kanada (5,43-4,97 bal hüdudu) yer almışdır [28]. Son onluq ölkələr sırasında isə Burundi, Çad, Yəmən, Mavritaniya, Konqo DR, Serra-Leone, Mali, Nigeriya, Lesoto və Kamerun (2,88-2,44 bal hüdudu) yerləşmişdir. Keçmiş sövetlər ittifaqı ölkələri içərisində onluq ölkələr sırasında Estoniya, Rusiya, Latviya, Litviya, Azərbaycan, Gürcüstan, Qazaxstan, Ermənistan, Ukrayna, Qırğızıstan (4,23-5,31 bal hüdudu) yerləşmişdir. Səyahət və turizmin rəqabət qabiliyyəti indeksinə görə 195 ölkə

üzrə Azərbaycan 73-cü sırada yer almışdır.

Qeyd etmək lazımdır ki, ölkələr üzrə turizmin rəqabət qabiliyyətini əks etdirən 14 komponent əsasında aparılmış qiymətləndirilməməyə görə dünya üzrə turizm sferasında ən yaxşı istiqamətlərin hərtərəfli xəritəsini vermək mümkündür. Qiymətləndirmə göstəricilərindən biri turizm sferası infrastrukturunun ölkədə inkişafı hesab edilir ki, bu da ölkənin turistləri qarşılama və yerləşdirilmə vəziyyətinin nə dərəcədə yaxşı olmasını müəyyən edir, hər 100 nəfərə görə mehmanxana yerlərinin sayını, turizm infrastrukturunun miqdarını, eyni zamanda hər 1000 nəfər yaşlı əhaliyə düşən bankomatların sayını nəzərə alır [Roudi and etc, 2019:1280-1300].

2018-2020-ci illərdə dünya üzrə regionlarda beynəlxalq turist qəbulunun müqayisəli təhlili göstərir ki, 2018-ci ilə nisbətən 2019-cu ildə Avropa regionunda bu göstərici 30.3 milyon və ya 4.2% artmış, 2020-ci ildə isə 480.9 milyon və ya 67,2% azalma olmuşdur. Bu göstərici müvafiq olaraq 2019-cu ildə Asiya və Sakit Okeaniya regionunda 13.9 milyon və ya 4% artmış, 2020-ci ildə isə 289.4 milyon və ya 83.5% azalmışdır. Həmçinin Amerika regionunda beynəlxalq turist qəbulu müvafiq olaraq 2019-cu ildə 3.3 milyon artmış və 2020-ci ildə isə 146.3 milyon azalmışdır. Afrika regionunda bu göstərici müvafiq olaraq 2019-cu ildə 1.4 milyon artmış və 2020-ci ildə isə 50.5 milyon azalmışdır. Eyni zamanda həmin göstərici Yaxın Şərq regionunda 2019-cu ildə 5 milyon artmış, 2020-ci ildə 47.3 milyon azalmışdır. Bu göstərici üzrə ümumdünya üzrə 2019-cu ildə 0,053 milyon artım, 2020-ci ildə isə 47.3 milyon azalma müşahidə edilmişdir.

2020-ci ildə Asiya-Sakit Okean regionunda beynəlxalq səfərlərin sayı 83.5% azalmış, ötən illə müqayisədə təxminən 303.3 milyon az olmuşdur. Yaxın Şərq və Afrikada gələnlərin sayı 51.8 milyon və ya 74% azalmışdır. Avropaya gələnlərin sayı azalmış və 235.1 milyon təşkil etmişdir. Bu da 2018-ci ilin beynəlxalq turist qəbulu sayından 67.2% azdır. Ümumilikdə Şimali və Cənubi Amerikada beynəlxalq turistlərin qəbul edilmiş sayında 2018-ci ilə nisbətən 2020-ci ildə azalma 67.7% təşkil etmişdir. Regionlar üzrə 2018-ci ilə nisbətən 2020-ci ildə beynəlxalq turist qəbulunda 1015 milyon və ya 71.8% azalma olmuşdur (şəkli 2).




**Şəkil 2. Regionlar üzrə beynəlxalq turist qəbulu**

Mənbə:[21] məlumatları əsasında müəllif tərtib etmişdir

İşsizlik probleminin yumşaldılması zamanı (vətəndaşların xaricə axını ölkədə işsizliyin gərginliyini azaldır, əmək təklifini azaldır) müsbət nəticələrlə yanaşı, müəyyən regionlardan turistlərin axını ilə bağlı yarana biləcək mənfi nəticələr də nəzərə alınmalıdır. Belə ki, regionda işçi qüvvəsi kifayət sayda deyilsə, o turizm sənayesində, həmçinin kənd təsərrüfarında müəyyən durğunluğun yaranmasına təsir göstərə bilər. Kənd rayonlarından şəhər yerlərinə əhalinin miqrasiyası səhiyyə və maarifləndirmə kimi qeyri-istehsal sahələrinə yükü artıracaq. Həmçinin, turizm təsərrüfatına əlavə yatırımlara sərf olunan investisiya resursları lazım olan sahələrə yönəldilə bilməyəcəkdir.

Məsələn, Azərbaycana xarici turistlərin daxil olması ilə müqayisədə turistlərimizin xaricə getməsinin üstünlüyü ölkədəki valyuta vəsaitlərinin digər ölkələrin iqtisadiyyatına faktiki köçürülməsinə gətirib çıxarır. Statistik məlumatlar göstərir ki, xarici ölkələrə gedən yerli turistlərin sayı həddən çoxdur və bu iki göstəricinin nisbəti Azərbaycanda 2015-ci ildə 1:2.04 və 2020-ci ildə 1:1.46 hüdüdündə olmuşdur [2, s.20]. Onu da qeyd edək ki, turizm sferası iqtisadi sahələr içərisində öndə gedən inkişaf etmiş ölkələrdə bu göstəricilər 1:5 nisbətində olduqda həmin ölkə iqtisadiyyatının inkişafı üçün yararlı hesab edilir. Azərbaycanda getmə turizminin daha sürətli inkişafının qarşısını alan əsas amil əhalinin əsas hissəsinin pul gəlirlərinin alıcılıq qabiliyyətinin aşağı olmasıdır. Çünki dünyadakı son illərin böhranı, Rusiya ilə Ukrayna arasındakı hərbi münaqişə və pandemiyanın son dalğaları istər-istəməz əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyətinə mənfi təsir göstərmişdir. Əgər yaxın illərdə bu mənfi tendensiyanı dəyişmək və gəlirlərin artımını stimullaşdırmaq mümkün olarsa, ölkədə yerli əhalinin öz ərazilərimizdə turistik səyahətlərinin təşkilinə müsbət təsir göstərəcək və turizmin sürətli inkişafının əldə edilməsinə nail olunacaqdır.

Beləliklə, Azərbaycana xarici turistlərin girişinin ən mühüm təşkilati-iqtisadi problemlərini iki əsas məsələyə aid etmək olar. Bir tərəfdən, Azərbaycanda yaşayan əhalinin həyat səviyyəsi və rifahının yüksəlməsi ilə səyyar turizmin həcmi artacaq ki, bu da, şübhəsiz, ölkə istehlakçısının turxidmətlərin keyfiyyətinə tələbkarlığını artıracaqdır. Bu zaman isə həm xidmət standartının, həm də turizm xidmətlərinin qiymətlərinin səviyyəsinin tənzimlənməsinə ehtiyac duyulur. Digər tərəfdən, ölkəyə giriş turizmi valyuta daxilolmalarının mühüm mənbəyidir. Giriş turizminin həcminin azalması turistləri qəbul edən yerli firmalardan xarici ölkələrdən gələn turistlərdə ölkəmizə marağın olmamasının səbəblərini təhlil etməyi tələb edir. Bu baxımdan, fikrimizcə turizm, cəmiyyətin həyatının bu sahəsinin fundamental müəyyənləşdirilməsinin demək olar ki, bütün aspektləri üzrə ölkə iqtisadiyyatına təsir göstərir.

### 3.3. Turizmin məşğulluğa təsiri aspektləri

Beynəlxalq turizm bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün valyuta daxilolmalarının mühüm mənbəyinə çevrilmişdir [İsmayilov, 2017: 562-569]. Turizmin getdikcə daha çox ölkənin iqtisadi inkişafında artan əhəmiyyəti beynəlxalq turizmdən gələn daxilolmaların getdikcə artacağı ehtimalını təsdiqləyir. Ümumdünya turizm və səyahətlər Şurasının məlumatına görə, 2021-ci ildə dünya turizmində məşğul olanlar bütün iqtisadiyyat sahələrində məşğul olanların 9,9%-ni təşkil edir. Proqnozlar göstərir ki, 2022-ci ildə turizmdə işləyənlərin sayı dünyada məşğul olan əhalinin 10,2%-ni təşkil edəcəkdir.

2018-2019-cu illərdə ilk onluqda yer almış dünya ölkələri və Azərbaycanda turizm üçün xarakterik sahələrdə məşğul olanların sayının təhlili göstərir ki, yalnız Anqolada bu istiqamətdə məşğul olanların sayında 363 min nəfər artım olmuşdur. Lakin bu artımın olmasına baxmayaraq 2018-cu ildə həmin ölkənin reytinq sırası əvvəlki ilə nisbətən bir pillə geriləmiş və 11-ci sırada yer almışdır. Qeyd edək ki, müqayisə edilən ölkələr içəri-

sində turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında ən az azalma Belorusda (1000 nəfər), Çilidə (4000 nəfər) və Azərbaycanda (6000 nəfər) təşkil etmişdir.

Bu göstərici üzrə ən çox azalma reytinq sırasında ikinci yerdə duran Filippində - 349 min nəfər, İspaniyada-69 min nəfər, Yunanıstanda-27 min nəfər, Türkiyədə-21 min nəfər, Morokkoda-17 min nəfər və Əlcəzairdə-12 min nəfər olmuşdur. Həmçinin müqayisə edilən ölkələr içərisində 2018-ci ilə nisbətən məğşul olanların sayında azalma faizi Yunanıstanda 7,8%; Filippində-6,1%; Əlcəzairdə-3,8%; Morokkoda-3% və İspaniyada-2,6% təşkil etmişdir. Müqayisə edilən ölkələr sırasında ən az azalma faizi Belorusda-0%; Çilidə-0,9% və Türkiyədə-1,9% olmuşdur. Reytinq sırasında ən çox geriləmə Azərbaycanda olmuş və 2018-ci ildə olan reytindən (20-ci sıra) 2019-cu ildə 26-cı sıra aşağı enərək 46-cı sıraya düşmüş, Belorusda isə bu göstəricidə 14 sıra geriləmə olmuşdur.

Bizə elə gəlir ki, 2018-ci illə müqayisədə turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında 2019-cu ildə baş vermis azalmanı artıq həmin ölkələrdə başlamış pandemiya vəziyyəti ilə əlqaləndirmək olar (cədvəl 3).Həmçinin reytinq sırasında da 2018-ci ilə nisbətən 2019-cu ildə bütün qeyd edilən ölkələrdə geriləmə olmuşdur. Reytinq sırası üzrə gerilmə ən çox Azərbaycanda (26 sıra), Belorusda (14 sıra), Əlcəzair və Yunanıstanda (13 sıra) olmuşdur.

***Cədvəl 2***

**Turizmlə əlaqəli sahələrdə məşğul əhalinin sayı və bəzi ölkələrin reytinq sırası, min nəfər**

| Ölkələr | İllər | | | | 2018-ci ilə nisbətən 2019-cu ildə artım (+) və ya azalma (-) |
|---|---|---|---|---|---|
| | 2018 | Reytinq sırası | 2019 | Reytinq sırası | |
| Filippin | 5714 | 1 | 5365 | 2 | -6,1% |
| İspaniya | 2674 | 2 | 2605 | 4 | -2,6% |
| Türkiyə | 1600 | 3 | 1569 | 7 | -1,9% |
| Morokko | 565 | 4 | 548 | 13 | -3,0% |
| Çili | 442 | 5 | 438 | 15 | -0,9% |
| İndoneziya | 409 | 6 | 400 | 17 | -2,2% |
| Yunanıstan | 347 | 7 | 320 | 20 | -7,8% |
| Əlcəzair | 320 | 8 | 308 | 21 | -3,8% |
| Belorus | 243 | 9 | 242 | 23 | -0,4% |
| Anqola | 216 | 10 | 579 | 11 | +1,68 dəfə |
| … | … | | … | | … |
| Azərbaycan | 59 | 20 | 53 | 46 | -10,1% |

Mənbə: [ Employment in Tourism İndustries: 2018-2019] əsasında müəllif tərtib etmişdir

Azərbaycanda turizm üçün xarakterik sahələrdə məşğul olanların sayının müqayisəli təhlilinə əsasən qeyd edə bilərik ki, 2015-ci ilə nisbətən 2016-cı ildə 12,1%; 2017-ci ildə 5,3% və 2020-ci ildə 0,9% azalma olmuş, yalnız 2018-ci ildə 7,6% və 2019-cu ildə 19,2% artım olmuşdur. Fikrimizcə, 2015-ci ilə nisbətən 2018-2019-cu illərdə turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında bu artımın olması həmin illərdə ölkəyə səyahət edən beynəlxalq turistlərin sayının artımı və onlara xidmət edən personal tərkibinin artması ilə əlaqələndirilə bilər.

Dünya üzrə 2019-2021-ci illərdə turizm və səyahətlər sferasında yaradılmış iş yerlərinin sayının təhlili göstərir ki, 2019-cu ilin sonunda başlayan fövqəladə pandemiya şəraitinin təsirindən növbəti illərdə bu sferada iş yerlərinin sayında 2020-ci ildə 62 milyon

və ya 18,6%; 2021-ci ildə isə 44 milyon və ya 13,2% azalma olmuşdur (diaqram 1) [28].

Tədqiqat göstərir ki, turizm sferası əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli yerlərdən birini tutur. Bu da imkan verir ki, istənilən regionda turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri aşkar edilsin, yeni turməhsullar yaradılsın, turizm ehtiyatları dəqiq müəyyən edilsin və bu istiqamətdə hər bir regionun özünün inkişaf strategiyası əvvəlcədən tərtib edilə bilsin.




**Diaqram 1. 2019-2021-ci illərdə turizm və səyahətlər sferasında iş yerlərinin sayı**
Mənbə: [Sintayehn atc,2016: 12] məlumatları əsasında müəllif tərtib etmişdir

Dünya üzrə turizm və səyahətlər sferasında iş yerlərinin azalma tendensiyasının approksimasiya tənliyi (1) şəklində yazılır:

$$Y=-45.371\ln(x)+324.76 \quad (1)$$

(1) tənliyi turizm və səyahətlər sferasında yaradılan iş yerlərinin ədədi xüsusiyyətlərini və keyfiyyət xüsusiyyətlərini araşdırmağa imkan verir, tədqiq edilən məsələni daha sadə və ya daha rahat obyektlərin öyrənilməsinə istiqamətləndirir. Bu tənlik onu göstərir ki, dünya üzrə turizm və səyahətlər sferasının yaratdığı iş yerlərinin sayının nəzəri qiymətləri təcrübi qiymətlərə nisbətən yaxındır. Bu da həmin modelin adekvatlığını əks etdirir. Bundan əlavə, tədqiqatın nəticələri turizm və səyahətlər sferasının məşğulluğa təsiri arasında uzunmüddətli asimmetrik qarşılıqlı əlaqəni nəzərdə tutur.

**Nəticə**

Beynəlxalq turizm ölkələr üçün valyuta daxilolmalarının mühüm mənbəyinə çevrilməklə getdikcə daha çox ölkənin iqtisadi inkişafında əhəmiyyətini artırır və beynəlxalq turizmdən gələn daxilolmaların getdikcə artacağı ehtimalını təsdiqləyir. Son illərin böhranı, həmçinin Rusiya ilə Ukrayna arasındakı hərbi münaqişə və pandemiyanın son dalğaları istər-istəməz əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyətinə mənfi təsir göstərmişdir. Əgər yaxın illərdə bu mənfi tendensiyanı dəyişmək və gəlirlərin artımını stimullaşdırmaq mümkün olarsa, ölkədə yerli əhalinin öz ərazilərimizdə turistik səyahətlərinin təşkilinə müsbət təsir göstərəcək və turizmin sürətli inkişafının əldə edilməsinə nail olunacaqdır. Fikrimizcə, 2018-ci illə müqayisədə turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında 2019-2021-ci illərdə baş vermis azalmanı artıq həmin ölkələrdə başlamış

və hal-hazırda da müxtəlif dalğaları ilə davam edən pandemiya şəraiti ilə əlqaləndirmək olar.

Turizm və səyahətlər sferası əhalinin məşğulluğunun təmin edilməsində çox əhəmiyyətlidir. Bu da dünyanın müxtəlif regionunda turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri və yeni turməhsulun aşkar edilməsi və turizm ehtiyatlarının dəqiq müəyyən edilməsinə, həmçinin bu istiqamətdə onların inkişaf strategiyasının düzgün tərtib edilməsinə imkan yaradır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı. –Bakı, -2016, -98 s.
2. Azərbaycanda turizm. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.- Bakı, -2021, -99 s.
3. Балабанов И.Т., Балабанов А.И. Экономика Туризма. – М.: Финансы и статистика, 2015. – 210 с.
4. Бурак П.И., Зворыкина Т.И. Туризм в России больше, чем туризм/Стандарты и качество. – 2016. – № 2. – С. 58-63.
5. Джанджугазова Е. А. Маркетинг в индустрии гостеприимства — М.: Академия, 2016. – 250 с.
6. İsmayilov V.İ., Almasov N.N., Mirzayev S. The programme of reduction and profilling of long-term unemployment in Azerbaijan. The journal of economic sciences: theory and practice. -Baku, -2021, -Vol.78, -pp.40-65
7. İsmayilov, V. I.The main directions of formation of tourism-recreation complex in Azerbaijan // -Moskou: Journal Business Economics, -2017. issue 2, -pp. 562-569
8. Казыбайкызы А., Муханова А.Е., Смагулова Ж.Б. Особенности и перспективы развития туризма в мире // Успехи современного естествознания. – 2015. – № 1-2. – с. 265-269;
9. Каурова, А. Д. Организация сферы туризма: Учебное пособие / А. Д. Каурова. – М.; СПб.: Герда, 2004. – 317 с.
10. Капустина Л.М. Оценка конкурентоспособности России на мировом рынке туристских услуг / Л.М. Капустина, Н.Б.Изакова, В.В.Вязовская //-Москва: Известия Ур.ГУ, -2014, -с.35-43
11. Коблова А.А. Рекреационно-туристский комплекс как объект регионального управления / Сборник научных трудов СевКавГТУ. Серия «Экономика». 2018. №2. С.11
12. Константинова В.А., Мараховская Г.С. Сезонность туристского рынка и методы противостояния ей // Современные научные исследования и инновации, -2019, -№ 12, -с.1-8
13. Meo M.S., Chowdhury, M.A.F. et al. Asymmetric Impact of Oil Prices, Exchange Rate, and Inflation on Tourism Demand in Pakistan: New Evidence from Nonlinear ARDL // -Grinvij: Asia Pacific Journal of Tourism Research, -2018. Vol. 23, -iss. 4, -pp. 408–422. URL: Link
14. Олюнина, И.В., Сотрудничество Беларуси и России в подготовке кадров для туристической индустрии: проблемы и перспективы / И.В. Олюнина, Э.Л. Малиновская //-Минск: Международная конференция, -1 апреля 2016, -110 с.
15. Pereira Cr. Comfortable Experiences in Nature Accommodation: Perceived Service Quality in Glamping // Journal of Outdoor Recreation and Tourism, -2017, - Vol. 17, -pp.77-83
16. Савицкая Г.В. Анализ хозяйственной деятельности предприятия, Инфра-М, 2016. – 536 с.
17. Roudi, S., Arasli, H., Akadiri, S.S. New Insights into an Old Issue – Examining the Influence of Tourism on Economic Growth: Evidence from Selected Small Island Developing States // Las Vegas: Current Issues in Tourism, -2019. Vol. 22, -iss. 11, -pp. 1280–1300. URL: Link

18. Шарафанова Е.Е. Стратегическое планирование развития туристских организаций и гостиничных комплексов: монография / Е.Е. Шарафанова; Санкт-Петербургский государственный университет сервиса и экономики. – СПб., -2015. – 180 с.
19. Employment in Tourism İndustries. 2018-2019
20. Sintayehn A., Berhani F., Tesfaye S. Employment Opportunities and Challenges in Tourism and Hospitality Sektors. Journal of Tourism & Hospitality.-2016, -vol.05 (06), -12 p.
21. World tourism organization (unwto) statistics
22. https://az.wikipedia.org/wiki/Azrbaycanda_qeydiyyata_al1nmış_dünya_əhəmiyytli_memarlıq_abidlərinin_siyahısı
23. https://www.unwto.org/publications
24. https://www.wto.org/english/tratop_e/envir_e/unwto_barom21.pdf
25. Stattur.ru/statistics.php
26. https://gtmarket.ru/ratings/global-competitiveness-index/info
27. https://www.google.com/search?2018&aqs=chrome..69i57.69365j0j8&sourceid=chrome&ie=UTF-8
28. https://www.statista.com/statistics/1315727/investment-in-hotel-real-estate-in-france/
29. https://www.statista.com/statistics/1268465/number-of-travel-and-tourism-jobs-worldwide/

**Вилаят Исмайлов**

## АСПЕКТЫ ВЛИЯНИЯ МЕЖДУНАРОДНОГО ТУРИСТСКОГО ПОТОКА НА ЗАНЯТОСТЬ

***РЕЗЮМЕ***

В статье рассматривается влияние сезонности международных туристских потоков на распределение по регионам мира и выявление аспектов влияния сферы туризма и путешествий на уровень занятости в стране на основе сравнительного анализа различных стран. Раскрыты прямые и косвенный вклады туризма в экономику, отмечены основные туристские рынки, формирующие международные туристские потоки. Сфера туризма и путешествий очень важна для обеспечения занятости населения. Это позволяет выявить благоприятные туристские ресурсы и новый продукт для развития туризма в различных регионах мира, а также разработать стратегию развития туризма на уровне международных стандартов.

***Цель*** – выявление влияния сезонности международных туристских потоков на распределение по регионам мира и аспектов влияния сферы туризма на уровень занятости в стране.

***Методология*** – использованы методы сравнительного и статистического анализа.

***Результаты исследования*** – отмечены основные туристские рынки, формирующие международные туристские потоки, с раскрытием прямого, косвенного и индуцированного вклада туризма в экономику. Сфера туризма и путешествий продемонстрировала свою значимость в обеспечении занятости населения, что позволяет открывать благоприятные туристские ресурсы и новый продукт для развития туризма.

Значение исследования состоит в том, что полученные данные и результаты позволяют осознать значимость исследуемого вопроса и необходимость его изучения.

***Ключевые слова***: *международный туризм, регионы, распределение, население, занятость, обеспечение*

**Vilayat Ismayilov**

**ASPECTS OF THE IMPACT OF INTERNATIONAL TOURIST FLOW ON EMPLOYMENT**

***SUMMARY***

The article examines the influence of seasonality of international tourist flows on the distribution by regions of the world and identifies aspects of the impact of tourism and travel on the level of employment in the country based on a comparative analysis of different countries. The direct and indirect contributions of tourism to the economy are revealed, the main tourist markets that form international tourist flows are noted. The sphere of tourism and travel is very important for ensuring employment of the population. This makes it possible to identify favorable tourist resources and a new product for the development of tourism in various regions of the world, as well as to develop a tourism development strategy at the level of international standards.

***Purpose*:** The aim is to identify the influence of seasonality of international tourist flows on the distribution by regions of the world and aspects of the influence of tourism on the level of employment in the country.

***Methodology*** – methods of comparative and statistical analysis were used.

***The results of the study*** – the main tourist markets that form international tourist flows are marked, with the disclosure of the direct, indirect and induced contribution of tourism to the economy. The tourism and travel sector has demonstrated its importance in providing employment for the population, which allows opening favorable tourist resources and a new product for tourism development.

The significance of the study is that the data and results obtained allow us to realize the significance of the issue under study and the need to study it.

***Keywords:*** *international tourism, regions, distribution, population, employment, provision*

**UOT: 338.1; 330.34/.35; 338.26/.27; 338.12;330.34; 330.35**

**Əvəz Bayramov,**
Azərbaycan Dövlət İqtisad Universiteti, i.e.d., professor
*avazbayramov61@gmail.com*
**Vüqar Bayramov,**
AMEA İqtisadiyyat İnstitutu, Milli Aviasiya Akademiyası, i.ü.f.d., dosent
*bayramov.vuqar@gmail.com*

# ETNOİQTİSADİYYAT: MAHİYYƏT ÖZƏLLİKLƏRİ VƏ YENİLƏŞMƏ SPESIFIKASI

*Etnoiqtisadiyyat – sosio-iqtisadi hərəkəti spesifik dəyərlərlə yükləyən fenomenal yaranışdır. Əsas problem nəzəri-metodoloji dərketmənin adekvatlığı problemidir. Məqalədə etnoiqtisadiyyata nəzəri-konseptual yanaşmaların müxtəlifliyi, “Etnoiqtisadiyyat” anlayışına bir çox ölkələrin alimlərinin və tədqiqatçılarının yanaşması öz əksini tapmışdır. Bununla yanaşı məqalədə etnoiqtisadiyyatın yeniləşmə spesifikası və yeniləşməyə təsir edən amillər və səbəblər, habelə yeniləşmə sayəsində yaranmış formalar tədqiq olunmuşdur. Qloballaşma prosesinin də etnoiqtisadiyyata təsiri, “İqtisadi mərkəzçilik” ideologiyasının etnoiqtisadi proyeksiyası və etnoiqtisadiyyatla milli iqtisadiyyat arasında bağlılığın konseptual məzmunu məqalədə öz əksini tapmışdır.*

**Məqsəd** – etnoiqtisadiyyatın predmet müəyyənliyi, təzahürü və fəaliyyət konstruksiyasının konseptual məzmununun rasional sərhədlərini aşkarlamaqdan ibarətdir.

**Metodologiya** – bütünlüklə elmlərarası sintezə istinad edir.

**Tədqiqatın nəticələri** – etnoiqtisadiyyatın inteqral səciyyəli fenomenal yaranış kimi ümumcəmiyyət miqyasında keyfiyyət yeniləşməsinin fundamental xarakterli dəyişənlər kompleksində əlahiddə mövqe sərgilədiyini ortalığa qoyur.

***Açar sözlər****: etnoiqtisadiyyat, etnik spesifika, etnopsixologiya, milli iqtisadiyyat, yeniləşmə, qloballaşma, sivilizasiya*

## Giriş

Konkret bir ölkənin iqtisadi inkişaf problematikasından etnik amilin sırf-nəzər edilməsi, ki uzun tarixi dövr ərzində məhz bu cür mövqe sərgilənmişdir, kökündən yanlışdır. Və, çox ağır nəticələrlə sonuclanır. Məsələn, vaxtilə Osmanlı imperiyasının maliyyə-ticarət sferası etnik qrupların (yəhudi, yunan, erməni) nəzarətində olmasa idi, dövlət borcu astronomik səviyyəyə yüksəlməz və yekunda imperiya süquta uğramazdı, yaxud yıxılış prosesi o qədər qanlı və dağıdıcı olmazdı. Qeyd edilən prizmadan bu gün formalaşmış situasiya XX əsrin əvvəlləri ilə müqayisədə daha mürəkkəb və daha dayanıqsızdır.

Dayanıqlı iqtisadi inkişaf trayektoriyasına təməlli çıxışın baza şərtlərindən biri cəmiyyətdə sosio-mədəni identikliyin qərarlaşmasıdır. Söz yox ki, sosio-mədəni identiklik – cəmiyyət daxili ictimai münasibətlər sisteminin davranış tərzi ilə bağlılıqda olan, ondan törəyən yaranışdır. Və, münasibətlərin davranış tərzi bu gün, “iqtisadi mərkəzçilik” ideologiyasının hakimi-mütləq olduğu tarixi zaman kəsiyində, iqtisadiyyatın etnik spesifikasının mahiyyət özəlliklərindən funksional asılılıqdadır.

Iqtisadi fəaliyyət sferasında etnik spesifikaya etinasız (biganə) münasibət formal və qeyri formal institutlar arasında ziddiyyətli uyğunsuzluq yaradır. Müxtəlif ölkələrdə vaxtaşırı qəbul edilən strateji inkişaf proqramlarının reallaşmamasının (reallaşa bilməməsinin)

kökündə dayanan əsas səbəblərdən biri də budur. Qərb dünyasını da, eləcə də Asiyanın/Şərqin inkişaf etmiş ölkələrində problemin aktuallıq dərəcəsi hiss edilməyəcək səviyyədə aşağıdır: Almaniyada alınan identikliyi, Böyük Britaniyada ingilis, Yaponiyada yapon identikliyi çox möhkəm təməllər üzərində qərarlaşmışdır. Bu ölkələrdə etnik spesifika – "yeganədir"...

Polietnik cəmiyyətlərdə olduğu kimi, etnik müxtəliflik mövcud deyildir. Digər tərəfdən, sözügedən ölkələr qrupunun həyata keçirdiyi iqtisadi siyasət həmin identikliyin dəyərlər kompleksinə istinad edir: həmin identikliyə xas olan iqtisadi mədəniyyətə və milli təfəkkür tərzinə sahibdirlər. Eyni zamanda Qərb dünyası anqlo-sakson dəyərlər sisteminin qloballaşması yönümündə intensiv fəaliyyəti bu gün də davam etdirməkdir. Dünyanın yerdə qalan ölkələrində isə problemin aktuallıq dərəcəsi yüksək səviyyədə qalmaqdadır.

Buna görə də, problemlə bağlı mövcud yanaşma müxtəlifliyinin araşdırılması və spekulyativ baxışlardan uzaq olan konseptual qiymətləndirmənin həyata keçirilməsinin həm nəzəri, həm də praqmatik anlamda mühüm əhəmiyyəti vardır.

**Etnoiqtisadiyyat: nəzəri-konseptual yanaşmalarda müxtəlifliyin semantikası**

Etnoiqtisadiyyat – iqtisadi gerçəkliyin fenomenal yaranışı, iqtisadi münasibətlər sisteminin effektivlik dərəcəsinə birbaşa təsir göstərmək gücündə olan etnik əlahiddələşmədir.

Sosio-iqtisadi və sosio-mədəni sferaların (ikincinin üstünlüyü bazasında) culğalaşmasından yaranan etnoiqtisadiyyat – təkcə iqtisadi deyil, digər elmlərin də tədqiqat obyekti kimi çıxış edir.

Etnoiqtisadiyyat – iqtisadi olduğu qədər də sosio-mədəni məzmunludur. Buna görə də, fenomenin gerçək mahiyyəti elmlərarası sintezlə açıqlana bilər (bax: şəkil 1). Və, təbiidir ki yanaşma müxtəlifliyinin kökündə dayanan şey etnoiqtisadiyyatın predmet müəyyənliyinin fərqli məzmunda təsviridir. Məsələn, kulturoloji yanaşma etnoiqtisadiyyatı – universal və fərdi/individual olanların çulğalaşmasının yeni səviyyəsi kimi xarakterizə edir. Təsbit doğrudur. Həqiqətən də, etnoiqtisadiyyat – etnik əlahiddələşmənin yeni səviyyəsidir. Qədim tarixi kökləri yoxdur. Problem keyfiyyətində aktuallaşması, son 40 il ərzində müşahidə edilməkdədir. Lakin, kulturoloji yanaşma universallıq və fərdiliyi, həm iqtisadi, həm də mədəni kontekstində eyni məzmunlu anlayışlar kimi qəbul edir. Hesab edirik ki, bu cür eyniləşdirmə çabası, fenomenin kuluroloji məzmununda konseptual yetərsizlik doğurur.
Sübut etnəyə lüzüm yoxdur ki, mədəni kontekstdə universal hesab olunan dəyər iqtisadi anlamda universal olmaya bilər və əksinə. Yaxud etnoiqtisadi əlahiddəliklə etnomədəni əlahiddəlik eyniyyətdə deyildir. İqtisadiyyat – daima dəyişilmə, yeniləşmə prosesindədir, daima dinamikadadır. Etnomədəni spesifika dəyişikliyin qarşısını almır və alma imkanında da deyildir. O, yalnız dəyişikliyi "özünə oxşatmağa", onun mahiyyətcə "etnikləşməsinə" çalışır... və əksər hallarda da öz istəyinə nail olur, ya da tam yaxud qismən "mənasızlaşdırır". Amma, bütün bunlar etnoiqtisadiyyatın mədəniyyət fenomeni olduğu gerçəkliyini inkar etmir. Etnoiqtisadiyyatın predmet müəyyənliyini yeniləşmə kimi səciyyələndirən koqnitiv yanaşma isə prosesi gerçəkləşdirən impulsların qeyri-müəyyən çoxluqların identifikasiyasına istinad edir. Məlumdur ki, "qeyri-müəyyən çoxluğun" təbiətini nə verifikasiya, nə də falsifikasiya yolu ilə aşkarlamaq imkanı yoxdur. Qeyri-müəyyən çoxluq – ölçü proseduru olmayan bir çoxluqdur. Bu o deməkdir ki, sözügedən identifikasiyanın yaradacağı yeniliyin məzmununu yalnız proses başa çatdıqdan sonra, nəticədə görmək mümkündür. Sırf nəzəri prizmadan koqnitiv yanaşma kulturoloji baxışın ziddiyətli məqamlarını şəhr etmə baxımından yararlıdır. Lakin, bu qəbildən olan "cütləşmənin" praqmatik faydası varmı? Sualının da birmənalı cavabı yoxdur.

Mühafizəkar-ənənəvi yanaşma isə modernist paradiqmanın təməl nüddəalarına

istinadla etnoiqtisadiyyatı təsərrüfat tiplərinin (ənənəvi → industrial → postindustrial) hər birində mövcud olan sabit konstruktsiya kimi səciyyələndirir. Və, tip dəyişikliyi prosesinə adekvat şəkildə yeniləşdiyi inamını ortaya qoyur. Amma, məlumdur ki, ənənəvi təsərrüfat tipində etnoiqtisadiyyat tipli sistemli əlahiddələşmə mövcud olmamışdır. Digər tərəfdən, əgər tip dəyişkənliyi mütləq səciyyə daşıyırsa, onda Saxaradan cənubda yerləşən ölkələrdə nədən müşahidə edilmir? Bu ölkələr – tarixi xronoloji prizmadan – hələ XVI əsrə gəlib çatmamışlar. Yaxud, dünyanın bir çox regionlarında hələ də barbarlıq dövründə yaşayan toplumların/tayfaların mövcudluğunu necə əsaslandırmaq olar? Zamanca düzxətli yüksəlişə mütləqlik anlamı verən modernist paraqdiqmanın böhranı da göstərir ki, sözügedən yanaşma ilə tarixi gerçəklik arasında məntiqi uçurum mövcuddur.




**Şəkil 1. Etnoiqtisadiyyat anlayışına nəzəri baxışlar**

Etnoiqtisadiyyata ənənəvi baxış daha çox və başlıca olaraq rus tədqiqatçıların əsərlərində rast gəlinir. Məlumdur ki, Rusiya – etnik müxtəlifliyin ən qabarıq şəkildə mövcud olduğu bir ölkədir. Həm də, sözügedən müxtəlifliyin əsasında miqrant axınları dayanmır (Avropada olduğu kimi). Rusiyanın tərkibindəki etnoslar/millətlər öz tarixi torpaqlarında yaşayırlar. Və, nədən bu ölkədə etnoiqtisadiyyatı tarixi geriliyin nümunəsi kimi təqdim etməyə çalışırlar? – yəqin ki, əlavə şərhə lüzum yoxdur.

Beləliklə rus tədqiqatçılarının böyük bir qrupu etnoiqtisadiyyatın spesifikasını birmənalı olaraq “keçmişlə”, ənənəvi-natural təsərrüfat tipi ilə əlaqələndirirlər (şəkil 2).

Sxemdən göründüyü kimi, natural təsərrüfat tipi – qapalılıq (ev təsərrüfatlarının) və qarşılıqlı əlaqələrin yoxluğu bazasında etnoiqtisadiyyat tipli etnik əlahiddələşdirmə yarada bilirmiş. Amma qarşılıqlı əlaqələrin olmadığı bir şəraitdə etnik əlahiddələşdirmə necə baş verə bilərdi sualının üstündən sükutla keçilir. Natural təsərrüfat tipinin hakim olduğu məkanda iqtisadiyyatın sistem bütövlüyü yarana bilməz və yaranmır da! Bütövlük olmayanda etnik əlahiddələşmə də baş vermir. Natural təsərrüfat tipi – primitiv – ibtidai xarakterli olmaqla, hamı və hər kəs üçün eyniyyətdədir.




**Şəkil 2. Etnoiqtisadiyyatın spesifik məzmununun rus versiyası, [2]**

Qarşılıqlı münasibətlər sisteminin yoxluğu şəraitində hansısa bir forma məzmunda, o cümlədən etnik müstəvidə əlahiddələşmə mümkün deyildir. Bir sözlə, etnoiqtisadiyyatı yaradan - bazardır.

Etnoiqtisadiyyatın predmet müəyyənliyi nöqteyi-nəzərindən sinergetik yanaşma, digərləri ilə müqayisədə, daha çox konseptuallıq mövqeyindən çıxış edir. Həqiqətən də, sosio-mədəni dəyərlərlə sosio-iqtisadi sfera və texnoloji bazis arasında qarşılıqlı təsirin mahiyyət açıqlanması etnoiqtisadi əlahiddələşmənin təbiətini sistemli şəkildə anlamaq imkanı yaradır. Bu yanaşma, həmçinin ekoloji baxışın 4-lük (insan→sosium→təbiət→iqtisadiyyat) arasında harmoniya yaratma ehtimalını gerçəkləşdirə bilər. Amma...məlumdur ki, sinergetikanın əsas qanunu – termodinamikanın ikinci qanunu – “naməlumlar” və “qeyri-müəyyənlərlə” işləyir. Sistemdaxili entropiyanın yüksəlişi və bifurkasiya prosesi sosio-iqtisadi sistemi “sərhəd situasiyasına” çıxarır. Paradoks ondadır ki, sözügedən “çıxarma” prosesinin ölçü proseduru yoxdur, həmçinin “sərhəd situasiyasına” çıxmış sistemin yeni keyfiyyət səviyyəsinə keçidi baş tutacaqmı, yoxsa elə “sərhəddə” ilişib qalacaq, yaxud “hibridləşəcəkmi” suallarının əsaslandırılmış cavabı mövcud deyildir. İnkişaf etməkdə olan ölkələrin böyük qismində məhz qeyd etdiyimiz “hibrid” təsərrüfat tipi qərarlaşmışdır. Həm də, bu etnik spesifikaya biganə münasibətdən qaynaqlanan nəticədir.

“Hibrid”lik – sosio-iqtisadi sistemin keyfiyyət yüksəlişi potensialına məhvedici

təsir göstərir. “Hibrid”lik – anklavçılığın (həm də, etnik) “kütləviləşməsində” müstəsna rol oynayır. “Hibrid”lik – geriyə dönüşü mümkünsüz olan, lakin “geridə qalanların” bir hissəsini yaşatmaqda davam edən və irəliyə (sistemin tam şəkildə yeniləşməsinə) hərəkətin “qorxu” yaratdığı bir bataqlıqdır. “Hibrid” təsərrüfat tipində daha yüksək keyfiyyət səviyyəsində olan tipin atributları “köhnənin” süzgəcindən keçirilməklə tətbiq olunur ki, bu da özünü aldanışdan qeyri bir məna daşımır. Məhz buna görə də, “hibrid” təsərrüfat tipi – mahiyyətcə “bataqlıqdır”.

Bu halda eyni effektlə üzləşirik: irəliyə hərəkətin “qorxu” yaratması, və bataqlıqda çabalayanın daha dərinə batmasının doğurduğu “qorxu” – eyni “qorxudur”. Eyni zamanda, gerçəkliyi olduğu kimi anlayan hökümətlərin epizodik, fraqmental xarakterli subyektiv müdaxiləsi – hissediləcək dəyişikliklərə gətirib çıxarmır, etnik əlahiddələşmə daha da güclənir və sosiumun daha yaxşı gələcəyə olan inamı sarsılır.

Etnoiqtisadiyyata sivilizasiya paradiqması çərçivəsində yanaşma – qlobal tarixi inkişaf kontekstində formalaşmış elmi baxışdır. Hesab edirik ki, ümumbəşəri tarixi inkişaf prosesinin mahiyyət çalarlarına istinadla sivilizasiyanı – mədəni-iqtisadi kontinium anlamında konkret məzmunlu “dünya” kimi qəbul etmək daha düzgün yanaşma olaraq qəbul edilməlidir. Elə bir “dünya “ ki, öz ideyası, özünəməxsus həyat tərzi, arzu və istəkləri, hətta özünəməxsus ölümü ilə səciyyələnsin [6].

Doğrudur, sivilizasiya - yanaşma tərzlərinin ifrat müxtəlifliyi üzündən elmi dərketmədə problemli situasiyalardan xilas ola bilmir. Eyni zamanda, etnos → millət → sivilizasiya üçlüyünün iç-içə olduğu gerçəkliyi də inkar edilmir. Əksər milli varlıqların sivilizasiya mənsubiyyəti tarixi gerçəklikdir. Bizim fikrimizcə, hansısa milli/etnik iqtisadiyyatın hansısa sivilizasiyaya mənsubluğunu konkret olaraq aşağıdakı formulla müəyyənləşdirmək olar:

$$M_s = \text{Paradiqma/Empirik konstruksiya}$$

Amma, bu halda da dərketmə diskomfortu (gerçəkliyin adekvat təsviri aspektindən) aradan qalxmır. Məsələn, Azərbaycanla bağlı situasiyanın birmənalılıq problemi mövcuddur.

Azərbaycanın sovet-sosialist keçmişi bu yönümdə birmənalı olaraq, mənfi rol oynamışdır: “...SSRİ-də mövcud olan siyasi iqtisadın marksist məktəbi iqtisadi təhlilin psixoloji aspektlərini antielmi subyektivizm hesab edirdi” [3]. “Sovet adamı” tipli mutantı formalaşdırmağa çalışan bir sistemdə, zatən başqa cür yanaşma da ola bilməzdi. “Kommunizm” cəmiyyəti qurmağa cəhd edən bir toplumda davranışın fərqli psixoloji aspektlərinin mövcudluğu – mümkünsüz bir şeydir.

Ümumiyyətlə, müxtəlif məzmunlu tarixi “miraslara” rəğmən iqtisadi fəaliyyətin, ələlxüsus iqtisadi davranışın etnopsixoloji spesifikası yalnız XX əsrin sonunda diqqət mərkəzinə gəlmişdir. Ortodoksal təfəkkürün güclü pressinqinə baxmayaraq, iqtisadi davranışın psixoloji “tutumunu” görməməzlikdən gəlmə - gerçəkliyin inkarı anlamını daşımağa başlamışdır. Modernist paradiqmanın böhranı ilə başlanan proses bu tipdə olan bir çox “gizlinlərin” aşkara çıxmasında əhəmiyyətli rol oynadı. Sovet mutantizmindən müasir rus mərkəzçiliyinə keçid sivilizasiya mənfsubiyyətliliyi problemini daha da kəskinləşdirdi.

Rus yaxud postsovet avrasiyası “dünyası” – daha çox keçmiş zamanla “yaşayır”. Rus mərkəzçiliyinin sistemli böhranı fonunda sözügedən çoğrafiyanı “qloballaşan zona” keyfiyyətində təqdim etmək reallıqdan çox uzaq olardı. Coğrafi aspektdən parçalanma prosesini dayandırmaq məqsədi ilə Rusiyanın rəhbərliyi ilə son 30 ildə aparılan inteqrasiya prosesləri də tarixi bütövlüyü qorumaqda acizdir. Ümumi şəkildə götürsək, postsovet avrasiyasında gedən inteqrasiya təşəbbüsləri – ilkin başlanğıcdan ziddiyətli tənasüblüklərlə

əhatə olunur.

İmperiya və sovet keşmişinin təməl “müddəalarından” çıxış etməklə postsovet coğrafiyasında aparılan inteqrasiya proseslərinin əsas problemi əslində mahiyyət problemidir: 1990-cı illərdən başlayaraq növbəli ardıcıllıqla yaradılan inteqrasiya blokları (MDB, Gİ, AİƏT, Aİ və s.) nəyin birliyidir: dəyərlərin? mənafelərin? yoxsa məqsəd ümumiliyin? Bunların heç biri deyil! Digər tərəfdən, “işğal zona”larının – Gürcüstanın iki muxtar respublikası, Moldovanın Dnestryanı bölgəsi, Ukraynanın şərqi və Krım yarımadası, Qarabağ (Azərbaycan) problemi – mövcudluğunu birlik yaradan proses kimi qəbul etmək mümkünmü?

Digər tərəfdən, “Rus” dünyasının mental modelində ziddiyyətlərin daha da kəskinləşməsi müşaiət olunmaqdadır. Məsələn, Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətləri həm islam, həm də türk dünyasına üzvi surətdə bağlıdırlar. Bu ölkələrin sivilizasiya mənsubluğu, mental-mənəvi identifikasiyası prosesində artıq türk elementi ön plana çıxmışdır. Bu anlamda sivilizasiya mənsubluğunun sərhəd probleminin qeyri-müəyyənliyi tədricən aradan qalxmaqla, entropiyanın dərəcəsi yüksəlməkdədir. Ölkənin sivilizasiya mənsubiyyəti yaxud bizim terminologiya ilə - müxtəlif “dünya”lardan birinə aidliyi – sistemli səciyyə daşımaqla, “yarımçıqlığı” qəbul etmir. Yəni, yalnız öz sərhədləri olan “nə isə” – onun özüdür (V.Hegel). Bu tezis hətta rəqəmsal paradiqma üçün də keçərlidir.

Göründüyü kimi, “Rus” dünyası yaxud Avrasiya dünyasının rusmərkəzçiliyi versiyası, sözün bütün mənalarında iflasa uğramışdır. Bəşəriyyətin bu günü və gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən avrasiyaçılıq ideyasının yeganə xilas yolu – türmərkəzçiliyin mərkəzi konstruksiya keyfiyyətində qəbulundan keçir.

Avrasiyaçılıq – rus mənşəli ideyadır. Avrasiyaçılığın – Türkiyə-mərkəzçiliyi, rus yanaşması ilə müqayisədə daha gerçək məzmun daşıyır. Avrasiyaçı yanaşma – neoliberal qloballaşmadan əsaslı surətdə fərqlənir:

1) milli varlığın mühafizəsi və inkişafı; milli müxtəlifliyin (sözügedən coğrafiyada) yaşam haqqının qorunması, qarşılıqlı münasibətlərin bərabərhüquqluluq bazasında formalaşması; Qərb mərkəzçiliyin inkarı;
2) Amerikan praqmatizminin sintetikliklə əvəz olunması;
3) qloballaşmanın neoliberal paradiqmasından imtina; Fərqli ssenarilərin dövriyyəyə buraxılması; Məsələn, “Qloballaşmış zona”ların yaradılması; Başqa sözlə bizim müxtəlif “dünya”lar adlandırdığımız geososiumların və makrocoğrafi məkanların formalaşması.

Başqa sözlə, neoliberal paradiqma və onun “yeganə” inkişaf yoluna alternativ ola biləcək strateji yönümlülükdən söhbət gedir.

**“Etnoiqtisadiyyat” anlayışı...**

Rus tədqiqatçıların etnoiqtisadiyyat anlayışına yanaşma müxtəlifliyi, demək olar ki, sərhədsizdir.

Etnoiqtisadiyyat:

- Etnosların təsərrüfat ukladı bazasında tarixi aspektdən ərazicə lokallaşmış iqtisadi seqmenti; ənənəvi təsərrüfat tipinə aid olan iqtisadi yaranışdır [9].
- Etnik faktorlarla təsərrüfat ukladının tipi arasında qarşılıqlı əlaqələri öyrənən elmi istiqamətdir. [1]
- Etnik və formasiya komponentinin təsiri altında formalaşmış təsərrüfat sistemidir [7].
- İlk növbədə etnik faktorun hesabına fəaliyyət göstərən ictimai təkrar istehsalın nisbi müstəqil sferasıdır [5].
- Etnomilli komponentlərin postindustrial atributlarla üzvi simbiozu – neoiqtisa-

diyyata keçid prosesidir [8].

- Etnosların ətraf mühitə uyğunlaşmasının təmərgüzləşmiş ifadəsidir [7].
- Millətlərin postindustrial erada inkişafını öyrənən iqtisad elmidir [4].

Bu qəbildən olan deyimlərin sayı kifayət qədər çoxdur. Ümumiyyətlə, anlayışa yanaşma arealı, yuxarıda da qeyd etdiyimiz kimi, sərhədsizliyi ilə nəzər-diqqəti cəlb edir. Sanki söhbət spekulyativ diskursun “nələrə qadir olduğunu” aşkarlamaqdan gedir. Yanaşma müxtəlifliyi qeyri-səlis çoxluq formasında təzahür edir: eyni anlayışın - ənənəvi təsərrüfat tipindən tutmuş postindustrial iqtisadi sistemə qədər əksər tarixi dövrlərdə eyni məzmun daşıdığını necə təsbit etmək olar?

Məlumdur ki, bəşər tarixində ən uzun tarixi dövr ənənəvi təsərrüfat tipinə aiddir: neolit inqilabından bizim eranın XVI əsrinə qədər olan tarixi inkişaf mərhələsindən söhbət gedir. Və, bu dövr ərzində sözügedən fərqliliyin yalnız iki təzahürünə rast gəlinir: Asiya və antik təsərrüfat üsulu. Yəni, eyni təsərrüfat tipinin Şərq-Qərb müxtəlifliyi; Həmçinin, sözügedən müxtəliflik mahiyyət deyil, fəaliyyət konstruksiyasının komponentləri bazasında formalaşmış və heç bir halda etnik məzmun daşımamışdır. Etnik amilin meydana çıxdığı dövr protestant inqilabının baş verdiyi (1514-katolik kilsəsindən ayrılması) dövrdən sonrakı mərhələdə olmuşdur. Kütlənin milliləşməsi prosesi də məhz bu dövrə təsadüf edir. Sırf iqtisadi anlamda baş verən “sosiallaşma” – dinimərkəzçilikdən (milli fərqlər inkar olunur) antropomərkəzçiliyə (milli-etnik komponentin aktuallaşması) keçidlə fərqli konseptual məzmunluluq ortalığa qoydu. “İqtisadi mərkəzçilik” ideologiyasının qərarlaşması ilə qeyd etdiyimiz müxtəliflik – yeni məzmunlu müxtəlifliklər doğurmaqla milli-etnik spesifikanı dominant mövqeyə yüksəltdi. Bu gerçəklik, yəni ortodoksların iqtisadiyyata münasibətdə sərgilədikləri universallıq anlayışının real məzmundan xaliliyi – XIX əsrin ikinci yarısında (Alman tarixi məktəbi) bütün çılpaqlığı ilə ortaya qoyuldu. Sözügedən gerçəkliyin aktuallaşması isə yalnız XX əsrin sonunda baş verdi. Ortodoks universallığın özünü aldanış xarakteri daşıdığı bütün təfərrüatı ilə dərkedilməyə başlandı: Eyni nəzəri müddəalara istinadla qurulan iqtisadi konstruksiyalar müxtəlif ölkələrdə müxtəlif – fərqli davranış tipləri və nəticələr doğurdu. Və bütün bu müxtəlifləri yaradan şey – milli-etnik dəyərlər sistemidir. Ortodoksların mütləq həqiqət kimi təqdim etdikləri universal anlayışlar (bazar, rəqabət, fayda və s.) konkret toplumun (oxu:etnosun, millətin) qeyri-formal institutlarının “süzgəcindən” keçməklə “özününküləşdirilir”. “Özününküləşdirmə” prosesi müxtəlif milli toplumlarda müxtəlif konfiqurasiyalı münasibətlər sistemi doğurur. Məsələn, iqtisadi prosesin spontan tənzimləyicisi kimi qəbul edilən bazar institutu ölkələr bölümündə fərqli məzmunlu konstruktsiya kimi meydana çıxır. Yəni, hansısa bir formada (deklarativ yanaşma istisna olmaqla) eyniyyətdən danışmaq mümkün deyildir: Azərbaycan bazarı ilə Almaniya (Fransa, İtaliya və s.) bazarı fərqli bazarlardır. Almaniya bazarında effekt verə biləcək yenilik Azərbaycan bazarında əks-nəticə ilə yekunlaşa bilər. Ona görə ki:

1. İnkişaf səviyyələri arasında dərin uçurum mövcuddur. Tarixi-xronoloji aspektdən gerilik 50-70 il civarındadır. Yüksək keyfiyyət səviyyəsinə yüksəlmiş cəmiyyət üçün faydalı ola biləcək yeniliklər aşağı keyfiyyət səviyyəli cəmiyyətlər üçün keşərli deyildir. Və, bu prinsipcə mümkünsüz olanlar sırasındadır.
2. Cəmiyyət və təsərrüfat tiplərinin müxtəlifliyi, yəni, birgə yaşayış qaydaları və davranış (təkcə iqtisadi yox) tipləri arasında kəskin fərqlərin mövcudluğu.
3. Birgə yaşayış qaydalarını məna ilə yükləyən milli-etnik dəyərlər sisteminin spesifik özəllikləri və s.

Beləliklə, inkişaf etmiş ölkələrin təcrübəsindən yararlanmaqla etnoiqtisadiyyatı həmin

yüksəkliyə qaldırmaq mümkündür, yaxud yenidən velosiped icad etməyə ehtiyac yoxdur, qurmaq istədiyimiz “gələcək” qonşuluğumuzdadır, onların “ləpiri” ilə getmək yetərlidir tipli qənaətlər gerçəkliyin yalnış təsvirindən doğan təsbitlərdir. Əslində isə - bunu dünya ölkələrinin inkişaf təcrübəsi də təsdiq edir – hər bir “etnoiqtisadiyyatın” özünəxas və özünün icad etdiyi “velosipedi” olmalıdır. “Kirayəyə” götürülmüş “velosipedlə” uzun məsafəni qət etmək mümkün deyildir. Göründüyü kimi, fenomenin konseptual məzmunluluğu kontekstində rus tədqiqatçılarının ifrat geniş diapazonlu yanaşma məntiqi ən səthi elmi tənqidə belə dözmür.

**Yeniləşmə spesifikası**

Etnoiqtisadiyyat – konkret etnosa (oxu: millətə) məxsus spesifik dəyərlərlə “yüklənmiş” iqtisadi konstruktsiyadır. Həmin dəyərlərin praqmatik müstəvidə realizasiyasının doğurduğu lokallaşmadır. Yaranışı qanunauyğun səciyyə daşıyır və obyektiv xarakterlidir.

Etnoiqtisadiyyat – “qan eyniliyi” (oxu: milli mənsubiyyət) qrupunun formalaşdırdığı əlahiddələşmədir. Yəni, yabançı qarışığı yoxdur, etnik stereotiplər və etnik psixologiyanın spesifikası ilə determinə olunmuş “xalis” yaranışdır. Iqtisadiyyatın əsas ölçü proseduru – kəmiyyətcə qiymətləndirmə mümkün deyildir. Məhz bu aspekt fenomenlə bağlı qiymətləndirmənin birmənalılığına nail olmaq imkanı vermir. Bu aspekt, eyni zamanda, yeniliyə meylilik, yeniliyə açıqlıq dərəcəsi ilə əlaqədar da keçərlidir.

Etnoiqtisadiyyat – etnik “qapalılıq” anlamını daşımır. Təkamül prosesi yeniləşmə üzərində bərqərardır. Yəni, iqtisadi həyatda – dəyər tutumundan asılı olmayaraq – hər şey yeniləşməyə məruz qalır. Amma, sözügedən yeniləşmənin tezlik dərəcəsi və zaman surəsi müxtəlif etnoiqtisadiyyatlarda müxtəlif olur. Digər bir problemli situasiya yeniləşmənin təbiətilə əlaqədardır: sosio-iqtisadi prosesin daxili məntiqi ilə baş verən və qaçılmaz xarakter daşıyan yeniləşmə ilə subyektiv müdaxilənin həyata keçirməyə çalışdığı yeniləşmə fərqli yeniləşmələrdir. Ikinci halda-yeniləşmə daha çox imitasiya səciyyəli olur.

Əvvəlki araşdırmalarımızda da qeyd etdiyimiz kimi, məhz bu anlamda inkişaf mərhələlərinin üstündən “sıçramaqla” keçmək həm mümkünsüz, həm də mənasızdır. Yeniləşmə, keyfiyyət yüksəlişi prosesi (oxu: inkişaf) mərhələli struktura malikdir. Yeniləşmə - birdəfəlik akt deyil! Başlanğıcı məlumdur, sonu yox! Etnoiqtisadiyyatın yeniləşmə meylliyi yeni yaranışın yaxud yaranmaqda olanın etnopsixologiyaya uyğunluq dərəcəsi ilə səbəbiyyət bağlılığındadır. Əlbəttə də ki, sözügedən bağlılığı mütləq mənada anlamaq olmaz. yəni, heç bir halda mütləq “qapalılıqdan” söhbət gedə bilməz. Etnoiqtisadiyyatın – özünəxas dəyərlərlə “çəpərlənmiş” mühafizə zolağında, çoxsaylı ekzogen amillərin təsiri altında müəyyən dəyişikliklər baş verir. Amma, bu qəbildən olan dəyişiklikləri keyfiyyət yüksəlişi səciyyəsi daşıyan yeniləşmə kimi tövsif edilməsi mümkün deyildir. Bu halda etnik davranış tipi və bütövlükdə etnik spesifikanın mahiyyətində keyfiyyət yeniləşməsi prizmasından dəyişiklik baş vermir. Yəni, mühafizə zolağında müşahidə edilən dəyişikliklər – geri dönüşlü və qısamüddətli dəyişikliklərdir: hansısa bir qanunauyğunluğa tabe deyil və yeni məzmunlu səbəbiyyət, o cümlədən struktur və funksional bağlılıqlar yaratmır. Bir sözlə, mühafizə zolağında baş verən qısamüddətli dəyişikliklər – effektiv “gələcək” quruculuğu nöqteyi-nəzərindən mənasız dəyişikliklərdir. Və, bu anlamda birdəfəlik və qəti olaraq dərk edilməlidir ki, arzuedilən “gələcək” – öz-özünə, yaxud neoliberal spontanlığın dəstəyi ilə gələ bilməz!

**Etnoiqtisadiyyat qloballaşma prosesində: etnik spesifika qloballaşa bilərmi?**

Son 50 il ərzində dünya iqtisadiyyatının məruz qaldığı qloballaşma prosesi fərqli dəyər tutumuna malik iki müxtəlifliyi/mərhələni özündə ehtiva edir:

1) Industrial təsərrüfat tipinin doğurduğu qloballaşma: əsas hədəf, prosesə qoşulmuş əksər ölkələrdə rifah cəmiyyətinin qurulması, inkişaf prosesinin

modernist paradiqma çərçivəsində həyata keçilməsi olmuşdur... Yalnız inkişaf etmiş az saylı ölkələrdə ümumrifah cəmiyyəti quruculuğu gerçəkləşdi. Əsas nəticə isə... anqlo-sakson dəyərlərin “qloballaşması” və ona ümumbəşəri xarakter əxz edilməsi oldu. Və, eyni zamanda, həmin azsaylı rifah dövlətlərində cəmiyyətin və təsərrüfatın tipi dəyişdi: postmodern dəyərlər bazasında postindustrial təsərrüfat tipi formalaşdı... Qloballaşma prosesi çox rəvan bir şəkildə postindustrializmə istinad etməyə başladı.

2) Postindustrial təbiətli qloballaşmada (2000-ci ildən etibarən) əsas hədəf azadlıq və onun sistemli şəkildə genişləndirilməsidir. Ifrat dərəcəli fərdiləşməni görünməmiş dərəcədə aktuallaşdırmaq yolu etnik/milli spesifikanın (məsələn, anqlo-sakson dəyərlər sistemi) etnik müxtəliflik üzərində həyata keçirilən “pressinqi” – milli iqtisadiyyatlarda iqtisadi “yaddaşın” silinməsinə və yekun olaraq, iqtisadi “manqurtlaşmaya” gətirib çıxarır.

Məlumdur ki, hamının və hər kəsin əldə etməyə çalışdığı iqtisadi fayda – birmənalı olaraq, sosial məzmun daşıyır. Iqtisadi fayda – sosio-mədəni dəyərlərin realizasiyasından alınan “məhsuldur”/effektdir: Gəlir, mənfəət və s. İnteqral məzmun daşıyan fayda fenomenin daxili komponentləri sırasında yer alırlar və onlarda baş verən artım, mexaniki olaraq faydanın “çoxalması” anlamını daşımır. Məsələn, hətta dayanıqlı formada artan gəlir/gəlirlilik – ümumcəmiyyət miqyasında ədalətli şəkildə bölünmürsə yaxud bölgünün sosiallaşma dərəcəsi sözügedən miqyası ehtiva etmirsə, onun sosial bütövlüyü özündə təcəssüm etdirən “iqtisadi fayda” fenomeninə heç bir aidiyyəti yoxdur.

Başqa sözlə, iqtisadi fayda sistem bütövlüyü səciyyəsi daşıyan fenomendir və onun “anklav” xarakterli təsarühü prinsipcə mümkün deyildir. Gəlir, mənfəət, iqtisadi artım və s. “anklav” miqyaslı ola bilər və olurlar da! Bu halda hansısa bir yönümdə (hətta həmin “anklavın” daxilində) keyfiyyət yeniləşməsi baş vermir.

Əvvəllər də qeyd etdiyimiz kimi, keyfiyyət yeniləşməsi (oxu:inkişaf) yeni “yaranışın” faydalı xassələrinin çoxalması deməkdir. Və, bu “çoxalma” ümumcəmiyyət miqyasında “yenilik” doğurur. İnkişaf etməkdə olan ölkələrin bir qrupunda, o cümlədən Azərbaycanda müşahidə edilən “anklavlıq” heç bir formada sosiallaşmır və heç bir halda sistem bütövlüyünə “xidmət” etmir. Eyni zamanda, “anklavlıq” etnik mənsubiyyətli də ola bilir.

Etnik spesifikanın reaksiyası əsasən tədavül sferasında qapalı yaxud kriminal xarakterli şəbəkənin təşkilində təzahür edir. Bu aspekt miqrant axınları içərisində daha populyardır. Yəni, “anklavlıq” – etnik müstəvidə fərqli məzmun daşıyır və qapalılığın daha da güclənməsi ilə müşaiət olunur. Yeri gəlmişkən, qeyd edək ki, iqtisadiyyatda, illah da postindustrial qloballaşmanın gedişində müşahidə edilən spekulyativ əməliyyatların “kütləviləşməsi” – iqtisadi siyasətdəki boşluq və yalnışlıqla bahəm, etnik spesifikanın özünüqoruma instinktinin doğurduğu gerçəklikdir. Və, bu sosio-iqtisadi münasibətlər sisteminin “görünməyən” seqmentləri sırasında yer alır. Təbiidir ki, etnik “anklavçılıq” da faydalılığın sistem bütövlüyü xassəsinə tam şəkildə əks-mövqe sərgiləyir. Qeyd edilən etnik əlahiddələşmənin uzun dövr ərzində mövcudluğu – hansısa bir yönümdə keyfiyyət yeniləşməsi potensialını bəribaşdan mümkünsüz hala gətirir. Postindustrializmin gətirdiyi ifrat fərdiləşmə belə etnik qapalılığın aradan qaldırılmasında acizlik nümayiş etdirir. Rəqəmsal transformasiya və postinsan erasına istiqamətlənmiş “süni intelekt” kultu – bütün baxış bucaqlarına görə - ümumbəşəri eyniyyətə gətirib çıxaracaq və süni implantlar vasitəsi ilə insan populyasiyasının yeni tipini yaradacaqdır. Amma, nə hikmətdirsə Yaponiyanın hazırladığı robot-androidlər belə yapon fizionomiyasını daşıyırlar.

Göründüyü kimi, qloballaşma prosesi etnik spesifikanı “qloballaşdırmaq”,

eyniyyətə gətirmək imkanında deyildir. Bu problemi, hipotetik olaraq, yalnız “süni intelekt” aradan qaldıra bilər – deyimi rəqəmsallaşmanın doğurduğu ümumbəşəri eyforiyanın gəldiyi qənaətdir və reallaşma ehtimalı yox səviyyəsindədir. Teologiyanın da təsbit etdiyi kimi etnik/milli müxtəliflik bəşəriyyətin mövcudluq formasıdır. Və, necə ki, industrial təbiətli qloballaşma prosesi anqlo-sakson dəyərlərin “qloballaşması” və bütün bəşəriyyətə aid edilməsi hədəfinə çata bilmədisə, eləcə də postindustrial qloballaşma – insani fəzilətlərə spekulyativ yanaşma, ifrat fərdiləşmə və “süni intellekti” ilə etnik (milli) spesifikanı aradan qaldıra, ümumbəşəri “eyniyyətə” nail ola bilməyəcəkdir... Vaxtilə “iqtisadi insan” abstraktsiyasını “ilahiləşsirənlər”, indi də “süni intellektə” eyni münasibət sərgiləyərlər. Nəticənin eyni olacağına şübhə yoxdur. Sadəcə olaraq, qlobal kapitalın mütləq hakimiyyət hərisliyinə adekvat şəkildə tarix təkrar olunur. Subyektiv müdaxilənin təhriki altında baş verən təkrarlanmada yeganə fərq – texnoloji imkanların daha yüksək səviyyəyə çatmasıdır.

**“İqtisadi mərkəzçilik” ideologiyasının etnoiqtisadi proyeksiyası**

Ümumbəşəri kontekstdə baş verən kardinal yeniləşmə, məhz bu ideologiyanın doğurduğu yeniləşmədir. Cəmiyyət həyatının bütün parametrlər üzrə “iqtisadiləşməsi”, hər şeyin və nə qədər paradoksal səslənsə də - hər kəsin dəyərlilik dərəcəsinin iqtisadi koordinant sistemində qiymətləndirilməsi - əvvəlki tarixi dövrlərdən əsaslı surətdə fərqlənən yeni məzmunlu birgə yaşayış qaydalarının formalaşmasına gətirib çıxardı.

Maksimum iqtisadi fayda – insan həyatının əsas imperativinə çevrildi...

Amma, “eyni yolla” hərəkət edən müxtəlif etnik-milli varlıqlar müxtəlif nəticələrlə qarşılaşdılar. Postindustrial təbiətli neoliberal qloballaşma belə bu problemi aradan qaldıra, iddia etdiyi kimi, müxtəlifliklər “eyniyyətə” gətirə bilmədi. Tam əksinə olaraq, sözügedən müxtəlifliklərin daha çoxsaylı fərqli müxtəlifliklərə bölünməsinə rəvac verdi.

Kiçik bir qrup istisna olmaqla, etnik → milli varlıqların böyük əksəriyyəti üçün iqtisadi faydanın maksimumlaşdırılması arzusu, bu gün də arzu olaraq qalmaqdadır. Eyni zamanda, feodal imperiyaları dövrünün ağalıq → tabeçilik konstruksiyası – sırf iqtisadi kontekstdə - olduğu kimi bərpa olundu. O dərəcədə ki, “tabe”liyə düşmüş milli//etnik varlıqların öndə olana (oxu:ağa) çatma və onu ötüb-keçmə imkanları tam şəkildə mümkünsüz hala gəldi...

Mövzuya qayıdaq! İqtisadi mərkızçiliyin – cəmiyyətin varoluşu və inkişafında aparıcı ideoloji konstruktsiyaya çevrilməsinin etnik proyeksiyası – sırf iqtisadi anlamda lokallaşmanın (etnik) daha da güclənməsinə gətirib çıxarır: iqtisadi etnomərkəzçilik konkret sərhədləri olan bir yaranışa çevirir. Və, ölkədaxili, eləcə də ölkələrarası qarşılıqlı əlaqələrdə etnomədəni “hibrid”lik formasında münasibətlər sistemi yaradılır/yaradılmağa cəhd göstərilir.

“Hibrid”liyi yaradan proses – etnomədəni müdaxilədir: yəni, qarşılıqlı münasibətlərdə dəyərlərin ekvivalent mübadiləsi deyil, müdaxiləsi baş verir. Və, şübhəsizdir ki, mədəni “hibrid”lik güclü olanın (siyasi, hərbi, iqtisadi və s.) dominantlığı bazasında qərarlaşır. Elə problemin “gizləndiyi” mənbə də məhz güclünün yaratdığı “hibrid”likdir. Formal institutların dəstəyi ilə aparıcı etnosun spesifikasını yerdə qalanlara “pərçimləmək” – qətiyyən keyfiyyət yeniləşməsi anlamında qəbul edilməməlidir. Bu cür yanaşma – “tabeçilikdə” olan etnosların maksimum iqtisadi fayda əldə etməsinə deyil, iqtisadi durğunluğa/patologiyaya səbəb olur və obrazlı şəkildə desək, sözügedən etnosların iqtisadi anlamda “manqurtlaşmasına” gətirib çıxarır. Məlumdur ki, iqtisadiyyat “yaddaşı” olan sistemdir və o heç nəyi “unutmur”, eyni zamanda yenilik kimi təqdim edilənin də immanent xassəli olmasını tələb edir. Şübhə yox ki, qısa xülasə şəklində təsvir etdiyimiz

etnik “hibridlik” - əsasən və başlıca olaraq subyektiv müdaxilənin yaratdığıdır.

Prosesin təbii təkamül forması heç bir halda “hibridlik” doğura bilməz. Təkamülün gətirdiyi yeniləşmə uyğunluq → ümumilik → bütövlük xətti üzrə hərəkət edir. Subyektiv müdaxilə - təkamül prosesinin funksiyalarını həyata keçirmək iqtidarında deyildir.

Bu anlamda edə biləcəyi yeganə şey – ümumcəmiyyət miqyasında iqtisadi faydanın sosiallaşmasına nail olmaq və bunu ədalətlilik koordinantı üzərindən həyata keçirməkdir. Digər istiqamət – formal institutların etnik müxtəlifliyə adekvat şəkildə tətbiqi, yəni regional bölümdə fərqli məzmun daşımasıdır. Fərqlilik – konkret etnoiqtisadiyyatın spesifikasına istinad etməlidir.

Qeyd edilən məzmunlu yeganə düzgün yanaşmanın yalnız bir alternativi ola bilər: Etnik varlıqlara dövlət müstəqilliyinin verilməsi!

**Son söz, yaxud etnoiqtisadiyyat = milli iqtisadiyyat eyniyyəti: bağlılığın konseptual məzmunu.**

Söz yox ki, etnoiqtisadi fundament olmadan milli iqtisadiyyat, milli iqtisadi sistem formalaşa bilməz. Bu anlamda etnoiqtisadi lokallaşma milli iqtisadiyyatın “nüvə”sidir. Və, milli iqtisadiyyat təkcə “nüvə”dən ibarət deyildir...(bax:şəkil 3) “Milli” sözönü ümumcəmiyyət miqyasını ehtiva edir. Etnoiqtisadiyyata münasibətdə isə iki cür təzahürlə qarşılaşırıq:

1) Monoetnik tərkibli ölkələrdə etnoiqtisadiyyat ölkə miqyasında ümumi xarakterə malik olur. Amma, bu halda da belə sözügedən “bərabərlik” gerçək məzmun daşımır;
2) Polietnik tərkibli ölkələrdə isə “etnoiqtisadiyyatlar” çoxluğu formalaşır. Ölkədə kompakt şəkildə yaşayan nə qədər etnik qrup varsa, bir o sayda dəyər ölçülü sərhədlərlə lokallaşmış etnoiqtisadi əlahiddələşmə baş verir.

Fenomenin idrakı prosesində problemli situasiya yaradan məqam məhz bu aspektlə bağlıdır. Polietnik tərkibli ölkələrdə “milli iqtisadiyyat” deyilən şey varmı? yaxud milli iqtisadiyyat – sözügedən çoxluğu özündə ehtivamı edir? Yaxud, müxtəlif məzmunlu etnoiqtisadiyyatlar (polietnik ölkədə) inkişaf potensialı, yeniləşmə meylliyi və s. nöqteyi nəzərindən eyni səviyyədədirlərmi? Yaxud, etnoiqtisadiyyatlar arası qarşılıqlı, çulğalaşma baş verirmi/verə bilərmi? və s. tipli suallar çoxluğu uzun müddət ərzində elmi araşdırmalar (iqtisadi) sferasından kənarda qalmışdır. Elə indinin özündə də bu aspektdə aparılan tədqiqatlar epizodik – səthi xarakter daşıyır və daha çox deklarativ bəyanatdan o yana keçmir.

Blok-sxemdən də (şəkil 3) göründüyü kimi, “etnoiqtisadiyyat” tipli əlahiddələşmə birmənalı olaraq dəyər məzmunludur.

Yəni, institutsional rakursdan formal deyil, qeyri-formal səciyyə daşıyır. Bu o deməkdir ki, müxtəlif “etnoiqtisadiyyatlar” arası qarşılıqlı çulğalaşma tənzimlənən yaxud idarəedilən proses deyildir. Və, əgər belə bir çulğalaşma baş verirsə də (ki, bu yönümdə hansısa bir elmi fakt mövcud deyildir), bu yalnız təbii-təkamül prosesinin gedişində gerçəkləşə bilər. Yəni, formal olaraq dövlətin bu yönümdə fəaliyyəti tolerantlıq və multikulturalizmin aşırı təbliği ilə məhdudlaşır. Təbii ki, əksər etnik qruplar üçün eyni şəraitin/situasiyanın formalaşdırılması sosio-siyasi və sosio-mədəni kontekstdə məqbul hesab edilə bilər. Lakin, sözügedən “eyniliyin” iqtisadi proyeksiyasının hansısa bir formada qarşılıqlı çulğalaşma doğurma ehtimalı yoxdur: etnoiqtisadiyyat – etnik spesifikanı olduğu kimi saxlayır.

Bir sözlə, müxtəlif etnoiqtisadiyyatların “qarşılıqlı çulğalaşması” deyilən bir şey gerçək deyildir və təxəyyül “məhsulu” anlamında qeyri bir məna daşımır.




**Şəkil 3. Milli iqtisadi varlığın struktur anatomiyası**

Göründüyü kimi, milli iqtisadiyyat – milli iqtisadi varlığın əsas təzahür formasıdır. Və, o sistem bütövlüyü xassəsinə malikdir. Yəni, həm formal, həm də qeyri-formal institutların praqmatik anlamda fəaliyyət göstərdiyi iqtisadi/sosio-iqtisadi konstruktsiyadır. Milli iqtisadiyyat – etnoiqtisadiyyatların sayı/say çoxluğu ilə xarakterizə oluna bilməz. Polietnik cəmiyyətlərdə milli iqtisadiyyatın “nüvə”si kimi aparıcı etnosun yaxud dövlət quran millətin etnoiqtisadiyyatı çıxış edir. Və, digər etnoiqtisadiyyatlar aparıcı etnoiqtisadiyyatın pressinqi altına düşür və ona “oxşamağa” təhrik edilirlər: formal institutlar vasitəsi ilə.

Polietnik cəmiyyətlərdə müxtəlif etnosların kompakt şəkildə yaşadığı regionlararası inkişaf səviyyəsi arasındakı fərqlərin əsas mənbəyi məhz bu amillə bağlıdır. Ictimai həyatın digər sferalarından fərqli olaraq, iqtisadi müstəvidəki etnik spesifikaları “pressinq” yolu ilə milli bütövlüyə, vahidliyə yaxud eyniyyətə gətirmək çabası, heç bir situasiyada effektiv ola bilməz və olmur da! Bu halda cəmiyyətin qarşılaşacağı situasiya, ən yaxşı halda resessiya ola bilər.

Ölkə miqyasında formalaşdırılan və həyata keçirilən iqtisadi siyasət sosio-mədəni reallığı olduğu kimi nəzərə almaq məcburiyyətindədir. İqtisadi sistemin dayanıqlılığı və etibarlılıq dərəcəsinin təminatında fundamental rol oynayan amillər sırasında sosio-mədəni identikliyin qərarlaşması zəruriliyi ön sırada yer tutur. Məlumdur ki, davamlı inkişaf – iqtisadi sistemin dayanıqlılığının doğurduğu keyfiyyət situasiyasıdır. Sistem dayanıqlılığı isə sosio-mədəni identikliklə sıx determinoloji bağlılıqdadır. Apardığımız araşdırmalar göstərir ki, inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyətində sözügedən problemli situasiya “görməməzlikdən” gəlinir. “Görməməzlik” probleminin kökündə dayanan əsas səbəb – etnik spesifikanın (iqtisadi sferada) kəmiyyətcə ölçü prosedurunun yoxluğu və bu əsasda da “hər şey öz-özlüyündə düzələcəkdir” qənaətinə inam bəslənməsidir. Paradoks ondadır ki, neoliberal/ortodoks yanaşmanın baza prinsipləri olduğu kimi tətbiq olunmur, amma, neoliberal “nağıllara” möhkəm inam bəslənir. Məsələn, sərvət/var-dövlətlə bağlı yanaşma tərzi hamı və hər kəs üçün (oxu: müxtəlif etnoslar) eyni məzmun daşıyırmı? Qətiyyən! Ən azı iki müxtəliflik mövcuddur: 1) Sərvətin davamlı olaraq artırılması; 2) Sərvətin qorunub – saxlanması; Bütün təfərrüatı ilə “bazarlaşmış” cəmiyyətdə sərvətin qorunub saxlanmasının əsas variantı onun davamlı şəkildə artırılmasıdır. Bu – neoliberal/ortodoks yanaşmanın təməl prinsiplərindən biridir.

Bununla belə, neoliberal modellə bazar iqtisadiyyatı qurduqlarını elan etmiş postsovet avrasiyası ölkələrində, illah da türk dövlətində məhz ikinci variant tətbiq edilir: həm dövlət, həm də özəl sektorun əsas qayğılarından biri, əldə edilmiş sərvəti, nəyin bahasına olursa olsun qoruyub-saxlamaqdır;

Özəl sektor, bu məqsədlə, ya hər təpənin başında bir imarət tikdirir, ya da xarici ölkələrdə daşınmaz əmlaka külli miqdarda vəsait yatırırlar. Amma, unudurlar ki, bu yolla həm özlərinin, həm də fəaliyyət göstərdikləri milli iqtisadiyyatın investisiya potensiyasına öldürücü zərbə vururlar. Bu cür yanaşmaya özəl sektorda fəaliyyət göstərən digər etnosların – hər hansı bir yaponun, almanın yaxud yəhudinin baxışlaırnda rast gəlmək mümkün deyildir. Eyni məntiq ölkə hökümətlərinin yeritdiyi iqtisadi siyasətdə də müşahidə edilir.

**Nəticə**

Sözügedən ölkələrin yaratdığı ehtiyat fondlarında vəsaitin artımı və daha yüksək məbləğə çatması qürur mənbəyi kimi təlqin edilməməlidir. Gələcək nəsillər üçün toplanan vəsait xarici ölkələrin iqtisadiyyatında istifadə olunur: həm də, çox aşağı faiz dərəcəsi ilə! Göründüyü kimi, yenə də söhbət əldə edilmiş sərvətin davamlı şəkildə artırılmasından deyil, qorunub-saxlanmasından gedir.

Əslində isə, 3 aylıq idxalatı ödəyə biləcək məbləğdə ehtiyat saxlamaq tam kafidir... Situasiyanı qəlizləşdirən amil – subyektiv müdaxilənin adekvatlıq dərəcəsinin “ölçülməməsidir”.

Milli iqtisadiyyat – birmənalı şəkildə seçim etməlidir: 1) Bazar məntiqi ilə “işləmək” istəyirmi? 2) Bazaradan “qorxurmu”? Və, bazardan qorunmanı fəaliyyətinin əsas imperativi hesab edirmi?

İkinci variant milli iqtisadiyyatın inkişaf potensiyasını konkret məhdudiyyətlər çərçivəsinə salır. Birinci varianta adekvat olan strateji inkişaf proqramları qəbul edilir, amma real fəaliyyətin əsas imperativi kimi ikinci variant çıxış edirsə, onda milli iqtisadiyyatın “nəticəsizlik” girdabına düşməsi labüd olacaqdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Кара-Мурза С.Г. Демонтаж народа. Режим доступа: htttp//www.rus.crisis.ru/
2. В.Н.Овчинников, Ю.С.Колесников. Этноэкономика как фактор развития// Проблемы прогнозирования. 2006.
3. В.Соколински. Психологические основы экономики. М. ЮНИТИ. С.16. 1999
4. Н.М.Сурнина, О.В.Печура. Этноэкономика как феномен инновационного регионального развития//n-Economy/2008
5. Н.Н.Лебедева, О.А.Ломовцева. Социальный капитал и модернизация этноэкономики юга России//Обществ.науки и современность. 2006. №2
6. О.Шпенглер. закат Европы. М. 1923
7. С.П.Макаров. Российское хозяйство через призму этноэкономики / Философия хозяйства. МГУ: 2006. №6
8. Э.Кочетов. Научная стратегия развития//Общество и экономика; 1998; №4-5. С.3
9. Ю.С.Колесников. Модернизация территориальной организации экономики и макроэкономические функции экономики / Этноэконом. в модерн. парадигме… Ростов-Н/Д. 2004



**Аваз Байрамов**
Азербайджанский государственный экономический университет, д.э. н., профессор
*avazbayramov61@gmail.com*
**Вугар Байрамов**
Институт Экономики НАНА, Национальная Авиационная Академия, д.ф.э., доцент
*bayramov.vuqar@gmail.com*


# ЭТНОЭКОНОМИКА: СУЩНОСТНЫЕ ЧЕРТЫ И СПЕЦИФИКА ИННОВАЦИЙ


Этноэкономика – явление феноменальное, «загружающее» социально-экономическое движение специфическими ценностями. Основной проблемой является проблема адекватности теоретико-методологического осмысления. В статье отражено многообразие теоретических и концептуальных подходов к этноэкономике, подход ученых и исследователей многих стран к понятию «этноэкономика». При этом в статье исследована специфика модернизации этноэкономики и факторы и причины, влияющие на модернизацию, а также формы, созданные в ходе модернизационных усилий. В статье отражены влияние процесса глобализации на этноэкономику, этноэкономическая проекция идеологии «экономического централизма» и концептуальное содержание связи этноэкономики с народным хозяйством.

***Основная цель статьи*** – выявить рациональные границы определения объекта, реальное содержание и концептуальное содержание деятельностного конструирования этноэкономики. Цель статьи – определение предметной области, формы правления и рациональных границ концептуального содержание этноэкономики.

***Методология*** – исследования полностью относится к междисциплинарному синтезу.

***Полученные результаты статьи*** – результаты свидетельствуют о том, что этноэкономика как целостное феноменальное явление занимает уникальное положение в комплексе фундаментальных переменных качественного обновления в масштабах общества.


***Ключевые слова***: *этноэкономика, этническая специфика, этнопсихология, национальная экономика, модернизация, глобализация, цивилизация*

**Avaz Bayramov**
Azerbaijan State University of Economics, doctor of sciences, professor
*avazbayramov61@gmail.com*
**Vugar Bayramov**
Institute of Economics of ANAS, National Aviation Academy,
*PhD, dosent*
*bayramov.vuqar@gmail.com*

## ETHNOECONOMICS: ESSENTIAL FEATURES AND INNOVATION SPECIFICS

Ethnoeconomy is a phenomenal creation that burdens socio-economic movement with specific values. The main problem is the problem of adequacy of theoretical and methodological understanding. The article reflects the diversity of theoretical and conceptual approaches to ethno-economics, the approach of scientists and researchers of many countries to the concept of "Ethno-economics". At the same time, in the article, the specifics of the modernization of ethno-economics and the factors and reasons affecting the modernization, as well as the forms created in the modernization effort, were studied. The impact of the globalization process on ethno-economics, the ethno-economic projection of the ideology of "Economic centralism" and the conceptual content of the connection between ethno-economics and the national economy are reflected in the article.

***The goal of research*** – to reveal the rational boundaries of the conceptual content of the object definition, manifestation and activity construction of ethno-economics.

***Methodology -*** refers entirely to interdisciplinary synthesis.

***The results of the research*** – had been shown that ethno-economics, as an integral phenol-menal phenomenon, has a unique position in the complex of fundamental variables of quality innovation on the scale of society.

***Keywords***: *ethnoeconomics, ethnic specificity, ethnopsychology, national economy, innovation, globalization, civilization*

**Nərminə Abbasova**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, dosent
*mi.narmina@mail.ru*
**Səbinə Sadıqova**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, i.ü.f.d.
*sabina-w@mail.ru*

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN SƏNAYESİNİN İNKİŞAFI

*Məqalədə müstəqillik əldə olunduqdan sonra sənayenin inkişaf istiqamətləri araşdırılmışdır. Sənaye məhsulunun istehsal həcminin dinamikasına təsir edən amillər təhlil olunaraq, istifadə olunmamış ehtiyatlar aşkar olunmuşdur. Sənayenin strukturu, onun dəyişmə tendensiyası, sənaye parkları və məhəllələrinin qeyri-neft sənayesinin inkişafında əhəmiyyəti müəyyən edilmişdir. Sənaye sektoru üzrə əsas kapitala yönəldilən vəsaitlərin istehsalın yeniləşdirilməsi, yeni obyektlərin yaradılması və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə təsiri araşdırılmış, idxal payının azaldılması və ixracın artırılması istiqamətləri tövsiyə olunmuşdur.*

***Məqsəd*** – Azərbaycanda sənayenin mövcud vəziyyətinin təhlili və onun inkişafının təmin olunması üçün ehtiyat mənbələrinin müəyyən edilməsindən ibarətdir.

***Metodologiya –*** tədqiat işində statistikanın müqayisəli təhlil, məntiqi yanaşma üsullarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** göstərilmişdir ki, iqtisadi inkişafa nail olmağın mühüm ehtiyat mənbəyi sənayeni strukturunun təkmilləşdiriləsi, sənaye parkalrı və məhəllələrinin genişləndirilməsi, innovasiyaların tətbiqi və bununla da istehsala səmərəliliyinin artırılmasından ibarətdir.

***Açar sözlər:*** *sənaye, mədənçıxarma və emal sənayesi, sənaye parkları və məhəllələri, əsas kapital*

## Giriş

Ölkə iqtisadiyyatında sənaye sahəsi aparıcı rola malikdir. İqtisadiyyatın digər fəaliyyət sahələrinin dinamik və davamlı inkişafı ondan çox asılıdır. Dövlət müstəqilliyinin (1991) əldə edilməsindən sonra qısa bir dövr ərzində ölkəmiz sosial-iqtisadi nailiyyətlər qazanmışdır. Ölkə iqtisadiyyatının inkişafı mövcud təbii – iqtisadi, texniki – istehsal və elmi-texniki potensialın təsərrüfat dövriyyəsinə aktiv cəlb edilməsi ilə bazar münasibətlərinin formalaşmasına imkan vermişdir. İqtisadi ədəbiyyatlarda göstərilir ki, bazar istehsalının ilkin mərhələsi (1992-1995 illər) sürətli transforasiya enmələri, mövcud təsərrüfat əlaqələrinin qırılması, respublika ərazisində qeyri-sabitliyin möcud olması, maliyyə çatışmazlığı, Dağlıq Qarabağ ətrafında ərazi münaqişəsi ilə xarakterizə olunur. Bu amillərin təsiri ilə ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM-in) illik artım tempi 19,3% azalmış. Yekun iqtisadi azalma isə təxminən 58%-ə çatmışdır. Ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənayedə məhsulun ümumi həcmi 24% azalmışdır. Ən yüksək enmə emal sənayesində, xüsusilə onun maşınqayırma sahəsində olmuşdur [1].

1994-cü ildə “Əsrin müqaviləsinin bağlanması ilə Ümumi Milli Lider Heydər Əliyevin yeni neft strategiyası Azərbaycan iqtisadiyyatının inkişafında 1995-ci ildən dirçəliş dövrümüzü yaşatmağa başlamışdır. Ölkədə siyasi vəziyyətin sabitləşdirilməsi bazar islahatlarının aparılmasına, makroiqtisadi göstəricilrin artımına (1996-1999 illər) imkan yaratmışdır. Sonrakı illərdə sənaye istehsalının xüsusi ilə mədənçıxarma sahəsinin

sürətli və dinamik inkişafı, yenidən qurulması və təzələnməsi, yeni texnologiyaların mənimsənilməsi məsələlərinin həllində mühüm nailiyyətlər əldə edilmişdir

Dövlət Statistika Komitəsinin məlumatları göstərir ki, 2005-ci ildən başlayaraq sənayenin ümumi iqtisadi göstəriciləri yüksəlməyə başlamışdır (cədvəl 1).

***Cədvəl 1***

**Sənayenin ümumi göstəriciləri**

| Göstəricilər | Ölçü vahidi | İllər | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 |
| Məhsulun həcmi (cari qiymətlərlə) | Mln manat | 9308,8 | 27978,3 | 26369,4 | 47677,0 | 46999,0 | 37269,0 |
| Fəaliyyət göstərən müəssisələrin sayı | ədəd | 2612 | 2650 | 2583 | 2837 | 3169 | 3389 |
| Əlavə dəyər (cari qiymətlərlə) | Mln manat | 6190 | 21942 | 17912 | 35665,1 | 33885,9 | 24400,6 |
| Əlavə dəyərin ÜDM-də payı | Faizlə | 49,4 | 51,7 | 32,9 | 44,5 | 41,4 | 39,7 |
| Əsas kapitala vəsaitlər | Mln manat | 4176,1 | 4276,2 | 8499,9 | 8497,2 | 92590,0 | 9065,3 |
| İnvestisiyalın ölkə iqtisadiyyatında payı | Faizlə | 72,4 | 43,2 | 53,3 | 49,3 | 49,9 | 52,6 |

Cədvəldən görünür ki, 2005-2020 illərdə Azərbaycan sənayesində məhsulnun dəyəri 9308,8mln manatdan 37269,9 mln manatadək və ya 40 dəfə artmışdır. Bu əsasən həmin dövrdə məhsulun həcminin mədənçıxarma sənayesində 4,0 dəfə və emal sənayesində 3,9 dəfə arması hesabına baş verimişdir. Lakin 2019-cu ildə neft hasilatının fiziki həcminin 3,0 mln ton aşağı düşməsi səbəbindən 3 ümumi sənaye məhsulu həcmi 9729,3 mln manat ixtisar olunmuşdur. Eyni zamanda 2005-2020 illərdə ölkə iqtisadiyyatı ÜDM-da sənayenin əlavə dəyərinin payı 49,4% - dən 33,7%-dək azalmışdır. 2019-cu ilə nisbətən 2020-ci ildə sənayenin ÜDM-da payının 41,4%-dən 33,7%-ə enməsi neft hasilatının aşağı düşməsi səbəb olmuşdur.

İqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturunda dəyişikliklər baş vermişdir. Bunu 2 saylı cədvəlin malumatları daha aydın əks etdirir.

***Cədvəl 2***

**Sənayenin istehsal strukturu**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 |
| Sənaye üzrə, cəmi o cümlədən: | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Mədənçıxarma sənayesi | 67,4 | 78,9 | 62,1 | 73,3 | 69,9 | 61,3 |
| Emal sənayesi | 25,9 | 15,9 | 29,9 | 21,9 | 25,1 | 31,8 |
| Elektrik enerjisi qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 5,7 | 4,6 | 7,1 | 4,1 | 4,3 | 6,0 |
| Su təchizatı, tullantıların | 1,0 | 0,6 | 0,9 | 0,7 | 0,7 | 0,9 |

Cədvəlin məlumatlarından görünür ki, 2005-2020-ci illərdə ölkənin sənaye məhsullarının ümumi dəyərində mədənçıxarma sənayesinin payı 67,4%-dən 61,3%-ə

düşmüş, emal sənayesinin isə 27,6%-də 31,8%-dək artmışdır [1].

Təhlil aparılan dövrdə mədənçıxarma sanayesində neft və təbii qaz hasilatının payı 94,7% -dən 84,7% - dək azalmışdır. Qeyd etmək lazımdır ki, mədənçıxarma sənayesinin məhsul istehsalı və ölkənin ixracdan gəlirlərinin başlıca mənbəyini neft və təbii qaz təşkil edir. Bu baxımdan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və 7 ölkənin 12 ən byük neft kompaniyaları ilə məhsulun pay bölgüsü əsasında “Azəri-Çıraq-Günəşli” yatağının işləməsinə bağlanmış “Əsrin müqaviləsi” mühüm əhəmiyyətə malikdir. Sonralar isə 21 dünya ölkələrindən 43 neft kompaniyaları ilə 27-dən çox müqavilə imzalanmışdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2005-2010-cu illərdə neft hasilatının fiziki həcmi 22,2-dən 50,8 mln tonadək artmış, əmtəəlik qaz hasilatı isə 2005-2020 illərdə 5,7-dən 26.5 mlrd kub metrədək artmışdır. Bu isə ÜDM-in artım tempinə mənfi təsir etmişdir. Neftin ixracı 1997-ci ilin axırında Bakı-Novorossiysk boru kəməri, 1999-cu ildə isə tikilib istifadəyə verilmiş. Bakı-Supsa neft kəməri ilə həyata keçirilmişdir.

Ölkənin neft və qaz ixracının təşkili və şaxələndirilməsi məqsədilə “Bakı-Tiblisi-Ceyhan” (2006) neft kəməri, “Bakı-Tibilisi-Ərzurum” (2007) və “Cənub Qaz Dəhlizi (TANAP – 2018, TAP-2020)” qaz kəmərləri tikilib istifadəyə verilmişdir [2].

2017-ci il 14 sentyabrda “Azəri-Çıraq” və Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənilməsi üzrə müqavilə 2049 lədək uzadılaraq SOCAR payı 11 fazidən 25%-ə yüksəldilmişdir. 2018-ci ildə Türkiyənin İzmir şəhərində istehsal gücü 100 mln on olan “Star” neftemalı zavodu istifadəyə verilmişdir [2].

Emal sənayesində qida məsullarının payı 2,4%-dən (2005) 10,4%-dək (2020) yüksəlmiş, uyğun olaraq neft məhsulları istehsalının xüsusi çəkisi 9,9%-dən 7,3%-dək, kimya sənaye məhsulları 2,4%-dən 1,8%-dək. metallurgiya sənaye məhsulları is 2,0%-dən, 1,4%-dək azalmışdır.

Müstəqilliyin əldə edilmsi dövrünün əvvəllərində keçmiş sovet ittifaqının dağılması nəticəsində Azərbaycan neft avadanlıqlarının geniş istehlak rayonlarını (Rusiya, Ukrayna, Türkmənistan, Qazaxıstan və i.a), maşınqayırma istehsalçıları isə metal, komplekləşdirici məmulatlar, yarımfabrikatlar, ehtiyat hissələri tədarükçülərini istirmişlər. Ona görə də həmin məhsullar respublika tələbatını ödəyən çox kiçik həcmdə istehsal olunur. 2020-ci ildə 2005-ci ilə nisbətən fontan armaturlarının istehsalı 80,2% stanqlı quyu nasosları isə 60,7% azalmışdır. Yalnız mancanaq dəzgahları istehsalı 36,4% artmışdır. Qeyd etməliyik ki, 2004-cü ildən başlayaraq neft-qazın ixracından əldə olunan gəlirin bir hissəsi sənaye regionlarda sənaye strukturunun təkmilləşdirilməsi məqsədilə dövlət proqramları tərtib edilmiş, yeni istehsalların yaradılması üçün çox saylı layihələr icra edilmişdir. Respublika Prezidentinin 23 aprel 2013-cü il Sərəncamı ilə səhmləri dövlətə məxsus olan “Azərbaycan Polad istehsalı kompleksi” Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Sərəncamda dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edən layihələndirmə, tikinti və idarə olunma, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazarının müasirləşdirilməsi işlərinin yerinə yetirilməsi nəzərdə tutlmuşdur.

Qyd etmək lazımdır ki, 2005-2020 illərdə sənaye sahəsi üzrə ÜDM-də qeyri-dövlət bölməsinin payı 84,5%-dən 85,6%-dək yüksəlmişdir. Həyata keçirilmiş işlərin davam olaraq Prezidentin 10 yanvar 2014-cü il sərəncamı ilə 2014-cü il “Sənaye ili” elan olunmuş, sənayenin inkişafı sahəsində bir sıra tədbirlər icra edilmişdir. Formalaşdırılmış dayanıqlı maliyyə resursları vasitəsilə qeyri-neft sənayesi hesabına ümumi sənaye məhsulu iki dəfəyədək artmışdır.

Sumqayıt texnologiyalar parkının, Aluminium və Polad istehsal komplekslərinin yaradılması, Bakıda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması və digərləri qeyri-neft sanayesinin növbəti mərhələdə daha dərin şaxələndirilməsi üçün geniş imkanlar

yaratmışdır.

26 dekabr 2014-cü ildə təsdiq olunmuş “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020 illər üçün Dövlət Proqramı” bu sahədə mühüm əhəmiyyətə malik olmuşdur. Bu proqramda mühüm vəzifə kimi sənaye parkları və məhəllələrinin təşkili və yaradılması nəzərdə tutulmuş və reallaşdırılmışdır. Ölkədə sənaye parklarının yaradılması iqtisadiyyatın tarazlı və innovasiya səmtli inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşmasına şərait yaradır. 2011-2016-cı illərdə Prezidentin fərmanı ilə Sumqayıt Kimya, Balaxanı, Qaradğ, Migəçevir və Piralahı Sənaye Parkları yaradılmışdır. Eyni zamanda kiçik və orta sahibkarlığa dəstək, qeyri-neft sektorunun sənaye istehsalının genişləndirilməsi, inkişafı və regionların inkişafına yardım məqsədilə Neftçala, Hacıqabul, Masallı və Sabirabad sənaye məhəllələri təşkil olunmuşdur.

Xüsusi sənaye zonalarının (parklar və məhəllələr) məqsədi rəqabətqabiliyyətli istehsalın inkişafına əlverişli şəraitin yaradılması, innovasiya və yüksək tenologiyalar əsasında dayanıqlı, ixrac yönümlü məhsulların istehsalının təmin edilməsidir. Sənaye parkları bir ərazidə yerləşir, ümumi xammal bazasında qarşılıqlı tamamlanan məhsul istehsal edir, iqisadi faydası isə nəqliyyat xərclərinin əhəmiyyətli ixtisarı ilə bağlıdır.

Mövcud sənaye parklarının ixisaslaşması cədvəl 3-də verilmişdir.

**Cədvəl 3**

**Sənaye parklarının ixtisaslaşması istiqamətləri [3]**

| № | Sənaye parklarının adları | İxtisaslaşma istiqaməti |
|---|---|---|
| 1. | Sumqayıt Kimya sənaye parkı | Kimya, metalurgiya və maşənqayırma məhsilları, informasiya-kommunikasiya texnologiyalar və digərləri. |
| 2. | Mingəçevir sənaye parkı | Toxuculuq sənayesinin müxtəlif növlü mərhələləri |
| 3. | Qaradağ sənaye parkı | İri, orta və aşağı və aşağı tonlu gəmilər və avadanlıqların istehsalı və təmiri |
| 4. | Pirallahı sənaye parkı | Müxtəlif növ əzaçılıq dərmanlarə, tibbi avadanlıq və cihazlar istehsalı |
| 5. | Balaxanı sənaye parkı | Rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədilə tullantıların emalı, yaşıl biznesin inkişafına kömək |

İqtisadiyyat Nazirliyinin məlumatlarına görə 2020-ci ildə sənaye zonalarında (parklar və məhəllələr) istehsal həcmi 1,3 mlrd manat olmuş və buraxılan məhsulun 55%-i ixrac olunmuşdur. Sənaye parklarında rezident statuslu 50 müəssisədən 35-i fəaliyyət göstərmiş, 2020-ci ildək 6 mlrd manatdan çox investisiya yatırılmış və 9 mindən çox yeni iş yerləri yaradılmışdır. Sənaye məhəllələrində iştirakçı statuslu 30 müəssisədən 17-i fəaliyyət göstərmiş, 73 mln manat investisiyalaşdırma aparılmış və 280 iş yeri yradılmışdır [3].

Son illərdə qeyri-neft sənayesini formalaşdıran maşınqayırma, avadanlıq və tikinti materialları sferalarında rəqabətqabiliyyətli yeni müəssisələr yaradılmışdır. Onlara Gəncə traktor və kənd təsərrüfatı texnikası, Naxçıvan avtomobil, Mingəçevir elektron avadanlıqları, Sumqayıt günəş panelləri, Qaradağ metal konstruksiya, Hacıqabul keramik plitalar və digər istehsal müəssisələrini misal göstərmək olar. Qeyri-neft sənayesinin inkişafı məqsədilə təsərrüfat dövriyyəsinə ölkənin təbii və iqtisadi resursları cəlb edilməli və onlardan istifadənin səmərəliliyi yüksəldilməlidir. Sənaye parkları və məhəllələrinin fəaliyyətinin yaxşı əlaqələndirmək, investisiyaları cəlb emək məqsədilə 22 yanvar 2021-ci il Prezident Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tərkibində Sumqayıt Kimya Sənaye Parkının bazasında “İqtisadi Zonaların İnkişafı Agentliyi” yaradılmışdır.

Sənaye sahələrində məhsul buraxılışı, onun rəqabətqabiliyyəti əsas fondların istehsala yararlığı səviyyəsindən çox asılıdır. Yararlıq səviyyəsinə əsas fondların aşınma əmsalı təsir göstərir. Aşınmanın intensivliyi sahənin xüsusiyyətlərindən, əsas fondların növlərindən, hazırlanma keyfiyyəti, istismarın xarakteri və şəraitindən, xidmətin vəziyyət və digər amillərdən asılıdır.

Sənayenin sektorları üzrə aşınma əmsalı geniş intervalda dəyişir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə onun ən yüksək həddi emal sektorunda mövcuddur.

Məhz sənayedə yeni istehsalların yaradılması və mövcud müəssisələrin yenidən qurulması məqsədilə əsas kapitala vəsaitlər yönəldilir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən ölkənin iqtisadi fəaliyyət sahələrində əsas kapitala 2020-ci ildə 17226,1 mln manat vəsait yönəldilmiş, onun 51,2%-i sənaye sahəsinin payına düşür. 2020-ci ildə 2005-ci ilə nisbətən sənayedə əsas kapitala yönəldilmiş daxili vəsaitlər 6,3 dəfə, xarici investisiyalar isə 1,1 dəfə artmışdır.

Bazar münasibətlərin keçid dövrünün ilk illərində sənayedə əsas kapitala yönəldilən vəsaitlərdə xarici investisiyalar 80,2% (2005 il) təşkil etmişdir. Ölkənin investisiya siyasətində qeyri-neft sektoruna üstünlük verilməsi ilə əlaqədar olaraq onun xüsusi çəkisi 2007-ci ildə 42,4% səviyyəsinə enmişdir. 2005-2020-ci illərdə sənayedə əsas kapitala vəsaitlər 4176,1 mln manadan 9065,3 mln manatadək və ya 2,2 dəfə artmışdır (cədvəl 1).

Həmin dövr ərzində sənayenin sahələi üzrə əsas kapitala yönəldilən vəsaitlərin strukturunun dəyişməsi cədvəl 4-də verilmişdir [1].

***Cədvəl 4***

**Sənayenin sahələri üzrə əsas kapitala yönəldilən vəsaitlərin strukturu [1]**

| Sənaye sahələri | 2005 il | | 2020 il | |
|---|---|---|---|---|
| | Mln manat | %-lə | Mln manat | %-lə |
| Bütün sənaye<br>o cümlədən: | 4176,1 | 100,0 | 9065,3 | 100,0 |
| Mədənçıxarma sənayesi | 3730,6 | 89,3 | 5613,8 | 61,9 |
| Emal sənayesi | 115,6 | 2,8 | 2610,5 | 28,8 |
| Elektrik enerjisi qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 299,8 | 7,2 | 486,6 | 5,4 |
| İnvestisiyalın ölkə iqtisadiyyatında payı | 29,9 | 0,7 | 354,4 | 3,9 |

4 saylı cədvəlin məlumatları göstərir ki, 2020-ci ildə sənayedə ən çox əsas kapitala vəsait mədənçıxarma (61,9%) və emal (28,8%) sahələrinə yönəldilmişdir. Lakin sənayedə mədənçıxarmaya yönəldilmiş vəsaitlərin payı 89,3% dən (2005 il) 61,9%-dək (2020) azalmışdır. Bu əsasən investisiya siyasətində qeyri-neft sektoruna üstünlük verilməsi ilə əlaqədardır.

Aparılmış araşdırmalar göstərir ki, emal sənayesi müəssisələrində əsas fondların aşınma dərəcəsi yüksəkdir (55-60%) və yeniləşmə əmsalı çox kiçikdir. Ona görə də ixrac yönümlü məhsul istehsalının genişləndirilməsi, inkişaf potensialının yüksəldilməsi məqsədilə bu sahənin investisiya təminatı əsaslı şəkildə yaxşılaşdırılmalıdır. İstehsalın texniki səviyyəsinin aşağı olması rəqabət qabiliyyətli emal məhsullarının istehsalına mənfi təsir göstərir. 2020-ci ildə ölkənin ixracının strukturunda neft-qaz və neft emalı məhsullarının

xüsusi çəkisi 92,9% təşkil etmişdir. İdxalın strukturunda maşınlar, mexanizmlər, elektronika avadanlıqları və onların hissələri 23,6%, yerütsü nəqliyyat vasitələri, üzən vasitələr və nəqliyyata aid qurğular 9,6%, kimya sənaye məhsulları isə 10,6% təşkil etmişdir. Bütün qeyd edilənlər, emal sənayesində istehsal avadanlıqlarının yüksək mənəvi və fizik aşınmasının aradan qaldırılması, məhsulların rəqabət qabiliyyətinin artırılması, yeni obyektlərin yaradılması və ya mövcud istehsalların genişləndirilməsində əsas kapitala vəsaitlərin yönəldilməsini aktuallaşdırır.

Bu baxımdan Respublika Prezideninin 6 dekabr 2016-ci il Fərmanı ilə təsdiq edilmiş “Milli iqtisadiyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi” mühüm əhəmiyyətə malikdir [4]. Burada əsas məqsədlər arasnda ölkə iqtisadiyyatının qeyri-neft sektoru və rəqabət qabiliyyətinin artırılması və sairə qeyd olunmuşdur. İstehsal sektorları sırasında ağır sənaye və maşınqayırmanın inkişafına xüsusi diqqət yetirilmişdir. “Respublika ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsində” sənayenin strukturunun təkmilləşdirilməsi, sektorun potensialının genişləndirilməsi, idxal payının azaldılması və ixrac edilən məhsulların həcminin artırılması, yerli və xarici investisiyaların cəlb edilməsi, yeni maliyyələşdirmə mexanizmlərinin tətbiqi, innovativ fəaliyyətin dəstəklənməsi və i.a strateji məqsədlər nəzərdə tutulmuşdur [5].

Qeyd etmək lazmdır ki, Strateji Yol Xəritəsinin icrası nəticəsində sənayenin strukturu təkmilləşdirilir, ağır sənye və maşınqayırma sənaye istehsalının artımının əsas hərəkətverici qüvvəsindən birinə çevriləcəkdir.

**Nəticə**

Aparılmış təhlil materialları göstərir ki, sənayenin strukturunda mədənçıxarmanın payının azalması fonunda emal sənayesinin xüsusi çəkisi artırılmalıdır. Bu baxımdan Strateji Yol Xəritəsində nəzərdə tutulmuş regionlarda sənayenin inkişafı, innovativlik, iqtisadiyyatın rəqabətqabiliyyətinin və ixracın artırılması mühüm əhəmiyyətə malıkdir. Starteji Yol Xəritəsində müxtəlf stimullaşdırıcı mexanizmlər tətbiq edilməsi ilə 2025-ci ilə qədər investisiya üçün daha əlverişli mühitin yaradılmasına nail olunması nəzərdə tutulmuşdur.

Beləliklə, sənayenin strukturunun təkmilləşdirilməsi, sənaye parkları və məhəllələrinin təşkilinin genişləndirilməsi, əsas kapiala investisiyaların cəlb olunması və innovasiyaların tətbiqinin intensivləşdirilməsi, idxalın əvəz edilməsi ilə sənaye istehsalının səmərəliliyinin artırılmasına imkan verəcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycanın statistik göstəriciləri, 2020/elektron resurs/:www.stat.gov.az
2. Нефтяные и газовые проекты «Азербайджан» https://President.az>pages>view>azerbaijan>contranst
3. Реформы нефтяном секторе Азербайджана – о потенциале и новых перспективах.
4. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəriəsi https://president.az>view
5. https://Mida.gov.az>docments>PDF

***Аббасова Нармина***
***Садыгова Сабина***

**РАЗВИТИЕ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА
В ПЕРИОД НЕЗАВИСИМОСТИ**

***РЕЗЮМЕ***

В статье рассмотрены направления развития промышленности после получения независимости страны. Проанализированы факторы влияющие на динамику объема промышленной продукции, определены неиспользованные резервы, определены структура промышленности, тенденции ее изменения, значение промышленных парков и кварталов в развитии ненефтяной промышленности. Проведен анализ влияния по секторам промышленности средств направленных в основной капитал на обновление производства, создание новых объектов и на повышение конкурентоспособности продукции, а также рекомендованы направления на снижение доли импорта и повышению экспорта.

***Цель*** – Проанализировать текущее состояние отрасли в Азербайджане и определить источники ресурсов для обеспечения ее развития.

***Методология*** – в работе использовались методы сравнительного анализа, статистики и логический подход.

***Результаты исследования*** – показано, что важным резервным источником достижения экономического развития является совершенствование структуры промышленности, расширение индустриальных парков и микрорайонов, внедрение инноваций и тем самым повышение эффективности производства.

***Ключевые слова:*** *промышленность, добывающая и перерабатывающая промышленность, промышленные парки и кварталы, основной капитал*

***PhD. Abbasova Narmina Hamid,***
***PhD. Sadigova Sabina Sabir***

**DEVELOPMENT OF AZERBAIJAN INDUSTRY DURING INDEPENDENCE**

***SUMMARY***

In the article, the directions of development of the industry after independence were obtained. Factors affecting the dynamics of production volume of industrial products were analyzed and unused resources were discovered. The structure of the industry, its changing trend, the importance of industrial parks and neighborhoods in the development of the non-oil industry have been determined. The effect of the funds directed to the fixed capital of the industrial sector on the modernization of production, the creation of new facilities and the increase of the competitiveness of products was investigated, the directions of reducing the share of imports and increasing exports were recommended.

***The purpose –*** It consists of the analysis of the current state of the industry in Azerbaijan and the determination of resource sources to ensure its development.

***Methodology –*** the methods of comparative analysis of statistics and logical approach were used in the research work.

***The results of the study –*** It has been shown that an important reserve source for achieving economic development is the improvement of the industrial structure, the expansion of industrial parks and neighborhoods, the introduction of innovations, and thus the increase of production efficiency.

***Keywords*****:** *industry, mining and processing, industrial parks and estates, fixed capital*

**UOT 33.331**

**Pərvin Soltanlı**
Azərbaycan Texniki Universiteti
*pervin.soltanli@aztu.edu.az*
**Sadiq Həsənli**
Azərbaycan Diplomatik Akademiyası
*sadighasanli@yahoo.com*

# AZƏRBAYCANDA ƏMƏK BAZARI, TƏLƏBLƏR VƏ ZİDDİYYƏTLƏR

*Məqalə bu gün cəmiyyətimizdə mövcud olan ən vacib problemlərdən birinin araşdırılmasına həsr olunmuşdur. Bu Əmək bazarı və təhsil sistemi arasındakı uyğunsuzluqlarla əlaqəlidir. Problem bir tərəfdən əmək bazarı və təhsil sistemi arasında zəif əlaqədən qaynaqlanırsa, digər tərəfdən isə ali təhsil müəsisələrinə qəbul prosesindəki önəmli problemlər və ali təhsil sistemində yeniliklərin çox məhdud və aşağı sürətlə tətbiq edilməsidir ki, bunlar iş axtaran və işəgötürən arasında problemlərə səbəb olur.*

*Araşdırma məqaləsi problemlərin müəyyən edilməsi və bu problemlər üçün həll yollarını təklif edir ki, bunlar effektiv verilənlər və idarəetmə sisteminin qurulması, xarakter və fərdi xüsusiyyətlərə uyğun olaraq ixtisas seçiminə dəstək proqramının tətbiqinə başlanılması və ali təhsildə yenilik və bilik mübadiləsinin inkişaf etdirilməsidirlər.*

*Məqalədə idarəetmənin təkmilləşdirilməsi, məlumatların toplanması, ixtisas seçiminə dəstək proqramının tətbiq edilməsi və müvafiq sahələrin inkişaf etdirilməsi üçün yeniliklər tətbiq edərək, əmək bazarının tələbləri ilə ali məktəblərin verdiyi təhsil arasındakı uyğunsuzluqların azaldılmasının mümkün yolları təhlil edilmiş və qiymətləndirilmişdir.*

***Məqsəd*** – əmək bazarı və təhsil sistemi arasındakı uyğunsuzluqlarla əlaqələli problemlər müəyyən edilərək və bu problemlər üçün həll yollarını təklif edilməsi.

***Metodologiya*** – tədqiqat işində araşdırma və müqayisəli təhlil, sorğu və müsahibə yolu ilə eksper rəyi alınması metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – əmək bazarı və təhsil sistemi arasındakı uyğunsuzluqlarların aradan qaldırlıçasına töhvə vermək.

***Açar sözlər:*** *əmək bazarının tələbləti, ali təhsil və əmək bazarı arasında ziddiyyətlər*

## Giriş

Hazırda əmək bazarının sistemli təhlili və tənzimlənməsi həm insan resurslarının idarə olunması, həm də yeni iş yerlərinin açılması üçün çox vacibdir. Əmək bazarının mexanizmi işəgötürənlərlə işləmək qabiliyyəti olan insanlar arasında əlaqələr və razılaşmalardan ibarətdir. Şirkətlər iqtisadiyyatın ehtiyaclarına cavab verən əşyalar və xidmətlər hazırlamaqda onlara kömək edə biləcək insanları işə götürmək istəyirlər. Azərbaycanda dövlətin sosial-iqtisadi siyasətinin ən mühüm məqsədlərindən biri də ölkədə hər kəsin öz ehtiyaclarına uyğun işlə təmin edilməsi məqsədi ilə əmək bazarına nəzarət etməkdir.

Qeyri-neft sektorunun inkişafına kömək məqsədilə həyata keçirilən tədbirlər, regional infrastruktura irimiqyaslı investisiyalar, regional infrastrukturda, biznes və infrastruktur obyektlərində yeni iş yerlərinin yaradılması kimi müxtəlif proqramlar

sayəsində ölkə iş yeni yerləri yaradır. Pandemiya səbəbindən əmək bazarının strukturunun dəyişəcəyini və bundan sonra yeni təlim sistemlərinin işə salınmasının lazım olacağını proqnozlaşdırmaq üçün mütəxəssis olmaq lazım deyil. Bunlara antiböhran mütəxəssisləri və maliyyə məsləhətçiləri, həmçinin informasiya texnologiyaları mütəxəssisləri, proqramçılar, məzmun menecerləri, elektron ticarət mütəxəssisləri və s. Bu işlərə hazırda bazarda böyük tələbat var. Bu kimi şəxslər rəqəmsal işlərdə çalışan insanlara nümunədir.

Dövlət səviyyəsində müəyyən siyasət və həyata keçirilən proqramlara rəğmən, gənclər hələ də iş tapmaqda problemlər yaşayırlar. Hamıya kifayət qədər iş yeri yoxdur və bir çox gənc işsizlik səbəbindən ölkəni tərk edir. Əmək bazarının ehtiyaclarını ödəmək üçün lazımi bacarıqlara malik olan kifayət qədər insan yoxdur. Bu, bir çox fərqli iş üçün aşağı maaşın olmasında özünü göstərir.

Nəticədə məşğulluq siyasətini mütəmadi olaraq dəyişmək lazımdır. Bunun üçün əmək bazarının bir çox müxtəlif sahəsində sistemli addımlar atmaq vacibdir. İqtisadiyyat və insan kapitalının inkişafı üzrə ekspert Rəşad Həsənov bildirib ki, Azərbaycanda insan kapitalının inkişaf səviyyəsi digər yerlərlə müqayisədə çox aşağıdır [9]. O, bildirir ki, Rəqəmsal texnologiya və informasiya texnologiyaları iqtisadiyyatda daha çox yayıldıqca bu sahədə daha çox iş yerləri olacaq. Əmək bazarının ehtiyaclarına uyğun olaraq, bir çox müxtəlif sahələrdə insanları yetişdirmək heç də asan deyil. Aparılan sorğular Azərbaycan-da əksər şirkətlərin yeni yaranan vəzifələr üzrə işçilər tapmaqda çətinlik çəkdiyini ortaya çıxarır. Son illərdə xarici ölkə vətəndaşlarının ölkəmizdə işlərə cəlb edilməsi artmaqdadır və bu əlavə xərc deməkdir. Bu yeni ideyaların həyata keçirilməsi və müştərilərin problemlərinə cəld reaksiya verilməsində gecikmələrə gətirib çıxararır. Əgər Azərbaycan resurs və ağır əmək tələb edən iqtisadiyyatdan daha çox innovasiyalı və elmə əsaslanan iqtisadiyyata keçmək istəyirsə, bunlara həssaslıqla yanaşmalıdır. Epidemiya Azərbaycan iqtisadiyyatı üçün böyük təhlükə olduğuna görə, bu çağırış əmək bazarında mövcud tendensiyaları yenidən nəzərdən keçirmək imkanı yaradır. Pandemiya səbəbindən tədricən yox olacaq bəzi peşələr də olacaq [10].

Mütəxəssislər yeni ixtisaslar və bazar tələbatları ilə ayaqlaşa bilmək üçün çoxlu müxtəlif şeyləri bilməlidirlər. Bunun üçün yeni tədris üsullarından istifadə edilməlidir. Təhsil alaraq diplom əldə etmək insanlara mövcud işlərində faydalı olmağa kömək etmir. Azərbaycanın dünyada ilk 1000-likdə yer alan cəmi 2 universiteti var [11]. Əksər ölkələrdə işçilərinin yaxşı təlim keçmiş olduğundan əmin olmaq üçün təhsil müəssisələri və şirkətlər arasında işlərinin əlaqələndirilməsi ilə bağlı müqavilələr var. Bunlar məhsul və xidmətlər üçün standartlar, spesifikasiyalar və keyfiyyət göstəricilərini təyin etməyə kömək edən şirkətərdir. Onlar bu prosesdə tərəfdirlər və maliyələ ayırmaqda maraqlıdırlar. Şirkətlər öz məqsədləri üçün yeni əməkdaşları işə qəbul edir, lakin heç bir universitet bazarın tədqiqi və təhlili əsasında ixtisaslar hazırlamır. Yəni əslində hansı ixtisasa əmək bazarında nə qədər ehtiyacın olduğunu və nə qədər faydalı olduğu bilinmir. Azərbaycanda cari ehtiyaclara uyğun işçilərin təlimi strategiyasının hazırlanması əsas prioritet olmalıdır, ona görə də ƏƏSMN bildirir ki, hazırda təlim proqramlarına cari əmək bazarı baxımından yanaşılır [9].

**Metodologiya** hissəsində mövzunu dərindən təhlil etmək üçün tələb olunan məlu-matların necə toplandığı sorğu təşkil olunmuşdur. Məlumatlar müxtəlif universitetlərin məzunu olmuş 35 şəxsin sorğunu cavablandırması vasitəsilə toplanmışdır. Azərbaycanda ali təhsil və əmək bazarı arasındakı ziddiyyətlərin mənbələrini müəyyən etmək üçün respondentlərə çoxseçimli və qısa cavablı suallar verilib. Sorğudakı suallar aşağıdakı kimidir:

1. Neçə yaşınız var?

2. Peşə seçimində valideynləriniz sizə hər hansı bir şəkildə təsir göstəriblərmi?
3. Əgər peşə seçərkən valideynlərinizin sizə hər hansı təsiri olubsa, bu təsirin hazırda təhsilinizə və ya karyeranıza mənfi təsir etdiyini düşünürsünüzmü? (Məsələn, sizcə, hazırda öz sahənizə uyğun iş tapmaqda çətinlik çəkirsinizmi və ya ixtisasınıza uyğun olmayan bir sahədə çalışırsınızmı?)
4. Peşə seçərkən hər hansı peşəkar “mərkəz”dən (məsələn, karyera inkişafı mərkəzi və ya müvafiq sahə üzrə mütəxəssis) dəstək almısınızmı?
5. Sizcə, yuxarıdakı “mərkəz” ixtisas seçimində faydalıdır?
6. İxtisasınız üzrə kifayət qədər biliyə sahib olduğunuzu düşünürsünüzmü?
7. Hal-hazırda öz sahəniz üzrə çalışırsınızmı?
8. Əgər hazırda öz sahənizdə işləmirsinizsə, əsas səbəb nədir?
9. Sizcə, ixtisasınız bu gün aktualdırmı?
10. Ali təhsil müəssisələrinə qəbul imtahanı zamanı istədiyiniz ixtisasa qəbul oldunuzmu?
11. Əgər ali təhsil müəssisələrinə qəbul imtahanı zamanı istədiyiniz ixtisasa qəbul olunmamısınızsa, bunun təhsilinizdə və karyeranızda ciddi mənfi nəticələri olubmu?
12. Sizcə, cəmiyyətimizdə “diplom heyranlığı” anlayışı hələ də mövcuddur?
13. Sizcə “diplom heyranlığı” anlayışı vacibdirmi?

Bundan əlavə, müvafiq sahə üzrə iki ekspertin rəyini aldıq və verilən suallar aşağıdakılardır:

1. Ölkəmizdə əmək bazarında əsas problemlər hansılardır?
2. İşəgötürənlərin tələblərinə cavab verən bacarıq və keyfiyyətlərə malik kadrların tapılmasında yaranan çətinliklərin əsas səbəbləri hansılardır?
3. Ölkəmizdə təhsil sistemi ilə əmək bazarı arasında daimi əlaqə və harmoniya mövcuddurmu?
4. Gənclər bu gün əmək bazarında öz ixtisaslarına uyğun iş tapa bilirlərmi? Buradakı çətinliklərin əsas səbəbləri nələrdir?
5. Gənclər əmək bazarına daxil olduqda orta və ali təhsil müddətində kifayət qədər bilik və bacarıqlara malikdirlərmi? Gənclər üçün hansı əlavə bacarıqlar vacibdir?
6. Ali təhsil müəssisələrinə qəbul prosedurlarında hansı yenilikləri və dəyişiklikləri görmək istərdiniz?
7. Ölkəmizdə abituriyent və tələbələrin karyera inkişafı ilə bağlı peşəkar dəstək alması üçün kifayət qədər imkanlar varmı?
8. Əvvəlki dövrlə müqayisədə (məsələn, 10-15 il əvvəl) indi ali təhsil haqqında diplom hələ də vacib olaraq qalırmı? Burada diplommu, və ya bilik və bacarıqmı daha vacibdir?
9. İxtisas seçimi zamanı abituriyentlərin yaxın qohumları və ya ailəsi tərəfindən yönləndirilməsi müsbət haldırmı? Bizim ölkədə belədir? Bunun müsbət və mənfi nəticələr nələrdir?

**Problemlərin müəyyən edilməsi**

**İxtisasların prioritetliyi baxımından əmək bazarının tələbi ilə ali təhsil müəssisələrinin təklifi arasında ziddiyyət**

Qloballaşma şəraitində bütün dünya ölkələri kimi ölkəmiz də beynəlxalq səviyyədə gedən proseslərə qoşulur, rəqəmsallaşma və innovasiya bütün sahələrdə olduğu kimi əmək bazarında da yeni meyillər və tələblər formalaşır. Digər tərəfdən, hər il minlərlə gənc əmək bazarına daxil olur və müvafiq olaraq onlar öz ixtisasları üzrə iş tapmağa və əmək baza-

rının daim dəyişən tələbləri ilə ayaqlaşmağa çalışırlar. Bütün bu çətinliklərin öhdəsindən gələ bilmək üçün əmək bazarı iştirakçılarının ixtisaslaşma sahəsinin vacibliyini qeyd etmək lazımdır. Bu mərhələdə əsas məqam əmək bazarına daxil olan gənclərin ixtisaslarının aktuallığı və əmək bazarında bu ixtisasa tələbatın daim dəyişən səviyyəsidir.

Sorğunun nəticələrinə görə, respondentlərin 41%-i hazırda öz sahələrində işləmədiyini bildirib.

DMA-nın məlumatına görə, Azərbaycanda əmək bazarındakı real vəziyyəti təsvir etmək üçün bir sıra təhlillər və araşdırmalar aparılıb. Araşdırma və təhlillər nəticəsində müəyyən edilib ki, son beş ildə Azərbaycanda ən çox əmək müqaviləsi bağlanan ərzaq və qeyri-ərzaq mallarının satıcıları, ictimai iaşə işçiləri, rəhbər işçilər, müəllimlər, tikinti və sənaye müəssisələri üzrə fəhlələr, ustalar, kommunal xidmətlər işçiləri, müxtəlif nəqliyyat vasitələrinin sürücüləri və mühafizəçilər. [2] Agentliyin məlumatına görə, gələcəkdə Azərbaycanda məlumatların təhlili, süni intellekt, böyük verilənlər bazasının idarə edilməsi, rəqəmsal marketinq və strategiya, həmçinin proseslərin avtomatlaşdırılması üzrə mütəxəssislərə böyük tələbat olacaq. Digər tərəfdən, kargüzarlıq, mühasibat uçotu, audit, müştəri xidməti, maliyyə təhlili, satış nümayəndələri və inşaat işçiləri əmək bazarında aktuallığını itirməyən peşə və ixtisaslar sırasındadır [2].

Qurumdan verilən məlumata görə, bu istiqamətdə həyata keçirilən tədbirlərə misal kimi peşə məktəblərinin yenidən qurulması və əmək bazarının tələbatına uyğun peşə hazırlığının təşkilini göstərmək olar [2].

Bu istiqamətdə həyata keçirilən tədbirlərə daha bir misal olaraq Nazirlər Kabinetinin 95 nömrəli qərarına əsasən ƏƏSMN yanında “Əmək Bazarı və Sosial Müdafiəsi üzrə Milli Rəsədxana” publik hüquqi şəxsin yaradılmasını göstərmək olar [4].

Belə ki, Rəsədxananın əsas vəzifələrinə əmək bazarının cari və gələcək vəziyyətinin qiymətləndirilməsi, məşğulluğun strateji sahələrinin müəyyən edilməsi, onların gələcək inkişaf meyllərinin müəyyən edilməsi daxildir. Fəal əhali, məşğulluq, işsizlik və onlara təsir edən sosial-iqtisadi şərait [4].

Digər tərəfdən, bu istiqamətdə həyata keçirilən tədbirlərə misal olaraq “Azərbaycan Respublikasının 2019-2030-cu illər üçün Məşğulluq Strategiyası” nın qəbulunu göstərmək olar [5].

Strategiyanın qəbulu mövcud demoqrafik meyillər və inkişaf perspektivləri, ölkənin müəyyən edilmiş iqtisadi prioritetləri əsasında Azərbaycan Respublikasında səmərəli məşğulluğun təmin edilməsinə yönəlmiş uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılmasına əsaslanır [5].

Bununla belə, ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin siyahısını artırmaq olar, lakin problemin əsas səbəbi hələ də qalmaqdadır.

Bu gün əmək bazarında əsas problemlərdən biri işəgötürənlərlə təhsil sektoru arasında əməkdaşlığın olmamasıdır. Bu problemi təhsil sektoruna da aid etmək olar. Texnologiyanın inkişafı ilə bağlı olaraq əmək bazarında olan ixtisaslar və ya peşələr dəyişsə də, onları öyrədəcək ixtisaslar 10-15 ildən sonra təhsil müəssisələrinə daxil ola bilir. Bu o deməkdir ki, biz ən yaxşı halda 10-15 ildən sonra bu ixtisaslardan yerli kadrlar ala bilərik. (sahə üzrə ekspert, İlkin Məcidovla müsahibədən, 2 sentyabr 2022-ci il)

Burada əsas məsələ ondan ibarətdir ki, ölkəmizdə təhsil sistemi, daha dəqiq desək, ali təhsil müəssisələrində tədris olunan ixtisaslar əmək bazarının prioritetliyi, əmək bazarında tələb olunan ixtisaslarla birbaşa əlaqəli deyil [6].

**Ali təhsil müəssisələrinə qəbul prosedurlarındakı boşluqlar**

Məktəblilər ali təhsilə qəbul olunmazdan əvvəl ixtisaslaşmalıdır. Eyni sinifdə oxuyan

şagirdlərə 11 ildən sonra mühəndis, müəllim, iqtisadçısan demək doğru deyil. Heç bir balıq uçmağa məcbur edilə bilməz, heç bir quş üzməyə məcbur edilə bilməz. Bundan sonra bəzi sahələrdə 4 il universitetdə oxumaq əvəzinə dövlətin diqqətində olan peşələr üzrə sertifikatlı kurslar vermək olar. Bununla da peşə məktəblərinin inkişafına təkan vermək olar. (Cənab İlkin Məcidovla şəxsi söhbətdən, 2 sentyabr 2022-ci il)

Ölkəmizdə ali təhsil müəssisələrinə qəbul üçün keçirilən imtahanlarda iştirak edən namizədlərin istədikləri ixtisasları seçməkdə maneələr var. Belə ki, ixtisas seçimi abituriyentin qəbul imtahanında topladığı bala uyğun aparılır. Məsələn, əgər abituriyent hüquq təhsili almağı istəyərək öz gələcəyini hüquq sahəsində qurmağı planlaşdırırsa, o, DİM-in təşkil etdiyi imtahanda topladığı bala əsasən tarix və müəllimlik ixtisasına qəbul oluna və məcbur qalıb bu sahədə işləməli ola bilər. Bu ixtisaslar və peşələr arasında nə qədər uçurum olduğunu görmək çətin deyil. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi ərizələrinə nəzər saldıqda aydın olur ki, namizədin ixtisas seçimi ərizəsində ilk seçimi hüquq, sonuncu isə ibtidai sinif müəllimliyidir. Belə ki, ali təhsil haqqında diplom namizəd üçün meyar hesab olunur [7].

Ölkəmizdə təhsil müəssisələrinə qəbul TN-in müxtəlif sahələr üzrə verdiyi plana uyğun olaraq həyata keçirilir və ali təhsil müəssisələrinə qəbula cavabdeh olan qurum DİM-dir. Digər tərəfdən, hər bir şagird 11 illik təhsil müddətində müxtəlif fənlər üzrə orta təhsil alır, şagirdlər məktəbdə qiymətləndirilir və qiymətləndirmənin nəticələri TN-nin verdiyi arayışda qeyd olunur.

İki fərqli qütb, bir tərəfdən TN, digər tərəfdən isə DİM arasındakı ziddiyyətləri qeyd etmək yerinə düşərdi. Belə ki, hər bir şagirdin 11 illik ümumi təhsilini qiymətləndirən TN-nin verdiyi sertifikat DİM tərəfindən tanınmır. Belə ki, ali məktəblərə qəbulun qiymətləndirilməsi əsasən abituriyentlərin DİM-in keçirdiyi imtahanda topladığı ballar əsasında aparılır. [8]

Digər tərəfdən, bu prosedur ona gətirib çıxarır ki, hər bir abituriyentin əsas məqsədi ali məktəblərə qəbul üçün imtahan prosedurlarının tələb etdiyi istiqamətdə biliklərini artırmaq və imtahanda uğur qazanmaqdır. Bununla belə, hər bir əmək bazarı iştirakçısının öz ixtisasına uyğun uğurunu şərtləndirən ən mühüm amil, şübhəsiz ki, onun aldığı ali təhsillə bağlıdır. Bəs DİM-in təşkil etdiyi ali məktəblərə qəbul imtahanı kimi prosedurlar məzun olduğu zaman tətbiq edilsəydi, daha yaxşı nəticə əldə etməzdimi? [8].

**Ali təhsildəki innovasiyaların məhdudluğu**

Təhsildə keyfiyyət və innovasiya həm tələbələr üçün, həm də təhsil işçiləri üçün çox vacib məsələdir. İndiyədək ölkəmizdə həyata keçirilən çoxsaylı tədbirlərə baxmayaraq, bu sahədə hələ də bir sıra problemlər qalmaqdadır. Daim dəyişən cəmiyyətimizdə əmək bazarının tələbləri də müasir çağırışlara uyğun yenilənir.

Ölkəmizdə əmək bazarındakı problemlər, əmək bazarının tələb etdiyi ixtisaslarla abituriyentlərə təklif olunan ixtisasların uyğunsuzluğudur. Daha mühüm məsələ ali təhsil müəssisələrində bu prioritet ixtisaslar üzrə tədris olunan proqramlar üzrə bilik və bacarıqların namizədin əmək bazarında uğur qazanmasında hansı dərəcədə rol oynamasıdır.

Deməli, son 20 ildə ali təhsil müəssisələrinin kurikulumlarını müqayisə etsək, görərik ki, ciddi dəyişiklik olmayıb [7].

Sorğumuzun nəticələrinə görə, respondentlərin 24 faizi öz ixtisasları üzrə biliklərinin az olmasının səbəbi kimi ali təhsil müəssisələrində mövcud problemləri göstərib.

Burada əsas problem ondan ibarətdir ki, bir sıra təhsil müəssisələrinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar (səriştələr) verən maddi-texniki bazası əmək bazarında

ixtisaslar üzrə tələblərə cavab vermir (Sahə üzrə exspert İxtiyar Abdullayevlə müsahibədən, 1 sentyabr 2022-ci il).

**Təklif olunan həll yolları**

**Məlumatların toplaması və idarə edilməsi sistemlərinin yaradılması**

Əmək bazarının tələbləri ilə ali təhsil müəsisələrinin verdiyi təhsil arasında ziddiyyət olduğu üçün bu problemin əsas mənbəyi yeni məzunlar, əvvəlki illərin məzunları və ya gələcəkdə məzun olacaq şəxslər arasında müvafiq bilik və bacarıqlar arasında fərqlərin olmasıdır. Bu problemi həll etmək üçün bəzi ölkələr bir neçə sistem tətbiq ediblər.

İsveçdə İMİAİ əmək bazarından dəqiq bacarıqlara ehtiyac haqqında məlumat əldə etmək üçün təxminən 5000-dən çox firmadan əldə etdiyi sorğu məlumatları vasitəsilə hər ay diqqətlə yoxlayır [13]. Sorğunun sualları gələcək tendensiya gözləntiləri, cari ehtiyaclar, işə qəbul strategiyaları və s.-dən ibarətdir. Sorğunun keçirilməsində məqsəd hökumət orqanlarına və digər maraqlı tərəflərə əmək bazarının tələbində gözlənilən dəyişikliklər, qarşıdan gələn tendensiyalar barədə qabaqcadan məlumat verməkdir.

Məlumat toplama sistemi formalaşdıqdan sonrakı addım dövlət orqanlarının hazırkı və gələcəkdə ehtiyac duyulacaq bilik və bacarıqların müəyyənləşdiriləcəyi Şuranı yaradaraq əməkdaşlıq üçün dövlət və özəl sektordan nümayəndələri bura daxil ediblər. 2017-2021-ci illərdə Norveç “Nasjonal Kompetanspolitisk Strategi” nin (Bacarıq Siyasəti üçün Strategiya) əsas hissəsi kimi “Bacarıqlar Siyasəti Şurası” nı [14] təsdiqlədi və bu Şuranın əsas prinsipi müvafiq strategiyaların qəbul edilməsi və maraqlı tərəflər arasında tərəfdaşlıqların təşviq edilməsidir. Burada maraqlı tərəflər olaraq təhsil, əmək/sosial məsələlər, iqtisadi inkişaf və s. ilə məşğul olan dövlət qurumları, qeyri-hökumət təşkilatları, olmaqla 15 üzvdən ibarətdir. Şuranın əsas vəzifəsi bu sahə ilə bağlı mövcud siyasəti proqramlarının yenidən nəzərdən keçirilməsi və qiymətləndirməsi və yeni siyasətlər hazırlayaraq bunun üçün fəaliyyət planını təklif etməkdir.

**İxtisas seçiminə dəstək proqramının tətbiq edilməsi**

Problemin təsvirində qeyd edildiyi kimi, tələbələr universitetə qəbul olunmazdan əvvəl kifayət qədər biliyə malik olmalıdırlar. Hazırda bəzi özəl məktəblər şagirlərinə onların daha uğurlu olacaqları peşələri seçməyə yardım edirlər. Oradakı müəllimlər hər bir şagirdi müşahidə edir, onların fərdi xüsusiyyətlərini, maraq və imkanlarını müəyyənləşdirir, sonra onlara gələcək ixtisas seçimində köməklik göstərirlər. Digər tərəfdən, nəzərə alsaq ki, özəl məktəb şagirdləri ölkədəki ümumi şagirdlərin çox az hissəsini təşkil edir, siyasətin dövlət məktəblərində də tətbiqi daha səmərəli olar. Bu proqram orta məktəb və universitetlər arasındakı körpü rolunu oynayacaq. Belə proqram İngiltərədə tətbiq edilir və çox uğurludur.

Birləşmiş Krallıqdakı müxtəlif universitetlər tərəfindən bu proqram təklif olunur və proqrama daxil olmaq üçün tələblər motivasiya məktubu, IELTS-in “6” səviyyəsi və iş təcrübəsidir (əgər varsa). Proqramın müddəti bir ildir və onun həmin universitetlərin illik təhsil haqqı ilə eynidir. Bu proqram ölkəmizdə tətbiq olunarsa, proqramın dəyəri universitetin illik ödənişi ilə eyni olmalı, dövlət universitetidirsə ödənişsiz olmalıdır.

**Ali təhsildə innovasiya və bilik mübadiləsinin inkişafı**

Ali təhsil müəssisələrində təhsilin keyfiyyəti və innovasiyanın zəif olması təkcə savadlı işçi qüvvəsinin azalmasına deyil, həm də bir ölkənin iqtisadi inkişafının azalmasına gətirib çıxarır. Nəhayət, bu nəticələri azaltmaq üçün sahibkarlıq təhsili təklif etməklə innovasiyaların həyata keçirilməsi, universitet-sənaye tərəfdaşlığının təmin edilməsi

sahibkarlıq bacarıqlarını, rəqəmsal texnologiyalar və tədqiqat məhsullarını artıracaq. Bu strategiya və təcrübələr dövlət islahatları və dövlət-özəl sektor arasındakı birgə fəaliyyətlə dəstəklənərsə, inkişaf sürətlə baş verir.

İtaliyada dördüncü sənaye inqilabını uyğunlaşdırmaq üçün hökumət 2017-ci ildə milli sənaye planı kimi “Müəssisə 4.0” [14] strategiyasını həyata keçirmişdir. Bu strategiyanın əsas məqsədi xüsusən kiçik və orta ölçülü şirkətləri həlledici mexanizmlərlə təmin etməkdir. Bunlar maliyyə-inzibati dəstək, vergi inzivatçılığı, tədqiqat və inkişaf kimi alətləri özündə birləşdirən mərkəzlərdir. Bu mərkəzlər dövlət-özəl tərəfdaşlıq çərçivəsində ali təhsilə innovasiyaların cəlb edilməsi üçün siyasət təşəbbüskarı kimi çıxış edirlər. Təcrübə mərkəzləri vasitəsilə universitetlər layihənin təkmilləşdirilməsinin sürətləndirilməsində araşdırma və inkişaf dəstəyi verərək, məsləhətçi kimi böyük rol oynayırlar. Son məlumatlara görə, artıq 70 universitet və 500-dən çox şirkət bu layihəyə [14] cəlb olunub və təcrübə, innovativ və tədqiqat layihələrini birləşdiriblər və nəticədə təkcə firmalar deyil, həm də universitetlər də bu layihədən faydalanırlar. Tələbələr və universitet işçilərinin tədqiqat prosesi və biznes proseslərinin idarə edilməsinə cəlb edilməsi, tərəfdaş şirkətlərdən sahib olduqları bilgi və təcrübənin əldə edilməsi və nəhayət bu məlumatlardan gələcək elmi tədqiqatlar üçün bünövrə kimi istifadə etmək şansı əldə edilir.

**Nəticə**

Bu məqalənin hazırlanmasında əsas məqsəd ali təhsil və əmək bazarının tələbat arasında mövcud olan uyğunsuzluğu təhlil etmək və öyrənməkdir. Beləliklə, əmək bazarında işəgötürənlərin və işçilərin üzləşdiyi bu problemin əsas mənbələri bir tərəfdən əmək bazarı ilə təhsil sistemi arasında əlaqələrin zəif olması, digər tərəfdən isə ali təhsil müəsisələrinə qəbul prosesindəki önəmli problemlər və ali təhsil sistemində yeniliklərin çox məhdud və aşağı sürətlə tətbiq edilməsidir. Müəyyən edilmiş problemlər üçün həll yollarını təklif edir ki, bunlar effektiv verilənlər və idarəetmə sisteminin qurulması, xarakter və fərdi xüsusiyyətlərə uyğun olaraq ixtisas seçiminə dəstək proqramının tətbiqinə başlanılması və ali təhsildə yenilik və bilik mübadiləsinin inkişaf etdirilməsidir.

Verilənlərin toplanması bazasının yaradılması müvafiq dövlət orqanı tərəfindən həyata keçiriləcək, gələcək və cari proqnozlaşdırma üçün baza rolunu oynayacaqdır. Bacarıqların təkmilləşdirilməsi ilə bağlı bütün maraqlı tərəfləri əhatə edən şura yaradıldıqda lazımi bacarıq boşluğu müəyyən edəcək və universitetlərin ixtisaslaşma proqramlarını inkişaf etdirəcək. Boşluğun aradan qaldırması üçün ixtisas seçiminə dəstək proqramı yaradılacaqdır. Baxmayaraq ki, bu proqramın həyata keçirilməsi qısa müddətli perspektivdə müəyyən xərc tələb edəcək (çünki müəllimlər proqramdan əvvəl təlim keçməlidirlər), bununla belə, uzunmüddətli perspektivdə daha çox fayda verəcək, çünki bu, tələbələrin işdəki məhsuldarlığını artıracaq, buna görə də ümumi iqtisadiyyat üçün səmərəli olacaqdır.

Üçüncüsü, işçi qüvvəsi tərəfi ilə təhsil müəssisələri arasında innovasiya və bilik mübadiləsini özündə birləşdirən bir sistem tətbiq oluna bilər ki, əsasən böyük olmayan şirkətlərə ehtiyac duyduğu dəstək göstərilərək onlar inkişaf etdiriləcək.

Beləliklə, təkcə elmi araşdırmalar vasitəsilə şirkətlər böyüməyəcək, həm də universitetlər ən müasir məlumatlardan, sahib olduqları bilgi və təcrübəni əldə edəcəklər, həm də tələbələr bu innovasiya mərkəzlərində iştirak edərək qarşıdan gələn iş həyatı mərhələsinə hazır olacaqlar. Yuxarıdakı problemlərin təhlil etdikdə qeyd olunan üç siyasət (həll yolu) variantı birgə həyata keçirilməlidir, çünki onların hər biri problemin əsas səbəblərini ayrı-ayrılıqda həll edir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Səlimov. (2020, 6 iyul). “Sənaye inqilablarında tarixi yol” mövzusunda məqalə: https://www.digital.gov.az/digitalazerbaijan/az/blog/44/dorduncu-senaye-inqilabi-suretli-inkisaf-insanlari-gozleyen-tehluke
2. Mehman Həsənov. (2021, 23 aprel). Azərbaycanda işsizlik: niyə iş tapmaq getdikcə çətinləşir? BBC News Azərbaycanca: https://www.bbc.com/azeri/azerbaijan-56612898
3. Azərbaycan Respublikasının Prezidenti. (2021, yanvar 2021). Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiyası Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: http://e-qanun.az/framework/46604
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti. (2020, 17 mart). Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində “Əmək Bazarı və Əhalinin Sosial Müdafiəsi üzrə Milli Rəsədxana” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı: http://www.e-qanun.az/framework/44811
5. Azərbaycan Respublikasının Prezidenti. (2018, 18 oktyabr). “Azərbaycan Respublikasının 2019-2030-cu illər üçün Məşğulluq Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: http://e-qanun.az/framework/40416
6. Dünya. (2021, 22 iyun). “Ali təhsil sistemi əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır: https://musavat.com/news/ali-tehsil-sistemi-emek-bazarinin-teleblerine-uygunlasdirilmalidir_809082.html
7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2021, 31 avqust). Əmək bazarına uyğun ixtisas seçimi-Karyera planlaşdırılmasında problemlər. YouTube.: https://youtu.be/ItGchSV-Gzg
8. AKI INTER. (2021, 30 aprel). Təhsil eksperti Kənan Cəlilov: Azərbaycanda təhsil, TQDK. YouTube: https://youtu.be/WRYz7QB6fR4
9. Şəfiqə Nazimqızı. (2020, 3 iyun). Article on "Təhsil sistemi ilə iş bazarı dəyişikliklərində problemlər var.": https://report.az/elm-ve-tehsil-xeberleri/emek-bazarinda-hansi-yeni-peseler-teleb-olunur/
10. Corkery & Gelles. (2020, 10 aprel). Robotlar haqqında məqalə Pandemiya avtomatlaşdırmanı sürətləndirdiyi üçün ələ keçirməyə xoş gəlmisiniz: https://www.nytimes.com/2020/04/10/business/coronavirus-workplace-automation.html
11. Xəzər Universitetitttttttttt. (2021, 18 avqust). QS World University Rankings üzrə məqalə: “Xəzər Universiteti hələ də Azərbaycanın aparıcı universitetidir”: https://www.khazar.org/en/news/3025
12. ATƏT (2020), "Case study: Norveçin Bacarıqlar Siyasəti Şurası və Gələcək Bacarıqlara Ehtiyaclar Komitəsi", Bacarıq Sistemlərinin İdarə Edilməsinin Gücləndirilməsi mövzusunda: Altı OECD Ölkəsindən Dərslər, OECD Nəşriyyatı, Paris, https://doi.org/10.1787/d416bb6f-en
13. Cedefop (2017). İsveçdə bacarıqların gözlənilməsi. Bacarıqlar Panorama Analitik Xüsusiyyətləri:https://skillspanorama.cedefop.europa.eu/en/analytical_highlights/skills-anticipation-sweden
14. OECD/Avropa İttifaqı (2019), İtaliyada Ali Təhsildə Sahibkarlığın və İnnovasiyanın Dəstəklənməsi, OECD Bacarıqları Araşdırmaları, OECD Nəşriyyatı, Paris:
15. https://doi.org/10.1787/43e88f48-en Arden. (2019, 2 oktyabr). Girişə Təməl İl: İzah edildi https://arden.ac.uk/knowledge-base/learning-styles/blended-learning/foundation-year-entry-explained
16. Sorğu. İxtisas seçimi və iş yerləri. https://www.surveyrock.com/ts/7YZK3O

**Parvin Soltanli**
**Hasanli Sadiq**

**LABOR MARKET, DEMANDS AND CONTRADICTIONS IN AZERBAIJAN**

***SUMMARY***

This article is devoted to the study of one of the most important problems that exist in our society today. This is related to the mismatches between the labor market and the education system. On the one hand, the problem stems from the weak connection between the labor market and the education system, and on the other hand, the important problems in the process of admission to higher education institutions and the very limited and slow implementation of innovations in the higher education system, which cause problems between the job seeker and the employer.

The article coming up with several policy options for every problem in the corresponding topic, such as establishing of effective information and governance system, pre-university foundation program, and developing innovation and knowledge exchange in higher education.

The article analyzes and evaluates the possible ways to reduce the discrepancies between the demands of the labor market and the education system by applying innovations for improving management, data collection, implementing analyzed and evaluated possible ways of decreasing imbalance between labor market requirements and education given by higher institutions, in accordance with enhancement of governance, information collection, pre-university foundation programs, advancement of innovation that are supposed to favorably deal with particular matter and developing relevant fields.

***Purpose of the article –*** Identifying problems related to inconsistencies between the labor market and the education system and proposing solutions for these problems.

***Methodology –*** methods of obtaining expert opinion through research and comparative analysis, survey and interview were used in the research work.

***Research results –*** Contribute to the elimination of discrepancies between the labor market and the education system.

***Keywords:*** *Labor market demand, contradictions between higher education and labor market*

**Парвин Солтанли**
**Гасанлы Садиг**

**РЫНОК ТРУДА, ТРЕБОВАНИЯ И ПРОТИВОРЕЧИЯ В АЗЕРБАЙДЖАНЕ**

***РЕЗЮМЕ***

Данная статья посвящена исследованию одной из важнейших проблем, существующих на сегодняшний день в нашем обществе. Это связано с несоответствием между рынком труда и системой образования. С одной стороны, проблема связана со слабой связью между рынком труда и системой образования, а с другой стороны, важными проблемами в процессе поступления в высшие учебные заведения и очень ограниченным и медленным внедрением инноваций в систему образования. системы высшего образования, которые вызывают проблемы между соискателем работы и работодателем.

В статье предлагается несколько вариантов политики для каждой проблемы в соответствующей теме, таких как создание эффективной системы информации и управления, предуниверситетская программа подготовки и развитие инноваций и обмена знаниями в высшем образовании.

В статье анализируются и оцениваются возможные пути снижения несоответствия между запросами рынка труда и системы образования за счет применения инноваций для

улучшения управления, сбора данных, реализации проанализированных и оцененных возможных путей снижения дисбаланса между требованиями рынка труда и образованием, предоставляемым высшие учебные заведения, в соответствии с улучшением управления, сбором информации, предуниверситетскими программами, продвижением инноваций, которые должны благоприятно решать конкретный вопрос и развитие соответствующих областей.

***Цель статьи*** - Выявление проблем, связанных с несоответствием между рынком труда и системой образования, и предложение решений этих проблем.

***Методология*** – в исследовательской работе использовались методы получения экспертного мнения посредством исследования и сравнительного анализа, опроса и интервью.

***Результаты исследований*** – Способствуют устранению несоответствий между рынком труда и системой образования.

***Ключевые слова:*** *спрос на рынке труда, противоречия между высшим образованием и рынком труда*

**Gasimovi İashar**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant
*qasimovyasar06@gmail.com*
Elmi rəhbər: **Əsgər Əliyev**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d, dosent

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

*Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın ən böyük turizm potensialına malik regionlarından biridir. Rayonun ilboyu cəlbedici təbiəti ilə yanaşı, tarixi və mədəniyyəti də çox zəngindir. Quba-Xaçmaz iqtisadi rayonunun turizm potensialının yüksək olması dövlətə həm iqtisadi, həm də sosial fayda verir. Bəzi Avropa ölkələrinin təcrübəsində göründüyü kimi, iqtisadi cəhətdən inkişafı çətin olan dağlıq bölgələrdə turizmin inkişafı ilə böyük iqtisadi canlanma müşahidə edilmişdir.*

*İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr son illər turizmi inkişaf vasitəsi kimi görür və turizm sektoruna böyük önəm verirlər. Bundan əlavə, bu ölkələr turizm təklif potensialını qiymətləndirərək və mövcud resurslardan istifadə etməklə turizm fəaliyyətlərində iştiraka üstünlük verirlər. Bütün bunları nəzərə alaraq məqalədə Azərbaycan turizminin inkişafı baxımından Quba-Xaçmaz iqtisadi rayonunun turizmin inkişaf perspektivləri və imkanları qiymətləndirilmiş və mövcud vəziyyət üzə çıxarılmağa çalışılmışdır.*

***Məqsəd:*** Quba-Xaçmaz iqtisadi rayonunun turizmin inkişaf perspektivləri və imkanlarının qiymətləndirilməsi və mövcud vəziyyətinin müəyyən edilməsi

***Metodologiya:*** tədqiqat işində statistik, analiz, sintez, iqtisadi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi:*** aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Quba - Xaçmaz rayonu Azərbaycanda turizm baxımından ən böyük potensiala malik rayonlardan biri və qış turizmi baxımından ən böyük potensiala malik regiondur.

Qış turizminin inkişafında ən əsas tövsiyə bu sektorda qabaqcıl ölkələrin təcrübəsindən və yardımından yararlanmaqdır. Digər tərəfdən, ölkə daxilində yerli kadrların hazırlanmasına böyük önəm verilməlidir. Bu sektorda fəaliyyətə başlamaq istəyən sahibkarlara dövlət tərəfindən bəzi xüsusi həvəsləndirmə tədbirləri və stimullar verilməlidir.

***Açar sözlər:*** *Quba-Xaçmaz iqtisadi rayonu, tarixi-mədəni abidələr, daxili və xarici turizm, turizm təsərrüfatı, rekreasiya ehtiyatları*

## Giriş

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf proqramının əsas istiqamətlərindən biri respublika regionlarında turizm təsərrüfatının sürətlə inkişaf etdirilməsidir. Azərbaycanın regionları çox zəngin rekreasiya potensialına malik olsa da, bu ehtiyatlardan hələ kifayət qədər istifadə olunmur.

Müasir dövrdə Quba-Xaçmaz iqtisadi rayonunda turizmin inkişaf perspektivləri və onların təsərrüfat cəhətdən qiymətləndirilməsi respublikamız üçün aktual məsələlərdən biri hesab olunur. Quba-Xaçmaz iqtisadi rayonunun təbii şəraiti, tarixi-mədəni abidələri və infrastukturu Xınalıq və Ləzə kimi dağlıq ərazilərdə və dənizkənarı düzənliklərdə daxili və xarici turizmin beynəlxalq səviyyədə inkişafı və turizm mərkəzlərinin yaradılması üçün geniş perspektivlər açır. Bölgədə turizmin inkişaf səviyyəsi inzibati rayonlar üçün

müxtəlifdir.

**Quba-Xaçmaz iqtisadi rayonunda turizm infrastrukturunun formalaşdırılması**

İqtisadi islahatlar şəraitində ölkədə həyata keçirilən əsaslı struktur dəyişiklikləri turizm ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsini, habelə beynəlxalq təcrübənin yeni forma və metodlarından istifadə edilməsi tələblərini qarşıya qoyur. Bütün bunlar turizm sisteminin öyrənilməsini, bu sahədə iqtisadi-coğrafi tədqiqatların aparılmasını, onun bazar iqtisadiyyatı şəraitinə uyğun qurulmasını və təkmilləşdirilməsini tələb edir.

İqtisadi rayonun Azərbaycan Respublikası və Rusiya Federasiyası sərhədində yerləşməsi ona olduqca böyük geosiyasi əhəmiyyət verir. Bu əhəmiyyət rayonun iqtisadi resurslar etibarilə kifayət qədər zəngin olması ilə tamamlanır. Həm də bölgə xarici iqtisadi əlaqələr baxımından fəal bir bölgədir.

Quba-Xaçmaz rayonu mineral su ehtiyatları ilə zəngindir. Şabran rayonunda Qalaaltı mineral suyunu mütəxəssislər Karpat dağlarının ətəyindəki Turuskavets suları ilə müqayisə edir. Böyük Qafqaz silsiləsinin şimal-şərq yamacında mineral bulaqlardan məşhurları Quba rayonunda Cimi, Xaltan, Balbulaq, Xaşı, Düz Bilici mineral sularıdır. Nabran istirahət zonasında mineral və soyuq bulaqlar təbii rekreasiya ehtiyatı olmaqla, kurort təsərrüfatının inkişafı üçün çox əhəmiyyətlidir. Qeyd edək ki, Quba-Xaçmaz rayonunda mövcud olan mineral su ehtiyatının potensial imkanlarından hələ tam istifadə edilmir **[1, səh.819].**




**Şəkil 1.** Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu

*Cədvəl 1*

**Quba-Xaçmaz iqtisadi rayonu üzrə səyahət etmiş turistlərin sayı**

| № | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **Quba-Xaçmaz iqtisadi rayonu** | **4 507** | **6 499** | **3 587** | **8 340** | **14** | **439** |
| Xaçmaz rayonu | 2 641 | 4 957 | 2 299 | 5 819 | 4 | 362 |
| Quba rayonu | 1 313 | 557 | 775 | 1 563 | 10 | 69 |
| Qusar rayonu | 536 | 748 | 507 | 958 | - | 3 |
| Siyəzən rayonu | 15 | 236 | 6 | - | - | - |
| Şabran rayonu | 2 | 1 | - | - | - | 5 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2022

Rayona yerli və xarici investorlar cəlb etməklə, pansionatlar və kurort-istirahət mərkəzləri şəbəkəsini genişləndirmək olar. Quba-Xaçmaz rayonunun landşaftı onun əhatə etdiyi ərazidə eyni deyildir. Belə ki, bölgədə bir neçə landşaft qurşağı ayrılır ki, bunların da özünəxas füsünkarlığı vardır. Bunlar arasında enliyarpaqlı dağ-meşə landşaft qurşağında yüksəkliyinə görə fərqli (alçaq, orta, yüksək) zonalar vardır. Quba, Qusar, Şabran rayonlarında alçaq dağ-meşə landşaft zonası rekreasiya və turizm cəhətdən daha çox mənimsənilmişdir. Ümumiyyətlə, Quba-Xaçmaz rayonunun ərazisinin təqribən 10-11%-i meşələrlə əhatə olunmuşdur. Şahdağ və Altıağac Milli parklarının bir hissəsi Quba-Xaçmaz rayonunun ərazisindədir. Bu Milli parklarda təbiətin rəngarəngliyi və zənginliyi rekreasiya və turizm fəaliyyətini genişləndirmək üçün təbii imkanlardır **[1, səh. 819].**

**Quba-Xaçmaz iqtisadi rayonunda turizm potensialı**

Quba-Xaçmaz rayonuna gedənlərin əksəriyyəti istirahətlərini qeyri-mütəşəkkil şəkildə keçirirlər. Bu səbəbdəndir ki, bölgəyə səfər edənlərin sayı haqqında rəsmi məlumat əldə etmək mümkün deyildir (cədvəl). Rayonun Xəzərsahili zonasında istirahət edənlər əsasən çimərlik turizminə üstünlük verir. Lakin rekreantların təqribən 12-15%-i “sakit” istirahəti seçirlər. Quba-Xaçmaz iqtisadi rayonu tarixi-mədəni abidələrlə zəngindir. Bu ərazidə qədim şəhər qalıqları, qalalar, istehkamlar, məqbərələr, türbələr, pirlər, mağaralar və turist baxımlı digər yerlər mövcuddur. Bu tarixi-mədəni abidələr dünya, ölkə və yerli əhəmiyyətli olmaqla təsnifləndirilir.

**Quba rayonu.** Quba rayonu Azərbaycanın ən inkişaf etmiş kənd təsərrüfatı rayonlarından biridir. Burada yetişdirilən meyvə və tərəvəzlər paytaxt bazarlarına çıxarılır, yerli konserv sənayesi müəssisələrində emal olunur, həmçinin digər ölkələrə ixrac edilir. Quba rayonunda yetişdirilən meyvə və tərəvəzlərin çox olmasına baxmayaraq, hər bir azərbaycanlı "Quba" deyəndə almanı yada salır. Bakı bazarlarında alma satan, mallarını tərifləyən insanlar, əlbəttə ki, bunun “Quba alması” olduğunu vurğulayırlar. Zəngin floraya malik olan Quba rayonu da geniş dərman bitkiləri ilə təmsil olunur.

Quba ətrafında çoxlu gözəl guşələr vardır. Qəçrəş, Balbulaq, həmçinin dərinliyi 400-600 metr olan Təngəaltı xüsusilə məşhurlaşmışdır və turistlər üçün böyük maraq kəsb edir.

Vəlvələçay üzərindəki məşhur Afurca şəlaləsi Azərbaycanın təbii abidələri siyahısına daxil edilib və dövlət tərəfindən qorunur. Burada özünəməxsusluğu ilə turistlərin və səyahətçilərin diqqətini cəlb edən digər şəlalələr də var. Turistlər üçün gözəl olan bu yerləri gəzmək çox xoşdur. Dağlara qalxdıqca kolluqlar hündür ağaclarla əvəz olunur və yuxarıda — Xaşiçay çayının sahilindəki termik sular dağ qurşağının qayalarından axır. Qədimdə ustalar qayada üç dəlik yaradıb, özü-özünə düzəldilmiş hamamlar düzəldir, kənarlarını daşla tikirdilər. Buraya gələnlər bu hamamlarda kükürd-hidrogen olan isti suyun yarandığı halında çimə bilərlər. Səlahiyyətli insanların verdiyi məlumata görə, təbii daşdan hazırlanmış hamam suyun şəfalı təsirini artırır.

XIX əsrin ortalarından başlayaraq rayonun ticarət və işgüzar hissəsi olan şəhər mərkəzində Quba hakimlərinin Xan sarayı yerləşirdi. Hazırda Xan sarayının yerləşdiyi meydan Bazar adlandırılır. Şəhərin məşhur tarixi mədəni abidələrinə Cümə məscidi, Quba qalasının keçmiş hasarları, İnqilab meydanı, tarix muzeyi, A.A.Bakıxanovun ev muzeyi, Hündür gümbəzli hamam, körpü və s. aiddir. Şəhərin mərkəzində yerləşən Cümə məscidi Qubada ən böyük məsciddir. Qubada əsl adı Qüdsi olan Səkinə xanım məscidi maraqlı tarixə malikdir. Belə ki, bu məscidi Səkinə xanım A.A.Bakıxanovun şərəfinə tikdirmişdir. Azərbaycanın siyasi diplomatiya tarixində mühüm xidmətləri olan A.A.Bakıxanov 1847-ci ildə Həcc ziyarətinə gedərkən Qubada onun üçün məscid tikdirməyi Səkinə xanıma vəsiyyət edir. Lakin elə həmin il Məkkədə vəfat edən A.A. Bakıxanov orada da dəfn

olunur. Səkinə xanım məscidi 1854-cü ildə istifadəyə verilmişdir.

Quba şəhəri və yaxın ətraflardakı tarixi-mədəni abidələrə dərketmə turların təşkili üçün imkanlar genişdir. Quba şəhəri ilə üzbəüz, Qudyalçayın sol sahilində, çayın qədim terrası üzərində ensiz zolaq şəklində sahilboyu uzanan ərazidə Azərbaycanda dağ yəhudilərinin ən böyük icmasının məskunlaşdığı Qırmızı qəsəbəsi yerləşir. O, 1926-cı ilədək Yəhudilər qəsəbəsi adlandırılırdı.

Qəsəbənin əsasını XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Quba xanı Hüseynəli xan və oğlu Fətəli xan qoymuşdur. Onların Qubaya gəlməsi Nadir şahın dövrünə (1736 – 1747) təsadüf edir. Sonralar Qırmızı qəsəbəyə Azərbaycanın bir çox yerlərindən, həmçinin İrandan yəhudilər köçüb gəlmişlər. Ona görə də qəsəbədə yerli yəhudilərin kilsələri ilə yanaşı məhəllələri də vardır. Qəsəbədə 11 sinaqoq olmuşdur, hazırda onlardan yalnız 7-si saxlanılmışdır.

**Qusar rayonu.** Rayon mərkəzi Qusar şəhəridir. Dağıstanla həmsərhəd Qusar Azərbaycanın şimal-şərqində, Xudat dəmiryol stansiyasından 35 km məsafədə yerləşir. Bölgənin adı bir zamanlar bu ərazidə yaşamış və sonralar tarixi etnogenez nəticəsində yoxa çıxmış "Khisar" tayfasının adından götürülmüşdür. Hal-hazırda bu bölgədə əsasən Ləzgi millətinin nümayəndələri yaşayır.

Bu ərazinin relyefi meşələrlə örtülmüş dağların və dərələrin bir-biri ilə əvəzlənməsi ilə səciyyələnir. Çay yataqlarının Tuqay meşələrində əsgəril, sumax, it gülü, yabanı meyvə ağacları, yabanı üzüm, müxtəlif növ dərman bitkiləri bitir. Burada "Alistan Baba " adlı arı meşəsi (sahəsi 7 hektar) dövlət tərəfindən qorunur. Qusar rayonunun faunası da zəngindir. Burada canavar, ayı, dağ keçisi, qartal, bayquş və digər quş və heyvanlar yaşayır. Faunanın ov sənaye növlərinin qorunması və onların əsas sayının bərpası məqsədilə "Qusar" Qoruğu yaradılmışdır (sahəsi 15 min hektardır).

Dağ dərələrində gözəl şəlalələr vardır. Onlardan ən məşhuru Qafqazın vəhşi təbiətinin turist və isirahətsevərləri cəlb edən Laza və Şahnabaz şəlalələridir. Qusar rayonunun dağ və zirvələri alpinistləri cəlb edir. Son illər yerli şəlalələr qışda buzlu dağlara çıxmağı sevən idmançıların məkanına çevrilib. Laza kəndindən Quba rayonu Xınalıq kəndinə piyada gedə bilərsiniz. Bu yol piyada turizmi sevənlər tərəfindən üstünlük verilir.

Qusardan Laza şəlaləsinə gedən ekoloji turizm marşrutu ilə hərəkət edənlər Əniq kəndində düşərgə sala bilər. XIII əsrə aid qala divarlarının və qədim məscid binasının xarabalıqları bu kəndin yaxınlığında yaxşı vəziyyətdədir.

Bütün Azərbaycan torpaqları kimi, Qusarda da bu insanın qədim mədəniyyətinin, həyat tərzinin sübutlarını görmək mümkündür. Həzrə, Hil, Balaqusar, Əniq, Yasəf, Köhnə Xudat, Qunduz qala kəndlərində qədim məscidlərin, insan məskənlərinin və qalaların qalıqları qorunub saxlanılmışdır.

Qusar rayonunun inzibati mərkəzi Bakıdan 183 km məsafədə yerləşir. Böyük rus şairi Lermontov bir dəfə bu şəhəri ziyarət etmişdi. İndi isə burada onun adını daşıyan muzey yaradılıb.

**Xaçmaz rayonu.** Samur-Şabran alçaq dağlıq ərazisinin bir hissəsini əhatə edən Xaçmaz rayonu Azərbaycanın şimal-şərqində yerləşir və şimaldan Rusiya ilə həmsərhəddir. Əsas magistral yolu və Bakı-Moskva dəmir yolu bu rayonun ərazisindən keçir. Bölgənin iqlimi mülayim isti, yarımsəhra və qurudur. Lakin rayonun 20 hektardan çox ərazisi meşələrlə örtülüdür. Burada bir neçə çay, 3 süni göl, çoxsaylı termal və mineral bulaqlar vardır.

Dağıstanla sərhəddə əvvəllər yol var idi. Bu yolu işğal edən skiflər, alan və hun tayfaları da bu yolla getmişdilər. Bu məqsədlə indiki Xaçmaz rayonunun ərazisində, Xəzər dənizi yaxınlığında müdafiə istehkamı inşa edilmişdir. XVIII əsrin əvvəllərindəki qədim

şəhər-qalalardan biri – Xudat (bu sözün hərfi mənası "Hədiyyəli" deməkdir). Quba xanlığının mərkəzi olmuşdur. Xudat şəhəri yaxınlığında yeraltı su resursları xüsusilə çoxdur. 1914-cü ildə burada Şollar kəndindən Bakıya içməli su kəməri inşa edilmişdir.

Neolit və Tunc dövrü insan məskənlərinin izləri bölgənin bütün ərazisində tapılmışdır. Alimlərin araşdırmalarına görə, "Xaçmaz" toponimi Komm Hunn tayfalarının Xaçmatak və ya Xaçmat tayfalarının adı ilə bağlıdır. Sonradan onlar yerli əhaliyə qarışdılar. Maraqlıdır ki, bu tayfalardan biri Xaçmaz rayonunun ərazisindən indiki Oğuz rayonuna köçmüş və eyni adlı Xaçmaz kəndini, sonra Xaçmaz qalasını yaratmışdır.

Bu bölgədə 60-a yaxın tarixi və mədəni abidə qorunur. Lakin arxeoloqların fikrincə, bu cür abidələrin sayı xeyli çox olmalıdır, çünki qədim zamanlarda bu ərazidə əhalinin sıx məskunlaşdığı qeyd edilir. Tunc dövrünə aid insan məskənləri və oyma daşlıqlar, Yanaxır və Bostançı kəndlərinin yaxınlığında, Orta Tunc dövrünün insan məskənləri, Xulovlu, Qaracov, Həsənqala kəndləri yaxınlığında aşkar edilmişdir. Şıxlar kəndindəki Şeyx Yusif məscidi (XV əsr) memarlıq komplekslərinin yarandığı ilk dövrlərə aiddir. Sonradan 16-17-ci əsrlərdə belə komplekslər daha geniş yayılmağa başladı. Moruqoba, Taqaroba, Uzunoba kəndlərində XIX əsrə aid məscidlər, Qaraqortlu kəndində XV əsrə aid məscidlər, mədrəsələr qorunub saxlanılmışdır.

Xaçmaz rayonunun inzibati mərkəzi Xaçmaz şəhəridir. Onun Bakıdan məsafəsi 157 km-dir. Yerli liseydə xalça toxuculuq sənəti ənənəvi xalq sənətindən daha geniş inkişaf etdiyi üçün xüsusi fakültə açıldı. Qonaqlar tez-tez bura gənc ustaların zərif barmaqları ilə gözəl xalça nümunələrini necə toxuduqlarına tamaşa edirlər. Bu xalçaların naxışları əsrlər boyu nəsildən-nəslə ötürülərək, bu gün də qorunub saxlanılır.

Xaçmaza gələn qonaqlar burada "Elit N Hotel"də qala bilərlər.

**Nabran.** Nabran Xaçmaz rayonunun Xəzər dənizi sahilində yerləşən ən böyük yaradıcılıq bölgəsidir. Bu zonanın maraqlı cəhəti ondan ibarətdir ki, meşə kiçik ərazidə yerləşən qum-çınqıllı sahildən dərhal sonra başlayır. Bu meşədə müxtəlif turist bazaları, düşərgələr, istirahət evləri yerləşir. Onların şəraiti çox müxtəlifdir - "lüks" tipli rahat otelləri geniş seçim etmək olar, bir neçə nəfər üçün abad kotteclərdən tutmuş çadır düşərgələrinə qədər.

**Şabran rayonu.** Bakı şəhərinin şimalında yerləşir. Şabran (əvvəlki adı: Dəvəçi) rayonunun şərq sərhəddi Xəzər dənizi sahili boyunca uzanır. Bu bölgənin belə adlandırılması yəqin ki, burada çoxlu sayda dəvə karvan yollarının olması ilə bağlıdır. Bu bölgənin sakinləri həmin ərazidən dəvə saxlamaq üçün istifadə edirdilər. Qonşu rayonlardan gələn qonaqlar təkcə dəvələri deyil, quşları, heyvanları, kəpənəyi və süd məhsullarını, bal, yun (dəvə və qoyun yunları), xalçalar da alıb satırdı. Bundan başqa, karvana qoşulmağa və ya dəvə və sarvan kirayəyə almağa gələnlər də var idi. 2010-cu ildə Dəvəçı rayonunun adı dəyişdirilərək Şabran rayonu adlandırılmışdır.

Ərazinin relyefi çox müxtəlifdir. Burada düzənliklər, təpələr ilə yanaşı qayalıqlar və dağlar da vardır. Keçiqaya adlanan yer həm turistlər, həm də yerli sakinlər arasında çox məşhurdur. Burada çay qayalardan axır və tərkibində çoxlu kükürd olan mineral bulaqlar diqqəti cəlb edir. Rayonun arxeologiyasının ən məşhur tarixi abidəsi Şabran şəhəri Şahnəzərli kəndi (5-18 əsrlər) yaxınlığında yerləşir. Şabran orta əsrlərdə Azərbaycanın ən böyük ticarət və sənətkarlıq mərkəzlərindən biri idi. Burada ipək istehsalı, dulusçuluq sənəti xüsusilə yüksək inkişaf etmişdir. XX əsrin 80-ci illərində aparılmış arxeoloji qazıntılar nəticəsində həm yerli, həm də digər ölkələrdən gətirilmiş bir çox saxsı məmulatın tapılması göstərir ki, Şabran rayonunun Şərqin bəzi ölkələri ilə yerli ticarət əlaqələri mövcud idi. XIVəsrdə inşa edilmiş su kəmərlərinin fraqmentləri arxeoloji qazıntılar zamanı da aşkar edilmişdir. Bu boru kəməri şəhəri şəhərdən 10 km-dən çox

məsafədə yerləşən bulaqdan içməli su ilə təmin edirdi.

**Siyəzən rayonu.** Siyəzən rayonu - Azərbaycanın paytaxtından şimalda, Xəzər dənizinin sahilində yerləşir. İqlim quru yarımsəhra iqlimi, landşaftı az meşə və kolluqlardan ibarətdir. Canavar, çöl pişiyi, çaqqal, dovşan və digər növlər heyvanlar aləmində geniş yayılmışdır. Sahil zonasında bir neçə növ su hövzələrinə rast gəlmək mümkündür. Gilgilçay və Ataçay çayları bu bölgənin ərazisindən keçir.

Siyəzən rayonu zəngin tarixə malikdir. Erkən orta əsrlərdə Xəzər müdafiə istehkamlarının ikinci xətti buradan keçirdi (bu istehkamların birinci xətti Dərbənddədir). Bu xətt Azərbaycan Respublikası dövlət qoruğunun mühafizə etdiyi tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir. Gilgilçay müdafiə istehkamı da YUNESKO tərəfindən "Caspian defense fortifications" kompleksinə daxil edilmiş, Ümumdünya irsi mədəniyyət abidələri siyahısına daxil edilməsi tövsiyə edilmişdir. Arxeoloqlar təsdiq etmişlər ki, müdafiə istehkamının tikintisi Gilgilçayın tikintisinə çoxdan başlanmışdır. Hələ bizim eradan əvvəl əlavə tikinti işləri aparılmış və istehkam daha da möhkəmlənmişdir **[5, səh.372].**

Burada dənizlə Qafqaz dağlarının ətəkləri arasında Azərbaycanın şimalından digər ölkələrə səyahət üçün əlverişli keçid var. Qədim zamanlardan qonşu dövlətlərdən və uzaq əyalətlərdən Kaspi keçidi adlanan ərazidən gələn işğalçılar ölkəmizin ərazisinə daxil olurdular. Onlar Azərbaycana hücum edir, Bakı limanında qarətlər edirdilər, bəzən hətta ölkənin daxili hissəsindəki rayonlara da gedirdilər. Ona görə də bu istehkam müdafiə xarakteri daşıyır və Abşerona (Bakıya), sonralar isə qədim Azərbaycanın bütün sərhəd bölgələrinə siqnalların çatdırılmasında istifadə olunurdu. Qala divarlarının ölçüləri və müdafiə məqsədi (o, həmçinin Böyük İpək Yoluna keçidi qoruyurdu) onu Çin səddi ilə müqayisə etmək imkanını yaradır, lakin bu qurğu hələ bərpa olunmayıb.

Çıraqqala qülləsindən cəmi bir qədər aralıda yerləşən Qalaaltı kurort şəhərciyində Çıraqqala sanatoriyası diqqəti cəlb edir. Onun ərazisində kükürd tərkibli mineral sular bulaq vardır ki, bu da kürativ dəyərə malikdir. Bu su xüsusilə ürəkyində daş olan xəstələr üçün faydalıdır. Sanatoriyaya gedən yol boyunca çoxlu sayda kabab evləri, kafe və kiçik düşərgələr vardır. Onların əksəriyyəti yalnız yay vaxtı işləyir.

Zarat kəndi yaxınlığındakı digər müdafiə istehkamı Beşbarmağın fraqmentləri qorunub saxlanılmışdır. Xalq arasında bu qalıqlar Xızırzində baba adlanır. Sedan kəndi yaxınlığında isə dini qala qalıqları diqqəti cəlb edir.

Bundan əlavə, Şıxlar kəndi yaxınlığında XV əsrdə ucaldılmış Şeyx Heydər məqbərəsi və Gilgilçay qəsəbəsində XVIII əsrdə tikilmiş Pir Xəlil türbəsi yerləşir. Siyəzən rayonunda dünya əhəmiyyətli tarixi mədəni abidələrə aid edilir.

Gilgilçay müdafiə istehkamlar kompleksi (V əsr) - abidə Siyəzən rayonunun Yenikənd, Kolanı, Eynibulaq, Daşlı Çalğan, Qalaaltı kəndlərindən keçərək Çıraqqala ilə birləşir. Siyəzəndə ölkə və yerli əhəmiyyətli abidələr də çoxdur.

Bu ərazidə ağac üzərində xalça toxuculuq, xalq çalğı alətlərinin hazırlanması geniş inkişaf etdirilir. Rayonun mərkəzi Siyəzən şəhərindən 103 km aralıda yerləşir.

Siyəzəndə otel yoxdur. Ona görə də bura gələnlər şəxsi evlərdə və ya şəhərdən bir az aralı olan Çıraqqala sanatoriyasında qala bilərlər. Əgər siz Siyəzəndə nahar etmək istəyirsinizsə, "Gorus", "Zəfəran" və ya "Çıraqqala" restoranlarının xidmətlərindən istifadə edə bilərsiniz.

**Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya zonalarının yaradılması və onun tətbiq imkanları**

Quba - Xaçmaz rayonunun ən böyük kurort-rekreasiya ehtiyatları, müalicəvi mineral sularından səmərəli istifadə onun iqtisadiyyatının inkişafına təsir göstərə bilər.

Bölgənin əlverişli coğrafi imkanlarının çox olması turizmin inkişafı üçün geniş imkanlar açır. Rayonda qədim yaşayış məskənləri, müxtəlif dinlərə sitayiş etmək, zəngin adət-ənənələri, adət-ənənələri, müxtəlif mədəniyyətləri milli azlıqların kütləvi şəkildə yaşaması və onların dadlı (yerli) yeməkləri bölgəyə yerli və xarici turistlərin cəlb edilməsində və bununla da yeni iş yerlərinin yaradılmasında, yoxsulluğun bölgənin iqtisadi həyatını aşağı salması böyük əhəmiyyət kəsb edir. İqtisadi rayonun dağlıq ərazisinin orta dağlıq, dağətəyi və alçaq sahilyanı ərazilərdə coğrafi fərqlərin strukturu da turizmin bütün sahələri üzrə inkişaf etmək imkanı olmalıdır.

Ölkədə aparılan məqsədyönlü işlərin nəticəsi olaraq hər sahədə oduğu kimi turizm sahəsində də xeyli əhəmiyyətli dəyişikliklərin olması və turizm infrastrukturunun müasir standartlara uyğun inkişaf etməsi müşahidə olunmaqdadır. Dövlət tərəfindən qeyri neft sektorun inkişafına artan diqqət və qayğı əhali arasında turizm sektorunun inkişafına səbəb olmuş, xüsusəndə region əhalisi daha çox bu sahəni inkişaf etdirməsinə marağlıdır və regionların mövcud coğrafi vəziyyəti, təbiəti, iqlim şəraəti və ətraf mühütü də buna imkan verir. Ölkə ərazisinin 11 faizi meşə, 60 faizi isə dağlıq ərazi olduğundan turizmin inkişafı üçün yeni imkanlar açır. Yüksək dağlıq ərazilərdə qış fəsilinin qarlı, yay aylarının mülayim hava şəraiti, dağətəyi ərazilərdə sıx meşələrin füsunkar gözəlliyi və dənizkənarı çimərlik ölkə daxilində turizmin formalaşıb inkişaf etməsinə stimul verir və tezliklə ölkə iqtisadiyyatın ən vacib sahələrindən birinə çevirəcək.

2011- ci ili Azərbaycandan “Turizm ili” elan olunması ilə turizmin müxtəlif sahələrində inkişafa nail olunmuş, turizmdə xidmətin keyfiyyəti yaxşılaşmış, turizmin sahələri üzrə kadırlar hazırlanmış və regionlarda turizmin inkişafı üçün strateji yol xəritəsi planlaşdırılmışdır. Həmdə bazar iqtisadiyyatın tələblərinə uyğun olaraq ölkə daxilində turizm bu sahəyə olan artan tələbata və əhalinin gəlirlərinə nəzərən təşkil olunur. 2015-ci ilin statistik hesabatlarına nəzər saldıqda Azərbaycan Respublikası üzrə 536 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərmişdır. Umumilikdə həmin müəssisələrin birdəfəlik tutumu, (yeri) 37278 olmaqla 17953 nömrə xidmət göstərmişdir. Həmçinin yerli və xarici turistlər üçün səyahət və turların təşkili məqsədilə 243 səyahət agenti və turoperatorlar da qeydə alınmışdır **[10].**

Hazırda turizm yaratdığı gəlirə görə neft və avtomabil sənayəsindən sonra dünyada üçüncü yeri tutur. Turizm cəmiyyətin mənəvi dəyəri olmaqla gəzmək, istirahət etmək və əylənmək kimi tələbatı əsasında formalaşır. Nəzərə alsaq ki, turizm əhalinin müəyyən vaxt müddəti ərzində, planlaşdırılmış şəkildə yerinin dəyişməsi kimi qəbul etsək, onda ölkə daxilində turizmin inkişafı regionların təklif etdiyi əmtəə və xidmətlərin keyfiyyətindən daha çox asılıdır **[8, səh.7].**

Təklif olunan əmtəə və xidmətlərin keyfiyyəti və qiymətləri, tələbin yəni əhalinin gəlirləri və zövqləri ilə uyğunlaşarsa, turizm daha da inkişaf edib genişlənə bilər. Regionların coğrafi qurluşu və göstərilən xidmətlərin müxtəlifliyi daxili turizmin iqtisadi potensialın yüksək olduğunu bir daha təsdiqləyir.

Quba-Xaçmaz iqtisadi rayonu insanlarda estetik zövq, xoş əhval ruhiyyə yaratmaq, müalicə sağlamlıq baxımından böyük əhəmiyyət kəsb edən amillərə, təmiz hava, könül açan çəmənliklər, çay dərələri, şəlalələr, çəmənliklər, əlverişli iqlim şəraiti, müalicə əhəmiyyətli mineral sular, idman və ovçuluq üçün əlverişli şərait və digər kurort-rekresiya ehtiyatları ilə zəngin olduğundan daxili və xarici turizmin regional və beynəlxalq səviyyədə inkişafı və turizm mərkəzlərin yaradılması üçün geniş perespektivlərə malikdir.

Bu ərazidə fəaliyyət göstərən turizm obyektləri və ya istirahət zonaları əsasən Xəzər dənizinin meşə - çəmən landşaftı ilə qovuşduğu zonada, çay dərələri boyunca və müalicə əhəmiyyətli mineral bulaqların yayılqığı ərazilərdə yerləşmişlər.

Quba və Qusar rayonlarının dağlıq və dağətəyi ərazilərdə məskunlaşmış azsaylı xalqların mədəniyyətləri, adət-ənənələri və ərazinin füsunkar təbiəti ilin bütün fəsillərində turistlərin istirahət məkanına çevrilib. Xüsusəndə Xınalıq, Qırız, Laza kimi yüksək dağlıq ərazilərdə yerləşən dağ kəndləri daha çox xarici turistlərin görmək və gəzmək istədikləri ərazilər olsa da, turistlərin istəklərinə uyğun xidmətləri təklif edən və müəyyən istirahət obyektləri olan ancaq Laza kəndidir. Digər iki kənd isə müəyyən səviyyədə tələb olunan xidmətləri qarşılaya bilir. Buna səbəb isə həmin ərazilərdə turizm və mehmanxana obyektlərinin olmamasıdır. Böyük turizm potensialına malik həmin kəndlərdə fərdi evlərdə ailə turizmini daha da inkişafı etdirməklə təklif olunan xidmətlərin növlərini artırmaq və keyfiyyətin yaxşılaşdırmaq olar. Alp çəmənliklərə ekoturlar, dağlıq ərazilərdə ekstrimal səyahətlərin və Şah dağ milli parkının ərazisində lisenziyalı ovçuluq turları təşkil etməklə əraziyə gələn turistlərin sayını, xüsusəndə xarici turistlərin sayını bir neşə dəfə artırmaq olar. Və yaxud da ki, Xınalıq kəndi ərazisində olan mineral tərkibli kükürdlü sular, kükürdlü palçıqlar və yay fəsilində bitən müxtəlif dərman bitkiləri çoxlu xəstəliklərin müalicəsi üçün istifadə olunsa da, bunlardan səmərəli istifadə olunmur. Məsələn, qonşu ölkələrin təcübəsinə nəzər yetirsək Şimali Qafqazda olan mineral və kükürdlü sulardan, müalicəvi palçıq vannalarından istifadə üçün təşkil olunan kurort sanitoriyalara, hələ Azərbaycanın özündən minlərələ turistlərin həmin məkana üz tutmasına səbəb olur. Mineral suları və təbii dərman bitkilərini qablaşdıraraq ölkə və xarici bazarlara satış üçün çıxarmaq da olar və ya həmin ərazilərdə mineral su və palçıq vannalarında, təbii dərman bitklərindən çay dəsgahları təşkil edən sanitoriyalar inşa etməklə daha çox yerli və xarici turistləri cəlb etmək olar.

Həmçinin Quba rayonunun Xaltan və Çimi kəndləri ətrafında olan mineral isti bulaqlardan əsasən yerli və ətraf rayonların əhalisi müalicə məqsədilə primitiv bir formada istifadə edir. Təklif olunan turist xidmətlərinin keyfiyyəti, turistlərin saxlanılması şəraiti və gigiyenik sanitar qaydalar qənaətbəxş deyildir. Bu da turistlərin həmin ərazilərdən və xidmətlərdən istifadəsinin azalmasına təsir edir. Amma həmin ərazilərdə müasir sosial və iqtisadi infrastruktur qurmaqla, daha səmərəli istifadə etmək, daha çox iqtisadi gəlir götürmək olar.

Demək olar ki iqtisadi rayonun mövcud potensilından xüsusəndə dağlıq ərazinin imkanlarından düzgün istifadə edilmir. Bu da həm yerli, həm də xarici turistlərin digər ölkələrə səyahət etməsinə səbəb olur. Digər bir tərəfdən də yerli məhsulların alıcıların sayı azalır və bütövlükdə region əhalisinin sosial iqtisadi vəziyyətinə təsir edir.

Son illər Quba-Xaçmaz iqtisadi rayonunda turizm sənayəsində bir neçə iri xüsusi layihələr həyata keçmişdir ki, bu da regionda turizmin inkişafına böyük tövhə vermişdir. Qusar rayon Şahdağ Milli parkının ərazisində inşa edilən Qusar Şahdağ qış-yay turizm kompleksi ölkədə dağ-xizək idman və digər idman növlərin inkişafı üçün hərtərəfli imkanlar açıdı. Şahdağ qış-yay turizm kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur və regionda yeni otellər şəbəkəsinin yaradılmasına önəm vermişdir. Quba rayonun qədim İqrik kəndində inşa olunan beşulduzlu "Riksos" otelidə regionun ən böyük turizm məkanlarında birisidir. 200 yerlik otel kompleksində restoranlar, hovuz, köməkçi obyektlər və golf idman meydançası bölgəyə üz tutan turistlərin istirahətinin yüksək səviyyədə və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şəraitlə təmin olunmuşdur. Xəzər dənizi sahili boyu 35- 40 km məsafədə uzanan Nabran-Yalama kurort zonasıda respublika əhalisinin əsas istirahət yeridir. Unikal memari stili ilə digər istirahət mərkəzlərindən seçilən turizm kompleksidən birisidə Şabran rayonunda yerləşən Qalaaltı Hotel & Spa müalicəvi – bərpa kurort kompleksidir. Kompleksdə Qalaaltı müalicəvi suyu, müasirliyi və rahatlığı ilə turislərin ixtiyarına verilmişdir **[9].**

Hələlik iqtisadi rayonun mövcud turizm potensialının yalnız bir hissəsindən istifadə edilir. Turizm ehtiyatlarından daha səmərəli istifadəyə və turizm təsərrüfatının inkişafına mənfi təsir göstərən bir sıra amillər var ki, bu da mövcud problemlərin daha da genişlənməsinə və ya əlavə problemlərin yaranmasına səbəb olur. Meşə ərazilərdə turizm obyektlərin düzgün qurulmaması meşə ehtiyyatının kor təbii qırılmasına və ekologiyanın çirklənməsinə səbəb olur. Obyektlərdə təbii bulaqlar hesabına süni şəlalələrin yaradılması ətraf kənd əhalisinin susuz qalması ilə nəticələnir. Nabran-Yalama ərazisinin komunal və çirkab suların təmizlənmədən Xəzər dənizinə axıdılması, dəniz kənari qumlaq ərazilərində qida və digər tullantılar üçün ərazilərin seçilməməsi, ərazinin gigiyenik və insan sağlamlığı baxımından çirkilənməsinə səbəb olur. Həm də iqtisadi rayonun təbii və əmək ehtiyyatlarından səmərəli istifadə etmək, istehsal və xidmət sahələrinin müasir tələblərə uyğun şəkildə inkişaf etdililməsi üçün regionun infrastrukturun inkişafını tələb edir.

Azərbaycanda turizm sahəsi ilə bağlı BMT-nin İnkişaf Proqramının layihəsi çərçivəsində keçirilən sorğunun maraqlı nəticələri artıq xaricilərin ölkəmizə diqqətinin artdığını göstərir. BMT-nin İnkişaf Proqramının "Turizm xidmətlərindən istifadə ilə bağlı tədqiqat" layihəsi çərçivəsində aparılan araşdırma Azərbaycanda sırf turizm bölgəsi kimi tanınan və üstünlük verilən rayonlarla bağlı olub. Sorğu zamanı ölkənin turizm xəritəsini ortaya çıxarmaq məqsədilə respondentlərdən ən çox üç rayonun Quba, Qəbələ və İsmayıllı rayonları turizm rayonu kimi qeyd edilməsi diqqətə çatdırılıb. Turizmin inkişafı üçün amillərin zənginliyi Quba rayonunda daha çoxdur (53.3 faiz). Azərbaycanın iqtisadi rayonları üzrə turizm xəritəsini müəyənləşdirdikdə məlum olur ki, Bakı-Xaçmaz turizm marşurutu üstündə yerləşən Quba-Xaçmaz iqtisadi rayonu beynəlxalq turizm mərkəzlərinin və dağ turizm bazasının yaradılmasında böyük əhəmiyyətə malikdir (Nəzakət Ələddinqizi Səs qəzeti. 2011.- 1 fevral **[6].**

**Nəticə**

Rekreasiya zonalarının yaradılmasında təbii, insani, sosial-iqtisadi amillər nəzərə alınmalıdır ki, bu da əsasən torpaqdan istifadə və təsərrüfat fəaliyyətinin tətbiqi ilə bağlıdır. Azərbaycanda rekreasiya rayonlaşdırması təsir edən təbii və iqtisadi amillər nəzərə alınmaqla aparılsa da, qeyd olunan rayonlaşdırmada mərhələli yanaşma olmadığından ölkədə ixtisaslaşmış turizm-rekreasiya rayonları formalaşmayıb. Bu amil Azərbaycanın turizm sektorunda mövcud olan tələbata uyğun rekreasiya zonalarının yaradılması zamanı ixtisaslaşmanın aparılmasına mane olur. Qusar rayonunda turizmin mənimsənilməsi imkanları nəzərə alınmaqla rekreasiya məhəlləsində mikrorayonların ayrılması nəzərə alınmalıdır. Qusar rayonu ərazisinin hüdudları daxilində turizm-rekreasiya bölgəsinin mikrorayonlara bölünməsi turizm baxımından torpaqdan istifadə imkanları nəzərə alınmaqla aparılması həmin ərazinin inkişafına töhfə verəcək.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Azərbaycan regionları. DSK. Bakı, 2016, 819 s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2022
3. Azərbaycan Respublikasının Xızı-Xaçmaz, Quba və Qusar turizm və istirahət zonalarının yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. (2016). No 286 (1 avqust). (Azərbaycan dilində)
4. “Azərbaycan" qəzeti. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 17 dekabr. (Azərbaycan dilində)
5. Azərbaycan Respublikasının coğrafiyası: II cild. Bakı: Avropa, 2015, 372 s.
6. Nəzakət Ələddinqizi Səs qəzeti. 2011.- 1 fevral.

7. Ş.Göyçaylı, N.Əyyubov, N.Allahverdiyev. “Azərbaycan Respublikasının İqtisadi və Sosial Coğrafiyası”, Dərs vəsaiti, Xəzər nəşriyyatı, Bakı, 2007.
8. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizmin əsasları. Bakı – 2007.

**Elektron resurslar**

9. www.economy.gov.az. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi
10. www.mct.gov.az. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

**Гасымови Иашар**
**Научный руководитель: доц. Аскер Алиев**

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ТУРИЗМА В ГУБА-ХАЧМАЗСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

### *РЕЗЮМЕ*

Губа-Хачмазский экономический район является одним из регионов Азербайджана с наибольшим туристическим потенциалом. Помимо круглогодичной привлекательной природы региона, его история и культура также очень богаты. Высокий туристический потенциал Губа-Хачмазского экономического района обеспечивает как экономическую, так и социальную выгоду для государства. Как видно на опыте некоторых европейских стран, большой экономический подъем наблюдается с развитием туризма в трудно осваиваемых в экономическом отношении горных районах.

В последние годы развитые и развивающиеся страны рассматривают туризм как средство развития и придают большое значение туристической сфере. Кроме того, эти страны предпочитают участвовать в туристической деятельности, оценивая потенциал туристического предложения и используя имеющиеся ресурсы. С учетом всего этого, с точки зрения развития азербайджанского туризма, были оценены перспективы и возможности туристического развития Губа-Хачмазского экономического района и предпринята попытка выявить текущую ситуацию.

***Цель:*** Оценить перспективы развития и возможности туризма Губа-Хачмазского экономического района и определить текущую ситуацию.

***Методология:*** в работе использовались статистический, аналитический, синтезирующий, экономический и сравнительный методы анализа.

Важнейшей рекомендацией в развитии зимнего туризма является использование опыта и помощи передовых стран в этой сфере. С другой стороны, большое значение следует придавать подготовке местных кадров внутри страны. Предпринимателям, которые хотят начать работать в этой сфере, государство должно предоставить какие-то особые льготы и поощрения.

***Ключевые слова:*** *Губа-Хачмазский экономический район, памятники истории и культуры, внутренний и внешний туризм, туристская экономика, рекреационные ресурсы*

**Gasimovi Iashar**
**Scientific supervisor: Associate Professor Asgar Aliyev**

## DEVELOPMENT PERSPECTIVES OF TOURISM IN GUBA-KHACMAZ ECONOMIC DISTRICT

### *SUMMARY*

Guba-Khachmaz economic region is one of the regions with the greatest tourism potential of Azerbaijan. In addition to the year-round attractive nature of the region, its history and culture are

also very rich. The high tourism potential of the Guba-Khachmaz economic region provides both economic and social benefits to the state. As can be seen in the experience of some European countries, a great economic revival has been observed with the development of tourism in mountainous regions that are difficult to develop economically.

In recent years, developed and developing countries see tourism as a means of development and attach great importance to the tourism sector. In addition, these countries prefer to participate in tourism activities by evaluating the potential of the tourism offer and using the available resources. Taking into account all this, in terms of the development of Azerbaijani tourism, the prospects and possibilities of tourism development of Guba-Khachmaz economic region were evaluated and the current situation was tried to be revealed.

***Purpose:*** To assess the development prospects and possibilities of tourism of Guba-Khachmaz economic region and to determine the current situation

***Methodology:*** statistical, analysis, synthesis, economic and comparative analysis methods were used in the research work.

***The result of the research:*** As a result of the research, it was determined that the Guba-Khachmaz region is one of the regions with the greatest potential in terms of tourism and the region with the greatest potential in terms of winter tourism.

The most important recommendation in the development of winter tourism is to take advantage of the experience and assistance of advanced countries in this sector. On the other hand, great importance should be given to the training of local personnel within the country. Entrepreneurs who want to start operating in this sector should be given some special incentives and incentives by the state.

***Keywords:*** *Guba-Khachmaz economic region, historical and cultural monuments, domestic and foreign tourism, tourism economy, recreation resources*

**Asiman Mansırlı**
*Bakı Avropa Asiya Universiteti, magistrant*
*mandmc768@gmail.com*

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ

*Ərzaq insanların həyat fəaliyyətinin davamlılığını və sağlamlığını təmin edən əsas faktorlardan biridir. İnsanların digər tələbatlarının ödənməsində müəyyən gecikmələr və ya məhdudiyyətlər qoyula bilsə də, bunun ərzaq tələbatına tətbiqi daha ciddi nəticələrə səbəb olur. Buna görədə insanların ərzaq məhsullarına olan zəruri tələbatının ödənilməsi hər bir ölkə üçün başlıca məqsəddir. Müasir dövrdə əhalinin ərzaqla (kəmiyyət və keyfiyyət baxımından) təminatı bəşəriyyətin ən mühüm problemlərindən birinə çevrilmişdir. Müasir ərzaq təhlükəsizliyi konsepsiyası əhalinin ərzaq məhsulları ilə uzunmüddətli və etibarlı təminatına yönəldilmişdir.*

*Məqalədə ərzaq təhlükəsizliyi məsələsinə milli və qlobal təhlükəsizliyin mühüm aspekti kimi baxılmış və onun təmin olunmasını şərtləndirən amillərə tələblərin pozulmasının yaratdığı nəticələrə və onların həlli yollarına, ölkəmizdəki vəziyyətinə toxunulmuşdur.*

***Məqsəd:*** ərzaq təhlükəsizliyinə ölkənin milli təhlükəsizliyik ünsürü kimi baxılaraq onun sosial-iqtisadi təsirləri müəyyən edilməsi və Azərbaycanın ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsi qiymətləndirilməsi.

***Metodologiya:*** tədqiqat işində iqtisadi-statistik və təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi:*** müəyyən edilmişdir ki müasir zamanda innovasiyaların tətbiqi ilə müəyyən nailiyyətlər əldə edilsədə ərzaq təhlükəsizliyi problemi hələdə qlobal problem kimi qalmaqdadır.Buna səsəb kimi dünya əhalisinin sürətlə artması qlobal iqlim dəyişiklikləri torpaq və ehdiyyatlardan qeyri-düzgün isdifadə nəticəsində bu ehdiyyatların yararsızlaşmasıdır. Ölkəmizdə ərzaq məhsullarının daxili isdehsal hesabına ödənilməsində artım tempinə nail olunsada hələdə lazımi səviyyəyə çatmamışdır.

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, özünü təmin etmə səviyyəsi, aqrar sektor*

## Giriş

Dünyada hər keçən  zaman insanların sayının artım tempinin sürətləndiyi müşahidə olunur. Say artımı özü ilə yüksək tələbidə gətirir. Lakin dünyada ərzaq məhsulları istehsalının artımı bu sürətlə arta bilmir. Müasir dövrdə innovasiyaların tətbiqi ilə müəyyən artəma nail olunsada lazımı həcmdə istehsal əldə olunmamışdır. Bmt-nin ərzaq və kənd təsərrüfatı təşkilatının (FAO), kənd təsərrüfatının inkişafı üzrə beynəlxalq fond (İFAD) və beynəlxalq ərzaq proqramı (BƏP) tərəfindənn aparılan araşdırmalar nəticəsində aclıqdan xroniki əziyyət çəkən insanların sayı müəyyən edilmişdir. Hazırda dünyada belə insanların sayı təxminən 870 milyondur. Məhdud iqlim və torpaq ehdiyyatları və ehdiyyatların düzgün istifadə olunmaması bu problemi dahada dərinləşdirir. Bu da öz növbəsində ərzaq təhlükəsizliyi məsələsini gündəmə gətirir.

Ərzaq təhlükəsizliyi məsələsi qlobal problem olaraq dünya təşkilatlarının və dövlətlərin daim diqqət mərkəzində olmuşdur. Ərzaq və qida təhlükəsizliyi əhalinin ərzaq məhsullarına olan tələbatının kəmiyyət və keyfiyyət baxımından fasiləsiz uzunmüddətli və davamlı şəkildə ödənilməsinin təmin olunmasıdır [1]. Təbiidirki ərzaq təhlükəsizliyi ilk növbədə özündə aqrar sektorun inkişafını ehdiva edir. Qida məhsullarının istehsalı və emalı ilə əlaqədar olan fəaliyyəti əhatə edir. Bazar iqtisadiyyatının tələbinə uyğun olaraq bu sahədə xeyli sayda özəl təsərrüfat formalaşmışdır.

**Milli ərzaq təhlükəsizliyinin təmin edilməsini şərtləndirən amillər**

Ərzaq təhlükəsizliyi mahiyyət etibarı ilə bir neçə aspekt üzrə fərqləndirilə bilər:

– ərzaq məhsullarının əldə edilməsi imkanının fiziki aspekti üzrə. Ölkə ərazisində ərzaq məhsullarının mövcudluğu və istənilən zaman kəsiyində və ən azı minimal istehlak çeşidlərinə uyğun şəkildə mövcudluğu;

– ərzaq məhsullarının əldə edilməsinin iqtisadi aspekti üzrə. Ölkənin hər bir vətəndaşı ərzaq məhsullarının minimal həcmini əldə etmək üçün kifayət edə biləcək gəlir səviyyəsinə malik olmalıdır;

– ərzaq məhsullarının keyfiyyət aspekti üzrə. Ölkə vətəndaşlarının ərzaq məhsullarına olan minimum tələbininin kəmiyyət baxımından ödənməsindən əlavə bu məhsulların keyfiyyət gösdəriricilərinədə uyğun olmalıdır;

– ərzaq məhsullarının əldə edilməsinin dayanıqlılıq imkanı üzrə. Ölkənin sosial-iqtisadi sistemi hər bir vətəndaşa müasir dövrdə və perspektivdə ərzaq əldə etmə imkanlarına təminatlı şərait yaratmalıdır;

– qida təhlükəsizliyi. Ölkənin sosial-iqtisadi sistemi qida məhsullarının və ərzaq xammalının təhlükəsizliyinin minimum səviyyəsinə zəmanət verməli və ya ən azı bu şəraiti formalaşdırmalıdır.

***Ərzaq təhlükəsizliyi məsələlərini araşdıran alimlərin fikrincə ərzaq təhlükəsiz-lziyinə bir sıra daimi və dəyişən amillər təsir edir.*** Daimi amillərə aşağıdakıları aid etmək olar:

– əhalinini yoxsulluq həddində yaşayan qrupu;

– xarici amillərin təsiri nəticəsində ərzaq təchizatında nisbi çətinlik (məsələn, nəqliyyat çətinliyi – ucqar dağ kəndləri və rayonlarına daha çox aid edilir);

– müxtəlif əhali qruplarının sağlamlığını təhlükə altında salan ayrı-ayrı balanslaşdırılmamış qida ünsürləri;

– qida məhsullarının təhlükəsizliyi üzərində daxili nəzarətin zəifliyi.

Ölkənin ərzaq təhlükəsizliyi üçün potensial təhlükə kimi xarakterizə oluna biləcək dəyişən amillər isə aşağıdakılardır:

– müxtəlif zaman intervallarında ölkə əhalisinin ərzaq təminatının azalmasına səbəb olan kənd təsərrüfatı istehsalının qeyri-sabitliyi;

– dünya bazarının qeyri-sabitliyi və ölkənin ərzaq təchizatının xarici amillərdən kəskin asılılığı;

– ticarət embarqosu və buna bənzər sanksiyalarla bağlı tərəfmüqabil ölkələrin xarici siyasi vəziyyətinin pisləşməsi və qeyri-sabitliyi.

Eyni zamanda qeyd etmək lazımdır ki, milli səviyyədə ərzaq təhlükəsizliyinin təminatı yalnız ölkənin özünü ərzaqla təminatını əhatə etmir. Bu öz növbəsində onu da nəzərdə tutur ki, ölkə daxili ehtiyacları ödəmək üçün zəruri miqdarda ərzaq məhsulları istehsal etməli, əgər müqayisəli üstünlüklər bu prosesə əngəl törədirsə, bu zaman zəruri miqdarda ərzaq məhsullarını xarici ölkələrdən idxal edilməlidir.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi amillərinə aşağıdakılar aid edilir:

– ölkədə ərzaq və qida məhsullarının istehsalının səviyyəsi;

– ərzaq və qida məhsullarının istehsalının iqtisadi məqsədəuyğunluğu;

– ərzaq və qida məhsullarının qiymətlərinin səviyyəsi;

– ərzaq və qida məhsulları keyfiyyətinin səviyyəsi;

– ölkə əhalisinin alıcılıq qabiliyyəti;

– əhalinin orta aylıq gəliri və əməkhaqqı;

– güzəştlər və müavinətlər.

Milli səviyyədə ərzaq təhlükəsizliyi öz növbəsində ev təsərrüfatlarının zəruri

məhsullarla təchizatı məsələlərini də özündə ehtiva etməlidir.

**Ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin mühüm hissəsi kimi**

Ərzaq və qida təhlükəsizliyi kifayət qədər geniş və çoxşaxəli mövzunu əhatə edir. Müxtəlif ölkələrin tarixi gösdərir ki bu məsələyə düzgün yanaşmama bir sıra mühüm problemlərə gətirib çıxarır. Hələ 2400 il əvvəl qədim yunan alimi ksenofont yazırdı: “kənd təsərrüfatı bütün digər sahələrin “anası”, “südverənidir”. Nə zaman ki, kənd təsərrüfatı gözəl idarə edilir, digər sahələr çiçəklənir. Nə zaman ki, kənd təsərrüfatına diqqət yetirilmir, onda digər sahələr də tənəzzül dövrlərini yaşayırlar”. Məlumdur ki əsas iqtisadi faktorlardan biri olan insan resurslarının prosesə davamlılığı onların zəruri ərzaq məhsulları ilə kəmiyyət və keyfiyyət baxımından düzgün təmin olunmasından asılıdır [2, s.93; 3, s.63-64]. Bu baxımdan əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması mühüm sosial-iqtisadi məsələdir, onun həlli ölkənin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Ərzaq məhsulları ticarəti dünya ticarətinin mühüm hissəsidir. Dünya bazarında ərzaq məhsullarının əsas ixracatçısı kimi qərbi avropanın sənayecə inkişaf etmiş ölkələri durur [9, s.19]. Onlar kənd təsərrüfatı məhsulları istehsalının 30%-nə sahib olmaqla dünya kənd təsərrüfatı məhsullarının təxminən 70%-154nin ixracatçısı və yalnız 40%-nin idxalçısı kimi çıxış edirlər.

Ölkənin ərzaq təhlükəsizliyi dedikdə əhalinin istehlak etdiyi ərzaq məhsullarının minimum 80%-in ölkə daxilində istehsal edilməsi deməkdir. Ötən əsrin 60-80-ci illərində sənayecə inkişaf etmiş ölkələrdə özünü təminetmə əmsalı 99%- dən 113%-ə qədər artdığı halda, inkişaf etməkdə olan ölkələrdə bu göstərici 103%-dən 98%-ə qədər azalmışdır. İnkişaf etməkdə olan regionların əksəriyyətində özünü təminetmə asiyadan fərqli olaraq (burada da əmsal 100%-dən aşağıdır) aşağı düşməkdə davam edir. Ərzaq məhsulları ilə özünü təminetmə şərqi avropa və mdb ölkələrində də aşağı düşmüşdür -müvafiq olaraq 99%-dən 94%-ə enmişdir [5, s.93].

Müasir dövrdə innovasiyaların tətbiqi ilə kənd təsərrüfatı sahəsində mühüm irəliləyişə nail olunmuşdur.lakin bir sıra ölkə və regionlarda bu problem hələdə davam etməkdədir. Bu problemin əsas səbəblərindən olan iqlim və təbii ehdiyat baxımından kasıb olan ölkələrdə bu sahənin inkişaf etdirilməsi çətin olur.belə regionlarda İnnovasiyaların tətbiqi ilə müəyyən nailiyyətlər əldə olunsada böyük həcmdə investisiya tələb etdiyindən və ya məhsuldarlığın aşağısı olması səbəbindən çox tərcih olunan məsələ deyildir. Bu baxımdan belə ölkələr idxal hesabına daxili tələbi ödəməyə çalışırlar.ərzaq məhsullarına tələbin ödənilməsindən əlavə olaraq onun əlyetərliliyidə əsas şərtlərdən biridir. Ərzaq məhsullarının qiymətinin yüksək olması əhalinin nisbətən orta və aşağı təbəqələrinin ərzaqa olan tələblərini ödəməkdə çətinik şəkməsinə səbəb olur.idxala əsaslanan ölkələrin qarşılaşdıqları əsas problemlərdən biridə infyasiyanın əsas göstəricilərindən olan ərzaq məhsullarının daxili bazarda qiymətlərinin dünya bazarında baş verən dəyişikliklərdən birbaşa aslı olmasıdır. 2021-ci ilin dekabrında dünya bazarlarında taxılın qiyməti son iki illə müqayisədə 45%-dən çox artıb. Misal olaraq dünyanın iki böyük taxıl ixracatçısı olan iki ülkənin rusiya-ukrania arasında olan müharibənin dünya bazarında taxıl qiymətlərinə olan təsirini misaal gösdərmək olar. Başqa məhsullarda olduğu kimi ərzaq məhsullarının qiymətlərində yaranan qeyri-sabitliyin aradan qaldırılması üçün də beynəlxalq əmtəə razılaşmaları, idxal-ixrac kvotaları, bufer ehtiyatları və digər mexanizmlər vasitəsilə təsir göstərirlər. İdxala əsaslanmanın digər bir mənfi tərəfi isə bu vasitənin sonradan siyasi alət kimi istifadə olunmasıdır.

FAO-nun təsnifatına görə, ərzaq təhlükəsizliyi o zaman mövcud olur ki, bütün insanlar hər zaman aktiv və sağlam həyat üçün ehdiyac duyduqları qidaya keyfiyyətli

sağlam və kifayət qədər əlyetərliliyə malik olsunlar [8, s.101-102].

Azərbaycanda ərzaq təhlükəsizliyinin təminat səviyyəsi daimi və dəyişən amillərdən də asılı olur. Ölkə prezidentinin rəhbərliyi altında aparılan islahatlar nəticəsində digər sahələrlə yanaşı ərzaq təhlükəsizliyi məsələsindədə müəyyən nailiyyətlər əldə olunmuşdur.azərbaycan respublikası prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə ərzaq və qida təhlükəsizliyinin davamlılığını təmin etmək üçün təyini olunann konkret məqsədlər buna misal gösdərilə bilər. Bu deyilənlərin məntiqi davamı olaraq ölkə prezidentinin 2017-ci il 13 noyabr tarixli sərəncamı ilə yaradılan azərbaycan respublikasının qida təhlükəsizliyi agentliyi (aqta) bu qəbildən olan məsələlər sırasındadır. Bu islahatların nəticəsində ölkəmizin ərzaqla özünü təminat səviyyəsi nisbətən yüksəlmişdir (cədvəl 1).

***Cədvəl 1***

**Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| Bitkiçilik məhsulları | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| Dənlilərin (çəltik istisna olmaqla) cəmi | 60.6 | 64.5 | 63.8 | 66.3 | 74.1 | 67.3 | 68,1 | 73.7 |
| Buğda | 54.1 | 54.8 | 52.9 | 58.1 | 64.8 | 57.2 | 57,1 | 61.5 |
| Arpa | 84.6 | 95.1 | 101.7 | 94.4 | 103.1 | 100.2 | 94,6 | 101.9 |
| Qarğıdalı | 56.7 | 54.1 | 71.1 | 70.7 | 82.7 | 80.0 | 86,6 | 93.6 |
| Vələmir | 62.2 | 93.1 | 85.7 | 90.1 | 89.2 | 90.9 | 86,6 | 88.5 |
| Sair növ dənlilər | 1.1 | 6.3 | 32.0 | 20.4 | 82.3 | 88.2 | 93,9 | 26.7 |
| Paxlalılar | 76.5 | 69.3 | 68.4 | 73.7 | 72.0 | 76.1 | 60,3 | 56.4 |
| Kartof | 89.7 | 89.1 | 85.5 | 89.2 | 90.8 | 87.8 | 90,6 | 88.8 |
| Bütün növ tərəvəz | 103.4 | 103.4 | 105.4 | 115.2 | 115.0 | 112.0 | 110,4 | 106.6 |
| Pomidor | 112.1 | 113.7 | 119.0 | 130.9 | 138.0 | 132.5 | 131,0 | 121.1 |
| Bostan məhsulları | 100.4 | 100.0 | 100.2 | 100.2 | 99.7 | 100.8 | 100,8 | 102.6 |
| Meyvə və giləmeyvə | 120.1 | 113.7 | 116.4 | 122.4 | 123.2 | 123.1 | 116,3 | 122.9 |
| Qoz və fındıq | 151.4 | 132.5 | 141.9 | 152.9 | 130.0 | 138.2 | 138,0 | 136.5 |
| Nar | 103.5 | 103.7 | 105.2 | 104.5 | 106.3 | 110.7 | 112,0 | 127.8 |
| Üzüm | 97.9 | 93.1 | 89.2 | 93.4 | 92.5 | 94.3 | 95,8 | 94.4 |

Mənbə: [Azərbaycan Dövlət Statistika Komitəsi. Statistik məcmuə. Bakı, 2022, -s.684]

Cədvəldən də göründüyü kimi, qlobal pandemiya dövründəki zəifləmə istisna olunmaqla ölkənin özünü ərzaqla təmin etmə qabiliyyəti artım tempi ilə davam etməkdədir. Ölkəmizdə ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsində artəma baxmayaraq hələdə müəyyən səviyyədə idxal prosesidə davam etməkdədir.ğlkəmizdə kənd təsərrüfatı və ərzaq məhsulları idxalı ortalama 2.1 milyard dollar təşkil edir. Bu baxımdan dünya bazarında baş verən dəyişikliklər ölkəmizdə ərzaq məhsulları qiymətinə öz təsirini gösdərir. FAO-nun

məlumatına görə, 2021-ci ildə dünyada ərzaq qiymətləri son 10 ildə ən yüksək səviyyəyə çatıb.

Ərzaq təhlükəsizliyi üzrə qlobal səviyyədə qiymətləndirmələrdə “economist ıntelligence unit” (eıu) tərəfindən aparılan araşdırmaların nəticəsində hazırlanmış qlobal ərzaq təhlükəsizliyi indeksi (qəti) (global food security index - gfsi) ilə hesablanır. Qlobal ərzaq təhlükəsizliyi indeksi 113 ölkədə ərzaq məhsullarının əlçatanlığı, mövcudluğu, keyfiyyəti və təhlükəsizliyi, təbii ehtiyatlar və davamlılıq məsələlərini nəzərdən keçirir. İndeks həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrdə ərzaq təhlükəsizliyinin əsas amillərini ölçən 58 unikal göstəricidən qurulmuş dinamik kəmiyyət və keyfiyyət müqayisəli modeldir. Gfsı konsepsiyası əsaasında ərzaq təhlükəsizliyi üçölçülü obyekt kimi araşdırılır. Buradakı üç ölçü - əlverişlilik-əhalinin ərzaq məhsulları üçün ödəmə qabiliyyəti. Qiymət dəyişiklikləri zamanı üzləşə biləcəkləri xərclər.müvcudluluq-ölkənin ərzaq istehsalı qabiliyyəti. Qıtlıq risklərinin idarə olunması. Keyfiyyət və təhlükəsizlik-keyfiyyətli ərzaq məhsulları ilə təminat və keyfiyyətə nəzarət. Təbii sərvətlər və davamlılıq -Ölkənin iqlim dəyişiklikləri təsirlərinə məruz qalmasını qiymətləndirir, təbii resurs risklərinə həssaslığını və ölkənin bu risklərə necə uyğunlaşdığını müəyyən edir (cədvəl 2).

***Cədvəl 2***

**Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin Azərbaycan üçün reytinqi, 2021-ci il**

| Qlobal reytinq | Ölkə | Ümumi qiymətləndirmə | Əlyetərlik | Mövcudluq | Keyfiyyət və təhlükəsizlik | Təbii sərvətlər və davamlılıq |
|---|---|---|---|---|---|---|
| 56 | Azərbaycan | 62,6 | 82,3 | 58,0 | 59,1 | 38,2 |

Mənbə:[7, s.169-174] əsasında tərtib edilmişdir

Azərbaycan 2018-ci ildə Ərzaq təhlükəsizliyi indeksində 113 ölkə üzrə 58,2 balla 56-cı yerdə qərar tutub. Asiya və Sakit okean hövzəsi ölkələri (23 ölkə) içərisində isə 9-cu yerdə qərarlaşıb. Bu indeks üzrə son 7 ildə (2012-2018) reytinqimiz 12,7 bal, 2017-ci ilə nisbətən isə 0,4 bal artıb. Həmçinin son 7 ildə 45,5 baldan 58,2 bala yüksəlib, reytinq cədvəlində 67-ci yerdən 56-cı yerə qalxıb. Ölkənin ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillər - ölkədə ərzaq məhsullarının istehsal səviyyəsi, ərzaq məhsullarının istehsalının iqtisadi cəhətdən sərfəliliyi, ərzaq məhsulların qiymətlərinin səviyyəsi, əhalinin alıcılıq qabiliyyəti, əhalinin gəlirləri və orta aylıq əmək haqqı səviyyəsi, dövlət tərəfindən aztəminatlı təbəqələrə verilən güzəştlər və müavinətlər, dövlətin ərzaq ehtiyatları və sairdir

**Nəticə**

Ümumiləşdirmələr apararaq qeyd etmək olar ki, ərzaq təhlükəsizliyi əhalinin tələbatının fizioloji qida normalarına uyğun olaraq ödənilməsini və dövlətin ərzaq ehtiyatlarının daha çox yerli istehsal hesabına çevik və səmərəli şəkildə formalaşdırılmasını özündə əks etdirir. Ərzaq təhlükəsizliyi mövcud imkanlar hesabına əhalinin fəal və sağlam həyat tərzi üçün zəruri həcmdə ərzaq məhsullarına olan tələbatını təmin etməyə imkan verir. Ərzaq təhlükəsizliyi fizioloji normalar və müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əhalinin əsas növ qida məhsullarına olan tələbatının yerli istehsal hesabına davamlı ödənilməsi üçün kompleks tədbirlər sistemini əhatə edir.

Ölkənin ərzaq təhlükəsizliyinə nail olmaq üçün ərzaqa əlyetərliyin təmin edilməsi ən mühüm məsələlərdən biridir. Bu zaman bazarda əhalinin istəklərinə uyğun növdə, həcmdə və keyfiyyətdə ərzaq məhsullarının mövcud olması və faktiki istehlak göstəricilərinin yüksəldilməsi təmin olunmalıdır. Ölkə əhalisinin ərzaqla təminatının yaxşılaşdırılması zamanı nəzərə alınmalı olan məqamlardan biri də əhalinin gəlirləri, istehlak xərcləri və onun tərkibində ərzaq xərclərinin xüsusi çəkisi ilə bağlı göstəricilərdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq bu sahədə vəziyyətin daha da yaxşılaşdırılması, əhalinin istehlak göstəricilərinin daha da yüksəldilməsi üçün fəaliyyət davam etdirilməlidir. Bu məqsədlə əsasən yerli istehsal potensialından maksimum istifadə edərək tələbatın ödənilməsi və əhalinin gəlirlərinin artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir ki, bu da son nəticədə əhalinin bütün dövrlərdə keyfiyyətli və ucuz ərzaq məhsullarına çıxışına şərait yaratmış olacaqdır. Həmçinin ölkə əhalisinin sağlamlığının təmin edilməsində sağlam qidalanma da mühüm əhəmiyyət kəsb edir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Бурдаков П.Т.,Сетгалиев Р.З. Россия в системе глобальной безопасности. Скт.-П., 2002.С.119-120.
2. Economic research service, u.s. Department of agriculture. Agricultural policy reform in theWto: the road ahead. Washington, d.c.: u.s. Department of agriculture, may 2001. P.93.
3. Economic research service, u.s. Department of agriculture. Agricultural policy reform in theWto: the road ahead. Washington, d.c.: u.s. Department of agricultural, may 2001. Pp. 63-64.
4. Muradov A. (2011). Ərzaq təhlükəsizliyinin təmin edilməsi insan inkişafının mühüm şərti kimi. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, AMEA-nın İqtisadiyyat İnstitutu, Bakı.
5. Экономические перспективы. Электронный журнал государственного департамента Обеспеченность продовольствием и безопасность продуктов питания. Том 7. № 2, май 2002 года. С. 93
6. “Qlobal ərzaq təhlükəsizliyi indeksində (mövcudluq subindeksi üzrə) Azərbaycanın mövqeyinin qiymətləndirilməsi və yaxşılaşdırılması yollarının araşdırılması” http://www.geostrategiya.az/news.php?İd=167Griffin keith and terry mckinley. 2000. “a new framework for development cooperation” Undp, new york, 2000, p.169-174.
7. FAO. Agricultural biotechnology for developing countries. 2001.rome, ıtaly. Pdf file. Pp.101-102.
8. Eldar Quliyev. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Kooperasiya Nəşriyyatı. Baki-2018, s. 19
9. Committee on a Framework for Assessing the Health, Environmental, and Social Effects of the Food System; Food and Nutrition Board; Board on Agriculture and Natural Resources; Institute of Medicine; National Research Council; Nesheim MC, Oria M, Yih PT, editors. A Framework for Assessing Effects of the Food System. Washington (DC): National Academies Press (US); 2015 Jun 17. 5, Social and Economic Effects of the U.S. Food System. Available from:
10. İsmət Abasov. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı –2013, s. 20
11. Uygun aksoy, ismet boz, həzi eynalov, yaqub quliyev. Azərbaycanda orqanik kənd təsərrüfatı. Hazırki durum və gələcək inkişaf potensialı. Bmt-nin ərzaq və kənd təsərrüfatı təşkilatı. Bakı, 2018, s. 7.

***Elektron mənbələr***
https://static.president.az/pdf/38542.pdf Www.fao.org
https://www.agro.gov.az/az

**Асиман Мансирли**

**ВОПРОСЫ БЕЗОПАСНОСТИ ПИЩЕВЫХ ПРОДУКТОВ**

***РЕЗЮМЕ***

Питание является одним из основных факторов, обеспечивающих устойчивость и здоровье жизнедеятельности людей. Хотя в удовлетворении других потребностей людей могут вводиться определенные отсрочки или ограничения, применение этого к спросу на продукты питания приводит к более серьезным последствиям. Поэтому удовлетворение основных потребностей людей в продуктах питания является главной целью для каждой страны. В современное время обеспечение населения продуктами питания (по количеству и качеству) стало одной из важнейших проблем человечества. Современная концепция продовольственной безопасности направлена на долгосрочное и надежное обеспечение населения продуктами питания.

В статье рассмотрен вопрос продовольственной безопасности как важного аспекта национальной и глобальной безопасности, а также затронуты последствия нарушения требований к факторам, определяющим ее обеспечение, и пути их решения.

***Цель:*** рассмотрение продовольственной безопасности как элемента национальной безопасности страны, определение ее социально-экономических эффектов и оценка уровня самообеспеченности продовольственными товарами Азербайджана.

***Методология:*** В работе использовался экономико-статистический и аналитический метод.

***Результат исследования:*** Определено, что хотя и достигнуты определенные достижения с применением инноваций в современное время, проблема продовольственной безопасности по-прежнему остается глобальной проблемой.
Хотя темпы роста оплаты продовольственными товарами отечественного производства в нашей стране достигнуты, они еще не достигли необходимого уровня.

***Ключевые слова:*** *экономическая безопасность, продовольственная безопасность*

**Asiman Mansirli**

**FOOD SAFETY ISSUES**

***SUMMARY***

Food is one of the main factors that ensure the sustainability and health of people's life activities. Although certain delays or restrictions can be imposed in meeting other needs of people, applying this to food demand leads to more serious consequences. Therefore, meeting the basic needs of people for food products is the main goal for every country. In modern times, providing the population with food (in terms of quantity and quality) has become one of the most important problems of humanity. The modern concept of food security is aimed at long-term and reliable supply of food products to the population.

The article considered the issue of food security as an important aspect of national and global security, and the consequences of violation of the requirements for the factors that determine its provision and their solutions were touched upon.

***Purpose:*** considering food security as an element of the country's national security, determining its socio-economic effects and assessing the level of self-sufficiency in food products

of Azerbaijan.

***Methodology:*** The economic-statistical and analysis method was used in the research work.

***The result of the research*****:** It was determined that although certain achievements have been achieved with the application of innovations in modern times, the problem of food security still remains as a global problem. The reason for this is the rapid increase in the world population, global climate changes, and the improper use of land and resources, as a result of which these resources become unusable. Although the growth rate of payment of food products from domestic production has been achieved in our country, it has not yet reached the required level.

***Keywords****: economic security, food security*

**Əlövsət Ağayev**
Bakı Avrasiya Universiteti, magistrant
*mandmc768@gmail.com*
*Elmi rəhbər:* prof. **Yadulla Həsənli**
Azərbaycan Dövlət İqtisad Universiteti

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAF PERSPEKTİVLƏRİ

*İşğaldan azad olunmuş ərzailərimizdə kənd təsərrüfatının bərpası və inkişafının təmin olunması hazırda qarşımızda duran əsas vəzifələrdəndir. Məqalədə erməni hərbi təcavüzü nəticəsində azərbaycanın işğal olunmuş ərzailərində ekoloji mühitə, xüsusilə də kənd təsərrüfatına vurulan ziyandan bəh edilmiş və onun bərpası istiqamətində dünya təcrübəsinə əsaslanan bərpa istiqamətləri və gözlənilən istehsal göstəriciləri proqnozlaşdırılmışdır. Eyni zamanda kənd təsərrüfatının inkişafı üçün torpaq ehtiyatlarının yararlılıq və keyfiyyət göstəriciləri müəyyən edilmiş və iqlim amillərinin xüsusiyyətləri, flora və fauna müxtəlifliyi araşdırılmışdır. Bununla yanaşı həmin ərazilərdə inkişafın təmin olunması məqsədilə həyata keçirilən tədbirlərdən və ayırılan investisiyalardan bəhs edilmişdir.*

***Məqsəd:*** işğaldan azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialının qiymətlənirilməsi və bərpası istiqamətində həyata keçirilən tədbirlərin müəyyən edilməsi.

***Metodologiya:*** tədqiqat işində iqtisadi-statistik və təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi:*** azad olunmuş ərazilərin təbii ehtiyatları qiymətləndirilmiş, inkişaf perspektivləri müəyyən edilmiş, bu ərzailərdə kənd təsərrüfatının bərpası yönündə görülən işlər və ölkənin ərzaq təhlükəsizliyinə təsiri müəyyən edilmişdir.

***Açar sözlər:*** *işğaldan azad olunmuş ərzailər, kənd təsərrüfatının bərpası, investisiya, torpaq*

## Giriş

Hazırda azərbaycan üçün ən həssas məsələlərdən biridə 1988-ci ildən işğal altında qalmış və 2020-27 sentyabr tarixində müzəffər ordumuz tərəfindən işğaldan azad olunmuş ərazilərimizdə barpa işlərininn həyata keçirilməsidir. Bunun üçün ın əsas məsələlərdən biridə erməni təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş 1 milyona yaxın məcburi köçkünlərin öz evlərinə qayıtmalarını təmin etmək Həmçinin bu ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın davamlı təmin edilməsi habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsidir. Belə ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, bütün sahələrdə quruculuq bərpa və abadlıq işlərinin aparılması məsələsi önə çıxır. Bu məqsədlə “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxs yaradılmışdır.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir [3]: “Bizim planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik”.

Qarabağ nəinki Azərbaycan Respublikasının, hətta bütövlükdə Qafqazın ən zəngin

fitocoğrafi regionlarından biridir. Qarabağ digər təbii sərvətləri ilə yanaşı flora və bitkiliyinın zənginliyi ilə də seçilir. Lakin mənfur düşmənin dağıdıcı fəaliyyəti nəticəsində yerli infrastruktura və xüsusəndə torpaq ehdiyyatlarına böyük ziyan vurulmuşdur.Bununla yanaşı, işğal altında olan torpaqlarımızın keyfiyyəti, tərkibi, kənd təsərrüfatı istehsalına yararlığı və digər məsələlər barədə də hələlik ortada geniş bir araşdırma yoxdur. Ona görə də bu istiqamətlərdə müvafiq araşdırmanın aparılmasını ən vacib məsələlərdən biri kimi zəruri hesab edirik

**Kənd təsərrüfatının ümumi inkişaf xarakteristikası**

Silahlı qarşıdurmalar nəticəsində torpaq və infrastrukturun pisləşməsi kənd təsərrüfaı istehsalının dayanması ərzaq təhlükəsizliyinə ciddi təsir edən mövzulardan biridir. Buna misal olaraq uzun müddətdir davam edən rusiya ukrania müharibəsi nəticəsində ukraniada taxıl istehsalının ciddi şəkildə aşağı düşməsini və bununda dünyada ərzaq məhsulları qiymətlərinə olan təsiri gösdərmək olar. Müharibələrin-münaqişələrin kənd təsərrüfatına mənfi təsirləri:

- torpaqların deqradasiyaya uğraması və milli bitki genetik resurslarının məhv olması;
- kənd təsərrüfatı texnikası və avadanlıqları sıradan çıxması, yararsız hala düşməsi;
- toxum istehsalı və tədarükü, habelə gübrə və s. istehsal vasitələri ilə təchizat sisteminin sıradan çıxması;
- kənd təsərrüfatı mütəxəssislərinin itirilməsi və ya aqrar fəaliyyətdən məcburən uzaqlaşması;
- məhsul və ərzaq anbarlarının məhv edilməsi və s.

İşğaldan azad olunan ərazilər Azərbaycan iqtisadiyyatında önəmli yer tutan iri kənd təsərrüfatı regionudur. Əlverişli torpaq-iqlim şəraitinə malik olması ərazidə kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin inkişafına geniş imkanlar yaradır. İşğala qədər burada kənd təsərrüfatının müxtəlif sahələri – taxılçılıq, üzümçülük, tütün-çülük, yemçilik, kartofçuluq, tərəvəzçilik, pambıqçılıq, heyvandarlıq daha geniş inkişaf etdirilirdi. Respublikada istehsal edilən taxılın 14,3%-i, üzümün 31,5%-i, ətin 14,5%-i, südün 17,1%-i, yunun 19,3%-i, baramanın 17%-i Yuxarı Qarabağın payına düşürdü. Həm də bu rayonlarda ekoloji cəhətdən təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirilirdi. Bu ərazilərdə üzümçülüyün və tütünçülüyün inkişafı çox qədim tarixə malikdir (3).

Erməni təcavüzü nəticəsində azərbaycanın 20% və ya 1670.3 hektar ərazisi işğal edilmişdir ki, bununda 680.8 min hektarı kənd təsərrüfatına yararlı torpaqlardır.

Respublikanin ümumi torpaq örtüyünün o cümlədən kənd təsərrüfatina yararli torpaqların keyfiyyətcə qiymətləndirilməsi zamanı aparılan tətqiqatlar nəticəsində məlum olmuşdur ki işğğaldan azad edilmiş torpaqlarin əksəriyyəti keyfiyyət xüsusiyyətlərinə görə digər ərzailərin torpaq örtüyünə nisbətdə daha münbit torpaqlardir. Torpaqların keyfiyyət qiymətləndirilməsi 100 ballıq sistemə uyğun olaraq 5 aqroistehsal qrupu üzrə aparılır:

I qrup (100-81 bal) – yüksək keyfiyyətli torpaqlar;

II qrup (80-61 bal) – yaxşı keyfiyyətli torpaqlar;

III qrup (60-41 bal) – orta keyfiyyətli torpaqlar;

IV qrup (40-21 bal) – aşağı keyfiyyətli torpaqlar;

V qrup (20-1 bal) – şərti yararsız torpaqlar (cədvəl 1).

İşğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqların 71,8%-i (489,0 min hektarı) I və II keyfiyyət qrupuna aid olan yüksək və yaxşı keyfiyyətli torpaqlardır.Müəyyən edilmişdir ki, respublikada I keyfiyyət qrupuna daxil olan torpaqların ən çoxu Yuxarı Qarabağ (16,8%) İqtisadi Rayonuna, ən az isə Abşeron İqtisadi Rayonuna (0,2%)

məxsusdur. Digər iqtisadi rayonlarda bu torpaqlar, məsələn Quba-Xaçmazda 13,4%, Lənkəranda 10,2%, gəncəqazaxda 9,0%, Şəki-Zaqatalada 7,7% təşkil edir.

***Cədvəl 1***

**Torpaqların keyfiyyət qiymətləndirilməsi**

| Torpaqların keyfiyyət (aqroistehsal) qrupları | Əkin və dinc | Çoxillik əkmələr | Biçənək | Örüş-otlaqlar | | | Həyətyanı (kənd təsərrü-fatına yararlı) | Kənd təsərrü-fatına yararlının cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | Kəndyanı örüşlər | Qış otlaqları | Yay otlaqları | | |
| I-qrup. Yüksək keyfiyyətli Torpaqlar | 68,3 | 8,9 | 13,2 | 65,4 | 23,1 | 80,9 | 5,6 | 265,4 |
| | 31,6 | 16,3 | 70,2 | 42,8 | 18,9 | 76,5 | 52,3 | 39,0 |
| | 25,7 | 3,4 | 5,0 | 24,6 | 8,7 | 30,5 | 2,1 | 100.0 |
| II-qrup. Yaxşı keyfiyyətli torpaqlar | 76,7 | 37,5 | 3,5 | 39,1 | 46,3 | 15,6 | 4,9 | 223,6 |
| | 35,6 | 68,6 | 18,6 | 25,6 | 37,9 | 14,7 | 45,8 | 32,8 |
| | 34,3 | 16,8 | 1,6 | 17,5 | 20,7 | 6,9 | 2,2 | 100,0 |
| III-qrup. Orta keyfiyyətli torpaqlar | 64,5 | 7,5 | 1,8 | 32,7 | 47,4 | 9,3 | 0,2 | 163,4 |
| | 29.9 | 13,7 | 9,6 | 21,4 | 38,7 | 8,8 | 1.9 | 24.0 |
| | 39.5 | 4.6 | 1,1 | 20,0 | 29,0 | 5,7 | 0,1 | 100,0 |
| IV-qrup. Aşağı keyfiyyətli Torpaqlar | 6,3 | 0,8 | 0,3 | 14,3 | 5,4 | -- | -- | 27,1 |
| | 2,9 | 1,4 | 1,6 | 9,4 | 4,4 | -- | -- | 4,0 |
| | 23,2 | 3,0 | 1,1 | 52,8 | 19.9 | -- | -- | 100,0 |
| V-qrup. Şərti yararsız torpaqlar | -- | -- | -- | 1,2 | 0,1 | -- | -- | 1,3 |
| | -- | -- | -- | 0,8 | 0,1 | -- | -- | 0,2 |
| | -- | -- | -- | 92,3 | 7,7 | -- | -- | 100,0 |
| **Cəmi** | **215,8** | **54,7** | **18,8** | **152,7** | **122,3** | **105,8** | **10,7** | **680,8** |
| | **100,0** | **100,0** | **100,0** | **100,0** | **100.0** | **100,0** | **100,0** | **100,0** |
| | **31,7** | **8,0** | **2,8** | **22,4** | **18,0** | **15,5** | **1,6** | **100.0** |

Mənbə : [5, s.1-4] əsasinda tərtib edilmişdir

Ümumilikdə aparılan qiymətləndirilmələr zamanı işğal altında qalmış ərazilərin kənd təsərrüfatının təkcə əkinçilik sahəsi üzrə dəyən ziyanın həcmi 44 milyard manat müəyyən edilmişdir.

Bilirik ki kənd təsərrüfatı məhsullarının istehsalında əsas faktorlardan biridə su ehdiyyatlarının olmasıdır.Azərbaycan su ehdiyyatları baxımından məhdud ölkələrdəndir. Yerüsdü su ehdiyyatlarının əsas hissəsini çay suları təşkil edir ki onunda illik həcmi 30.9 kub metrdir. Bu su ehdiyyatlarının yalnız 33% - I respublika ərazisində formalaşır qalan 67%-lik hissə isə qonşu dövlətlərin ərazisindən daxil olan çay suları hesabına formalaşır. Eyni zamanda bunuda qeyd edək ki ermənistan ərazisindən ölkəmizə daxil olan çaylar həddindən artıq çirkləndiyi üçün isdifadəyə yarasızdır. Bir tərəfdəndə ermənistan tərəfindən işğal altındaki ərazilərdə mühüm təsərrüfat əhəmiyyətinə malik bir çox göllər və çaylar böyük antropogen təsirlərə məruz qalmışdır. Bu da ölkəmizin kənd təsərrüfatının su təminatına ciddi problemlər yaradıb və bununla yanaşı regionda ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur.

İşğalda olan ərazilərdə ümumi həcmi 674 milyon kubmetrə bərabər olan 5 su

anbarından, 7296 hidrotexniki qurğudan, 62 su nasosu və suvarma aqreqatından, 36 müasir nasos stansiyasından, 26 suvarma sistemi və 18 ədəd suvarma sistemlərinin baş qurğularından ibarət 1203 kilometrlik irriqasiya infrastrukturu və su kommunikasiya sistemi tamam dağıdılıb məhv edilmişdir. Bunun nəticəsində hətta işğal altında olan ərazilərin hüdudlarından kənardakı 5 rayonda 120 min hektardan artıq torpaq sahəsi suvarılmadığına görə demək olar ki, təsərrüfat dövriyyəsindən çıxarılmışdır. Ümumilikdə isə 1 milyon hektardan artıq torpaq sahəsi, o cümlədən 127,7 min hektar suvarılan sahə, 34,6 min hektardan artıq üzüm və meyvə bağları yararsız hala düşdüyündən istehsal prosesinə cəlb edilməmişdir (6).

Torpaq və su ehdiyyatları ilə yanaşı kənd təsəsrrüfatı istehsalına təsir edən əsas faktorlardan biridə aqroiqlim xüsusiyyətləridir. Məlumdur ki kiçik qafqaz dağ sistemi və ona daxil olna ərazilər özünün iqlim müxtəlifliyi ilə seçilir və düzən ərazilərin iqliminədə təsir göstərir.

**Kənd təsərrüfatının əsas sahələri**

Yuxarı qarabaq iqtisadi rayonunun relyefi dağlıq və düzənlik ərazilərdən ibarətdir. Buraya daxil olan yeddi rayondan ən az üçü-Füzuli Ağdam Cəbrayıl rayonları taxılçılıq üçün əlverişli şəraitə malikdir. Kəlbəcər-Laçın iqtisadi rayonuna Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxildir. Dağlıq relyefdə yerləşən Kəlbəcər-Laçın iqtisadi rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. İqtisadi rayonun əksər hissəsində maldarlıq üstünlük təşkil etmişdir. Kəlbəcər-Laçın iqtisadi rayonunda ən böyük əraziyə sahib rayon Kəlbəcər rayonudur. Kəlbəcərdə maldarlıq, tütünçülük, qoyunçuluq və arıçılıq əsas yer tuturdu, yun, ət, süd, bal istehsal edilirdi [2]. Kəlbəcərlaçın iqtisadi rayonunun ikinci böyük rayonu olan Laçın rayonunda heyvandarlıq, meyvəçilik və taxılçılıq inkişaf etmişdir. Qubadlı rayonu Kəlbəcər-Laçın iqtisadi rayonunun tərkibinə daxildir, dağlıq və dağətəyi ərazidə yerləşir. Rayonun kənd təsərrüfatında taxılçılıq, tütünçülük, heyvandarlıq baramaçılıq və üzümçülük əsas yer tuturdu. Zəngilan rayonu da Kəlbəcər-Laçın iqtisadi rayonuna daxildir, relyefi orta və alçaq dağlıq ərazidən ibarətdir. Burada işğala qədər tütün taxıl və bostan məhsulları istehsal edilirdi, həmçinin heyvandarlıqla da məşğul olunurdu.

Işğaldan azad edilmiş ərazilərin 1980-ci il statiskitası nəzərə alınmaqla onların potensialı və inkişaf perspektivəli üzrə bir sıra proqnozlar verilmişdir (cədvəl 2).

***Cədvəl 2***

**İşğaldan azad edilmiş ərazilərin potensialı və inkişaf perspektivləri üzrə proqnozlar**

| | Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz, bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm | Cəmi sahə |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 48,500 | - | - | 2,100 | 400 | 1,700 | 2,300 | **55,000** |
| Ağdam* | 28,862 | 4,601 | - | 9,816 | 16,909 | 2,565 | 500 | **63,253** |
| Cəbrayıl | 10,400 | - | - | 300 | 7,300 | 800 | 1,200 | **20,000** |
| Füzuli* | 50,465 | 1,300 | - | 1,769 | 12,579 | 2,679 | 761 | **69,553** |
| Kəlbəcər | 900 | - | 200 | 200 | - | 500 | - | **1,800** |
| Qubadlı | 6,300 | - | 400 | 400 | 1,000 | 2,500 | 400 | **11,000** |
| Laçın | 2,300 | - | - | 200 | 1,000 | 500 | - | **4,000** |
| Zəngilan | 1,900 | - | 300 | 300 | 2,500 | 2,200 | 1,000 | **8,200** |
| **Cəmi sahə** | 149,627 | 5,901 | 900 | 15,085 | 41,688 | 13,443 | 6,161 | **232,805** |
| ***Ölkə üzrə cəmi sahəyə nisbəti, %*** | *12.8* | *5.8* | *22.5* | *9.6* | *10.6* | *6.0* | *27.9* | ***11.1*** |

**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi

**Problemin təhlili bərpa**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının bərpası və inkişafı istiqamətlərinin müəyyən olunması özündə bir neçə məsələnin nəzərə alınmasını tələb edir.belə ki bu ərazilərə dəyən zırr yalnız mühairə nəticəsində deyil eyni zamanda işğal dövründə bu ərazilərin kənd təsərrüfatı üçün qeyri düzgün şəkildə isdifadəsi düzgün suvarmama nəticəsində torpaqların deqradasiyası müşahidə olunmuşdur.ümumilikdə postkonflikt ərazilərdə kənd təsərrüfatının bərpası ilə əlaqədar regional ümumi ehdiyacları nəzərə almaqla dünya təcrübəsinə əsaslanan bərpa isdiqamətlərini bir sıra amillər üzrə quplaşdırmaq mümkündür; torpaq və su ediyyatlarından düzgün isdifadə planının hazırlanması bərpa tədbirlərinin görülməsi və torpaq islahatlarının aparılması onlara nəzarət; aqrotexniki xidmət toxum gübrə təchizatı bazasının yaradılması; aqro-emal müəssisələrinin yaradılması; heyvandarlıq fermalarının qurulması; məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması; kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması; informasiya-məsləhət xidmətinin təşkili; dövlət dəstəyi mexanizminin yaradılması.

Hazırda bu ərazilərin ümmumilikdə bərpası üçün mühüm investisiya ayırmaları və tədbirlər planları həyat leçirilməkdədir. son iki il ərzində həayat keçirilən tədbirlər innovasiyalrın tətbiqi yerli infrastrukturun qurulması ağıllı kənd layihələrinin tətbiqi ilə yeni yaşayış sahələrinin salınması bərpa işlərinin sürətli və düzgün qurulmasının nəticəsi kimi qiymətləndirilə bilər.

**Nəticə**

Qeyd olunan təbii ehdiyyatları və imkanları nəzərə alaraq deyə bilərik ki işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının bərpası ölkənin ərzaq təhlükəsizliyi məsələsinə müsbət təsir gösdərəcəkdir.

Eyni zamanda bu ərazilərə qaytarılan məcburi köçkünlərin məslkunlaşmasını və ərzaq məhsulları ilə təmin olunması məqsədilə aqrar sektorun inkişafı məsələsi əhəmiyyət daşıyır.qeyd edilən proseslərin həyata keçirilməsi və davamlı inkişafı üçün tədarük zəncirləri qurulmalı və infrastruktur formalaşdırılmalıdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Aliyev R.A. (1954). Saltwort semi-deserts of Azerbaijan and their feed value. Academy of Sciences Azerbaijan SSR., Baku, 130 p. (in Russian).
2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.
3. Asgarov A.M. (2011). The concept of Azerbaijan flora. Institute of Genetic Resources of the National Academy of Sciences Azerbaijan, Baku, 202 p. (in Azerbaijani).
4. Czerepanov S.K. (1995). Vascular plants of Russia and adjacent states (the former USSR). Russian ed. Peace and Family, S-t P, 992 p. (in Russian).
5. Azərbaycan Respublikasının kənd təsərrüfatına yaralı torpaq sahələrinin təbii-təsərrüfat yerləri üzrə bölgüsünə dair məlumat. Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı, 2020, 4 s
6. Grossheim A.A. (1936). Analysis of the Caucasus Flora. Azerbaijan branch of the Academy of Sciences USSR, Baku, V. 1, 257 p. (in Russian).
7. Azərbaycan Respublikasının kənd təsərrüfatına yaralı torpaq sahələrinin təbii-təsərrüfat yerıəri üzrə bölgüsünə dair məlumat. Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı, 2019, 4 s
8. Huseynova A.D., Efendiyeva Sh.M. (2020). The sappearance of the sinusia and the tier in the phytocoenosis of desert-saltwort vegetation of the Kur-Araz Lowland (Azerbaijan). Advances in Biology & Earth Sciences, vol. 5 (1), 19-31(in Russian).

9. Mamedova A.D. (1994). Cenopopulations of (Salsola dendroides Pall. And Salsola nodulosa (Moq.) Iljin) in desert phytocoenosis of Gobustan. Ph.D. Thesis, Baku, 24 p. (in Russian).
10. Melikov R.K., Huseynova A.D. (2004). Typology of the Kur-Araz lowland wilderness. Proceedings of the Institute of Botany NASA, Baku, 35, 279-282. (in Azerbaijani).
11. National Atlas of the Azerbaijan Republic. (2014). State Land and Mapping Committee, 443 p. (in Azerbaijani).
12. Prilipko L.I. (1970). Vegetation cover of Azerbaijan. Elm, Baku, 170 p. (in Russian).
13. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: “Elm”, 2007, 664 s.
14. https://haqqin.az/news/191956
15. https://1news.az/mobile/news/na-okkupirovannyh-territoriyah-azerbaydzhana-vyrubaetsyakrasnyy-dub
16. https://ru.oxu.az/society/433761


**Аловсат Агаев**
*Научный руководитель:* проф. **Ядулла Гасанли**

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ

***РЕЗЮМЕ***

Обеспечение восстановления и развития сельского хозяйства на наших территориях, освобожденных от оккупации, является одной из основных задач, стоящих перед нами в настоящий момент.В статье описывается ущерб, нанесенный экологической среде и особенно сельскому хозяйству на оккупированных территориях Азербайджана в результате военных действий Армении. Агрессии, и прогнозируются направления восстановления на основе мирового опыта и ожидаемых производственных показателей в направлении ее восстановления.При этом определены показатели пригодности и качества почвенных условий для развития сельского хозяйства, а также характеристики климата факторы, разнообразие флоры и фауны. При этом было упомянуто о реализованных мерах и выделенных инвестициях в целях обеспечения развития в этих сферах.

***Цель:*** определение мероприятий, реализуемых в направлении оценки и восстановления сельскохозяйственного потенциала территорий, освобожденных от оккупации.

***Методология:*** В работе использован экономико-статистический и аналитический метод.

***Результат исследования:*** оценены природные ресурсы высвобождаемых территорий, определены перспективы развития, определена работа, проделанная в направлении восстановления сельского хозяйства на этих территориях и влияние на продовольственную безопасность страны.

***Ключевые слова***: *освобожденные от оккупации земли,восстановление сельского хозяйства, инвестиции, земли*

**Alovsat Agayev**
*Scientific supervisor:* Dr. Professor **Yadulla Hasanli**

## PROSPECTS FOR THE DEVELOPMENT OF AGRICULTURE IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

***SUMMARY***

Ensuring the restoration and development of agriculture in our territories freed from occupation is one of the main tasks facing us at the moment. The article describes the damage

caused to the ecological environment and especially agriculture in the occupied territories of Azerbaijan as a result of Armenian military aggression, and the directions of restoration based on world experience and expected production indicators are predicted in the direction of its restoration. At the same time, the suitability and quality indicators of soil conditions for the development of agriculture were determined, and the characteristics of climate factors, flora and fauna diversity were investigated. At the same time, it was mentioned about the measures implemented and allocated investments in order to ensure development in these areas.

***Purpose:*** determination of the measures implemented in the direction of evaluation and restoration of the agricultural potential of the territories freed from occupation.

***Methodology:*** the economic-statistical and analysis method was used in the research work

***The result of the research:*** the natural resources of the freed areas were assessed, the development prospects were determined, the work done in the direction of the restoration of agriculture in these areas and the impact on the country's food security were determined.

***Key words*****:** *freed lands from occupation, restoration of agriculture, investment, land*

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktik jurnal

## № 2 (18), 2022

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 03.11.2022
Çapa imzalanıb: 19.12.2022
Format: $60x84^{1/8.}$ 20,5 ç.v.